Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

# Bakıxanovlar şöhrət zirvəsində

Tərtibçi:
**Həsən Cəbrayılov**

"Renessans-A"
Bakı – 2017

Ön sözün müəllifi:

**Rafael Hüseynov**
**Milli Məclisin Mədəniyyət**
**Komitəsinin sədri, akademik**

**Bakıxanovlar şöhrət zirvəsində**
Bakı, "Renessans-A" Nəşriyyat Evi, 2017, 272 səh.

ISBN 978-9952-21-042-2

B $\frac{4502020000}{09}$ 2017

© Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi, 2017

Xalqımızın dünya elminə bəxş etdiyi töhfələrlə fəxr etməyə haqqı var. Nəsirəddin Tusinin, Əbülhəsən Bəhmənyarın, Mirzə Fətəli Axundovun, Abbasqulu ağa Bakıxanovun və digər mütəfəkkirlərimizin adları dünya elminə yaxşı tanışdır.

**Ümummilli lider Heydər ƏLİYEV**

# Bakıxanov soyadı daşımağın şərəfi və məsuliyyəti

**Rafael Hüseynov**
Milli Məclisin Mədəniyyət
Komitəsinin sədri, akademik

Təməl əvvəldən belə qoyulub, onların mayası belə yoğrulub, başlanğıcdan dərsi, tərbiyəni belə alıblar ki, bu soyadı daşıyırsansa, sən ömrün boyu hər an fədakarlıqla millətin, yurdun xidmətində dayanmağa hazır olmalısan.

*Ey Qüdsi, ibrətlə bax bu gedişə,*
*Ağılla şüru et sən də hər işə.*
*Əqlə istinadın mənası çoxdur,*
*Bəxt üz döndərsə də, zərəri yoxdur.*
*Nakam yaşasa da şüurlu insan,*
*Yaxşıdır xoşbəxt bir nadan olmaqdan.*

Bakıxanovlar şəcərəsindən olanların əksərinin əzbər bildiyi və ömür boyu əməl etməyə səy göstərdiyi bu şeir-düstur, əslində, hər bir yurddaşımıza ünvanlanıb.

Bu sətirlərdəki həqiqəti Abbasqulu ağa Bakıxanov ilk növbədə öz övladlarına, öz nəslinin təmsilçilərinə tövsiyə edib, sonra da xalqın bütün balalarına.

Abbasqulu ağa xoşbəxt bir ömür yaşadı. Çünki ona, ən azı, özünün elə bu şeirində tövsiyə etdiyi və umduğu nadan olmamaq səadəti qismət idi.

Ömrü boyu oxudu, öyrəndi, dəfinələr kimi qiyməti zaman ötdükcə azalmayıb artan kitablar yazdı, yaratdıqlarıyla özünə abidələr yapdı.

Və həmin misraların ibrətindən nümunə götürən Bakıxanov nəslinə mənsub hər dəyərli övlad da həyatı uzunu hansı sahədə çalışdısa, başlıca amalı zəhmətsevərlik, biliksevərlik, usanmadan çalışmaq, faydalar verməyə can atmaq oldu.

Tərcümeyi-halını özündən yaxşı kim nağıl edə bilər ki! Bakıxanov ömür yolunun başlanğıcını belə təsvir edirdi: "Fağır mən – Mirzə Məhəmməd xan Sani (İkinci – R.H.) oğlu Abbasqulu Qüdsi hicri 1208-ci ildə, zilhiccə ayının 4-də, pəncşənbə günü, 1-ci saatda (miladi tarixlə 1794-cü il iyul ayının 3-də, cümə axşamı – R.H.) Bakının Əmirhacıyan kəndində anadan olmuşam.

Məni 7 yaşımdan oxumağa qoydular, lakin vəziyyətin qarışıqlığı və müharibələr nəticəsində olan dəyişikliklər məqsədə istənilən səviyyədə yetməyə mane oldu. 10 il ərzində farsca azacıq savaddan başqa bir şey qazanmadım. Bundan sonra Qubada 10 il ərəb dili və sair fənləri təhsil etməklə məşğul oldum. Vəsaitin azlığına, digər maneə və əngəllərə baxmayaraq, mən yenə bir qədər təhsil almağa müvəffəq olmuşdum. Bu zaman Qafqaz ordusu və vilayətlərinin fərman fərması (baş komandanı – R.H.) general Yermolov 1235 (1820)-ci ildə məni dəvət edib dövləti vəzifələrdə işə təyin etdi. Tiflisdə rus dili və yazısını öyrəndim.

…Vəzifə işlərilə əlaqədar bir çox ölkələri gəzdim.

Avropa ölkələrinin təcrübəli dövlət adamları, məşhur alimləri və bilici sənətkarları ilə görüşdüm, bir çox qəribə işlər və saysız təəccüblü əsərlər gördüm. Hər bir ölkədə, hər bir işdən bilik və təcrübəmi artırdım. Get-gedə cəhalətim azaldı".

Abbasqulu ağa demir ki, bu qədər oxuyandan, öyrənəndən, gəzib-dolaşandan, təcrübələr əldə edəndən sonra mən də alim oldum.

"Cəhalətim azaldı" deyir.

Və yalnız bundan sonra – cəhalətinin azaldığını dərk etmək mərtəbəsinə yetişincə başlayır başqalarını da cəhalət əsarətindən qurtarmaqçün kitablar yazmağa.

Abşeronda, Qubada, Azərbaycanın dörd bucağında Abbasqulu ağa Bakıxanovun adıyla bağlı yerlər, onun heykəli, büstləri var. Xatirəsinin əbədiləşdirildiyi məkanların hər birində Bakıxanov daim canlıdır.

Onun elmi və ədəbi yadigarları nəşr edilir, haqqında tədqiqatlar yazılır, şeirlərinə musiqilər bəstələnir.

Bakıxanov soraqlı bu əsərlərin hər birində o diridir, yenidən müasirimiz kimi bizimlə görüşə gəlir.

...Orta əsrlərdən üzü bəri Azərbaycan ziyalısının bir neçə üstün keyfiyyəti keçib gəlir ki, Abbasqulu ağa da onlara sahib idi. Çoxdillilik, çoxşaxəli savad, özünü yalnız Azərbaycanın deyil, bütöv Şərqin övladı və vətəndaşı saymaq duyğusu. Bu məziyyətlər Abbasqulu ağaya keçmiş şərəfli nəsillərin mirası kimi gəlib çatdı. Ancaq artıq XIX əsr idi, dünya başqalaşırdı, yeniləşirdi və bu başqalaşan, yeniləşən dünyanın doğurduğu yeni önəmli ziyalı keyfiyyətləri vardı ki, Abbasqulu ağa Bakıxanov onları da əxz etdi. Və bu təməl üzərində doğurduğu sanballı elmi və ədəbi incilərlə tariximizin ən nadir simalarından birinə çevrildi.

Abbasqulu ağa Bakıxanov yurdunu, xalqını, dilini sevən bir vətənpərvər idi. Amma çoxqanadlı bilikləri, Şərq və Qərb dillərinə bələdliyi ona bir mühüm mətləbi də anlatmışdı ki, Azərbaycan nə qədər sevimli olsa belə, dünya da var və Azərbaycan bu böyük dünyanın bir parçasıdır. Abbasqulu ağa milli xudbinlikdən, əyalətçilikdən uzaq idi, digər xalqların yaratdığı yaxşı olan, bəşəri olan sərvətlərə sayğısı böyük idi. Bircə göstərici – Varşavada böyük alim Kopernikə abidə ucaltmaq üçün vəsait toplananda o da həmin xeyir işə ilkinlərdən biri olaraq qoşulmuşdu.

Abbasqulu ağa şeirlərində "Qüdsi" təxəllüsünü işlədir. "Qüdsi" – yəni pak, müqəddəs.

Və onun ömür sapı vətənindən çox-çox uzaqlarda – qızmar ərəb səhralarında, Məkkə ziyarətindən geri qayıdarkən Mədinə yolunda qırıldı. 1846-cı ilin dekabrında Dəməşq karvanı ilə gedən Abbasqulu ağa bir neçə günə 6-7 min insanı tələf edən vəbanın qurbanlarından oldu. Onu Vadi-yi Fatimədə dəfn etdilər. Müsəlman inamı belə ölümü müqəddəs sayır. Amma əlbəttə ki, Bakıxanov kimi uca bir insanın müqəddəsliyinin əsl səbəbi onun harada dəfn edilməsində yox, bəxtinə düşmüş ömür möhləti içərisində nələr doğurmasındadır.

Bakıxanovun qüdsiyyətini onun özündən və bizim hər birimizdən çox yaşayacaq əsərləri, xalq naminə gördüyü unudulmaz işlər yaradır.

Qısa – 52 illik ömür yaşayıb, rus ordusunda polkovnik rütbəsinə qədər ucalmış və hətta bəzi soraqlara görə, general çininə də layiq görülmüş Abbasqulu ağa Bakıxanov tariximizdə bir hərbi xadim, diplomat kimi deyil, elm və mədəniyyət elçisi kimi daha artıq əbədiləşib. Bu gün Abbasqulu ağa Bakıxanovu anarkən onun hərbi hünərləri və siyasətçi uğurlarından deyil,

elmi və ədəbi şücaətindən söz açılır. Fəlsəfə, tarix, nücum, coğrafiya və başqa bir çox elmlərlə dərindən maraqlanmış Abbasqulu ağa Bakıxanov üz tutduğu bu bilik sahələrinin hər biriylə əlaqədar dəyərli əsərlər yadigar qoyub getmişdir. Ancaq bu zəngin bilik sahibinin elmi irsiylə yaxından tanış olandan sonra mühüm bir həqiqətlə də qarşılaşırıq – Abbasqulu ağa fəlsəfə ilə məşğul olanda da, əxlaqşünaslığın suallarını incələyəndə də, astronomiya, coğrafiya ilə bağlı kitablar yazanda da peşəkar astronom, filosof, coğrafiyaşünas… deyil, tarixçiydi: elm tarixçisi! Hətta tarixi əsərinin – bu sözün həm dolayı, həm birbaşa anlamında – "Gülüstan-i İrəm"in mütaliəsindən də bəlli olur ki, burada da o, peşəkar tarixçi deyil, tarixin tarixçəsini, xülasəsini oxuculara çatdırmaq istəyən bir elm tarixçisidir. "Gülüstan-i İrəm"lə əlaqədar bu son fikri ona görə yazmırıq ki, həmin kitabda ayrı-ayrı tarixi hadisələrin təsviri, izahı, dəqiq il, ay və günlərinin göstərilməsində yanlışlar var; Nuhun tufanı ilə Gülüstan bağlaşması arasındakı böyük zamanı bir kitab hüdudlarında şərh etmək istərkən büdrəmələrin, xətaların olması qaçılmazdır. Ancaq mətləbimiz özgədir – məhz məsələni bu cür qoyması – insanın yaranışından başlayıb XIX əsrə qədər gəlib çatması göstərir ki, Abbasqulu ağa Bakıxanov tarix mövzusuna onun hansısa müəyyən dövrünü götürüb dəqiqliklə qələmə alan bir peşəkar tarixçi kimi deyil, maarifçi məqsədlərlə – oxucuda Şirvan və Dağıstan xalqlarının bütöv tarixi haqqında ümumi təsəvvür yaratmaq istəyən elm tarixçisi kimi yanaşır.

Təbii ki, müxtəlif mövzulu, bir-birindən xeyli fərqli əsərlərin hər biri hansısa münasibətlə əlaqədar yazılmağa başlanmışdı. Lakin onların hamısının ortaq bir yazılış münasi-

bəti də vardı ki, bu da Bakıxanovun başlıca amalı olan xalqa xidmət etmək ehtirasından qaynaqlanırdı.

…Günlərin birində özünəmi lazım olur, ya kiminsə iltimasına görəmi – uşaqların təlimi üçün asan və anlaşılan bir dildə yazılmış kitab axtarır, tapa bilmir. Və başını bulayıb keçmir. Qərara alır ki, bu boşluğu da doldursun: "Bəzi işlənməkdə olan kitablar o qədər qarışıq-dolaşıq ibarələrlə yazılmışdır ki, müəllimlərin çoxu özləri onları dərk edə bilmirlər. Bəzi kitablar isə o qədər uzun və pərakəndədir ki, onları anlamaq xeyli çətindir.

…"Nəsayeh" adlı aydın və sadə anlaşılan müxtəsər bir kitab yazdım. Ümid edirəm ki, bu əsər uşaqlara faydalı olub onların tərbiyəsinə getdikcə daha artıq təsir etsin".

Belə öyüd verirdi Qüdsi: "Sənə tapşırılmayan işi görməyə çalışma. Çünki ondan xeyir görməzsən və öz işindən də geri qalarsan"; "Başqasına pislik etməyə çalışan bir adama yaxşılıq eləmə. Bu, pislərə yaxşılıq etmək, yaxşılara pislik etmək kimi bir şeydir"; "Hər mənsəbdə olsan, öz həddini bil ki, özünü olduğundan nə aşağı tut, nə də yuxarı"; "Bilmədiyin bir işi inkar etmə və bildiyin bir işin düzgünlüyünə də çox bel bağlama. Çünki bizim biliyimiz hələ həddən ziyadə az və ağlımız gücsüzdür"; "Ağıldan və elmdən daha yaxşı bir dövlət yoxdur. Çünki onlar həmişə səninlə olar və heç kəs onları sənin əlindən ala bilməz"; "Yaxşı əməldən iki dəfə zövq alarsan: birincisi, onu edəndə, ikincisi, onun əvəzi sənə çatanda"; "Öz qüvvət və istedadının dərəcəsində boynuna iş götür, nəinki nəfsin istədiyi qədər. Məlumdur ki, adam çox dalınca qoşduqda azdan da əli çıxar"…

Və bu sözlər heç vaxt köhnələn deyil. Bu kəlamlar aqil bir insanın həyatın bərkindən-boşundan çıxaraq əldə etdiyi inamlardır.

Bu zərbülməsəllər həyatda yalnız bir məqamda nəfsini ram edə bilməmiş müdrikin hikmətləridir – hər işdə könlünü tox tutmağı bacarmış bu dahi yalnız elmdən doymadı, həmişə sözə təşnə oldu.

…Ensiklopedistlərin və o sıradan son böyük ensiklopedistimiz Abbasqulu ağa Bakıxanovun yaradıcı olaraq özəlliklərindən biri də elmə valehliyi və valeh olduğu bilikləri insanlara da çatdırmaq həvəsi idi.

…Amerika haqqında çox oxumuşdu. Oxuduqlarından öyrəndikləri onu məftun etmişdi. Və növbəti dəfə düşünmüşdü ki, niyə mən bilənləri xalq bilməsin?

Qələmi götürmüşdü: "Amerika adlı ölkənin necə kəşf edilməsi və vəziyyəti bizlərdə naməlum qalıb, yalnız oranın adı bəllidir. Ona görə də bizim diyarın əhalisinin də Amerikanın vəziyyətindən xəbərdar olmaları üçün bu kitabı tərtib etdim". "Kəşf ül-qəraib"in müqəddiməsindəndir bu.

Abbasqulu ağa Bakıxanovun elmi və ədəbi irsinin dəyərini artıran, səviyyəsini yüksəldən mühüm bir məqam da var. O, çoxdilliydi – fars, ərəb dillərini və təbii ki, öz azəri türkcəsini gözəl bilirdi. Bu üç dildə şeir yazmasından savayı, mühüm olan cəhət onun Şərqin zəngin yazılı mənbələriylə maneəsiz, tərcüməçisiz – birbaşa rabitə yaratmaq imkanının olmasıdır. "Gülüstan-i İrəm"i, "Təhzib ül-əxlaq"ı, "Kəşf ül-qəraib"i, "Eyn əl-mizan"ı, "Qanun-i Qüdsi"ni, "Riyaz ül-Qüds"i, "Mişkat ül-ənvar"ı, "Əsrar ul-mələkut"u ortaya çıxarmaq üçün Abbasqulu ağa Bakıxanov fars, ərəb, türk dillərində yazılmış yüzlərlə qaynaqla tanış olmalıydı və hər üç

dili mükəmməl bilməsi sayəsində məhz belə də etmişdi. Ancaq bütün bunlar öz yerində, Abbasqulu ağa Bakıxanov həm də XIX əsrin adamı idi. Avropanın elm və mədəniyyət sahəsində öncül mövqeyə keçdiyi bu zamanda Abbasqulu ağanın bir üstünlüyü də onun ruscanı elə ana dilincə bilməsi, bu dil və həmin dilə çevrilmiş əsərlər vasitəsilə Avropa mənbələri ilə tanışlıq imkanına malik olması idi.

Dil bilgisinin açdığı meydan Abbasqulu ağa Bakıxanova müqayisə, mənbələri qarşılaşdırmaq, saf-çürük etmək şəraiti yaradırdı. Elə bütün bunların sayəsində o, yüzdən artıq Şərq və Qərb mənbəyindən istifadə edərək Azərbaycanda ilk dəfə tarixə dair tədqiqat biçimli əsər yazdı.

Azərbaycanlı Abbasqulu ağa Bakıxanovun "Gülüstan-i İrəm"i səlis, asudəcə anlaşılan fars dilində yazması da, sonra həmin əsəri ruscaya tərcümə etməsi də maraqlı göstəricilərdir və bu, şəxsiyyətin elminin səviyyəsinin yüksəkliyinə dəlalət edir.

*Arizu eylər könül dildar gəlsin, gəlmədi,*
*Zülfi kafir, gözləri xunxar gəlsin, gəlmədi.*
*Hər pərivəş cilve-yi hüsn eyləmiş, mən gözlədim,*
*Dilrübalər fövcünə sərdar gəlsin, gəlmədi.*
*Cana gəldim bivəfalar ülfətindən, istərəm,*
*Bir vəfa rəsmində sabit yar gəlsin, gəlmədi.*
*Dərdü möhnət keçdi həddən, bəs ki çəkdim intizar,*
*Gözlədim ol şux gülruxsar gəlsin, gəlmədi.*
*Ləhce-yi canpərvərindən şur salsın aləmə,*
*Əndəlib-i sahət-i gülzar gəlsin, gəlmədi.*
*İstədim, Qüdsi, deyim vəsf-i camalın dilbərin,*
*Kuşiş etdim zinət-i göftar gəlsin, gəlmədi.*

Dövrünün şeir dili ilə tutuşduranda Abbasqulu ağanın bu qəzəli yetərincə saya təsir bağışlayır. Amma nə qədər rəvan, anlaşıqlı, xalq deyiş tərzinə yaxın bir biçimdə qələmə alınsa da, hər halda Qüdsinin bu qəzəli də və əlimizdəki "Divan"ında yer alan bir çox başqa qəsidə, müxəmməs, məsnəvi, qitə, rübai, mənzum parça da bəlli klassik ənənənin yüzfaizli təsirindədir. Abbasqulu ağa şair babalarının ondan neçə əsr öncədən cızdığı çevrədən addım qırağa qoymur. Amma Qüdsinin təhsilini, tərbiyəsini, zövqünü, dünyagörüşünü, Qərb ədəbiyyatı və musiqisinə dərindən bələdliyini nəzərə alsaq, ehtimal etmək olar ki, o, bəlli çərçivələri sındıra da bilərdi.

Amma etməyib.

Dahi Puşkinin anası Nadejda Osipovna qızına növbəti məktublarından birində yazırdı: "Dünən Abbas bizdə Aleksandr, Sobolevski (A.Puşkinin dostu, alim-biblioqraf – R.H.) və qrafinya İveliçlə (Puşkinlərin qonşusu, savadlı bir xanım – R.H.) nahar etdi. Təbii ki, Lev də onlarla nahar edirdi. Sonra "kapitan", şair, Məhəmməd övladı və Sobolevski teatra getdilər. Müsəlman dostumuz orada Yer üzündəki balet hurilərinə tamaşa etməkdən ləzzət aldı".

Şübhə yox ki, Avropada olduğu müddətlərdə Abbasqulu ağa opera həzzini də dadırmış, rus və polyak şairlərini də, fransız poeziyasını da həvəslə oxuyurmuş, amma vətənə dönüncə yenə sabit sözəbaxanlıq və dəyişməz etibarla muğamın, xalq havacatının, dədə-baba şeirinin əyyam-i qədimdən var olan qalasına sığınırmış. Maraqlıdır ki, elmdə Qərb elm həyatında gözünə dəyən yenilikləri, gərəkli saydığı cəhətləri Şərqə tətbiq etməkçün ardıcıl səy etsə də, bu biri istiqamətdə Abbasqulu ağa axıradək ənənəçi olaraq qalıb.

Bu yöndə də təşəbbüslər etsəydi, nə gözəl olardı!

Bütün başqa səmtlərdə varlığında və qələmində avropalıyla asiyalını üzvi şəkildə qovuşduran Abbasqulu ağa şeir-sənət məsələlərində sonacan müsəlmançılığından əl çəkməyib.

Bəlkə onun geniş alim təfəkkürü qətiləşdirdiyi hansısa səbəblərə görə məhz bu yolu daha düzgün sayırmış?

Amma sonrakı zamanların artıq tamam başqa üstün ziyalıları və qələm adamlarının təşəbbüsləri, həmin mütərəqqi təşəbbüslərin sevimli nəticələri açıqca göstərdi ki, hər halda çəpərləri sındırmaq, calaqlar, peyvəndlər etmək faydalı bəhrələr doğururmuş.

Bu yolda Abbasqulu ağa da irəliləmiş olsaydı, yeniləşmə, müasirləşmə, dünyalaşma sarıdan bir neçə onil də qabağa düşmüş olardıq.

…Hələ sağlığında Abbasqulu ağa həm Azərbaycanda, həm Gürcüstanda camaat arasında da tanınan, sevilən bir kişi idi. Onun qəzəlləri, müxtəlif mənzumələri həm xanəndələrin, həm axund və dərvişlərin dilindən düşmürdü.

Polyak Mateuş Qralevski 1877-ci ildə Lvovda çapdan çıxmış "Qafqaz. 12 illik əsirliyin xatirələri" adlı kitabında yazırdı ki, "Abbasqulu ağa Ərdəbildə məscidə girir və axundun onun haqqında danışdığını eşidir: "İndi isə sizə cənnətməkan Abbasqulu ağanın məşhur sözlərini oxuyacağam".

Və sonra axund kitabı açıb şövqlə oradan parçaları qiraət etməyə başlayır. Oxunanlar dinləyənləri məftun edir və onları həyəcana gətirir.

Bunları görən şair ağlayır və onun ağlaması məsciddəkilərin diqqətini cəlb edir. Axund soruşur: "Ey müsafir, sən bizimlə birgə bu kitabdakı bilik qidası və nitq şəhdini dadmaq əvəzinə niyə ağlayırsan?

– Mən sevincdən ağlayıram. Siz bu kitabı tərif edirsiniz. Onu yazan mənəm…"

Hər bir insan üçün həyatda olmayacağı günlərdə necə xatırlanacağını, özündən sonrakıların ona necə qiymət verəcəklərini hansısa sehrlə görməkdən böyük nə səadət ola bilər!.. Amma belə bir qisməti hətta möcüzə şəklində belə ağla gətirmək çətindir. Tale Qüdsiyə bu xoşbəxtliyi də qismət etdi. Əkdiyi xeyirxahlıq toxumlarının, bütün böyük və savab işlərinin müqabilində ulu Tanrı ona elə sağkən sağ olmayacağı çağlardakı şərəfli qismətini, istiqbalını da əyan etdi.

Ərdəbildə baş verən hadisə sanki qaibdən nazil olan güzgüdə görünən gələcək idi…

Böyük Cavad xanın nəticəsi, ilk müstəqil cümhuriyyətimizdə xarici siyasətə başçılıq etmiş görkəmli ziyalımız Adil xan Ziyadxanov təxirsiz dövlət işlərilə yanaşı mənəvi yatırımız haqqında da daim düşünürdü və "Azərbaycan" ünvanlı əsərində Abbasqulu ağa Bakıxanov irsinin xalqa çatdırılması işindəki nigarançılığını gizlətmirdi: "Təəssüf olsun ki, mərhumun əsərləri bu çağacan təb olub çıxmayıbdır. Abbasqulu ağanın qohumlarından mərhum təbib Mustafa xan keçmişdə artıq bir şövq və həvəslə Abbasqulu ağanın əsərlərini yığıb təb etdirmək istəyibdi. Heyif olsun ki, o biçarəyə də əcəldən macal olmadı ki, həmin əsərləri meydana çıxarıb xəlqi də feyzləndirsin. İndi Abbasqulu ağanın nəvəsi və general Bakıxanov Hüseyn ağanın qızı Reyhanət xanım həmin əsərləri yığıb cəm eləməyə şüru etmişdir. Tez bir zamanda biçiz müsəlman şagirdlərinin nəfinə təb və nəşr etdirəcəkdir".

Bu sətirlər yazılanda yeni – XX əsr təzə başlanmışdı və artıq o əsr köhnəlib qaldı keçmişdə, XXI yüzil asta-asta yaşa

dolur. Abbasqulu ağa Bakıxanov və onun yaratdıqları isə əskiləşmədi, boyatlaşmadı. Bu gün bizə bir az da cəlbedici gəlir.

"Üç sandıq kitab göndərdim. Əlbəttə, əlf əlbəttə, onları yaxşı qoruyub saxlayın. Qoymayın nəm çəksin, siçan yesin".

Bu, Abbasqulu ağanın ailəsinə göndərdiyi məktublarındandır.

Kitaba bunca sevgi ilə, bunca canıyananlıqla yanaşan Abbasqulu ağa Bakıxanov özü də dəyərini itirməyəcək, əsrlər adlayacaq kitablar yaratdı.

Azərbaycan istiqlalı tarixində adı həmişə yaşayacaq Adil xan Ziyadxanov bunu da yazırdı ki, bakılılar fəxr edə bilərlər ki, Azərbaycanın paytaxtı olan Bakının Əmirhacıyan kəndində əsil və nəcib bir xanəvadədən Mirzə Məhəmməd xan oğlu Abbasqulu ağa dünyaya gəlmişdir.

Bu sözlərlə sonacan barışmaq çətindir.

Abbasqulu ağa ilə tək bakılılar yox, bütün Azərbaycan fəxr edə bilər və edir də.

Millətə başucalığı gətirən insanlardan biri kimi o, həmişə tarixin qızıl yarpaqlarında yaşayacaq.

…Abbasqulu ağa Bakıxanov haqqındakı söyləmələr də, nəslinin elçilərinin yaddaş-yaddaş keçirərək bugünə gətirib çıxardıqları xatirələr də anladır ki, o, Xəzəri çox sevirmiş. Bu sevgini Bakıxanovun Xəzərlə bağlı ən çeşidli araşdırmaları da təsdiqləyir. Və 1993-cü ildə Abbasqulu ağanın kötükcələri Xəzər Gəmiçiliyi İdarəsinin rəhbərliyinə gəmilərdən birinə Bakıxanovun adının verilməsi ilə əlaqədar xahiş məktubu tərtib etmək üçün mənə müraciət edəndə qələmi tərəddüdsüz götürdüm.

Və haçandır ki, o gəmi Xəzər sularında üzür.

…Xəzərdəki "Bakıxanov" gəmisi öz yerində, amma elm, mədəniyyət, mənəviyyat dənizimizdə də bir Abbasqulu ağa Bakıxanov gəmisi var ki, o, daim güvən yerimiz olacaq, ona həmişə ehtiyac duyacağıq, hər zaman onun görüşünə tələsəcəyik…

Məşhur "Əsrar ul-mələkut" əsərinin sonunda Abbasqulu ağa üzünü göylərə tutaraq dua edirdi: "Özünə xas olan Sifətlərlə yanaşı, yaratdıqlarının mahiyyəti ilə də dahilərin əqlini heyran edənə həmd olsun".

Gözümüzü göydən çəkib bu sözləri keçmişdəkiləri, indikiləri və gələcəkdəkiləri doğurduqlarıyla həmişə heyran qoymuş və qoyacaq Abbasqulu ağa Bakıxanov kimi qüdsiyyət dolu insanlara da yaraşdırsaq, haqq olar!

…XXI əsr asta-asta yaşa dolur.

Bu gün şərəfli Bakıxanovlar nəslinin ağsaqqalı dəyərli bəstəkarımız, Xalq artisti Tofiq Bakıxanovdur.

Onun qardaşı unudulmaz Məmmədrza Bakıxanovla da mən yaxın idim.

1980-90-cı illərdə Məmmədrza müəllimlə, 2000-ci illərdəsə Tofiq müəllimlə – təxminən hər həftə nəslin keçdiyi yol haqqında çox gerçəkləri yaddaşında daşıyan bu iki qiymətli şəxsiyyətlə saysız söhbətlərim olub və həmin davamlı ünsiyyətlərim mənə çox şey verib.

Əvvələn, bu şəcərə mənimçün çox doğmalaşıb.

Bu iki qardaşın doğruçu, dəqiq, təfərrüatlı xatirələrini dinlədikcə müxtəlif tarix kəsiklərində ömür sürsələr də, şəcərənin onlara qanla qismət olan diktəsinə əsasən amalları xalqa təmənnasız xidmət olmuş Abbasqulu aganı da, generallar Cəfərqulu ağa Bakıxanovu da, Həsən ağa Bakıxanovu da, Abdulla ağa Bakıxanovu da, Azərbaycan musiqi salnaməsinə

möhürlərini vurmuş Əhməd Bakıxanovu da, Məmmədxan Bakıxanovu da, Tələt Bakıxanovu da, ölkəmizin ziyalı həyatında seçkinlər cərgəsində olmuş xanımlar – Rəna, Nigar, Zivər, Afət Bakıxanovaları da sanki canlı olaraq seyr etmişəm.

Böyük, şanlı nəsillərin övladı olmaq bir tərəfdən şərəfdirsə, digər yandan məsuliyyətdir. Ağlın dünyanı dərk eləyəndən, şövkətli soyunu, üstün babalarını tanıyandan sonra sənin çiyinlərinə qeyri-iradi ağır yük də qonur. Adının yanında həyatın boyu daşıyacağın soyadın keşikçisi olmaq, bu şərafətli soyada layiq ömür sürmək vicdan borcuna çevrilir.

Bakıxanovlar nəslinin davamçılarının bir məziyyəti də daim bu olub ki, heç vaxt şöhrətli soyadın kölgəsində gizlənməyə, sayğılı soyadın açdığı imkanlardan yararlanmağa cəhd etməyiblər. Əksinə, çalışıblar ki, bu mötəbər soyadın ləyaqət sanbalını öz pak, xeyirli, nəcib əməlləriylə bir qədər də artırsınlar.

Onların bir başqa qəlbəyatan keyfiyyəti də təəssübkeşlikləridir.

Həm vətən, xalq adına, həm də soyad naminə təəssübkeşlik.

Yaşı səksəni adlamış, doxsanı haqlayan, bu sinnində də həyat eşqi ilə, yaradıcılıq həvəsi ilə dolu bəstəkar Tofiq Bakıxanov tez-tez müxtəlif xahişlərlə mənə də müraciət edir, başqa qapıları da döyür. Və diləklərinin, umacaqlarının biri də şəxsi deyil. Xahiş edir ki, hansısa yaddan çıxmış sənətkar haqqında yazı hazırlansın, xatirəsi anılsın, ildönümü keçirilsin, xidmətləri olmuş, ancaq indi xatırlanmayan hansısa yaradıcının bu gün də faydalı ola biləcək kitabları, notları yenidən nəşr edilsin. Həm də bütün bunları sadəcə xahiş etmir. İlk işi görən, ilk addımı atan, möhkəm hafizəsi ilə o şəxsiyyətlərlə müasir-

lərimiz arasında mötəbər körpüyə çevrilən də elə birinci özü olur. Lakin hərdən şəxsi xahişləri də olur. Lakin məgər Abbasqulu ağa Bakıxanovla bağlı hər hansı xeyirxah bir istəyin həyata keçirilməsinin təmənna olunması bu sözü deyənin Bakıxanov soyadı daşımasına görə şəxsi təvəqqe sayılmalıdırmı? Axı Abbasqulu ağa Bakıxanov da, qüdrətli Azərbaycan quruculuğunda can qoymuş digər adıbəlli Bakıxanovlar da təkcə bu nəslə məxsusdurlarmı? Onlar lap çoxdan vətəninkiləşiblər, millətinkiləşiblər!

Elə mən bu yazını başa çatdıranacan həmişə nigaran olan Tofiq Bakıxanov dəfələrlə zəng vurub, soruşub. Və mən də ürəyimdə buna çox sevinmişəm, fərəhlənmişəm ki, Abbasqulu ağa kimi zirvələrimizin, şanlı nəsillərin belə təəssübkeşi, qayğısına qalanı, canıyananı var.

Demək, qanı saf olanlar, yolu, məsləyi, əqidəsi, məramı dürüst olanlar birgədirlər, haqq yolunda çalışmalarında yenə əl-ələdirlər.

Elə bu kitabda da Bakıxanovlar yenidən qovuşublar.

Birgəlikləri ilə, bu kitabın səhfələrindən bir daha boylanan parlaq, gərəkli işləriylə yenə örnək göstərirlər, dərs verirlər.

Kaş bütün millətimiz də daim yurd naminə beləcə əl-ələ, ürək-ürəyə ola!



# Abbasqulu ağa
# Bakıxanov

**Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI**

2014-cü ildə Azərbaycan ictimai-mədəni fikir tarixinin görkəmli nümayəndəsi, böyük maarifçi, tanınmış alim və şair Abbasqulu ağa Bakıxanovun anadan olmasının 220 illiyi tamam olur.

Ensiklopedik biliyə və əhatəli dünyagörüşünə malik şəxsiyyət kimi Abbasqulu ağa Bakıxanov elmin, mədəniyyətin ən müxtəlif sahələrinə aid zəngin bir irs yaratmışdır. Xalqın həyatında əsaslı dəyişikliklərə yol açmış maarifçilik ideyalarının bərqərar olmasında onun mühüm xidmətləri vardır. Azərbaycanın tarixi keçmişinin müasir dünya elmi səviyyəsində yeni, sistemli tədqiqi mərhələsi Bakıxanovun adı ilə sıx bağlıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ictimai fikrin, elmin və mədəniyyətin inkişafına dəyərli töhfələr vermiş Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1.Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Abbasqulu ağa

Bakıxanovun 220 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 12 fevral 2014-cü il.**

## Tanınmış şəxslər Abbasqulu ağa Bakıxanov haqqında

“Bizim şairlərin bir neçəsi Krılovun təmsilini uşaqlar üçün tərcümə etmişdir, lakin onlardan heç kəs həmin təmsili Bakıxanov qədər gözəl, bədii, saf, ustalıqla tərcümə edə bilməmişdir. Bu gözəl, şairanə tərcümə bizim dərsliklərin bəzəyi ola bilər”.

**Firudin bəy Köçərli**

* * *

Abbasqulu ağa Bakıxanov Rusiya və Qərbi Avropa ilə mədəni yaxınlaşma uğrunda mübarizə aparan ilk Azərbaycan marifçisi olmuşdur.

**Aleksandr Makovelski,**
akademik

Abbasqulu ağa Bakıxanova görə mədəniyyət və maarif insan nəslinin bəzəyidir. O, Azərbaycan xalqının işıqlı gələcəyinə dərindən inanırdı.

**Heydər Hüseynov,**
akademik

* * *

Abbasqulu ağa Bakıxanov Azərbaycan maarifçiliyinin ilk nümayəndəsidir. XIX əsrin birinci yarısında yeni tarixi şəraitdə inkişafa başlayan müasir mədəniyyətimizin əsas banilərindəndir.

**Feyzulla Qasımzadə,**
akademik

* * *

Təkcə "Qanuni-Qüdsi" əsərinə görə mən A.Bakıxanovu Azərbaycanın birinci dilçisi hesab edirəm.

**Əbdüləzəl Dəmirçizadə,**
professor

* * *

Abbasqulu ağa Bakıxanov ensiklopedik zəkaya və yaradıcılığa malik olmuş, bizə zəngin irs qoyub getmişdir. O, insan təfəkkürünün müxtəlif sahələrinə aid doğma Azərbaycan, fars, ərəb və rus dillərində maraqlı əsərlər yazmış, xalqımız üçün misilsiz işlər görmüşdür.

**Fuad Qasımzadə,**
professor

* * *

Abbasqulu ağa Bakıxanov tarix, fəlsəfə, nücum, sərf-nəhv, ilahiyyat və etikaya aid qiymətli əsərlər müəllifi, fəal maarifçi, eyni zamanda klassik Azərbaycan poeziyasının bütün sirrlərinə bələd olan qüdrətli bir şair kimi tanınır.

**Məmmədağa Sultanov,**
professor

* * *

Abbasqulu ağa Bakıxanov orta əsrlərin son, yeni dövrün ilk mütəfəkkiri idi.

**Ənvər Əhmədov,**
professor, A.Bakıxanovun tədqiqatçısı

* * *

Görkəmli tarixçi, filoloq, şair və ensiklopedist alim Abbasqulu ağa Bakıxanov Azərbaycan elmi tarixşünaslığının banisidir.

Akademik Ziya Bünyadov Abbasqulu ağa Bakıxanov siyasi dünyagörüşlə elmi və ədəbi baxışları özündə üzvi şəkildə cəmləşdirən universal şəxsiyyətdir. O, fəaliyyət göstərdiyi və məşğul olduğu sahələrin hər birində yüksək professionallıq

göstərmişdir. Bir sənətkar kimi isə o, Azərbaycanda maarifçi-realist ədəbiyyatın əsas yaradıcılarındandır. Abbasqulu ağa Bakıxanov Azərbaycan realizminin inkişafı baxımından Molla Pənah Vaqiflə Mirzə Fətəli Axundov arasında möhkəm və etibarlı bir körpüdür.

**İsa Həbibbəyli,**
akademik

## Abbasqulu ağa Bakıxanovun həyatı

Bakıxanov Abbasqulu Mirzə Məhəmməd oğlu, Qüdsi 1794-cu il 21 iyunda Bakının Əmircan kəndində varlı bir ailədə anadan olmuşdur. Onun atası II Mirzə Məhəmmədxan Bakı xanları nəslindən, anası Sofiya xanım isə müsəlmanlığı qəbul etmiş gürcü qızı idi. Bakıxanov səkkiz yaşına qədər Bakıda yaşamış, uşaqlığının ilk dövrünü Abşeronun Əmircan, Maştağa, Balaxanı ildövrünü kəndlərində keçirmişdir. 1802-ci ildə atası xanlıq taxtı uğrunda vuruşmalarda öz əmisi oğlu Hüseynqulu xana məğlub olduğuna görə məcburiyyət qarşısında qalaraq Qubaya, vaxtı ilə dayısı Fətəli xanın ona bağışladığı Əmsar kəndinə köçməli olmuşdur. Abbasqulu ağa 1819-cu ilədək Əmsar kəndində yaşamış, yarımçıq qalan təhsilini davam etdirmişdir. Burada o, ərəb və fars dillərini mükəmməl öyrənmiş, bu dillərdə yazılmış xeyli ədəbiyyat oxumuşdur. Şərq dilləri ilə yanaşı ədəbiyyat, ilahiyyat və fəlsəfəni mükəmməl öyrənməyə səy göstərmişdir. 1819-cu ildə A.Bakıxanov Qafqazın o zamankı baş hakimi general A.Yermolovun dəvəti ilə Tiflisə gəlib Qafqaz Baş Hərbi İdarəsində şərq dilləri üzrə tərcüməçi vəzifəsinə qəbul olunmuş və 26 il bu vəzifədə çalışmışdır. Tiflis mühiti, Avropa və rus şair və ziyalıları ilə görüş onun dünyagörüşündə dərin iz buraxmışdır. Həmçinin, burada o A.S.Qriboyedovla tanış olmuşdur; hətta sonuncu öz əsərlərinin ilkin variantını A.Bakıxanova oxumuşdur. Həmin dövrdə Tiflsdə yaşamış alman şairi Fridrix Bodenştedt özünün "Şərqdə min bir gün" adlı əsərində onun yaradıcılığına yüksək

qiymət verir. A.Bakıxanov A.S.Qriboyedov, F.Bodenştedt, Fazil xan Seyda, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundzadə ilə dostluq etmişdir. O, 1827-ci ildə İranda olmuş, 1833-1834-cü illərdə Varşavada və Sankt-Peterburqda yaşamış, rus şairi A.S.Puşkinin ailəsi ilə tanış olmuşdur. 1835-ci ildə Qubaya qayıdaraq elmi və ədəbi yaradıcılığını davam etdirməklə yanaşı "Gülüstan" adlı ədəbi məclis yaratmışdır. Bir jurnalist kimi o, "Tiflisskiye vedomosti", "Zakavkazskiy vestnik", "Kavkaz" qəzetlərinin fəaliyyətində iştirak etmişdir. Ömrünün sonlarında o, Yaxın Şərqi səyahətə çıxmışdır. 1847-ci ildə Abbasqulu ağa Bakıxanov Məkkədən Mədinəyə gedərkən Vadiyi-Fatimə adlanan yerdə vəba xəstəliyinə tutulub, vəfat etmiş və həmin yerdə dəfn olunmuşdur. A. Bakıxanov çox cəhətli bədii və elmi yaradıcılığa malikdir. Bədii əsərləri arasında "Riyazül-Qüds", "Mişkatül-ənvar", "Qanuni-Qüdsi", "Kəşfül-Qəraib","Əsrarül-məlaküt", "Təhzibül-əxlaq", "Eynül-mizan", "Gülüstani-İrəm" kimi əsərləri, Varşavada olarkən yazdığı "Meraci-xəyal" ("Xəyalın uçuşu"),"Məclisi-firəng" ("Firəng məclisi") poemaları, təmsilləri ilə böyük şöhrət qazanmışdır. Abbasqulu ağa Bakıxanovun dil, coğrafiya, tarix, astronomiya, məntiq, psixologiya və s. elmlərə aid əsərləri onun ensiklopedik biliyə malik bir alim olduğunu göstərməkdədir.

**Mükafatları:**

III dərəcəli Müqəddəs Anna ordeni (1828)
IV dərəcəli Müqəddəs Vladimir ordeni (1828)
İmperator taclı II dərəcəli Müqəddəs Anna ordeni (1829)
III dərəcəli Müqəddəs Stanislav ordeni
İranın almaz və brilyantla bəzədilmiş I dərəcəli Günəş və Şir ordeni (1829).

# Abbasqulu ağa Bakıxanov haqqında məqalələr

## Abbasqulu ağa Bakıxanov: böyük alim, maarifçi, mütəfəkkir

Abbasqulu ağa Bakıxanovun həyat yolu Şərq dünyasının feodal ənənələri əsasında tərbiyələnmiş azərbaycanlı gəncin dövrün və mühitin təsiri ilə mütərəqqi dünyagörüşə malik kamil bir ziyalıya çevrilməsini nümayiş etdirir. Tariximizin ən qarışıq dövrlərindən birində - XVIII əsrin sonlarında dünyaya göz açan Abbasqulu ağa həyatının ilk illərindən zəmanənin ağırlığını hiss etmiş, daxili çəkişmələrin acısını dadmışdır. Orta əsrlər müsəlman Şərqinin, xüsusilə İranın mədəni ənənələrini qoruyan və bu ənənələrə riayət edən bir ailədə tərbiyələnən Abbasqulu ağa hələ Bakıda olarkən, 7 yaşında təhsilə başlasa da, “ardı-arası kəsilməyən həyəcan və müharibələr üzündən” Qubaya gedənəcən yalnız fars dilini öyrənə bilmişdi. Bu barədə öz qısa tərcümeyi-halında məlumat verən Abbasqulu ağa yazırdı: “Siyasi iğtişaşlar qurtardıqda, ailəmiz isə Qubaya köçdükdə mən 10 il müddətində ərəb dilini və müxtəlif elmləri öyrənməklə məşğul oldum. Vəsaitin çatışmazlığına və başqa maneələrə baxmayaraq, mən elmdə müəyyən ad qazana bildim. Onda, Qafqaz qoşunlarının baş rəisi general A.Yermolov 1235-ci ildə məni öz yanına qulluğa götürdü”.

Beləliklə, 1819-cu ilin dekabr ayının sonlarında Abbasqulu ağa o zaman bütün Cənubi Qafqazın inzibati-siyasi və mədəni mərkəzinə çevrilmiş Tiflis şəhərinə gedir. Şərq ilə Qərb dünyalarını özündə birləşdirən bu qədim şəhər özünəməxsus mühiti ilə 25 yaşlı gənci cəlb edir. Hələ Quba dövrü həyatında qoca Şərqin zəngin mədəniyyətini mənimsəmiş, ərəb və fars dillərini, müsəlman fəlsəfəsini, şəriət qayda-qanunlarını, o cümlədən müxtəlif dünyəvi elmləri mükəmməl öyrənmiş, şeir və elm sahəsində artıq ilk addımlarını atmış Abbasqulu ağa anasının vətəni olan Tiflisdə yeni bir aləm ilə üzləşir. O, Tiflisə gəldiyi vaxt artıq Azərbaycanın Gəncə, Qarabağ, Şəki, Lənkəran, Şamaxı, Bakı, Quba, Dərbənd xanlıqları rus qoşunları tərəfindən işğal edilmiş, Azərbaycan torpaqlarının Rusiyaya qatılmasının birinci mərhələsi tamamlanmışdı. Lakin Rusiya imperiyası Qafqazda daha da möhkəmlənmək üçün Azərbaycan torpaqlarının işğalını başa çatdırmalı idi. Abbasqulu ağanın Tiflisdəki fəaliyyətinin başlanğıcı Rusiya xarici siyasətinin bu dövrünə təsadüf edir. Tiflisə, çar qulluğuna gələn Abbasqulu ağa rus üsul-idarəsinə xidmət etməklə yanaşı, "həmvətənlərinin xeyrini" də unutmurdu. Məhz bu sahədə atdığı addımlar A.Bakıxanovun özünü və onun elmi-bədii irsini əsrdən-əsrə, nəsildən-nəslə çatdırmış, mədəniyyətimizin əhəmiyyətli bir parçası etmişdi. Tiflisdə, rus ordusu sıralarında ikiillik xidməti dövründə A.Bakıxanov hələ Qubada ikən öyrəndiyi rus dilini daha mükəmməl səviyyəyə çatdırmış və beləliklə, 1822-ci ilin ilk günlərindən Qafqazın baş hakimi A.Yermolovun dəftərxanasında mütərcimlik etməyə başlamışdır. Həyatının məhz bu dövründə o, rus və Avropa maarifçiliyi ilə tanış olmuş, 25 illik tərcüməçilik fəaliyyəti ərzində çar ordusunun mütərəqqi fikirli

zabitləri, eləcə də xidmət edən və ya buralarda sürgündə olan ziyalı ruslar və başqa millətlərdən olan adamlarla tanış olmuşdur. Bununla yanaşı, A.Bakıxanov Qafqazda, Qafqazdan kənarda və bir çox yerlərdə xidməti səfərlərdə olmuş, özünün tərcümeyi-halında yazdığı kimi, həm o yerləri gəzmiş, həm də həmin yerlərin elm adamları ilə görüşmüşdür. 1832-33-cü illərdə o, Qafqazın başqa yerlərində, Donda, Rusiyanın bir çox şəhərlərində, Polşada (Ləhistanda), Litvada və başqa yerlərdə olmuş, dövlət xadimləri, öz elmi və sənəti ilə tanınmış adamlarla görüşmüşdür. A.Bakıxanov yazırdı: "Mən ürək və əqlin marağına səbəb olan bir çox şeylər gördüm və onlardan faydalanmağa çalışdım. İnsan əməllərini izlədikcə mən əmin oldum ki, Yer üzündə sarsılmaz heç bir şey yoxdur, var-dövlət və hakimiyyət fanidir, şəxsi məziyyətlərin olmasa, qərib ölkədə əsil-nəcabət heç nədir, öz ölkəndə isə xəcalətə səbəb olur və yalnız zehni məhsullarda elm bizə Yer üzündə xoşbəxtlik gətirə bilər və bizi öləndən sonra da yaşadar".

Elmə bu tükənməz həvəs hələ ilk gəncliyindən maarifçilik yoluna düşən A.Bakıxanovun özünü elmin müxtəlif sahələrində sınamasına, bədii əsərlərlə yanaşı, tarixə, coğrafiyaya, fəlsəfəyə, astronomiyaya, dinə dair əsərlər yazmasına səbəb olmuşdur. Özünün tərcümeyi-halında elmə olan marağını xüsusi qeyd edən A.Bakıxanov əsərlərinin aşağıdakı siyahısını təqdim etmişdir: "Birinci – "Kitabi riyadi-zül-Quds" ("Müqəddəs gülşənlər kitabı") türk dilində 14 fəsildədir, burada mən İslamın 14 əsas müqəddəs şəxsiyyətinin həyatı haqqında qısa, imam Hüseyn ibn Əli və onun ölümü münasibətilə hər il 10 gün müddətində keçirilən Məhərrəm mərasimi haqqında ətraflı məlumat vermişəm. İkinci – "Qanuni -Qüdsi" ("Qüdsi qa-

nunu") üç fəsildə yazılmış fars dili sərfi-nəhvi (qrammatikası). Mən bu qrammatikanı rus dilinə tərcümə edib, imperator həzrətlərinin ali əmri ilə Tiflisdə dərc etdirmişəm. Üçüncü - "Kəşful-qəraib" ("Qəribə şeylərin kəşfi") fars dilindədir, iki hissədə Amerikanın kəşfini və vəziyyətini əks edir. Dördüncü - "Təhzibul-əxlaq" ("Əxlaqın tərbiyəsi") fars dilində müqəddəs kitabların, eləcə də yunan, ərəb və Avropa filosoflarının əsərlərinin öyrənilməsinə əsaslanan mənəvi fəlsəfəni girişdə, iki fəsildə və nəticədə izah edir.  Beşinci –"Eynül-mizan" ("Tərəzinin gözü") ərəb dilindədir, giriş, iki fəsil və nəticədən ibarətdir, məntiqi və sxolastikanı izah edir. Altıncı – "Əsrarul-məlakut" ("Kainatın sirləri") fars və ərəb dillərindəndir. Bu kitabda qədim astronomların, xüsusilə, Ptolomey və Kopernikin sistemləri müqayisə edilir. Sonuncunun düzgünlüyü riyazi hesablama və astronomik müşahidələrdən başqa Quran kəlamları və Məhəmməd peyğəmbərin (s.) hədisləri ilə təsdiq olunur. Yeddinci – "Coğrafiya" fars dilindəndir. Mənim Qafqazın Şərq hissəsinin tarixinə dair tədqiqatlarım başa çatmadığı üçün yarımçıqdır. Səkkizinci – "Mişkatül-ənvar" ("Nurlar taxçası") fars dilində əxlaqi poemadır. Doqquzuncu – "Ərəb, fars, türk dillərində xırda şeirlərdir".

A.Bakıxanovun özünün tərtib etdiyi bu siyahıya müəllifin 1833-34-cü illərdə Varşavada olarkən fars dilində yazdığı "Meraci-xəyal", "Məclisi-firəng" poemalarını, 1836-cı ildə Azərbaycan türkcəsində tərtib etdiyi "Kitabi-nəsaih" ("Nəsihətnamə") əsərini, 1841-ci ildə fars dilində yazdığı "Miratül-camal" ("Gözəllik güzgüsü") adlı şeir kitabını, yaradıcılığının ilk dövründə yazılmış "Kitabi-Əsgəriyyə" ("Əsgər haqqında kitab") hekayəsini, ərəb dilində yazdığı "Hədis-i Qüdsi" əsərini,

eləcə də müxtəlif illərdə yazdığı şeirlərini və şeir "Divan"ını, tərcümə əsərlərini əlavə etmək lazımdır. XIX əsrin 20-ci illərinin sonlarında Abbasqulu ağanın yaradıcılığında dönüş baş verir. Bu vaxtadək əsasən bədii yaradıcılıqla məşğul olan və bu sahədə böyük uğurlar qazanan görkəmli alim elmi axtarışlara başlayır. Buna təkan verən əsas amillərdən biri də A.Bakıxanovun xidməti ezamiyyətlər zamanı rus ordusunun işğalına məruz qalmış Ərdəbil, Ərzurum, Bayazit, Axalsıx və başqa yerlərdəki kitabxanalardan hərbi qənimət kimi əldə edilmiş qiymətli əlyazmalardan istifadə edə bilməsidir. Şərqə daha yaxşı bələd olmaq və bu məqsədlə Peterburq və Moskvada təşkil edilmiş müvafiq elmi-tədqiqat və tədris mərkəzlərində yaradılmış kitabxanaları zəngin Şərq ədəbiyyatı ilə təchiz etmək üçün çar hökuməti döyüşən orduda xidmət edən bəzi zabitlərinə Şərq dillərində yazılmış nadir kitab və əlyazmalarını axtarıb tapmaq əmrini vermişdi. Belə tapşırıq alan zabitlərdən biri də Abbasqulu ağa idi. Hələ 1827-ci ildə Ərdəbili tutan çar generalı P.Suxtelen o dövrdə İranın ən zəngin kitabxanalarından olan Səfəvilər xanədanına mənsub kitab xəzinəsini ələ keçirmiş, bu kitabxanadan 166 əlyazmanı Tiflisə göndərmişdi. Abbasqulu ağa əsasən fars dilində yazılmış tarixi və bədii əsərlərdən ibarət qiymətli əlyazmalarla məhz bu şəhərdə tanış olmuşdu. 1828-ci ilin payızında rus ordusu Axalsıxı, 1829-cu ildə isə Ərzurumu və Bayaziti tutduğu zaman əldə edilmiş kitabların siyahısını tərtib edən Abbasqulu ağa həmin kitabların həm tədris, həm tədqiqat üçün böyük əhəmiyyət daşıdığını qeyd edir. O, Axalsıxın Əhmədi (Əhməd paşa) məscidi nəzdindəki mədrəsənin kitabxanasına mənsub, əksəriyyəti ərəb dilində yazılmış 148 əlyazmasının və iki nadir Quranın rus və

ərəb dillərində 14 səhifəlik siyahısını tərtib etmiş, bunların içərisində qrammatikaya, fəlsəfəyə, şəriətə, tarixə, astronomiyaya, riyaziyyata dair tədris vəsaiti kimi istifadə edilə biləcək əsərləri xüsusi vurğulamışdı. Abbasqulu ağa Ərzurum və Bayazitdə həm pulla, həm də qənimət yolu ilə əldə edilmiş 45 əlyazmanın siyahısını da tərtib etmişdir. Bu siyahıda Nizami Gəncəvinin "İsgəndərnamə" əsəri, Caminin şeir topluları, Sədinin "Gülüstan" və "Bustan" poemalarının müxtəlif nüsxələri və onlara yazılmış şərhlər, İbn Xəlliqanın ərəb dilində A.Bakıxanovun özünün də "çox nadir kitab" kimi qiymətləndirdiyi tarixi, Əlişir Nəvainin "Tarixi-Muluk"u, VIII əsr ərəb tarixçisi əl-Vakidinin ərəb işğallarına və İslam dininin yayılmasına həsr edilmiş tarix əsərinin I-VI hissələrinin ərəbcədən türkcəyə tərcüməsi, Umar ibn əl-Vardinin nadir coğrafi əsəri, Zəkəriyyə əl-Qəzvininin məşhur "Əcaib əl-Məxluqat"ı, türk dövlətinin tarixinə həsr edilmiş "Tarixi-Peçəvi" əsəri, "Dərbəndnamə"nin Azərbaycan dilində yazılmış hicri 1099-cu ilə (1687-88) aid edilən əlyazması və bu əsərin digər nüsxələri, İsgəndər Münşinin "Tarixi-Cahanara" əsəri, Teymurləngin, Nadir şahın dövrlərini əks etdirən tarixi əsərlərin, eləcə də ərəb və fars dillərində bugünkü gündə də əhəmiyyətini itirməmiş lüğətlərin və başqa qiymətli əlyazmaların adları vardır. Xidməti istifadə üçün tərtib edilmiş bu siyahılar hələ A.Bakıxanovun özünün sağlığında mətbuatda geniş işıqlandırılmış, elmi dairələrdə böyük marağa səbəb olmuşdu. Axalsıx kitabxanası əlyazmalarının siyahısı "Tiflisskiye vedomosti" qəzetinin 16 oktyabr 1827-ci il nömrəsində, Ərzurum və Bayazit kitabxanalarından gətirilmiş kitabların siyahısı isə 15 noyabr 1829-cu il nömrəsində dərc edilmişdi. Qəzet yazırdı ki, "Şərq dilləri

bilicilərinin əmin etdikləri kimi, əksəriyyəti olduqca nadir və məzmunca maraqlı olan bu 45 kitab və əlyazmalar yaxın zamanlarda Sankt-Peterburqa göndəriləcək". Mövcud ədəbiyyata görə, Ərdəbil, Axalsıx, Bayazit, Ərzurum və başqa yerlərdən əldə edilmiş qiymətli kitablar çarın əmri ilə, doğrudan da, Sankt-Peterburqa, imperator kitabxanasına göndərilmişdi. Əlyazmaların imperator kitabxanasına göndəriləcəyindən xəbər tutan A.S.Qriboyedov general İ.V.Paskeviçə yazırdı: "... Lütf edib, onları (əlyazmaları - N.V.) imperator kitabxanasına göndərməyin, belə ki, orada, demək olar, heç kəsin savadı yoxdur; onları Elmlər Akademiyasına göndərin, oranın professorları Fren və Sinkovski (məşhur şərqşünaslardır – N.V.) həmin əlyazmalardan elm aləmi üçün xeyir əldə edə bilərlər". Bu qiymətli əlyazmalarla tanışlıqdan sonra Abbasqulu ağa özü də elm aləmində yeni, daha əhəmiyyətli addımlar atır. Elə həmin il Azərbaycan və fars dillərində yazılmış "Dərbəndnamə"lərin bir neçə nüsxəsini müqayisə edərək, əsərin rus dilinə tərcüməsini hazırlayır və onun iki parçasını "Tiflisskiye vedomosti" qəzetinin 8 noyabr 1829-cu il nömrəsində dərc etdirir. Qəzetin təqdimatında deyilirdi: "Bu, Şərq əlyazmalarının rus dilinə çevrilməsinin ilk sınağı olacaq. Yaxşı olardı ki, bu iş qeyrətli şəxsləri təqlidə həvəsləndirsin və nəticədə biz rus dilində Zaqafqaziya diyarı və Rusiyaya dair Şərq hekayətlərinin tam toplusunu görə bilək..." Əlbəttə, bu mühim işi həyata keçirmək üçün Şərq dillərini, o cümlədən fars dilini mükəmməl bilən mütəxəssislər lazım idi. A.Bakıxanovun bu sahədə gördüyü iş dördillik zəhmətin bəhrəsi olan "Fars dilinin qısa qrammatikası"nın 1829-cu ildə başa çatdırılması oldu. "Qanuni-Qüdsi" adlandırılan bu əsər Rusiyanın yüksək dairələrinin

marağına səbəb olmuş, imperator I Nikolayın göstərişi ilə onun müəllifi "1500 manat dəyərində brilyant üzüklə" mükafatlandırılmış, bu "elmi kitabın" Peterburqda dövlət hesabına 500 nüsxə çap edilməsi nəzərdə tutulmuş, "gənc rusiyalıların fars dilini daha asanlıqla öyrənməsi üçün" rus dilinə tərcüməsi tövsiyə edilmişdi. Bütün bunlara baxmayaraq, əsər çox böyük çətinliklərlə işıq üzü görmüş, onun rus dilinə tərcüməsi yalnız 1841-ci ildə Tiflisdə çapdan çıxmışdır.

XIX əsrin 30-cu illəri artıq öz elmi axtarışlarında xeyli püxtələşmiş, Şərq və Qərb ədəbiyyatını dövrün nailiyyətləri səviyyəsində mənimsəyə bilmiş Abbasqulu ağa üçün elmi yaradıcılıq fəaliyyətinin ən məhsuldar dövrü oldu. Məhz bu dövrdə, özünün qeyd etdiyi kimi, "Avropa, yəni Frank və Roma (fransız və italyan – N.V.) kitablarından" istifadə edən, elmi axtarış və öyrənmə yolu ilə gedən, "bir neçə ay tarixə və coğrafiyaya dair kitabları tədqiq və tərcümə edən" A.Bakıxanov Amerikanın kəşfinə həsr etdiyi "Kəşfül-qəraib" əsərini yazıb. Qələmə aldığı bu əsəri ilə Abbasqulu ağa dövrün şərqli oxucusunu Qərb dünyasının, ona o zaman məlum olmayan nailiyyətləri ilə tanış etməklə yanaşı "dünyada başlıca həyati tələbatın... məhz insanlar arasında yaradılan əlaqə və qarşılıqlı münasibətlər" olduğunu təlqin edir.

Klassik Şərq mədəniyyətinin zəngin ənənlərinə əsaslanan A.Bakıxanov mütərəqqi Avropa və rus mədəniyyətlərinin təsiri ilə xalqın maariflənməsi və qabaqcıl dünya xalqları içərisində layiqli yer tutması üçün əlindən gələni etməyə çalışırdı. Bu sahədə gördüyü mühüm işlərdən biri də 1832-ci ilin 20 fevralında Zaqafqaziya diyarının baş rəisi baron V.Rozenə yeni tipli (üsuli-cədid) müsəlman məktəbinin təsis edilməsi haq-

qında təqdim etdiyi layihədir. A.Bakıxanov Qərbin Şərqə nisbətən irəli getməsinin əsas səbəbini xalqın savadlanmasında görürdü. "Dərin kök salmış xurafatın asiyalıların təsəvvürünə hakim kəsildiyini" vurğulayan müəllif yazırdı: "Onlar (yəni asiyalılar) başa düşmürlər ki, avropalılara dünyanın başqa qitələrində yaşayanlara nisbətən üstünlüyü maarif verir, ancaq belə güman edirlər ki, təsadüf və ya tale Avropanı yüksəltmiş, ona şəksiz birinciliyi qazandıran güc və qüdrəti vermişdir". Bu təsəvvürə qarşı etiraz səsini ucaldan, "öz həmvətənlərinin acınacaqlı halını hüznlə seyr edən" Abbasqulu ağa maarifə doğru ilk addımı məktəb təsis edilməsində görürdü. Özünün nəzarət edəcəyi bu məktəbin əlverişli mövqeyinə görə Bakıda açılmasını tövsiyə edən böyük maarifçi məktəbin üçsinifli olmasını, burada iki müsəlman (azərbaycanlı) və bir rus müəlliminin işləyəcəyini, müsəlman müəlliminin birinci sinifdə əlifbanı, duaları, eləcə də fars və Azərbaycan dillərində müxtəlif rəvayətləri, ikinci-üçüncü siniflərdə yazını və fars qrammatikasını öyrədəcəyini, bu dili mükəmməlləşdirmək üçün müxtəlif inşalar yazdıracağını nəzərdə tuturdu. Rus müəllimi isə birinci sinifdə əlifbanı, lüğəti, danışığı və yazını, ikinci sinifdə hesabı, qrammatikanı və bəlağət elmini, üçüncü sinifdə coğrafiya və tarixi öyrətməlidir. Layihəyə görə, üçillik tədrisi başa çatdıranlardan bir qismi işləyə və ya təsərrüfatları ilə məşğul ola bilər, başqa qismi Tiflis gimnaziyasında və ya Rusiyada təhsilini davam etdirər, daha başqaları isə həmin məktəbin dördüncü sinfində qalaraq, ərəb dilini və digər elmləri öyrənə bilərlər. A.Bakıxanov bu məqsədlə özünün zəngin kitabxanasını şagirdlərin istifadəsinə verəcəyini bildirirdi. On bir maddəlik layihədə şagirdlərin sayı, məktəbə qəbul yaşı, gey-

imi, yeməyi, yatacağı, xəstə otağı, əyani vəsaitlər (kitablar, xəritələr, lüğətlər və s.), eləcə də müəllimlərin sayı, onların maaşı, hökumət xəzinəsindən ayrılacaq pul və s. haqqında mülahizələr irəli sürülmüşdür. Yeni tipli müsəlman məktəbinin yaranmasını dövlət əhəmiyyətli vacib məsələ hesab edən A.Bakıxanov əmin idi ki, "maarif nə qədər çox yayılsa, hökumət bir o qədər sağlam fikirli adamlar əldə edər, onlar da hökumətin ümumi rifah naminə gördüyü xeyirli niyyətlərin xalq içində yayılmasına kömək edər". Lakin belə üstün məziyyətlərə baxmayaraq, çar hökuməti bir neçə il əvvəl işğal etdiyi bu yerlərdə yeni tipli məktəblərin açılması üçün hələ tələsmirdi. A.Bakıxanovun bu layihəsi də baron Rozenin dəftərxana arxivinə atılıb qaldı. "Üsuli-cədid" tipli məktəblər isə yalnız XIX yüzilliyin I yarısının son illərində açılmağa başladı. Maarifçilik ideyalarının yayılmasını qarşısına əsas məqsədlərdən biri kimi qoyan A.Bakıxanov gənc nəslin təlim-tərbiyə məsələlərinə də ciddi yanaşmış, dövrün gəncliyini əxlaq baxımından kamil olmağa çağırmışdır. Maraqlıdır ki, müəllif bu zaman özünü heç kəsdən üstün tutmur, öz şəxsiyyətinə, bəlkə, qədərindən də artıq tənqidi yanaşır və uzun özünütərbiyədən sonra, nəhayət, belə bir ciddi mövzuya yanaşmağa cəsarət edir. Hicri 1248-ci ildə (1832-33-cü illər) fars dilində "Təhzibül-əxlaq" ("Əxlaqın tərbiyəsi"), 1252-ci ildə (1836-37-ci illər) yenə həmin dildə məşhur "Nəsaih" ("Nəsihətnamə") əsərlərini yazır. Nəhayət, dünyanın hər üzünü görmüş, müdrik "əxlaq müəllimi kimi faydalı məsləhət və nəsihətləri ilə" gənc oxucusunu ali ümumbəşəri etik normalara yaxınlaşdırmaq istəyən Abbasqulu ağa qarşıya çıxan suallara dərin mənalı fəlsəfi cavablar tapmağa çalışır, fikrini daha tutarlı etmək üçün "Quran"a,

"İncil"ə, peyğəmbərlərin kəlamlarına, eləcə də Şərqin və Qərbin dərin zəka sahiblərinin – "müsəlman, yunan və Avropa filosoflarının" əsərlərinə müraciət edir. "Fəlsəfəyə dair" giriş, on iki fəsil və nəticədən ibarət olan "Təhzibül-əxlaq" əsərində müəllif elmin sirlərinə yiyələnməyi ən böyük və əsl hikmət sayır, hər bir insanın öz elmini kamilləşdirmə naminə çalışmasını vacib bilir, özünü misal gətirərək, bu işdə ən böyük faydanı "dünyanın qabaqcıl adamlarının və müxtəlif xalqlardan olan alimlərin əsərlərinin öyrənilməsi və tədqiqində" görür. Müəllif yazır: "Onlarla (həmin alimlərin əsərləri ilə – N.V.) bir qədər tanışlıqdan mən böyük xeyir gördüm. Narahatçılığım az da olsa keçdi. Bir çox hallarda indi mən təskinlik yolunu tapıram, var-dövlətimlə az fəxr edirəm, dərddən az zarıyıram. Bütün bunlar göstərir ki, bilik və təcrübəmiz artsa, nələr qazana bilərik".

İnsan əxlaqı ilə cəmiyyət əxlaqı arasında müəyyən yaxınlıq görən A.Bakıxanov əxlaqda, davranışda mötədilliyi – orta vəziyyəti üstün tutur. Onun fikrincə, müəyyən həddi gözləmək ən vacib şərtlərdəndir, belə ki, hətta "azadlıq ifrat dərəcəsinə çatdıqda özbaşınalığa (anarxiyaya) çevrilir", və ya "şöhrətpərəstlik insana üstün gəlsə, onu öz nəfsinin qulu edir", və ya "ağıl fitnəkar və boş xəyallara uyduqda dönüb axmaqlıq olur" və s. "Yaxşılığın üstünlüyü" ideyasını irəli sürən A.Bakıxanov yaxşılığı bacarıb, ancaq onu etməyən adamların halına heyifsilənir. Lakin, bunun, eləcə də pislik məfhumunun nisbi olduğunu da qeyd edir, "bütün bədəni xilas etmək üçün ilan çalmış barmağı kəsib atmağın zərurətini" göstərir, ümuminin mənfəətini güdməyi tövsiyə edir. "Təhzibül-əxlaq"ın ideyaları əsasında az sonra tərtib etdiyi "Nəsihətnamə"sində isə müəllif

uşaqlara üz tutub, “gördüyün pis əməlin sənə xeyri qalmaz, pis adı qalar” söyləyir, “insan yaxşı əməldən iki dəfə zövq alar: birincisi, onu edən zaman, ikincisi, əvəzini görən zaman”, – deyə nəsihət edirdi. Abbasqulu ağanın “Təhzibül-əxlaq”da toxunduğu məsələlərdən biri də adətlərə bağlılıqdır. O qeyd edir ki, məsələn, İranda adət olan şey Avropada qəbahət sayılır, Avropa ölkələrində təqdir edilən hərəkəti ərəblər pis hesab edirlər. Hətta ingilislər onlarla eyni qitədə yaşayan almanların rəftarını xoşlamır, fransızlar ispanların adətlərini bəyənmirlər. A.Bakıxanovun yazdığına görə, insanlar öz dərrakəsi, elmi və mədəniyyəti sayəsində yaxşını pisdən ayırır, bu və digər adəti təqlid edirlər. Müəllifin fikrincə, bu zaman ümumun, yəni xalqın xeyrinə olan işlər təqlid edilməlidir. Daha sonra Abbasqulu ağa əxlaqı korlayan şöhrətpərəstlik, “insan təbiətinin əsas (mənəvi) tələbi olan” məhəbbət, “sağlamlıq, bilik və təcrübə artıran” əmək, dostluq, düşmənçilik, “qəlbin məlhəmi” olan xoş rəftar, ədəb-ərkan qaydaları və başqa bu kimi mənəvi dəyərlər haqqında öz fəlsəfi fikirlərini irəli sürür. Nəhayət, böyüklər və daha çox gənclər üçün nəzərdə tutduğu bu kitabına əlavə olaraq yazdığı “Nəsihətnamə”sində uşaqlara müraciətlə, sanki, fikirlərini tamamlayır: “Ey mənim əzizim, sən insansan. Allah insanı dünyada hər şeydən yaxşı yaratmışdır. Görmürsənmi ki, heyvanlar o qədər böyük bədən və gücə malik olmaqla yenə insanın əlində əsirdilər. Bu isə işi yaxşı bacarmaq səbəbindəndir. İnsanlar arasında da hər kəs çox bilikli və işbilən olsa, həmişə hörmətli olar. Deməli, gərək iş bilmək və yaxşılıq etmək qaydalarını o adamlardan öyrənmək lazımdır ki, onlar həyatda təcrübəli və qabiliyyətli olmuşlar. Belə adamların sözləri bizə nəsihətdir”. A.Bakıxanovun əxlaq və tərbiyəyə dair

mülahizələri sufi nəzəriyyələrindən və müsəlman Şərqi xalqlarının zəngin etik görüşlərindən təsirlənsə də, burada Rusiya vasitəsilə Qərb və xüsusilə antik dövr etikasının güclü nüfuzu hiss olunur. Özünün elmi sahədə axtarışlarını davam etdirən A.Bakıxanov hicri 1251 (1835-36-cı) ildə müsəlman Şərqində ənənəvi olaraq "Eynül-Mizan" ("Tərəzinin gözü") adlandırılan janrda əsər yazmaq qərarına gəlir. Müəllifin elm dili hesab etdiyi ərəb dilində yazılmış bu əsər onun məntiqə dair görüşlərini əks etdirən giriş, iki fəsil və nəticədən ibarətdir. A.Bakıxanovun özünün qeyd etdiyi kimi o, bu əsərini Əmsar kəndində, həqiqətə və sirlərə vaqif olmuş bəzi yaxşı kişilərlə birlikdə qələmə almışdır. Giriş işarənin izahı və nitqin təsnifatına həsr edilmişdir; iki hissədən ibarət birinci fəsil sadə təsəvvür, iki hissədən ibarət ikinci fəsil isə təsdiq haqqındadır. Əsər eristika (mübahisə etmək məharəti) və onun qaydaları ilə tamamlanır. Tədqiqatçıların fikrincə, A.Bakıxanov öz məntiqində yalnız hökm və nəticənin həqiqiliyinin formal-məntiqi meyarından deyil, onların materiyaya (yəni məzmuna) görə həqiqiliyindən də çıxış edirdi. Məhz bu mülahizə Bakıxanov məntiqini öz dövrünün bir çox formalist məntiqi sistemlərindən fərqləndirirdi. Əsərin hal-hazırda Sankt-Peterburq Universiteti kitabxanasının Şərq şöbəsində saxlanılan yeganə əlyazması 1840-cı ildə Kazan Universitetində fəaliyyət göstərən azərbaycanlı alim Mirzə Kazım bəyə məxsus olmuşdur. Əlyazmanın üstündəki hədiyyə yazısında aşağıdakı sözlər qeyd edilmişdir: "Bu, fəqir müəllifdən istəkli, müdrik, şanlı və hörmətli alim, Kazımbəyzadə adı ilə tanınan cənab Mirzə Məhəmməd Əliyə hədiyyədir. 20.03.1256 (hicri), Quba qalası". 1833-cü ilin payızında xidməti işləri ilə əlaqədar Varşavaya

gələn və 1834-cü ilin mayınadək burada qalan A.Bakıxanov bu şəhərdə də elmi tədqiqatlarını davam etdirmiş, dahi polyak alimi Nikolay Kopernikin ölümünün 300 illiyi münasibətilə başlanan yubiley tədbirlərinin təsiri ilə kosmoqrafiya məsələləri ilə məşğul olmağa başlamışdı. Onun bu sahədə apardığı axtarışlar özünün qeyd etdiyi kimi, hicri 1255 (1839/40)-cı ildə əvvəl fars dilində yazdığı, sonra isə ərəb dilinə tərcümə etdiyi "Əsrarül-məlaküt" ("Kainatın sirləri") əsərinin yazılması ilə nəticələnmişdir. Abbasqulu ağanın astronomiya sahəsində cəhdləri haqqında 1844-cü ilin yayında Qubada olmuş Yen Universitetinin təbiət tarixi professoru Karl Kox yazırdı: "Öz xalqının tarixi ilə yanaşı, Abbasqulu ağa astronomiya ilə də son dərəcə maraqlanmış, rusca bildiyindən bu dildə nəşr edilmiş hər şeyi oxumuşdur... Lakin Abbasqulu ağa göy cisimləri hərəkətini adicə müşahidə etməkdən daha böyük həvəslə bir yığın astroloji hesablamalara və müqayisələrə girişir. Beləliklə, o, getdikcə bu qənaətə gəlir ki, Yer... çox da uzaq olmayan gələcəkdə hansı sabit ulduzlasa toqquşacaq..." Öz əsərini "Yer kürəsinin və sair əcramin imkan daxilində əhvalına, vəziyyətinə və onların intizamına səbəb olan qanunların" tədqiqinə həsr edən A.Bakıxanov dövrümüzə gəlib çatan əlyazmaların (əsərin farsca mətni itmiş, ərəbcə iki əlyazması respublika Əlyazmaları İnstitutunda saxlanılır) coğrafiyaya aid yazdığı kitabın riyaziyyat bölməsindən çıxarış olduğunu bildirir. Təəssüf ki, müəllifin nə coğrafiyaya aid xatırladığı böyük əsəri, nə də onun müfəssəl riyaziyyat bölməsi elm aləminə hələ məlum deyildir. "Əsrarül-məlakütt" əsərinin tədqiqi göstərir ki, A.Bakıxanovun bu əsəri yazmaqda əsas məqsədi, görünür, öz həmvətənləri, eləcə də Şərq dünyası üçün o dövrün elmi nailiyyətləri

səviyyəsində kütləvi vəsait hazırlamaq olmuşdur. Giriş, müqəddimə, üç hissə və sonluqdan ibarət olan bu əsərin əvvəlində A.Bakıxanov oxucuları Ptolemey və Kopernik nəzəriyyələri ilə tanış edir, hər iki nəzəriyyənin elmi müqayisəsində Kopernik üsuluna üstünlük verir. Müəllifin fikrincə, Kopernik nəzəriyyəsi təkcə həndəsə elminin qəti dəlilləri ilə sübut edilmir, o həm də Quran ayələri və Peyğəmbər hədislərinin köməyi ilə təsdiq olunur. Məsələn, Quranın (23, 36) "Və Günəş onun üçün qərarlanmış yerə doğru hərəkət edir" ayəsini Abbasqulu ağa belə izah edir: bu kəlam Günəşin də kəhkaşandakı başqa bir mərkəz ətrafında fırlanmasına sübutdur, "Yerin başqa bir Yerə, göylərin (başqa göylərə) çevriləcəyi gün" sözləri ilə başlayan Quran (13, 14) ayəsini isə o, belə təfsir edir: "...bu kəlam ölümdən sonra cəsədlərin dəyişdiyi kimi, həmin nəhəng göy cisimlərinin də başqası ilə əvəz olunacağına dəlalət edir. Bundan aydın olur ki, elə bir dəqiqə, elə bir saniyə olmur ki, bir neçə Günəş sistemi yaranıb məhv olmasın".

A.Bakıxanov 1846-cı ildə Məkkəyə ziyarətə gedərkən yolüstü İstanbulda olmuş, "Əsrarül-məlakütt"u türk sultanı I Əbdülməcidə (1839-1861) təqdim etmişdir. Sultanın tapşırığı ilə türk alimi Seyyid Şərəf Xəlil Həyatizadə həmin əsəri Osmanlı türkcəsinə tərcümə və şərh etmiş, "Əfkaru-l-cəbarut fi tərciməti Əsrarül-məlaküt" ("Əsrarül-məlaküt"ün tərcüməsi haqqında dahilərin fikirləri") adı ilə 1848-ci ildə İstambulda nəşr etdirmişdir. Auqsburqda çıxan qəzetlərdən birində deyilirdi: "Bu günlərdə cənab Ustinov (rus səfiri – N.V.) sultanın qəbulunda olarkən Bakı şəhərinin ən adlı-sanlı müsəlman ailəsi nəslindən olan, Rusiyanın Zaqafqaziya ordu korpusunun baş qərargahında xidmət edən polkovnik Abbasqulu Xanzadəni sul-

tana təqdim etmişdi. Alimliyinin şöhrəti burada onun özünü qabaqlamışdı. Qəbul zamanı o, türklərin küfr kimi rədd etdikləri Kopernik sisteminin Quranla uyğunluğunu sübut edən astronomik traktatını sultana təqdim etmək şərəfinə nail oldu. Abbasqulu ağa Xanzadə sultanın nəzərini daha çox özünün şəhadətlik haqqında fikirləri ilə cəlb etdi. Onun fikrincə, məhkəmədə yalnız müsəlman şahidlərinin iştirakı haqqında Quranda elə bir göstəriş yoxdur. Mənim bildiyimə görə, polkovnik xarici dövlətin nümayəndəsi (burada, görünür, xristian dövləti nəzərdə tutulur - N.V.) kimi sultana təqdim edilən ilk müsəlmandır". İntellektual səviyyə baxımından öz çağdaşlarını xeyli arxada qoyan Abbasqulu ağa orta əsrin böyük dühaları kimi, özünü elmin müxtəlif sahələrində sınasa da, ən böyük uğuru filologiya və tarix sahəsində qazana bilmiş, məhz bu əsərlərində orijinal təfəkkür sahibi kimi çıxış etmişdir. Bu baxımdan onun ən böyük nailiyyəti görkəmli mütəffəkkirin adını Azərbaycan tarixşünaslığında əbədiləşdirən, onu tarixşünaslığımızın "atası" edən "Gülüstani-İrəm" adı ilə məşhur olan "Şərqi Qafqaz tarixi" əsəridir. Tarixi "ən ali mənəvi elmlərdən biri" hesab edən A.Bakıxanov yazırdı: "Tarix elə bir müəllimdir ki, bəşər nəslinin bütün nümayəndələri onun məktəbində keçirilən dərslərdən faydalanır. Yeni canverici kimi o, bizim qarşımızda min ilin ölüsünü dirildir. Neçə-neçə əsrlərin müxtəlif tayfaları hərə öz libasında, özünün adətləri, düşmənçiliyi və dostluğu ilə onun dəhşətli məhkəməsinə gəlir, onun qarşısında hər kəsin sinəsində (mələklər tərəfindən) qeydə alınmış iş və əməllərinin haqq-hesabı ilə dururlar. Məhz, tarix gələcək nəsillərin məhkəməsi qarşısında yaxşının və yamanın layiqli haqqını verir. O, gələcək nəsillərə əcdadların vəziy-

yətlərini lazımi şəkildə və təfərrüatı ilə çatdıran, sərvətin və miskinliyin, tərəqqinin və tənəzzülün səbəblərini, həqiqətin və səhvin nəticələrini izah edən dilsiz natiqdir. O, bizə keçmişin paltarlarında gələcəyi təqdim edir. Onun təsvir etdiyi keçmiş hadisələr gələcək üçün yol göstəricisidir. Keçmişi bilmədən bu gündə yaşamaq yolsuz səhraya girib, orada məqsədsiz dolaşmaq deməkdir. Təhlükə qaçılmazdır; əgər hər bir adam öz qısa həyatının təcrübələrindən xeyir əldə edə bilirsə, bütöv bəşəriyyətin həyat təcrübələrinə əsaslanan tarixdən görün nə dərəcədə (xeyir) gözləmək olar?" "Gülüstani-İrəm" əsərini yazarkən müxtəlif dilli, müxtəlif dövrlərə aid onlarca məxəzdən istifadə etmiş Abbasqulu ağa ona çağdaş olan Avropa və rus müəlliflərinin əsərlərindən, eləcə də maddi mədəniyyət abidələrindən, toponimik, numizmatik və epiqrafik materialdan bəhrələnmişdir. Tədqiqatçıların haqlı qeydinə görə, A.Bakıxanovun əsəri, əslində, o dövr tarixşünaslığının bütün nailiyyətlərinin əks olunduğu ilk tədqiqatdır. A.Bakıxanov başa düşürdü ki, Vətən tarixinin öyrənilməsi milli özünüdərkin və vətənpərvər hisslərin inkişafına kömək edir; buna görə də o, bütün Qafqaz xalqlarını öz tarixlərini öyrənməyə çağırırdı: "Tarixi öyrənmək xüsusilə o xalq üçün vacibdir ki, onun keçdiyi həyat yolu həmin tarixdə əks olunsun. Tarix həmin xalqı doğma torpağının keyfiyyətləri, orada yaşayan tayfaların xarakteri ilə tanış edir, xalqların bütün qarşılıqlı münasibətlərindən nəticələr çıxararaq, zərər və xeyri göstərir". A.Bakıxanov bu qiymətli tədqiqatının fars dili variantını 1841-ci ildə başa çatdırmış, 1844-cü ildə isə onun rus variantını hazırlamışdır. Elə həmin il əsərin nəşrinin icazəsi üçün rus əlyazması Peterburqa göndərilmişdir. Çar I Nikolay müəllifin

800 manat gümüş pul dəyərində brilyant üzüklə mükafatlandırılması, əsərinin isə Rusiya Elmlər Akademiyasına rəyə göndərilməsi barədə əmr verir. Akademiklər M.Brosse və B.Dornun müsbət rəyinə baxmayaraq, əsərin dövlət hesabına deyil, müəllifin şəxsi vəsaiti hesabına çap edilməsinə icazə verilir. Bütövlükdə, yalnız 80 il sonra işıq üzü görəcək "Gülüstani-İrəm" əsərinin bəzi hissələri müəllifin sağlığında yalnız dövri mətbuatda – "Russkiy invalid", "Kavkaz" qəzetlərində, eləcə də "Sbornik qazetı Kavkaz" toplusunda nəşr olunur.

Abbasqulu ağanın zəngin yaradıcılıq irsinə onun xidməti xarakter daşıyan bəzi yazılarını da daxil etmək vacibdir. Bunlardan "İndiki Zaqafqaziya əyalətlərində yaşayan tayfaların mənşəyi", "Adlar və titullar haqqında", "Zaqafqaziya diyarının idarə sistemi" və s. bu kimi qeydlər tarixilik baxımından xüsusilə qiymətlidir. 1846-cı ildə A.Bakıxanov Şərq ölkələrinə getmək üçün ikiillik məzuniyyətə çıxır. Həm dini, həm də elmi əhəmiyyət daşıyan bu səfər zamanı o, Ərdəbil, Təbriz, Tehran şəhərlərində olmuş, oradan Ərzurum vasitəsilə İstanbula, daha sonra isə Misirə getmiş və nəhayət, həmin ilin sonuna yaxın Məkkəyə gəlib çıxmış, həcc ziyarətini yerinə yetirmiş, lakin geri qayıdarkən Məkkə ilə Mədinə arasındakı Vadiyi-Fatimə adlı yerdə vəba xəstəliyinə tutulmuş və orada ömrünün 52-ci ilində, yaradıcılığının çiçəkləndiyi dövrdə vəfat etmişdir. A.Bakıxanov öz yaradıcılığı və şəxsiyyəti ilə Şərqlə Qərbin qovuşuğunda dururdu. Onun bütün fəaliyyəti köhnədən yeniyə gedən keçid mərhələsində cərəyan edirdi. Tədqiqatçılar onun iki, hətta üç mədəniyyətdən – ənənəvi Şərq, yeni Avropa və rus mədəniyyətlərindən bəhrələndiyini xüsusi qeyd edirlər. A.Bakıxanov yaradıcılığının ən yaxşı araşdırıcısı Ə.Əhmədo-

vun dili ilə desək, "o, Azərbaycan üçün orta əsrlərin son mütəfəkkiri olduğu kimi, yeni dövrün də ilk mütəfəkkiri" olmuşdur. Klassik Şərq elmi və ədəbiyyatının ən yaxşı nailiyyətlərindən geniş istifadə edən əsərlərinə Şərq aləmində ənənəvi olmuş adları verən Abbasqulu ağa bununla yanaşı, yeni qarşılaşdığı Qərb mədəniyyəti dəyərlərini də mənimsəməyə çalışırdı. Onun yaradıcılığı ilə tanış olan rus akademiki B.Dorin hələ XIX yüzilliyin 40-cı illərində Rusiya Akademiyasında Abbasqulu ağanın həyat və fəaliyyəti haqqında çıxış etmiş, onu dövrün "müsəlmanları arasında nadir hal" kimi qiymətləndirmişdir. Abbasqulu ağa Bakıxanov elmi səviyyəsi baxımından müasirlərini, həqiqətən, xeyli qabaqlasa da, öz dövrünün, öz xalqının oğlu idi. Onun nailiyyətləri, uğurları, eləcə də nöqsanları yaşadığı dövrün mühiti ilə bağlı olan abhavadan irəli gəlirdi. Abbasqulu ağa Vətənini, xalqını sevir, onun özünəməxsus mədəniyyəti ilə fəxr edirdi. O, bütün həyatını, yaradıcılığını xalqının daha da maariflənməsi, dünyanın qabaqcıl xalqları ilə bir cərgədə durması işinə sərf etmiş, Şərq və Qərb mədəniyyətlərinin sintezindən doğan yeni mədəniyyətə sahib olmasına cəhd göstərmişdi.

**Nailə Vəlixanlı,**
akademik,
"Xalq qəzeti" 20-21.06, 2014-cü il

## Tarixşünaslıqda Bakıxanov səhifəsi

XIX əsrdə Azərbaycanda yerli tarixçilər və salnaməçilərin bütöv bir nəsli yetişmiş, onlardan hər biri Vətən tarixşünaslığının inkişafına öz töhfəsini vermişdir. Mirzə Camal Cavanşir, Mirzə Adıgözəl bəy, İsgəndər bəy Hacınski, Kərim ağa Fateh, Mirzə Əhməd Mirzə Xudaverdi oğlu, Mirzə Kazım bəy və başqaları bu qəbildəndir. Lakin təkzibolunmaz həqiqətdir ki, XIX əsrin birinci yarısında Azərbaycan tarixi üzrə ən mükəmməl əsəri Abbasqulu ağa Bakıxanov yazmışdır. O, Azərbaycan tarixşünaslığına yeni bir nəfəs gətirmiş, Azərbaycan tarixşünaslığında zəngin qaynaqlara, mötəbər mənbələrə əsaslanan, Avropa və Rusiya tarixşünaslığının o zamankı ənənələrindən bacarıqla bəhrələnərək yeni tarixnəvislik məktəbinin bünövrəsini qoymuşdur.

Akademik Z.M.Bünyadov "Gülüstani-İrəm" əsərinin 1991-ci il nəşrinin ön sözündə yazırdı ki, XIX əsrin I yarısının görkəmli tarixçisi, filoloqu, şairi, filosofu və ensiklopediyaçı alimi Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" Azərbaycan tarixşünaslığında akademik planlı ilk monoqrafik tədqiqatdır.

Sonuncu Bakı xanlarından birinin - II Mirzə Məhəmmədin ailəsində dünyaya göz açmış Abbasqulu ağa çox mükəmməl təhsil almışdır. Onun dünyagörüşünün, o cümlədən də elmi dünyagörüşünün zənginləşib formalaşmasında həyatının Tiflis dövrü böyük rol oynamışdır. Qafqazdakı rus qoşunları baş

komandanının dəftərxanasında çalışan, bir çox Şərq dillərini mükəmməl bilən A.Bakıxanov hələ rus-qacar, rus-osmanlı müharibələrinin gedişində rusların işğal etdikləri müsəlman şəhərlərində ələ keçirilmiş məscid, məqbərə kitabxanalarının, o cümlədən Batumun Cümə məscidinin kitabxanasının, Ərdəbildəki çox məşhur Şeyx Səfi kitabxanasının siyahılarını tərtib edərkən Şərq və Qərb qaynaqları ilə tanış olmuş, həmin məxəzlərdən dürlü-dürlü məlumatlar əxz etmişdir.

Fəaliyyətinin Tiflis dövründə Qafqaz administrasiyasının tanınmış hərbi və siyasi xadimləri, Tiflisə baş çəkən Avropa səyyahları və elm adamları ilə görüşlər, Qafqaz, Ön Asiya, Avropa ölkələrinə səyahətlər bu istedadlı şəxsiyyətin formalaşmasında mühüm rol oynamışdır. A.Bakıxanov özü də yazırdı ki, dövlət xadimləri, elmi və sənəti ilə məşhur olan adamlardan bütün görüb-eşitdiklərindən fayda götürməyə çalışmış, ən sonda isə belə bir nəticəyə gəlmişdir: insan əməllərinə baxarkən mən əmin oldum ki, dünyada möhkəm heç nə yoxdur; sərvət və hakimiyyət itirilə bilər, şəxsi ləyaqət olmadan ali mənşə yad torpaqda tanınmamış qalar, öz torpağında isə utanc gətirər və ancaq elmi əsərlərdə təzahür edən elm yer üzündə bizə səadət gətirər və ölümdən sonra bizim mövcudluğumuzu uzadar. Beləliklə, A.Bakıxanov belə bir nəticəyə gəlir ki, xalqının rifahı ancaq elmdədir.

Azərbaycan elmi ictimaiyyətinin yekdil fikrincə, onun elmi yaradıcılığının zirvəsi "Gülüstani-İrəm"dir. XIX əsrin I yarısında Rusiyanın hərbi-siyasi xadimləri yanında ciddi nüfuza malik olan, görkəmli tədqiqatçı İ.Yenikolopovun fikrincə, A.S.Qriboyedovun Şərq üzrə müəllimlərindən olan A.Bakıxanov bu əsəri yaratmazdan öncə tədqiq edilən bölgə üzrə

materialların saxlanıldığı külli miqdarda müxtəlif dilli qədim və orta əsr qaynaqlarından istifadə etmiş, çoxsaylı sinxron tədqiqatlarla tanış olmuşdur. Akademik Z.M.Bünyadov yazırdı ki, bu, A.Bakıxanovun dövrü üçün elmdə igidlik idi, çünki ona qədər heç bir Şərq tədqiqatçısı belə erudisiyaya malik deyildi.

Cənubi Qafqazın şərq hissəsində məskunlaşmış xalqların tarixinə aid olan "Gülüstani-İrəm", qeyd etdiyimiz kimi, Abbasqulu ağa Bakıxanovun ən böyük elmi əsəridir. Əsər ilk məxəzlər əsasında, müəllifin uzun illər bu sahədə apardığı ciddi tədqiqatın nəticəsində yazılmışdır. Müəllif özü dövlət başçısına və müasirlərinə yazdığı müraciətnamələrində əsər haqqında "mənim uzun illər zəhmətinin məhsuludur" – deyə qeyd edirdi. Müəllif bu əsərini yazarkən dəfələrlə arxeoloji tədqiqat işləri aparmış, tarixi abidələrdən, qədim artefaktlardan, sikkələrdən, padşahların və xanların fərmanlarından, milli əfsanələrdən, dini kitablardan, qoca kişilərin nağıl və rəvayətlərindən, səyyahların səyahətnamələrindən, gürcü və ləzgi salnamələrindən, digər Şərq mənbələrindən, qədim yunan, Roma, Azərbaycan, erməni və rus alimlərinin əsərlərindən istifadə etmişdir.

Abbasqulu ağa Bakıxanov bu əsərini də müqəddimə ilə başlayır. O, yığcam, lakin dolğun məzmunlu müqəddimədə tarix elminə qısa bir tərif verir, onu cəmiyyət və xalq üçün ən faydalı elmlərdən sayır. Tarixə çox ciddi elmi tələblər nöqteyi-nəzərindən yanaşan müəllif bəşəriyyətin keçmiş həyatını təcrübə adlandırır, həyatı yaxşı qurmaq üçün bu təcrübədən istifadə etməyi lazım bilir. Əsərin müqəddiməsində Azərbaycanın və Dağıstanın qısa coğrafi təsviri, qədim yunan, erməni, ərəb və rus mənbələrinə istinad edilərək bu ölkələrin xalqlarının mənşəyi, dili və dinləri haqqında maraqlı məlumat verilir. Ab-

basqulu ağa Bakıxanov tədqiq etdiyi bölgədə yaşayan xalqların tarixini mühüm tarixi hadisələrə görə 5 dövrə ayırmış və buna əsasən də əsərini 5 fəslə bölmüşdür:

1. İslam dini və ilk islam dövlətinin zühurundan ərəb qoşunlarının bölgəyə gəlməsinə qədər Şirvan və Dağıstan ölkələrində baş verən qədim hadisələr.

2.Xilafət ordularının Azərbaycana gəlməsindən başlayaraq monqolların istilasına qədər olan dövr.

3.Monqol istilasından Səfəvilərin meydana çıxmasına qədər olan dövr. Şirvanşahlar sülaləsi və onların səltənətinə aid hadisələr.

4. Səfəvilər dövlətinin zühurundan Nadir şahın vəfatına qədər olan dövr.

5. Nadir şahın vəfatından "Gülüstan" adlı yerdə Rusiya və İran dövlətləri arasında bağlanan sülh müqaviləsinə qədərki dövr

A.Bakıxanov əsərin birinci fəslində "Tarixi-Təbəri", "Tarixi-qozidə", "Nizam-üt-təvarix", "Kitabi-məsalik-ül-məmalik", "Xəritət-ül-əcaib" və s. kimi qədim Şərq və başqa mənbələrə istinadən Nuhun tufanı, onun övladları, Yasəf, Ham və Şam nəsilləri, Yəcuc və məcuc, skiflər, massagetlər, xəzərlər, Sasani hökmdarlarının Azərbaycandakı hakimiyyəti və s. haqqında yarımelmi, yarıməfsanəvi məlumat verir.

Əsərin ikinci fəsli Azərbaycan və Dağıstan ölkələrinin ərəb işğalçıları tərəfindən istila olunması, ümumiyyətlə, ərəblərin bu ölkələrdəki hakimiyyəti dövrünün tarixinə həsr olunmuşdur. Həmin fəsildə ərəb xəlifələrinin buraya göndərdikləri hakimlər, ərəb-xəzər müharibələri, xarici işğalçılara qarşı Babəkin mübarizəsi, onun Samirədə vəhşiliklə edam

olunması və s. haqqında məlumat vardır. Xürrəmilər hərəkatı, Babək üsyanı haqqında verilən məlumat bir qədər müxtəsərdir. Bu məlumat uzun illər ərəb işğalçılarına qarşı amansızcasına vuruşan və ərəb xəlifəsinin əmri ilə zülm və işgəncələrlə öldürülən bu cəsur xalq qəhrəmanının fəaliyyətini çox yığcam əks etdirir.

Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm"də məşhur Azərbaycan coğrafiyaşünası Hacı Zeynalabdin Şirvaninin "Riyazüs-səyahə" əsərinə əsaslanaraq Azərbaycan sözünü Babəkin adı ilə əlaqələndirir.

Əsərin üçüncü fəslində hülakülərin və teymurilərin hakimiyyəti dövrü işıqlandırılır və Şirvanşahlar səltənətinə dair tarixi məlumat verilir. Bu fəsildə Ağqoyunluların və Qaraqoyunluların mənşəyi, habelə məşhur alim, görkəmli Azərbaycan mütəfəkkiri Nəsirəddin Tusi haqqında da maraqlı məlumatlar var.

Əsərin ən böyük hissəsini təşkil edən dördüncü fəsil Səfəvi padşahlarının və onların dövlətinin süqutundan sonra Azərbaycan dövlətçiliyinin dirçəldilib möhkəmləndirilməsində mühüm rol oynamış Nadir şah Əfşarın hakimiyyəti dövrünə həsr olunub. "Fütuhati-Əmini", "Tarixi-aləm-arayi-Abbas", Qolikovun "Böyük Pyotrun fəaliyyəti", Ustryalovun "I Pyotrun səltənət tarixi" və b. rus, fars və osmanlı mənbələrindən istifadə edilərək, bu fəsildə I Şah İsmayıl, I Şah Abbas və Nadir şahın hərbi səfərləri, Rusiya və Osmanlı qoşunlarının Dağıstana və Azərbaycana hücumları, I Sultan Səlim Yavuzun (1512-1520) qoşunları ilə I Şah İsmayılın (1501-1524) qoşunları arasında gedən məşhur Çaldıran döyüşü (1514) haqqında zəngin məlumat toplanmışdır.

"Gülüstani-İrəm"in beşinci və son fəsli Nadir şahın ölümündən (1747) ta 1813-cü ildə Rusiya və Qacarlar arasında bağlanmış Gülüstan müqaviləsinə qədər 60 ildən artıq bir dövrü əhatə edir. Fikrimizcə, bu fəsil "Gülüstani-İrəm"in ən orijinal hissəsidir. Xanlıqlar dövrünün işıqlandırılması nöqteyi-nəzərindən beşinci fəslin çox böyük elmi əhəmiyyəti vardır.

A.Bakıxanovun bu əsərində mühüm önəm verilmiş problemlərdən biri də demoqrafiya, etnik tərkib, müxtəlif xalqların etnik mənşəyi və s. məsələlərdir. Müəllif, təbii ki, nümayəndəsi olduğu Azərbaycan xalqının etnogenezi məsələlərini daim diqqətdə saxlamış, türk xalqının təşəkkülündə yaxından iştirak etmiş türk qövm və tayfalarının tarixinə dair qiymətli məlumatlar vermişdir. Məsələn o, hunlar haqqında yazarkən qeyd edib ki, "Hun tayfası haman Ğun adlanan tayfadır... Xəzər dənizinin qərb sahilində sakin imişlər. İndi məlum olmayan Varçan bunların ən böyük şəhəri olmuşdur" ("Gülüstani-İrəm", s.18).

Qədim türklərin tarixi məsələsinə böyük diqqət verən A.A.Bakıxanov alan tayfalarının massaget nəslindən olduğunu yazır, skiflərin cəsarətli qəbilələrdən ibarət olduğunu, sarmatların "skif gəncləri və Amazon qızlarının qarışmasından" meydana çıxdığını qeyd edir.

Qədim mənbələrdə adı çəkilən Alban şəhərini Dərbəndlə eyniləşdirən müəllif ulu babalarımızdan olan kaspilərin tarixinə ekskurs edərək yazır: "qədim dövrlərdə Qaspi adlı tayfa dəniz kənarında və Kürün sağ sahilində sakin idi. Rumlular arasında bu dəniz həmin tayfanın adı ilə adlanmışdır. Sahilində olan vilayətlərə nisbətlə, bu dəniz müsəlmanlar arasında da Bəhri-Xəzər, Bəhri-Cürcan, Bəhri-Gilan və Bəhri-Şirvan adı ilə şöhrət tapmışdır".

Xalqının etnik tarixinə yaxından bələd olan müəllif türk tayfalarının Azərbaycanda yayılma arealına xüsusi diqqətlə yanaşaraq yazırdı: "Quba və Şirvanda Zəngənə, Xəlilli və Gəngərli; Şirvanda Qaramanlı, Təkəli, Şamlı və Çakərli; Qubada Ocallı, Ərşəli, Ustacallı və Qacar tayfaları; Quba, Dərbənd və Şirvanda Bayat qəbiləsi; Şəkidə və Şirvanda Qaraqoyunlu, Xələc və s. bir çox tayfalar vardır. Bunlar İran və Rum ölkələrində sakin olan tərəkəmə və sair elat kimi, türk tayfalarındandır" (s.25). A.Bakıxanov Təbəristandan tutmuş Azərbaycanın bütün vilayətlərində "əhalinin dili türkcədir" deyərək, bu dilin İranda və Dağıstanda da geniş yayıldığını bildirir.

Türkün ən qədim tarixini əfsanəvi Yafəsin böyük oğlu və vəliəhdi Türkün adı ilə bağlamaqla bəşər sivilizasiyasının beşiyi başında duran ən qədim xalqlardan olduğumuzu yazan A.Bakıxanov Bizans elçisinə cavab verən türk xaqanının dili ilə fəxrlə deyir: "Siz o rumlular deyilsiniz ki, on dildə danışıb hamısı ilə də insanları eyni dərəcədə aldadırsınız? Biz türkük, yalan və aldatmaq bilmərik!".

"Gülüstani-İrəm" "Nəticə" adlı sonluqla bitir. Lakin bu "Nəticə" əsərdə verilən məlumatın yekunu və ya xülasəsindən ibarət deyil. Əsərə, sadəcə, əlavədir. Burada Azərbaycanın məşhur alimi, yazıçı və şairləri haqqında da qısa məlumat verilir.

Müəllif bu əsərin sonunda çox maraqlı və ibrətamiz bir nəticəyə gəlir: "Hicri 1248-ci (1833) ildə, səyahət qəsdilə səfərə çıxıb, iki il Don ölkəsini, Malorossiyanı, Velikorossiyanı, Lifliyandiyanı, Litvanı və Lehistanı (Polşanı) gəzdim. Avropa ölkələrinin təcrübəli dövlət adamları, məşhur alimləri və bilici

sənətkarları ilə görüşdüm. Bir çox qəribə işlər və saysız təəccüblü əsərlər gördüm. Hər bir ölkədə, hər bir işdən bilik və təcrübəmi artırdım. Get-gedə cəhalətim azaldı. Yavaş-yavaş xəyalat və təsəvvüratımın puçluğu aydınlaşdı və gördüm ki, dünyanın yüksək mənsəbləri çox alçaqdır və bizim əziz saydığımız tədbirlər bir sərxoşun ağıl sınamasına bənzər; çünki mal və dövlət hər halda puç olacaq, ixtiyar və iqtidar əldən gedəcəkdir. Sənae cürbəcür alətlərə və bədən qüvvəsinə möhtacdır. Şəxsi ləyaqət olmadan, nəsəb və sülalə şərafəti qürbətdə naməlum, vətəndə isə məzəmmətə məruzdur. Bunlara təkyə etmək mənasızdır, etibar ediləcək və arxalanacaq bir dövlət varsa, o da hər bir halda elm və adabdan ibarətdir... Bu elm və adab da zahirpərəst adamların boşboğazlıq edib, özləri üçün fəzilət sandıqları mənzum kəlmələrdən və mövhumi (xəyali) qaydalardan ibarət deyildir"....

**Hacı HƏSƏNOV,**
A.Bakıxanov adına Tarix İnstitutunun
şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru,
Dövlət mükafatı laureatı

## Abbasqulu ağa Bakıxanov yaradıcılığı Azərbaycan musiqisində

Görkəmli tarixçi, hərbi xadim, şair, tərcüməçi kimi tanınan bir insanın – Abbasqulu ağa Bakıxanovun şeirlərində dövrünün mütərəqqi fikirləri, dünyagörüşü və eyni zamanda mədəni həyatı da öz əksini tapmışdır. Bu baxımdan Qüdsinin şeirlərində rastlaşdığımız obrazlar, Azərbaycanın müxtəlif musiqi alətləri, klassik muğamları, və onların şöbələri, rəqs musiqisi haqqında məlumatları diqqətimizi cəlb edir. Deyilənə görə, alman şərqşünası F.Bodenşdet Mirzə Şəfinin şeirləri ilə bərabər, Bakıxanovun da şeirlər külliyyatını əlyazma şəkilində özü ilə Almaniyaya aparıb orada itirmişdir. Buna görə də uzun müddət Bakıxanovun şeirlərindən söhbət açılmamışdır. Bizə məlumdur ki, Mirzə Şəfinin bəzi şeirlərinə Rusiyada, eləcə də Avropanın bir çox ölkələrində musiqi yazılmış, mahnı və romanslar bəstələnmişdir. Buna nümunə olaraq deyə bilərik ki, Mirzə Şəfinin sözlərinə yazılmış 12 "Fars mahnıları" (Persidskiye pesni) məşhur rus bəstəkarı Anton Rubinşteyn tərəfindən bəstələnmişdir. Mən bir bəstəkar kimi uzun illərdir ki, Abbasqulu ağa Bakıxanovun yaradıcılığını öyrənirəm. Onun sözlərinə yazılmış üç məcmuəm müxtəlif illərdə "Azərnəşr", "İşıq", "Azərbaycan" nəşriyyatları tərəfindən çap olunmuşdur.

1.”Qüdsidən söz düşəndə”.  1978-ci il

2. “Qüdsi”. Birinci dəftər. 1993-cü il

3. “Qüdsi”. İkinci dəftər. 1994-cü il

Bu üç məcmuədən başqa Qüdsinin “Gözəlliklər məskəni” məcmuəsinə iki mahnı “Səbr elə” və “Səninlə bağlıdır bəxtiyarlığım” salınmışdır. Xatırladım ki, adı çəkilən mahnı və romanslar fortepiano ilə oxumaq üçün yazılmış və nəşr edilmişdir (Bax: Abbasqulu ağa Bakıxanov. “Bədii əsərlər” Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, 1964-cü il).

Yeri gəlmişkən onu da deyim ki, hələ məktəbdə oxuduğum illərdə Abbasqulu ağa Bakıxanovun şeirləri ilə maraqlanmış, qəzəllərini xanəndələrin ifasında dinləmişəm. O zamanlar atam, respublikanın xalq artisti Əhməd Bakıxanovun evinə məşhur xanəndələr, çalğıçılar və ziyalılar tez-tez yığışardılar. Sənətşünaslıq namizədi Əvəz Rəhmətov “Əhməd Bakıxanov” monoqrafiyasında belə yazır: “Əhməd Bakıxanov 1892-ci ildə Bakıda zadəgan ailəsində anadan olmuşdur. Atası Məmmədrza bəy (1866-1919) görkəmli Azərbaycan tarixçisi, yazıçısı və rus ordusunun hərbi diplomatı Abbasqulu ağa Bakıxanovun (1794-1847) nəslindən idi. Bu qohumluq münasibətini təsdiq edən sənədlərdən biri 1898-ci il mayın 22-də Tiflis məhkəmə palatası 1-ci cinayət departamentinin Bakıda keçirilən iclasının protokoludur. Orada göstərilir ki, “Məmmədrza bəy Bakıxanov general Bakıxanovun (Həsənağa Bakıxanov nəzərdə tutulur – Ə.R.) qohumudur”.

Abbasqulu ağa Bakıxanovun tərcümeyi halından məlum olur ki, general Həsənağa Bakıxanovun arvadı və əmisi qızı, yəni Abbasqulu ağa Bakıxanovun qızı Bikə xanım olmuşdur.

Məmmədrza bəyin istər general-mayor Həsənağa Bakıxanovla, istərsə də Abbasqulu ağa Bakıxanovla qohumluq münasibətləri başqa sənədlər də təsdiq edir (Bax: İQİA QRUZİNSKOY r. fond 113, ot 1 ed, xr 1758, list 112).

1830-cu illərdə rus şairi Y.P.Polonski və Polşa inqilabçılarından Lada Zablotski Tiflisdə yaşayırdılar. Onlar Bakıxanovun yaxın əlaqə saxladığı səmimi dostlarından idi. Lada Zablotski A.Bakıxanovun "Gülüstani-İrəm" əsərinin ruscaya tərcüməsi üzərində işləmiş və bundan başqa ondan aldığı bir Azərbaycan nəğməsini polyak dilinə tərcümə etmişdi. Polonski isə həmin nəğməni polyak dilindən ruscaya çevirmişdi. Qriboyedovun Tiflisdə yaşayan azərbaycanlılar arasında ən çox sevdiyi şəxs A.Bakıxanov idi. "Qafqaz və Gürcüstan xatirələri" əsərinin müəllifi Tornaunun qeydlərindən Qriboyedovun Tiflisdə Mirzəcan Mədətovun təşkil etdiyi müsamirələrdə iştirak etdiyini və burada Azərbaycan aşıqları və xanəndələrinin oxuduğu mahnılara qulaq asmaqdan dərin həzz aldığını öyrənirik.

İndi də Abbasqulu ağa Bakıxanovun şeirlərində rastlaşdığımız musiqi alətlərindən, muğam adları və şöbələrindən söz açmaq istərdim . Azərbaycan musiqi alətlərinin tarixi qədimdir. A.Bakıxanov: "Lirik şeirlər"dəki qəzəllərdən:

*Əlində titrərkən o nazik tellər,*
*Sonsuz həyəcanla titrədi qəlbim.*
*O incə, o şirin dadlı nəğmələr,*
*Fələyə qaldırdı ruhumu mənim.*
*Eşqim yüksəldi fərəhlə bir an,*
*Şövqə gəldi can.*

**“Mişkatül-Ənvar”. Hekayət, səh. 48**

*Püstə ağzı, saz səsiylə*
*Oxuyanda nəğmələr,*
*Bu nəğmənin hər cəh-cəhi dünyaya dəyər.*

Səh. 323

*“Et bu dəm bir, Nəvayi-xoş avaz*
*Qıl qəbul iltimasım, eylə naz”*

Səh. 323

*“Nə xoş avazdır, xorusi-səba,*
*Qəlbi şad eyləyir qılanda Nəva!”*

Səh. 196

“*Yenə bülbüllər əcəb başladılar Şurü-Nəva,*
*Eşqdən qüssə alıb söylədilər min məna”*

**“Bahar və Xəzan” qəsidəsindən. səh. 253**

*Bağda bülbül dil açıb nəğmə dedi şur ilə,*
*Onu bu ətri-çəmən gör nə xoş ilhan etdi.*
*Quşların nəğmələri şur sala hər yandan*
*Açılıb gül şeh ilə badəsi pərgar olsun .*

Azərbaycan milli musiqisinin və musiqi alətlərinin tarixi çox qədimdir. Abbasqulu ağa Bakıxanovun əsərlərində muğam sənətimizin ayrı-ayrı şöbələrinin, eləcə də musiqi alətlərimizin adlarına tez-tez rast gəlinir. Şairin əsərlərində avaz ilə bağlı nəğməli misralara bir daha nəzər salaq:

**Hekayət –**

*Gülşənində yanaq kimi bəsləyirdi bircə gül,*
*Ona nəğmə oxuyardı yüz şur ilə min bülbül.*

**Lirik şeirlər –**

*Rindlərə tənə vuran ol zahidi gəl indi gör,*
*Musiqi dinlər, şəraba meyl edər, istər murad.*
*Güllə bülbül Şur ilə, mütrüblə saqi saz ilə,*
*Yar bəzmin səsləyib daim deyərlər mərhəba.*

**"Kitabi-Əsgəriyyə"dən –**

*Nəvayi-eşqilə ney tək dolub quru cismim,*
*Zaman-zaman çəkərəm bəc ki, ahi atəşbar.*

**Qəzəllərindən –**

*Xanəndənin sədası, mey camı, bağ səfası,*
*Bir od vurar bu canə, necə ki, od kababa.*
*Oxumaq zövqün varsa oxu türfə məqam.*
*Dinləyib dərdli könül bəlkə fərəhnak olsun.*
*Bu nə məclisdir ürəklər açılır onda müdam?*
*Yox ikən cəngu müğənni olunur rəqs müdam.*

Bakıxanovun şeirlərində muğam şöbələrinin adları ilə də qarşılaşırıq. Şair "Kitabi-Əsgəriyyə"də yazır:

*Aləmdə həmişə qureyi-qəm*
*Üşşaq günü qərayə düşdü (səh.352)*

Üşşaq tərcümədə "aşiqlər" anlamını verir. Eyni zamanda "Mahur" və "Rast" muğamının şöbələrindən biridir ("Mayə" və "Üşşaq"). Başqa bir səhifədə (353) oxuyuruq:

*Ərcami-bəlavü qəmi-əlvan müsibət,*
*Üşşaqi – cigərxar ətəyindən əlin üzməz.*

Yaxud:

*Bülbül kimi cövtü ləhni dilkəş,*
*Xoş ləhcə sənəmlər içrə sədrdar*

"Dilkeş" (mənası ürəyə yatan deməkdir) bir çox muğamlarda, əsasən "Şahnaz" muğamında "Dilkeş" və "Zil Dilkeş" şöbəsi kimi səslənir. Abbasqulu ağa Bakıxanov şeirlərində çox işlətdiyi "Nəva" muğamı qədim muğamlardan biri sayılır, yəni XIV yüzillikdə ən çox səslənən "Nəva" zaman keçdikcə ixtisara düşüb. "Şur" muğamı onu üstələyib. Bu gün "Şur" xanəndələrin repertuarında özünə möhkəm yer tutmuşdur. Azərbaycan muğamını yaşadan məşhur xanəndələrdən Ağabala Ağasəid oğlu, Məşədi Məmməd, Məşədi İsi Qarabağlı, Ələsgər Abdullayev (şəkili Ələsgər), Cabbar Qaryağdı oğlu, Seyid Şuşinski, Əbül Həsənxan İqbal Azər Soltan (Güney Azərbaycan), eləcə də Bülbül, Zülfü Adıgözəlov, Xan Şuşinski, Əlibaba Məmmədov, Arif Babayev, Canəli Əkbərov, Zeynəb Xanlarova, Rübabə Muradova və Sara Qədimovanın adını çəkmək olar. Şair Əlişir Nəvai avaz mənasını verən "Nəva" adını özünə təxəllüs götürmüşdü. Qəzəl klassik şeirimizin ən çox yayılmış və tanınmış növüdür. Abbasqulu ağa Qüdsinin bizə gəlib çatan qəzəllərindən əksəriyyəti Füzuli şeirinin ruhunu xatırlatmaqdadır. Şairin qəzəllərinin əruz vəznində yazılması, klassik muğam oxuyan xanəndələrimizin repertuarının genişlənməsinə səbəb olur. Bildiyimizə görə, qəzəl və muğam vəhdət təşkil

edir. Əruz vəzni ərəb poeziyasında yaranmış, yaxın və orta Şərqin bir sıra ölkələrində yüksək qiymətləndirilən klassik janrdır. Azərbaycan şairləri də qəzəl janrında gözəl sənət nümunəsi yaratmışlar. Klassik və müasir Azərbaycan söz ustaları dilimizin qrammatik tələblərinə uyğun olaraq əruz vəzninə bir sıra bəhrlər və qəliblər əlavə etmişlər. Bu baxımdan respublikanın xalq artisti, xanəndə Canəli Əkbərov Abbasqulu ağa Bakıxanov qəzəllərini "Rast", "Mahur-Hindi", "Çahargah", yəni "Mayeyi-Çahargah", "Bəstənigar" şöbələrində və eləcə də "Segah" muğamlarında məharətlə ifa edir. Ümumiyyətlə, Abbasqulu ağa Bakıxanovun şeirlərində musiqi ilə bağlılığa tez-tez rast gəlinir. Şairin yazdığı şeir və qəzəllər həm də musiqiyə uyarlıdır:

*Qüdsinin qüssəsinə qissədə söylər bülbül,*
*Onun hər nəğməsinə qoşdu könül xoş əşar.*

Və yaxud:

*Yüz ümidlə olub nəğməsarə bülbüllər,*
*Duymayırlarmı, məgər fəsli-xəzandır hələ də.*

Mənim "Gözəlliklər məskəni" adlı mahnılar məcmuəm ("Azərnəşr", 1967) çap olunmuşdur. Bu məcmuədə dörd lirik mahnım var. Bunlardan ikisi Abbasqulu ağa Bakıxanovun sözlərinə yazılmış "Səbr elə" mahnısıdır. Bu əsər sevgilisinin həsrəti ilə ah-nalə çəkən, onu ancaq yuxusunda görə bilən qızın qəlb çırpıntılarını, tükənməz məhəbbətini tərənnüm edir.

Ərsəyə gətirdiyim əvvəlki mahnılarımda olduğu kimi, Abbasqulu ağa Bakıxanovun sözlərinə bəstələdiyim bu mahnıda da rəqs elementləri ilə mahnı janrı vəhdət təşkil edir.”Səbr elə” mahnısında qəm intonasiyaları var. Əsərdə muğamın “Hümayun” qolundan tamamilə yerində istifadə edildiyindən dinləyicilərdə hüznlü əhvali-ruhiyyə yaradır. Lakin, bu, ümidsizlik əhvali-ruhiyyəsi deyildir. Üzeyir Hacıbəyov “Hümayun” muğamının xarakterik cəhətini olduqca incə və obrazlı şəkildə müəyyənləşdirmişdir. Xarakteri etibarı ilə (estetik-psixoloji təsir gücünə görə) “Hümayun” “Şüştər”ə nisbətən daha dərin hüzn oyadır. “Səninlə bağlıdır bəxtiyarlığım” məhəbbət, səadət, dostluq kimi ən incə hisslər, lirik intonasiyalarla ifadə olunur. Harmonik müsiqi dilinin sadəliyinə görə bu əsər o birilərindən fərqlənir. 1994-cü ildə bəstələdiyim “Rahab” simfonik muğamını Abbasqulu ağa Bakıxanovun anadan olmasının 200 illiyinə həsr etmişəm. Yeni əsərimin əsasını Abbasqulu ağa Bakıxanov (Qüdsinin) çox sevdiyi  Azərbaycan xalq improvizasiyaları və Yaxın Şərqdə geniş yayılmış “Rahab” muğamı təşkil edir. Bu muğamda əvvəlki leytmotivlərdən yeri gəldikcə səsaltı kimi  istifadə etmişəm. Muğamın hər bir hissəsinin və yaxud şöbəsinin xarakterinə uyğun orkestrlədirilmiş və əsərin sonunu təntənəli səslənmə ilə tamamlamışam. Ümumiyyətə, qrammatikada rahab sözü yoxdur, “rəhavi” var. Ü.Hacıbəyov da “Azərbaycan xalq musiqisinin əsasları” əsərində yeddi əsas muğam və 12 avazat arasında “Rahab” deyil, “Rahavi” işlətmişdi. Bütün tarix boyu yazılan elmi əsərlərdə belə qeyd olunmuşdu. “Rəhavi” sözünün kökü “Rəha” sözündəndir. Mənası isə “hər bir dərddən azad olmaq” kimi anlaşılır. Bu söz Ərəbistanın ən məşhur şəhərlərindən biri olan Ürfəya verilən

ləqəbdir. Çünki, bu şəhərdə hər cür meyvə bitirmiş, onun suyu və havası sanki, hər bir dərdə dərman imiş. İbrahim Xəlil peyğəmbər də öz dinini bu şəhərdə təbliğ etmişdi. Alim və musiqişünas Hacı Dərviş aldığı təəssürata görə öz adı ilə bu şəhərə bir muğam həsr etmiş, onu "Rəhavi" adlandırmışdı. Muğamın özünə gəldikdə isə dediklərimizə tam uyğun olaraq, bu muğam lirik muğamdır. İkinci tərəfdən "Rəhavi" muğamı özünün melodik çalarlığı və lad quruluşu etibarilə "Şur" və "Nəva" muğamı çalınması dediyimiz lirizmi tam təsdiq edir. Bu muğamın əsl adı "Rahab" deyil, "Rəhavi" adlanmasını Nəsiminin aşağıdakı beyti də təsdiqləyir:

*Ahəngi-sifahan qılır ol nami-əraqi,*
*Rəhavi yolunda yenə canım qıla pərvaz.*

Mənim Abbasqulu ağa Bakıxanovun sözlərinə bəstələdiyim və müxtəlif illərdə çap olunmuş:

"Qüdsidən söz düşəndə" – 1978-ci il,

"Qüdsi. Birinci dəftər" – 1993-cü il,

"Qüdsi. İkinci dəftər" – 1994-cü il, –

əsərlərim lentə alınaraq Azərbaycan Dövlət Teleradio verilişləri şirkətinin Qızıl Fondunda saxlanılır. Eyni zamanda Abbasqulu ağa Bakıxanovun anadan olmasının 205 illiyinə həsr olunmuş "Sözləri Abbasqulu ağa Bakıxanovundur" adlı xalq çalğı alətləri orkestri üçün yazılmış 15 mahnının audio kaseti dinləyicilərə təqdim olunmuşdur. Mahnı və romansların ifaçıları; Zeynəb Xanlarova, İlhamə Quliyeva, Elmira Rəhimova, Flora Kərimova, Mobil Əhmədov, Rauf Adıgözəlov və Firudin Mehdiyevdir. Yazdığım bu əsərlər ulu babama məhəbbətimdir və

onun anadan olmasının 205 illiyinə yubiley töhfəsidir. Abbasqulu ağa Bakıxanov poeziyasının müxtəlif çalarlarını əks etdirən bu mahnı və romanslarla mən şeir mətninin ifadəliyini maksimal dolğunluqla göstərməyə çalışmışam.

**Tofiq Bakıxanov,**
bəstəkar, Xalq artisti, professor.

## Abbasqulu ağa Bakıxanovun fəaliyyəti və yaradıcılığında Naxçıvan mövzusu

Azərbaycan tarixinin ən keşməkəşli dövrlərindən birində yaşamış Abbasqulu ağa Bakıxanovu Azərbaycanın dünyaya bəxş etdiyi ən görkəmli şəxsiyyətlərdən biri kimi xarakterizə etmək mümkündür. Tarixçi kimi fəaliyyətinə görə bu şəxsiyyəti "Azərbaycan tarix elminin atası" da adlandırırlar. Başqa sözlə desək, Herodot dünya tarixi üçün hansı mövqedə dayanırsa, Abbasqulu ağa Bakıxanov Azərbaycan tarixi üçün həmin mövqedə dayanır. Herodotun "Tarix" əsəri dünya tarixi üçün nə qədər əhəmiyyətlidirsə, Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsəri Azərbaycan tarixi üçün o qədər əhəmiyyətli bir əsərdir. Azərbaycan maarifçiliyinin ilk üç nümayəndəsindən biri hesab edilən Abbasqulu ağa Bakıxanovun "Qanuni-Qüdsi", "Əsrarül-məlaküt", "Təhzibül-əxlaq", "Eynül-mizan" kimi əsərləri onun dil, coğrafiya, astronomiya, məntiq, psixologiya və sair elmləri gözəl bilən

ensiklopedik bir mütəfəkkir olduğunu göstərməkdədir. Bütün bunlarla yanaşı, Abbasqulu ağa Bakıxanov həm də görkəmli diplomat və tərcüməçi olmuşdur. O, dövrün reallıqlarını və tarixi proseslərin gedişatını əsl diplomat bacarığı ilə qiymətləndirməyi bacarmış, öz dünyagörüşünə uyğun olaraq, ölkəsini inkişafa aparacaq doğru bildiyi yolla hərəkət etmiş, Azərbaycan tarixinin ən taleyüklü məqamlarında mümkün imkanlardan istifadə edərək Vətəninin mənafeyinə xidmət etməyə çalışmışdır.

Bütün bunları göz önünə gətirdikdə bu il fevral ayının 12-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan "Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı Azərbaycan ictimai-mədəni fikir tarixinin görkəmli nümayəndəsi, böyük maarifçi, tanınmış alim və şair Abbasqulu ağa Bakıxanovun tarixi fəaliyyətinə verilən böyük qiymət hesab etmək olar. Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Tədbirlər Planının təsdiq edilməsi bu şəxsiyyətin fəaliyyətində Naxçıvan mövzusunun öyrənilməsini vacib vəzifələrdən biri kimi qarşımıza qoyur. Qeyd edək ki, təsdiq edilmiş Tədbirlər Planında bu ilin iyun ayında Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyi ilə bağlı elmi konfransın keçirilməsi, muxtar respublikanın mədəniyyət müəssisələrində sərgilərin yaradılması, oxucu konfranslarının təşkili və digər tədbirlər nəzərdə tutulmuşdur.

Abbasqulu ağa Bakıxanovun həm diplomatik, həm də tarixçilik fəaliyyətində Naxçıvan mövzusu xüsusi yer tutur. 1819-

cu il dekabr ayının 20-dən etibarən general Yermolovun dəvəti ilə Tiflisə gəlib Qafqaz Baş Hərbi İdarəsində Şərq dilləri tərcümanı vəzifəsində fəaliyyətə başlamış Abbasqulu ağa Bakıxanov düz 26 il bu vəzifədə çalışmışdır. O, 1820-ci il sentyabr ayının 4-də praporşik, 1826-cı il iyul ayının 20-də poruçik, 1827-ci il oktyabr ayının 14-də ştabs-kapitan, 1828-ci il avqust ayının 7-də kapitan, 1829-cu il aprel ayının 21-də mayor, 1832-ci il mart ayının 9-da podpolkovnik rütbələrinə yüksəlmişdir. Hərbi diplomatik fəaliyyətə başladıqdan sonra onun üzərinə qoyulan ən mühüm vəzifələrdən biri 1813-cü ildə bağlanmış Gülüstan müqaviləsinin mübahisəli sərhəd məsələlərinin həlli olmuşdur. 1826-1828-ci illərdə Naxçıvan və İrəvan xanlıqları uğrunda İran və Rusiya arasında gedən müharibədə Abbasqulu ağa Bakıxanov fəal mövqeyə malik olmuş, Naxçıvan ətrafında rusların iranlılara qarşı apardığı döyüşlərin hamısında iştirak etmişdir. Bakıxanov ştabs-kapitan rütbəsini də məhz Naxçıvandakı Abbasabad qalasının tutulmasında göstərdiyi xidmətlərə görə almışdır. Qeyd edək ki, Naxçıvan şəhərinin 6 kilometr cənub-şərqində, Araz çayı sahilində yerləşən hərbi istehkam tipli Abbasabad qalası fransız hərbi mütəxəssislərinin layihəsi əsasında 1809-1810-cu illərdə tikilmiş və o dövrün ən möhkəm qalalarından biri hesab olunmuşdur. "Naxçıvan Abidələri Ensiklopediyası"nda qeyd olunur ki, qala İran mövqelərinin rus ordusunun hücumlarından qorunması üçün mühüm məntəqə hesab edilirdi.

Bəzi müəlliflər ehtimal edirlər ki, Abbasqulu ağa Bakıxanov Abbasabad qalasının mühafizi olmuş Ehsan xan Kəngərli ilə rusların apardığı diplomatik danışıqlarda iştirak etmişdir. Bu barədə Bakıxanovlar nəslinin digər bir núma-

yəndəsi Gültəkin Bakıxanova 1984-cü ildə rus dilində çapdan çıxmış "Qüdsi haqqında etüdlər" adlı əsərində də məlumat vermişdir.

Ənvər Əhmədov 1989-cu ildə rus dilində çapdan çıxan "Abbasqulu ağa Bakıxanov dövrü, həyatı, fəaliyyəti" adlı kitabında onun diplomatik istedadına rus generalı Paskeviç tərəfindən verilən qiyməti generalın sözləri ilə ifadə etmişdir. "Persiya müharibəsində mən onun hərbi fəaliyyətinə xüsusilə güvənirəm". Daha sonra rus generalı mərkəzin diqqətinə xüsusi olaraq çatdırırdı ki, Abbasqulu ağanın diplomatik bacarığı, fars dilinə və proseslərə dərindən bələd olması nəticəsində Persiya ilə bütün siyasi danışıqlar onun vasitəçiliyi ilə aparılmışdır.

Naxçıvan Muxtar Respublikasının rəsmi internet portalında verilən belə bir məlumat da diqqət çəkir: "Bakıxanov və A.S.Qriboyedov İrana gedərkən Ehsan xan Kəngərlinin Xan dikindəki sarayında qonaq olmuşlar. A.S.Qriboyedov "İrəvan yürüşü" yol qeydlərində bu barədə bəhs etmişdir". Tarixçi-alim Musa Quliyevin yazdığına görə isə Abbasqulu ağa Bakıxan¬ov 1828-ci ildə 4 aydan çox Naxçıvanda qalmış və hətta Qarabağlar kəndindən həyat yoldaşı Səkinə xanıma rus dilində məktub da yazmışdır. Tədqiqatçı qeyd edir ki, həmin məktublar sonralar tərcümə edilərək "Azərbaycan" jurnalında çap edilmişdir.

Abbasqulu ağa Bakıxanovun  "Gülüstani-İrəm" əsəri bütövlükdə Qafqaz tarixi üçün olduğu kimi, Naxçıvan tarixi üçün də ən dəyərli mənbələrdən biridir. Beş fəsildən ibarət olan əsərdə o, Naxçıvanın tarixi ilə bağlı məsələlərə də toxunmuşdur. Naxçıvan, Cülah (Culfa), Naxçıvan duzlağı, Alıncaq (Əlincə) qalası, Şərur, Ordubad haqqında müxtəlif tarixi hadi-

sələrlə bağlı bəhs edən Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsərində bizə görə Naxçıvan tarixi-coğrafiyası üçün və ümumilikdə, mənfur qonşularımıza cavab vermək üçün ən dəyərli fikir aşağıdakıdır: *"Nadir dövrünün axırlarında qaçıb Şəki və Şirvan ölkələrində keçinən Pənah bəy İbrahim Xəlil oğlu Cavanşir ardıcıl davam edən müharibələr nəticəsində xanlıq ləqəbilə Qarabağda hökmranlıq bayrağını yüksəltdi. Əvvəlcə Bayat və daha sonra Tərnaut qalasını bina etdi. Xudafərin körpüsündən başlayaraq Kürək çayına və Bərgüşat mahalına qədər yerləri ələ keçirdi.*

*Bundan əlavə, Qaradağa aid Mığrı və Güney mahallarını, Naxçıvana aid Tatif və Sisyanı, İrəvana aid Tərtər Kolanını və Təbrizə aid olan Zəngəzur və Qapanı tutdu. O, bəzən Ərdəbil və sair kimi qonşu ölkələri də özünə tabe edirdi".*

Əsərdən olduğu kimi çəkdiyimiz bu sitatdan da göründüyü kimi, o zaman Tatif və Sisyan əraziləri Naxçıvanın tərkib hissəsi – ulu türk torpağı olmuşdur. Naxçıvanın və ümumilikdə, Azərbaycanın tarixi üçün onlarla belə əhəmiyyətli faktları sadalayan Abbasqulu ağa Bakıxanovun həyatı, yaradıcılığı, əsərləri dərindən öyrənilməli, təbliğ olunmalı və öyrədilməlidir. Bunu bizə müstəqil dövlətçiliyimizin keçdiyi 23 illik tarixi inkişaf yolu diktə edir. Bizi buna Azərbaycan dövlətçiliyinin keşiyində olduğu kimi, Azərbaycanın və Naxçıvanımızın tarixinin keşiyində də ləyaqətlə duran ali iradə təşviq edir. Tariximizi dərindən öyrənməyi, bilməyi və bu tarixi qoruyanların özünü qorumağı isə bizim hər birimizin vətəndaşlıq vicdanı bizdən tələb etməlidir.

**Elnur Kəlbizadə,**

"Şərqin qapısı", 25 oktyabr 2016-cı il.

# Bakıxanov yeni nəşrlərdə

### "Qüdsinin musiqi dünyası"

Azərbaycan dövləti milli-mənəvi dəyərlərimizə, elm, ədəbiyyat, sənət xadimlərimizin yaradıcılığının təbliğinə daim qayğı ilə yanaşıb və həmin tendensiya indi də davam edir. Prezident İlham Əliyevin ötən il fevralın 12-də imzaladığı "Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam da bunun təsdiqidir.

Sərəncamın icrası prosesində – 2014-cü il boyu keçirilən tədbirlər silsiləsi Bakıxanovlar şəcərəsinin görkəmli nümayəndəsi, Xalq artisti, "Şöhrət" ordenli bəstəkar, Bakı Musiqi Akademiyasının professoru Tofiq Bakıxanovun "Qüdsinin musiqi dünyası" adlı kitabının çap olunması ilə yekunlaşdı. İlin son günlərində, "Şərq-Qərb" Nəşriyyat evində, Xalq artisti, professor Ağaverdi Paşayevin redaktəsi ilə, nəfis şəkildə işıq üzü görən bu kitab ulu öndər Heydər Əliyevin xalqımızın dünya elminə bəxş etdiyi görkəmli simalar - Nəsirəddin Tusi, Əbülhəsən Bəhmənyar, Mirzə Fətəli Axundov və Abbasqulu ağa Bakıxanov barədə söylədiyi dəyərli fikirlərlə açılır. Sonrakı səhifədə dövlət başçımızın adı çəkilən Sərəncamı verilir və qeyd olunur ki, kitab məhz həmin Sərəncam əsasında çap olunur. Eyni zamanda, ön səhifələrdən birində Naxçıvan Muxtar

Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin muxtar respublikada keçirilməsi ilə əlaqədar Tədbirlər Planını təsdiq edən 7 mart 2014-cü il tarixli Sərəncamı da verillmişdir. Xalq şairi Nəriman Həsənzadənin kitaba yazdığı "Ön söz"də deyilir: " Abbasqulu ağa Bakıxanovu, adətən, "Azərbaycan tarix elminin atası" adlandırırlar. Məlum olduğu kimi , böyük tədqiqatçı "Gülüstani -İrəm" kitabında 1813-cü ildə imzalanmış Gülüstan müqaviləsinə qədərki tariximizi ilk dəfə müəyyən bir sistemlə, ardıcıllıqla qələmə almışdır. Nizami Gəncəvidən ta Hacı Zeynalabdin Şirvaniyə qədər yaşamış tarixi şəxsiyyətlər barədə ilk elmi məlumat verdiyi üçün, mənə elə gəlir ki, o, ədəbiyyat tariximizin də atası sayıla bilər. Bu da təbiidir. Çünki Bakıxanov maraqlı bir ədəbi mühitdə yaşamış, gözəl, lirik şeirlərin müəllifi kimi qələm yoldaşları arasında nüfuz qazanmışdır". Professor Tofiq Bakıxanovun böyük alimin musiqi dünyası barədə qələmə aldığı əhatəli materialda isə Abbasqulu ağanın Şərq musiqisi, xüsusən, Azərbaycan muğamları barədə dərin biliklərə malik olduğu barədə çoxsaylı faktlarla təsdiqlənir. Kitabda böyük tarixi şəxsiyyətin sözlərinə yazılmış müxtəlif musiqi əsərlərinin sözlərindən və not yazılarından sonra "Abbasqulu ağa Bakıxanov təsviri sənətdə" adlı ayrıca bir bölmə də verilmişdir. Daha sonra isə "Xalq qəzeti"nin 10 avqust 2014-cü il tarixli sayında verilmiş "Naxçıvanda Abbasqulu ağa Bakıxanovun özü, sözü və izi haqqında eşitdiklərimiz" adlı məqalədən (müəllif Əməkdar jurnalist İttifaq Mirzəbəylidir) sitatlar gətirilir. Müəllifin muxtar respublikaya səfərinin təəssü-

ratları əsasında qələmə alınmış həmin məqalədə qeyd olunurdu ki, tarixçi alimlərin yazdığına görə, 1828-ci ildə Naxçıvan xanının ən hörmətli qonaqlarından biri məhz Abbasqulu ağa Bakıxanov olmuşdur.

**Gülzar İbrahimqızı,**
AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin
baş elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru

## "Bakıxanov – Qüdsi"

Bu günlərdə "Elm" nəşriyyatında AMEA Nizami adına Ədəbiyyat İnstitutunun "Yeni dövr Azərbaycan ədəbiyyatı" şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Zaman Əsgərlinin "Bakıxanov-Qüdsi" monoqrafiyası çapdan çıxmışdır.

"Bakıxanov – Qüdsi" monoqrafiyasında XIX əsr Azərbaycan ədəbi-ictimai, siyasi-mədəni və elmi fikrinin görkəmli nümayəndəsi: böyük şair, naşir və ensiklopedist alim Abbasqulu ağa Bakıxanovun tərcümeyi-halı və yaradıcılığı haqqında geniş məlumat verilir. İlk dəfə olaraq Qüdsinin lirikası, epik poeziyası, bədii nəsri, habelə elmin müxtəlif sahələrinə dair əsərləri əhatəli elmi təhlil predmetinə çevrilir. Monoqrafiyanın xüsusi fəslində A.Bakıxanov irsinin tədqiqi məsələlərindən ətraflı söhbət açan Zaman Əsgərli qazanılan uğurlarla yanaşı qarşıda duran vəzifələri də qeyd edir.

"Bakıxanov - Qüdsi" kitabında müəllif yazıçı-alimin bədii və elmi əsrlərini yeni baxış bucağından təhlil etməyə, müsairlik

baxımından qiymətləndirməyə, XIX əsrdə yaşamış böyük şair və alim haqqında çağdaş oxucularda bütöv elmi təsəvvür yaratmağa çalışmışdır.

Monoqrafiyanın yazılmasında çoxsaylı ədəbiyyat nümunələrindən istifadə olunmuşdur.

**Əliyar Səfərli,**
AMEA-nın müxbir üzvü,
filologiya elmləri doktoru, professor
may 2016-cı il

## "Gülüstani-irəm"

Amerika Birləşmiş Ştatlarının paytaxtında yaşayan soydaşlarımızdan biri bəstəkar Tofiq Bakıxanovun ünvanına okeanın o tayında nəşr olunmuş bir kitab göndərmişdir. Vaşinqtondakı "Mage" Nəşrlər evində işıq üzü görmüş "Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm əsəri"ndə böyük mütəfəkkirin elmi fikirləri ilə yanaşı, çoxlu sayda tarixi xəritələr, rəsmlər və daha sonrakı dövrləri əhatə edən  bəzi fotoşəkillər verilmişdir. Kitabı ingiliscəyə Villem Flo və Həsən Cavadi tərcümə etmişlər. Villem Flo bir çox tarixi kitabların ingilis dilinə tərcümə edilməsilə özünəməxsus nüfuz qazanmışdır. Onun tərcümə edib ABŞ oxucularına təqdim etdiyi kitablar arasında "Qacarlar İranında səhiyyə", "Qacarlar İranında teatr tarixi ", "İran körfəzi: "Beş liman şəhərinin siyasi və iqtisadi tarixi" , "Körfəz ölkələrinin yüksəlişi", "Samuel Quttlebin Şimali İrana səfəri" və başqa əsərlər də vardır. Kembric və

Berkli universitetlərinin məzunu olan doktor Həsən Cavadi isə ABŞ oxucularına Şərq xalqlarının həyatından bəhs edən silsilə tərcümələr təqdim etmişdir. "İran ədəbiyyatında satira" , "İngilis ədəbiyyatına İran ədəbiyyatının təsiri" kimi elmi əsərləri ingilis dilinə tərcümə edən doktor Cavadi sonuncu İran şahlarının həyatından və avropalıların İrana səfərlərindən bəhs edən bir sıra publisistik kitabların da tərcüməçisidir. Ərəb alimi Üveyd əl Zəkaninin "Kübarların etikası" kitabı isə bir tərcüməçi kimi Həsən Cavadiyə daha böyük nüfuz qazandırmışdır. O, "Brounun Təbriz məktubları" kitabının redaktorudur. Qeyd edək ki, Vaşinqtonda işıq üzü görən bu kitab Abbasqulu ağa Bakıxanovun indiyədək Azərbaycan və fars dillərində nəşr olunmuş kitabları əsasında tərcümə və tərtib edilmişdir. Maraqlı məqamlardan biri biri də odur ki, həmin kitabın tərtibatında Abbasqulu ağa Bakıxanovun müasiri olmuş rus hərbçisi, rəssam Qriqori Qaqarinin (1830-1893) çəkdiyi şəhər və qala şəkilləri ilə yanaşı, Abbasqulu ağanın portretindən də istifadə olunmuşdur. Məlumat verilir ki, Q.Qaqarinin Qafqazda hərbi xidmətdə olduğu illərdə çəkdiyi "Şamaxı rəqqasələri" və "A.A.Bakıxanovun portreti "əsərləri ona böyük nüfuz qazandırmışdır. Vaşinqtonda nəşr olunmuş kitabın üz qabığında Qaqarinin Bakı xanlarının sarayını və Ramana qalasını təsvir etdiyi şəkillər verilmişdir.

**İttifaq Mirzəbəyli,**

"Xalq qəzeti", 11 dekabr 2015-ci il.

## "Ərəb səhrasında ölüm"

Rusiya paytaxtında tanınmış azərbaycanlı yazıçı və publisist Əbdül Hüseynovun XIX əsrin görkəmli maarifçisi Abbasqulu ağa Bakıxanovun həyat və yaradıcılığından bəhs edən "Ərəb səhrasında ölüm" adlı kitabının təqdimat mərasimi keçirilib. Lent.az-ın APA-ya istinadən verdiyi xəbərə görə, Nekrasov adına kitabxanada keçirilən mərasim Ümumrusiya Azərbaycan Konqresi (ÜAK) və "Şəhriyar" ədəbi-mədəni Cəmiyyəti tərəfindən təşkil olunub.

Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinə həsr olunmuş kitabın təqdimat mərasimini giriş sözü ilə açan ÜAK-ın məsləhətçisi Manaf Ağayev görkəmli maarifçinin Azərbaycan tarix elmi və ictimai həyatında oynadığı böyük roldan danışıb.

Tədbirdə çıxış edən jurnalist, filologiya elmləri namizədi Anar Həsənov yazıçının Rusiya-Azərbaycan dostluğunda oynadığı rol barədə söz açıb. Kitab barədə ədəbi-tənqidi fikri isə filologiya elmləri doktoru Abuzər Bağırov səsləndirib. O, "Ərəb səhrasında ölüm" kitabında Azərbaycan adlarının yazılışı ilə bağlı qeyri-dəqiqliyin olduğunu qeyd edib.

Ümumrusiya Azərbaycan Konqresinin Hüquq Müdafiə Mərkəzinin rəhbəri Vladislav Şvetsov Əbdül Hüseynovun kitabının qəhrəmanının təkcə böyük maarifçi olmadığını, həm də öz əsrinin dahi insanı oldğunu söyləyib. Tədbirdə çıxış edən şair Əliş Qasımov və Sultan Mərzili Əbdül Hüseynova Azərbaycan mədəniyyəti və tarixinin Rusiyada təbliğinə görə təşəkkürlərini bildiriblər. Mərasimin sonunda Azərbaycanın əməkdar artisti tarzən Qorxmaz Axundov və vokalistlərin beynəlxaq mü-

sabiqəsinin laureatı Yevgeniya Sorokina tərəfindən musiqi nömrələri səslənidirilib.

## "Abbasqulu ağa Bakıxanovun şəxsi arxivi"

"Elm və təhsil" nəşriyyatı Azərbaycan MEA Füzuli adına Əlyazmalar İnstitutu Elmi Şurasının 19.09.16-cı il tarixli 07 №-li iclasının qərarı ilə tərtibçi İradə Vəzirovanın eyni adlı kitabını nəşr etmişdir. Kitabda görkəmli maarifçi, şair, mütəfəkkir, hərbi diplomat Abbasqulu ağa Bakıxanovun Əlyazmalar İnstitutunun fondunda qorunan şəxsi arxiv materialları ilk dəfə olaraq təsvir olunmuşdur. Qeyd olunur ki, A.A.Bakıxanovun 1934-cü ildə toplanmağa başlanmış şəxsi arxiv sənədləri 1№-li fondda yerləşdirilmişdir. Təəssüf hissiylə bildirilir ki, A.Bakıxanov Həcc ziyarətini tamamlayıb Dəməşqə dönərkən vəfat etmiş, onun Qubadakı evində toplanmış əlyazmaları, şəxsi sənədləri və zəngin kitabxanası pərakəndə hala düşərək itirilmişdir. Bunlardan bəziləri, o cümlədən ən dəyərli əsərlər və əlyazmalar o zaman Sankt Peterburq şəhərinə aparılmışdır. İllər keçdikdən sonra Abbasqulu ağaya aid olan materiallar, sənədlər yenidən zərrə-zərrə toplanaraq, Əlyazmalar İnstitutunda onun şəxsi fondu yaradılmışdır. Ümid edirik ki, bu kitab dahi mütəfəkkirin həyatı, hərbi xidməti, diplomatik fəaliyyəti və yaradıcılığı ilə məşğul olan tədqiqatçılara yeni məlumatlar əldə etməkdə yardımçı olacaq.

**İradə Vəzirova**

## Naxçıvanda A.Baxıxanovun 220 illik yubileyi qeyd olundu

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2014-cü il fevralın12-də Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncama əsasən, Naxçıvan Muxtar Respublikasında Tədbirlər Planı təsdiq olunmuş, böyük mütəfəkkirin yubileyi silsilə tədbirlərlə qeyd olunmuşdur. İyulun 2-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Abbasqulu ağa Bakıxanovun 220 illik yubiley tədbiri keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Bakıxanovlar nəslinin nümayəndəsi, böyük bəstəkar Tofiq Bakıxanov və ailə üzvləri tədbirdə iştirak etmişlər.

Yubiley tədbirində Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək demişdir ki, tarixi, ictimai, elmi və bədii fəaliyyəti ilə mənsub olduğu xalqın keçmişinə yox, gələcəyinə xidmət göstərdiyini dəfələrlə sübut edən Abbasqulu ağa Bakıxanov kimi şəxsiyyətlərin yubileylərinin yüksək səviyyədə qeyd olunması müstəqil ölkəmizdə elmə və yaradıcı şəxslərə verilən qiymətin ifadəsidir. Ölkə Prezidentinin Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin keçirilməsi haqqında Sərəncamda deyilir: *"Ensiklopedik biliyə və əhatəli dünyagörüşünə malik şəxsiyyət kimi Abbasqulu ağa Bakıxanov elmin, mədəniyyətin ən müxtəlif sahələrinə aid zəngin bir irs yaratmışdır.*

*Xalqın həyatında əsaslı dəyişikliklərə yol açmış maarifçilik ideyalarının bərqərar olmasında onun mühüm xidmətləri vardır. Azərbaycanın tarixi keçmişinin müasir dünya elmi səviyyəsində yeni, sistemli tədqiqi mərhələsi Bakıxanovun adı ilə sıx bağlıdır".*

İsmayıl Hacıyev muxtar respublikanın çoxsaylı elmi ictimaiyyəti, ziyalılar adından xalqımızın tarixi şəxsiyyəti Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığını bildirmişdir. İsmayıl Hacıyev bildirmişdir ki, Abbasqulu ağa Bakıxanov ensiklopedik biliyə, geniş dünyagörüşünə malik olmaqla yanaşı, yurdunu, xalqını, dilini sevən bir vətənpərvər idi. Bu gün Abbasqulu ağa Bakıxanovu anarkən onun hərbi hünərləri və siyasətçi uğurlarından deyil, elmi və ədəbi fəaliyyətindən söz açılır. Fəlsəfə, tarix, coğrafiya və başqa bir çox elmləri dərindən bilən Abbasqulu ağa bu elm sahələrinə aid dəyərli əsərlər yazmışdır. O, orta əsrlərdən yeni dövrə, Asiyadan Qərbə, ənənədən müasir mənada elmə keçidi hazırlayan ilk böyük maarifçi ədib və alimdir.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyev tədbirdə çıxış edərək demişdir ki, Abbasqulu ağa Bakıxanov yaradıcılığı ilə özünü bütün sahələrə çox yaxşı bələd olan dahi bir şəxsiyyət kimi göstərə bilmişdir. Onun "Riyazül-Qüds", "Qanuni-Qüdsi", "Gülüstani-İrəm", "Əsrarül-məlakūt", "Təhzibül-Əxlaq", "Kəşfül-Qəraib", "Eynül-mizan" və başqa əsərləri dəyərli elmi ədəbiyyatdır. Abbasqulu ağa Bakıxanovun bədii əsərləri içərisində mənzum hekayələri, qəsidə, qəzəl, qitə,

rübai, məsnəvi formalarda yazılmış əsərləri, nəsihətləri, "Miş-katül-ənvar" adlı poeması, "Miratül-camal" adlı avtobioqrafik şeirləri vardır.

Bakıxanov özündən əvvəl yaşamış klassık Azərbaycan şairlərinin, eləcə də Şərq şairlərinin yaradıcılığına dərindən bələd olmuş, onların yaradıcılığından bəhrələnmiş, klassik şeir formalarından məharətlə istifadə etmişdir. Anadan olmasının 220 illiyini qeyd etdiyimiz Abbasqulu ağa Bakıxanov xalqımızın böyük alimi, şairi, yazıçısı, tarixçisi, coğrafiyaşünası, bir sözlə, ensiklopedik biliyə malik mütəfəkkir kimi Azərbaycan tarixində mühüm yer tutan görkəmli tarixi şəxsiyyətlərdən biridir.

Tədbirin bədii hissəsində Abbasqulu ağa Bakıxanovun "Nəsihətlər", "Təhzibül-əxlaq" və "Bəslər" əsərlərindən seçmələr bədii qiraət olunmuş, Naxçıvan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestrinin müşayiəti ilə böyük mütəfəkkirin qəzəlləri üstündə muğamlar oxunmuş, görkəmli bəstəkar Tofiq Bakıxanovun Abbasqulu ağa Bakıxanovun sözlərinə bəstələdiyi mahnıları ifa olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti.**
"Şərq qapısı", 03 iyul 2014-cü il

# Böyük mütəfəkkirə həsr olunmuş sərgi

Ulu öndər Heydər Əliyev Azərbaycan milli məfkurə xəzinəsini formalaşdırmış tarixi şəxsiyyətlərimiz haqqında danışarkən Əbülhəsən Bəhmənyar, Nəsirəddin Tusi, Mirzə Fətəli Axundzadə və Abbasqulu ağa Bakıxanovun adlarını xüsusilə vurğulamışdır.

Bu dəqiq və yüksək qiymətləndirməni əsas götürən elm, təhsil və mədəniyyət müəssisələrimizdə həmin tarixi şəxsiyyətlərin həyat və yaradıcılığına dövri olaraq müraciət edilir. Belə müəssisələrin önündə Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli  Kitabxanası gedir. Kitabxananın həmin silsilədən olan növbəti tədbiri Abbasqulu ağa Bakıxanov mövzulu kitab, qəzet və jurnal məqalələrindən ibarət sərginin təşkil edilməsi idi. Sərginin açılışında tamaşaçılara geniş məlumat verən mədəni-kütləvi işlər şöbəsinin baş kitabxanaçısı Jalə Məmmədova bildirdi ki, XIX əsr Azərbaycan maarifçilərindən biri olan Abbasqulu ağa Bakıxanov şair, yazıçı, alim, mütəfəkkir və tərcüməçi kimi mükəmməl bir yaradıcılıq irsi qoyub getmişdir. O,”Gülüstani-İrəm” əsəri ilə Azərbaycan, ərəb və fars dillərində şeirlər yazmışdır. Natiq qeyd etmişdir ki, tamaşaçıların ixtiyarına verilən sərgidə böyük mütəfəkkirin öz əsərlərindən və onun haqqında  yazılmış əsərlərdən ibarət, təxminən, 120 kitab və bir o qədər də qəzet, jurnal və digər çap  məhsulları nümayiş etdirilir. Sərgidəki ən qədim kitab 1831-ci ildə Tiflisdə fars dilində nəşr edilmiş “Qanuni-Qüdsi” kitabı, ən yeni çap məhsulu isə Az.TV-nin əməkdaşı Həsən Cəbrayılovun son otuz-qırx

ildə A.A.Bakıxanov haqqında hazırlanmış televiziya verilişləri əsasında toplayaraq bu günlərdə oxuculara təqdim etdiyi kitabdır. Burada Tiflis, Bakı, Moskva, Tehran, İstanbul, Varşava, Ankara, Leninqrad, Vaşinqton və digər şəhərlərdə çap olunmuş kitablar toplanmışdır. Böyük ədibin yaradıcılığı və onun haqqında yazılmış elmi əsərlər barəsində tamaşaçıların təhsil prosesində kifayət qədər məlumata malik olduğunu yada salan baş kitabxanaçı, bu qəbildən olmayan iki kitab haqqında öz fikirlərini söyləmək istədi. Həmin kitablardan biri Əməkdar jurnalist İttifaq Mirzəbəylinin 2011-ci ildə tərtib etdiyi "Qüdsi əbədiyyəti" kitabı, digəri isə Tahirə Nurullayevanın "Əlyazmaları kolleksiya kataloqu" adlı kitab idi. "Qüdsi əbədiyyəti" kitabında hələ Abbasqulu ağa Bakıxanovun sağlığında (Puşkinin anasından başlayaraq) qələmə alınmış, eləcə də ölümündən sonra bugünədək qəzet və jurnallarda verilmiş bütün rusdilli və anadilli məqalələr toplanmışdır. Həmin kitabda Azərbaycanın ən görkəmli filosof, filoloq və tarixçilərin böyük mütəfəkkir haqqında məqalələri vardır. "Əlyazmaları kolleksiya kataloqu" nun nə dərəcədə dəyərli olması isə bu kitabın adından da görünür. Sərginin açılışında iştirak edən Bakıxanovlar sülaləsinin görkəmli nümayəndəsi, Xalq artisti, professor, "Şöhrət" ordenli bəstəkar Tofiq Bakıxanov ulu babasının xatirəsinə ehtirama görə Milli Kitabxananın rəhbərliyinə, sərginin təşkilatçılarına və qonaqlara bütün Bakıxanovlar adından minnətdarlıq etdi.

**Rafiq Salmanov**

"Xalq qəzeti", 03 iyul 2016-cı il



# Əhməd Bakıxanov

## Əhməd Bakıxanov

Görkəmli tarzən, pedaqoq, musiqi xadimi Əhmədxan Bakıxanov 5 sentyabr 1892-ci ildə Bakıda anadan olmuşdur. İlk təhsilini İranda almış, burada ustad tarzənlərdən tar ifaçılığının və muğamatın sirlərinə dərindən yiyələnmiş, 1920-ci ildən Bakıda musiqi məclislərində və konsertlərdə çalmış, müəllimlik etmişdir. 1930-cu illərdən Üzeyir Hacıbəyovun dəvəti ilə Azərbaycan Dövlət Konservatoriyasında, daha sonra Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Məktəbində muğamdan dərs demişdir (1930-1973). Azərbaycan radiosunun nəzdində xalq çalğı alətləri ansamblının təşkilatçısı və rəhbəri (1931-1973) olmuşdur. 1973-cü ildən həmin ansambl Əhməd Bakıxanovun adını daşıyır. Bu ansambl bir çox görkəmli xanəndələri – Cabbar Qaryağdıoğlunu, Seyid Şuşinskini, Hüseynqulu Sarabskini, Xan Şuşinskini, Zülfü Adıgözəlovu və başqalarını müşayiət etmiş, geniş konsert proqramları ilə çıxış etmişdir. Azərbaycan xalq musiqisinin, xüsusilə muğamların təbliğində tarzən Əhməd Bakıxanovun böyük xidməti var. O, muğam sənətinin dərin bilicisi olmuş, ifaçılıq təcrübəsində az ifa olunan “Nəva-Nişabur”, “Əbu-Əta" muğamlarının mahir ifaçısı kimi tanınmışdır. Eyni zamanda, onun yaratdığı bir çox melodiyalar, rənglər xalq ifaçılığında geniş yayılmışdır. Ə.Bakıxanov “Azərbaycan xalq rəngləri” (1964), “Azərbaycan ritmik muğamları” (1968), “Muğam, mahnı, rəng” (1975) kimi not nəşrlərinin mü-

əllifidir. Bu məcmuələr xalq musiqisinin tədrisi və tədqiqi üçün qiymətli vəsaitdir. Onun musiqi məktəbləri üçün tərtib etdiyi muğam proqramı tar tədrisində bu gün də istifadə olunur. O, 1943-cü ildə, Azərbaycanın əməkdar müəllimi, 1973-cü ildə Azərbaycanın Xalq artisti fəxri adlarına layiq görülmüşdür. Ə.Bakıxanov ömrünün çox hissəsini musiqi kadrlarının tərbiyəsinə həsr etmişdir: Həbib Bayramov, Əhsən Dadaşov, Sərvər İbrahimov, Əliağa Quliyev, Əlikram Hüseynov onun tələbələri olmuşlar. Bir çox bəstəkarın (Arif Məlikov, Hacı Xanməmmədov, Nəriman Məmmədov və b.) muğam müəllimi olmuşdur. İranın məşhur musiqiçiləri; bəstəkar Əli Səlimi və tarzən Adil Axundzadə onun yetirmələri olmuşlar. Əhməd Bakıxanovun ifasından bəstəkar N. Məmmədov tərəfindən bir çox instrumental muğamlar: "Rast", "Şur", "Bayatı-Şiraz", "Segah-Zabul", "Rahab", "Şüştər", "Hümayun", "Şahnaz" muğamları nota salınaraq çap olunmuşdur. Ə.Bakıxanovun oğlu, bəstəkar, xalq artisti Tofiq Bakıxanov onun ifaçılıq üslubundan bəhrələnərək, "Dügah", "Nəva", "Şahnaz", "Hümayun", "Rahab" simfonik muğamlarını bəstələmişdir. Əhməd Bakıxanovun mənzilində Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyinin filialı yaradılmış, burada tarzənin xalq çalğı alətlərindən ibarət zəngin kolleksiyası nümayiş olunur. 1994-cü ildə Əhməd Bakıxanovun 100 illiyinə həsr olunmuş tələbə və gənclərin tar alətində muğam ifaçılığı üzrə respublika müsabiqəsi keçirilmişdir. Dahi tarzən-pedaqoq 1973-cü ildə Bakıda vəfat etmişdir. Onun həyatından bəzi məqamlar:

1900-1901. Bakı şəhər gimnaziyasında oxumuşdur.

1908. Cənubi Azərbaycanın məşhur musiqiçisi Əbülhəsən xan İqbal Azər Soltandan tar ifaçılığını öyrənmişdir.

1912. ”Səadət” məktəbinə təyin olunmuş, sonralar şəhər məktəbində təhsilini davam etdirmişdir.

1918. Birillik mühasibat kurslarına daxil olmuşdur.

1920. Xalq Ərzaq komissariatının kooperativ kurslarına daxil olmuşdur.

1927-1973. Azradiokomitəsinin tar ifaçısı

1927-1973. Azərbaycan Dövlət Konservatoriyasında dərs vermişdir.

1931-1937. Azradiokomitəsinin solistlər ansamblının rəhbəri olmuşdur.

1933-1973. Türk musiqi texnikumunda dərs demişdir (sonralar Asəf Zeynallı adına Musiqi məktəbi adlandırılmışdır).

1936-1973. Azradiokomitəsində xalq çalğı alətləri ansamblının rəhbəri olmuşdur (sonralar televiziya və radionun)

1940. “Şərəf nişanı” ordeni ilə təltif olunmuşdur

1943. “Azərbaycanın əməkdar pedaqoqu” fəxri adına layiq görülmüşdür.

1964. “Azərbaycan SSR-nin əməkdar incəsənət xadimi” fəxri adına layiq görülmüşdür. “Rənglər və dəramədlər” adlı müəllif kitabı işıq üzü görmüşdür.

1968. Ə.Bakıxanovun ifasından yazılmış “Azərbaycanın ritmik muğamları” kitabı nəşr edilmişdir .

1973. “Melodiya” firması “Şur”, “Xaric Segah”, “Hümayun”, “Dəşti”, “Bayatı Qacar”, “Segah” muğamları yazılmış qrammafon vallarını buraxmışdır.

1973 Azərbaycan Televiziya və Radiosunun xalq çalğı alətləri ansamblına Əhməd Bakıxanovun adı verilmişdir.

# Müasirləri Əhməd Bakıxanov haqqında

## Xoş təranələr dəstəsinin rəhbəri

### 1. İlk tanışlığım

1936-cı ildə tərəqqipərvər bəşəriyyət dahi İran şairi Firdövsinin 1000 illik yubileyini təmtəraqla qeyd edirdi. SSRİ məkanında, xüsusilə Azərbaycan və Tacikistanda bu yubileyə hazırlıq yüksək səviyyədə keçirdi.

1936-cı il... Azərbaycan Dövlət Dram Teatrında Mirzə Fətəli Axundovun "Aldanmış kəvakib" əsərinin mövzusu üzrə yazılmış "Sahnamə" pyesi hazırlanırdı.Tamaşanın quruluşçu rejissoru İsmayıl Hidayətzadə, rəssamı Rüstəm Mustafayev təyin edilmişdi. Bəstəkarı isə hələlik məlum deyildi. Şəhərimizin ictimaiyyəti bu tamaşanı İ.Hidayətzadənin bir rejissor kimi ikinci sanballı və monumental işi hesab edir və quruluşun tezliklə başa çatdırılmasını səbirsizliklə gözləyirdi (çünki onun1933-cü ildə tamaşaya qoyulmuş "Səyavuş" tamaşası geniş teatr ictimaiyyətimizin böyük rəğbətini qazanmış və tamaşaçılar tərəfindən hərarətlə qarşılanmışdı). İ.Hidayətzadə "Səyavuş" tamaşası üçün mənim bəstələdiyim musiqidən razı qaldığından "Şahnamə"nin də musiqisini mənə tapşırmaq niyyətində idi. Lakin o zaman mən üzərində çalışdığım "Qız

qalası"  baletini başa çatdırmaq üzrə olduğum üçün bu təklifi qəbul etməyə imkanım yox idi.  Buna baxmayaraq "Şahnamə" musiqisi məsələnin nə tərzdə həll olunduğu məni  maraqlandırırdı. Bir gün bu işin nə vəziyyətdə olduğunu İ.Hidayətzadədən soruşduqda belə bir cavab aldım:

– Elə ki, əlim səndən bilmərrə üzüldü, həmin saat məsləhət üçün birbaş Üzeyir bəyin yanına  yanına getdim. Əhvalatı ona söylədim. O isə mənə belə dedi: "Hazırda Şərq musiqisinə çox yaxşı bələd olan görkəmli sənətkarlarımızdan ya Qurban Primovu (o, R.Qlierə "Şahsənəm" operası üçün çoxlu dəyərli musiqi materialı vermiş və bu işdə yaxşı səriştəsi var), ya Mansur Mansurovu (o, muğamatı ilk dəfə tamam-dəstgah nota yazmaq işində gənc istedadlı bəstəkarlardan Tofiq Quliyev və Zakir Bağırova yaxından kömək göstərmişdir), ya da ki, Əhməd Bakıxanovu bu işə cəlb etmək lazımdır. Sonra bu işə həvəs göstərən bir nəfər tarçını notu bilən və bəstəkarlıq texnikasını mənimsəyən bir nəfər ilə qovuşdur, qoy tarçı pyesin məzmununa uyğun gələn lazımi musiqi parçalarını orkestr üçün bəstələsin".

Pyesdə nağıl edilən hadisənin Yaxın Şərq ölkələrindən birində vaqe olduğunu və Əhməd Bakıxanovun həmin ölkə musiqisini daha yaxşı bildiyini nəzərə alaraq onun namizədliyi üzərində dayanmağı qərara aldıq. Neçə gündür ki, birlikdə çalışırıq.

– Axşam səni evdə gözləyirəm, gəl gör nə aləmdir... – deyə  İsmayıl sözünü qurtardı.

Həmin günün axşamı, Hidayətzadənin evinə gəldikdə Azərbaycan və rus dram tamaşaları üçün musiqi bəstələmək

işində yaxşı təcrübəsi olan bəstəkar Sergey Paniyevi orada gördüm. O, tarçı ifasından yazdığı bəzi parçalarını pianoda çalırdı. Musiqi çox xoşuma gəldi, olduqca  lətif, həm də yeni, qeyri-adi bir üslubda səslənirdi. Az keçmədi ki, qoltuğunda tar daxil olan musiqiçi ilə məni tanış elədilər:

– Əhməd Bakıxanov!..

Qaryağdıoğlu Cabbar, Mirzə Fərəc Rzayev, Ələsgər Abdullayev, Ağa Seyid oğlu Ağabala, Seyid Şuşinski kimi ustadların parlaq ifaçılıq ənənəsindən dərs almış sənətkar! O, indi də, elə burada olduğu qısa müddət ərzində o qədər gözəl, o qədər qulağa xoş gələn, ruhu oxşayan, insanın qəlbində sözün ən yüksək mənasında əsl sənət həyəcanı oyadan , bir-birindən lətif musiqi parçaları çaldı ki, hamımız valeh olduq. Əhməd Bakıxanov tarını bir yana qoyub bizimlə muğamatın bəzi incə məsələləri haqqında söhbət apardı. Aydın görünürdü ki, ümumiyyətlə Yaxın Şərq aləmi musiqisini mükəmməl surətdə mənimsəmiş olan tarçı Azərbaycan muğamatının da xüsusiyyətlərini çox gözəl bilir, çox yaxşı duyur və həm də atəşin bir məhəbbətlə sevir. Aydın görünürdü ki, bu adam muğamatımızı çirkləndirə bilən bəzi yabançı, "əğyar" intonasiyalara qarşı qısqanır, muğamatın möhtəşəm varlığına əsl sənətkar qəlbi ilə pərəstiş edir. Görünürdü ki, Əhməd Bakıxanov muğamat sahəsində dərin bilik və geniş məlumat sahibidir. Az keçmədi ki, "Şahnamə" tamaşasının musiqi "təchizatçısı" olan Əhməd Bakıxanovun adı iri hərflərlə afişalarda yazıldı. Ə.Bakıxanovun çalğısı üzrə "Şahnamə" üçün bəstələnən ayrı-ayrı musiqi parçaları sonralar bəzi opera əsərlərində və simfoniya səhifələrində səslənməkdə idi.

**2. Dəstə rəhbəri**

Biz "dəstə rəhbəri" dedikdə, adətən pioner dəstə rəhbərini fikrimizə gətiririk. Həm də "pioner" sözünün də özlüyündə bir məcazi mənası vardır ki, o da təşəbbüsçü, bir işin banisi, müəssisi mənasını daşıyır. Böyük Vətən müharibəsi illərində, düşmənə qarşı şiddətli vuruşmalar getdiyi günlərdə də ölkəmizdə musiqi sənəti öz inkişaf yoluna davam etdirməkdə idi. Müharibə günlərinin birində Bakının incəsənət həyatında əlamətdar olan bir hadisə hamının diqqətini cəlb etdi. Azərbaycan Radio Komitəsi nəzdində yenicə təşkil olunmuş xalq çalğı alətləri ansamblına ictimai baxış münasibəti ilə paylanmış dəvətnamələrdə həmin bu çalğıçılar dəstəsi rəhbərinin əməkdar müəllim Əhməd Bakııxanov olduğu göstərilirdi. Bakıxanovun təşəbbüsü ilə təşkil olunmuş bu yeni kollektivin hazırladığı repertuar musiqi həyatımıza yeni səslənmələr, yeni təranələr gətirmişdi. Ansamblın bədii rəhbəri Əhməd müəllim Azərbaycan musiqisinin əsasını təşkil edən muğamların, xalqımızın zəngin mənəviyyatını, nəcib arzu və əməllərini, səmimi duyğu və hissiyatını vəsf və tərənnüm edən mahnılarımızın həmin ansambl vasitəsi tərəfindən incə zövq və sənətkarlıqla ifa edilməsi yolunda böyük səy və hünər göstərmişdir. O, bu gün də xalqımızın musiqisini nəfis bir tərzdə nümayiş etdirməkdədir. Ansamblın yaradıcılıq "tərcümeyi-halını" nəzərdən keçirərkən onun yarandığı ilk dövrdən başlayaraq ta bu günə kimi öz ifaçılıq sənətlərini ayrılmaz surətdə ansamblla bağlayan Fatma Mehrəliyeva, Həbib Bayramov kimi istedadlı sənətkarlarımız ilə yanaşı, ansamblın ilk illərində böyük qüvvə, şövq və həvəslə işləmiş Töhfə Əliyeva, Əlağa Quliyev, Rüxsarə Mirzəbəyova, Nadir Axundov, Firuz Əlizadə kimi ifaçıların da əməyini qeyd

etməliyik. Muğamat dəramədlərini Bakıxanovun lətif və rəvan bir tərzdə tərtib edib, işləməsini xüsusi olaraq göstərmək lazımdır. Ansamblın ifa etdiyi "Rast", "Bayatı-Şiraz", "Mahur" dəramədləri əsl sənətkar ifaçılığının parlaq nümunələridir. Əhməd müəllim ansamblda iştirak edən nəğməkarlar sənətinin də təkmilliyinə və cilalanmasına böyük əmək sərf edir. Muğamat oxuyan xanəndələrin klassik üsluba düzgün riayət etməklə bərabər, öz şəxsi yaradıcılıq simasının da olması zəruriyyəti Əhməd müəllimin daim diqqət mərkəzindədir. Bu yolda onun xanəndələrmizə verdiyi məsləhət və göstərişləri çox qiymətlidir.

### 3. Yaradıcılıq səhifələri

Ansamblın iyirmi yaşı təzəcə tamam olmuşdur. O, hələ gəncdir. Lakin bu iyirmi il ərzində böyük zəhmət, gərgin əmək və geniş yaradıcılıq axtarışlarının səmərəsi olaraq ansamblın öz repertuar sandıqçasına topladığı musiqi nümunələri zəngin və rəngarəngdir. Ansambl Azərbaycan bəstəkarlarının yaratdıqları hər yeni mahnı, romans, oyun havalarını tez bir zamanda dəqiq surətdə öyrənib geniş təbliğ edir. Ansambl metodik genişliyi və lətafəti cəhətincə orijinal və qulaqları oxşayan xoş və gözəl mahnılar yaradan Ələkbər Tağıyev, İbrahim Topçubaşov, Hacıbaba Həsənov kimi həvəskar bəstəkarlarımızın parlaq yaradıcılıq işində onlara həmişə kömək göstərir. İfaçı kadrlar yetirmək işi isə həmişə olduğu kimi, indi də ansamblın fəaliyyətinin əsasını təşkil edir. Respublikamızın adlı-sanlı ifaçılarından bir çoxu, məsələn, İslam Rzayev, Əlibaba Məmmədov, Yaqub Məmmədov və başqaları məhz bu ansamblda püxtələşmiş, professional ustalığa sahib olmuşlar. Xalq mu-

siqisinin səlis və rəvan səslənməsi işində ansamblın və onun bədii rəhbəri, qocaman musiqi ustadı Əhməd Bakıxanovun göstərdiyi səy və zəhmət dinləyicilərimizin razılıq duyğuları, böyük rəğbət və məhəbbət hissləri ilə mükafatlandırılır.

**Əfrasiyab Bədəlbəyli,**
Respublikanın Xalq artisti,
"Bakı" qəzeti, 28 noyabr 1964-cü il

## Muğamata bağlı böyük sənətkar

Mən öz müşahidələrimə əsasən deməliyəm ki, hündürboylu, şax vücudlu Əhməd Bakıxanov təmkinli şəxs idi, xalq ibarəsi ilə desək, ağır oturub-batman gələn adamlardan idi. Əhməd Bakıxanov ömrünü Azərbaycan musiqisinin elə bir sahəsinə həsr etmişdi ki, onun mənşəyi qırılmaz surətdə xalqın ürəyi, zövqü və soyu ilə – ən qədim kökləri ilə bağlıdır. Bu, azərbaycanlıların, Azərbaycan xalqının sonsuz dərəcədə sevdiyi muğamat adlanan çoxşaxəli, çoxçalarlı, çox təsirli və sehrkar cazibə qüvvəsinə malik olan muğamatdır. Əhməd Bakıxanovu sənət dostları olmuş böyük tarzənlər – Qurban Pirimov, Bəhram Mansurov, Hacı Məmmədov, Kamil Əhmədov kimi sənətkarlar sevmiş və ona dərin hörmət bəsləmişlər. İndi ən yaxçı tarzənlərdən Ramiz Quliyev, müğənnilərdən İslam Rzayev, Əlibaba Məmmədov kimi sənətkarların da Əhməd Bakıxanovu dərin hörmətlə, minnətdarlıqla yad etməyə, tar sənətində, muğamatı sevməkdə və yaymaqda özlərini onun şagirdi saymağa haqları var...

Böyük istedadlı bu sənətkar xalq yaddaşında və sənət dünyasında yüksək ad qoyub getmişdir. O, musiqi aləminə həvəslə gələn yeni nəslin də sevimli ustadı, musiqi müəllimi olaraq yaşayacaqdır.

**Mirzə İbrahimov,**
Xalq yazıçısı, 1990-cı il

## Əlihüseyn Dağlının "Ozan Qaravəlli" adlı əlyazmasında tarzən Bakıxanov qardaşları ilə bağlı məqamlar

*Əlihüseyn Əbdülhəmid oğlu Həmidov (Dağlı) 1898-ci ildə Bakı quberniyasının (Quba qəzası) Xızı kəndində ziyalı ailəsində doğulub. Atası Əbdülhəmid Muradqulu oğlu dövrünün tanınmış din xadimi, hafizi-Quran, anası Gövhər xanım dindar qadın olmuşdur. 1906-cı ildə Bakıya köçən Əbdülhəmidin ailə vəziyyəti ağır olduğundan Əlihüseyn rus-tatar məktəbində yalnız 3 il oxuyur. Görkəmli şair Mikayıl Müşfiq kiçik yaşlarında olarkən dayısı oğlu, zəngin mütaliəli Əlihüseyn ilə hər görüşündən məmnun olub, ondan çox çey öyrənirdi. 1919-cu ildə "Hümmət" təşkilatına üzv olmuş, sonralar Bakı Ali Partiya Məktəbini, Peterburqda Hərbi Akademiyanı bitirib, general-leytenant rütbəsinə qədər yüksəlmiş, 1920-ci ildə Bakı şəhər komendantlığının siyasi rəhbəri vəzifəsinə təyin olunmuşdur. Bir çox dövlət təşkilatlarında uğurla çalışan Əlihüseyn bu illərdə ədəbi-bədii yaradıcılıq və jurnalistika sahəsində qələmini sınayıb. 1937-55-ci illərdə həbs və sürgün*

*həyatını yaşayan Əlihüseyn 1981-ci ildə Bakıda vəfat etmişdir. Həyat kitabına çevirilən "Ozan Qaravəlli" əsərinin əlyazmaları üzərində bütün ömrü boyu işləyib. Azərbaycan Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun elmi arxivində "inv.30561" şifrəsiylə saxlanılır. Daha sonralar musiqişünas alimlərin diqqətini çəkdiyi və ona daha çox müraciət olunduğu üçün M.Füzuli adına Əlyazmaları İnstitutu tərəfindən mühafizəyə götürülmüşdür.*

## Orkestrin "qurama" dövrü

Keçmişdə Azərbaycan musiqi lüğətində orkestr və ya ansambl kəlmələri olmamışdır. Amma oxşar, yəni onların mənasını verən söz olmuşdur. Çalğıçı, sazəndələr, aşıqların hamısına birlikdə "dəm-dəstgah" – deyiblər. Azərbaycanda sovet quruluşunun əvvəlki mərhələlərində Bakıda "qurama" (ilk notsuz orkestr nəzərdə tutulur) musiqi orkestri təşkil edilir. Bu orkestrin heyəti əsasən, toylarda çalanlardan və bir neçə həvəskar ifaçılardan ibarət olur. Təvəqqe və xahiş-minnətdən sonra nadir hallarda bu orkestrdə Cabbar Qaryağdıoğlu (məşhur xanəndə, xalq artisti, 30-dan artıq mahnının müəllifi) və Seyid Şuşinski (Mir Möhsün Ağa Seyid İbrahim oğlu) kimi peşəkar xanəndələr bir ağız (solo şəkilində) "Heyratı" zərbi muğamını oxuyublar. O zaman belə təşəbbüs xalq çalğı alətləri orkestrinin birinci dövrü hesab edilirdi. Hələ o vaxtlar orkestrin musiqi harmoniyasında qələtlərin mövcud olması aydın bilinirdi. Amma onları da həvəsdən salmaq istəməyirdilər. Musiqimizin inkişafı naminə, gələcəyi nəzərə alınaraq deyilirdi: "Qoy hələlik belə olsun, təki tüstüsü düz çıxsın, səhnəmiz gur görün-

sün”. 40-45 il bundan qabaq (1920-30-cu illərdə) bir rəsmi, musiqiyə həsr olunmuş müşavirədə Böyükağa Talıblı (yazıçı, tanınmış dövlət və ictimai xadimi), Tağı Şahbazi Simurğ (ADU-nun rektoru, yazıçı-publisist), Üzeyir Hacıbəyli (Azərbaycan professional musiqisinin banisi), Ağahüseyn Rəsulzadə (tanınmış partiya və dövlət xadimi, yazıçı-publisist), Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Əhmədxan Bakıxanov (virtuoz tarzən, xalq artisti, pedaqoq), Məmmədxan Bakıxanov (virtuoz tarzən, əməkdar artist) və başqaları iştirak edirdi. Sazəndə orkestrində nağaranın çalınmasını Cabbar Qaryağdıoğlu kimi ustad sənətkar qələt bilirdi: “Axı, dədə-babadan tar, kamança olan yerdə nağara deyil, dəf, qaval olubdur. Gur səsli nağara tarın və kamançanın zərif səsini ört-basdırmaqda olur. Qaval isə tar, kamançanın səsinin yayılmasına həmtay və ortaqdır”.

Tağı Şahbazi Simurğ yerindən dedi ki: “Bu qurama (yəni əldəqayırmadır) orkestrdir. Biz indi notlu orkestr düzəltməliyik”.

İndi elə rayon yoxdur ki, orada özfəaliyyət olmasın. Bakıda onların qədəri, sayı gündən-günə getdikcə artır. Amma bu təəccüblüdür ki, qurama dövrünün şakərləri adət halında lazımsız, qalıq kimi ansambllarda iz salmışdır. Gərək ki, yüksək musiqi mədəniyyəti olan ölkədə belə hallar olmasın. Bu cür xəstəlik lap aşkar solo oxunanda özünü büruzə verir. Solo oxunanda 15-20 nəfərdən ibarət orkestr heyəti bilmərrə susur, mat-məəttəl bir-birinin üzünə baxır. Belə hal nə iqtisadi və nə də psixoloji nöqteyi-nəzərlə səhnədə xoş hiss, ovqat yaratmayır. Gərək bu boş hissə musiqi melodiyası ilə, “zü” tərzilə dolsun. Xanəndənin səsi rəngarəng ahənglərə bürünsün, səhnədə orkestr gur açılmış qönçəyə bənzəsin.

## "Şüştər" barəsində

Mənə dəfələrlə sual veriblər ki, "Şüştər" adlanan muğamın Azərbaycana musiqişünaslıqdan başqa etnoqrafi, iqtisadi, tarixi, lisani təəllüğü varmı? Habelə onun lüğəti mənasını vermək olarmı? Çünki bu, gözəl səslənən "Şüştər"in mənasını özündə alsa da, bir kəlmə kimi də qeyri vechlərdə özünü saxlaya bilər. Mən istərdim bu suala əzizim Əhməd Bakıxanov cavab versin. Çünki "Şüştər", "Yetim Segah" muğamlarının ən gözəl ifaçısı İslam Abdullayev olduğu kimi, "Şüştər"in də ən yaxşı təsnifləri Əhmədindir. Ə.Bakıxanov onda olan sirrləri dil ilə də, tar ilə də mahiranə surətdə izah, şərh etməyə qüdrətlidir. Ancaq onu deyə bilərəm ki, Şüştər İranın qədim taifələrindən olan Bəxtiyarilərin duracaq, yaşayış yeri, məntəqəsi olmuşdur. Bəxtiyarilər vaxtı ilə bu yerin adı ilə bağlı olaraq müxtəlif mahnılar oxumuş, muğamlar ifa etmişlər. Mən Mirzə Möhsün İbrahimi (əslən tehranlı idi, Bakıda yeni açılmış ADU-nun "Şərqşünaslıq" fakültəsində fars dili və tarixi fənləri üzrə müəllimi olub, 1921-ci ildə ədəbiyyat cəmiyyətinin musiqiyə aid məclisinin fəal üzvüymüş) ilə söhbət zamanı balaca xəbərdar oldum ki, şüştər kəlməsində təmiz, paklıq mənası vardır.

## "Şüştər"
## AZ.TV-nin verilişindən fraqment

Bir zamanlar "Şüştər" muğamını təsniflərlə Keçəçi Məhəmməd və maştağalı Kərbəlayi Hüseyn qabiliyyətlə oxuyar, eşidənlər də onlardan həzz alardı. Bu muğam sonralar da ara-sıra eşidilərdi. Bilək ki, Şüştər İranda şəhər adıdır. "Şüştər" muğamı da bu şəhərin şərəfinə bəstələnib, ona görə də şəhərin adını daşıyır.1925-30-cu illərdə "Şüştər" bir muğam təki Bakı musiqi məclislərində daha çox işlənirdi. Onun ən gözəl təbliğatçısı Əhməd Bakıxanov idi. Onun "Şüştər"i bəyənib və bəyəndirməyə böyük qüvvəsi vardı. Əhməd Bakıxanov deyərdi: "Atamgil İranda olarkən, ailəliklə bir müddət Şüştər şəhərində yaşamışıq. Həqiqətən, bu kiçik şəhərdə böyük musiqi xiridarları, əhli vardı. Mən də, qardaşım Məmmədxan da musiqi əhli ilə rəftarda olmuşuq. Atamın ticarətçi bir şəriki vardı, adı Məhəmmədağa idi. O, çox gözəl tar çalırdı. Məni və qardaşımı tar ilə Məhəmmədağa aşina etdi".

***Sual:***

– İrandan qayıdandan sonra Məmmədxan və Əhmədxan "Şüştər" çalanda onun sərrast oxuyanı olubmu?

***Cavab:***

– Bir nəfər tanınıb xoş səsli. Ona Səmayi-Şəms Zəncani deyirdilər. Zəncani xoş əhval, gözəl xasiyyətli bir cavan idi. Opera səhnəsində iştirak etməyə çox həvəsli idi, çıxışları da olurdu.

Təxəllüsündən göründüyü kimi, bu xanəndə əslən Zəncan şəhərindəndir. Səmayi-Şəms dedikdə isə görünür eyniadlı zərbi muğamın mahir ifaçısı olduğundan onu Səmayi-Şəms adlandırmışlar. Səmayi-Şəms bir müddət Opera Teatrının solisti olub.

## "Tello"

İndiki Elmlər Akademiyasının gözəl binasında (İsmailiyyədə) pilləkənlərlə çıxanda, soldakı bir geniş otaqda musiqi məclisi qurulmuşdu. Seyid Şuşinski "dəf taktları" barəsində söhbət aparırdı. Söhbətdə iştirak edənlərin arasında Cabbar Qaryağdıoğlu, Qurban Pirimov, Məmmədxan Bakıxanov, Əhmədxan Bakıxanov da var idi. "Tello" xalq mahnısını Seyid Şuşinski takta salanda kimsə dedi:

– Bu taktı Seyid düz bildirir. İndi ki, belə gəldi, deyin görək bəs, "Tello" sözü nə deməkdir?

Hamı Tağı Şahbaziyə tərəf baxır, ondan "Tello"nun söz təki mənasını gözləyirdilər. Tağı Şahbazi də məni göstərib, izah etməyi xahiş etdi. Mən də Tellonun qadın adı olmasını bildirib dedim:

– Ehtimal olunur ki, bu söz əvvəl "Teli", "Telli", sonra nağaraçalanların ifasında "Tello"ya çevirilmişdir. Bu hesabla da "Tello" mahnısı müğənnilərin yaratdığıdır, odur ki, onun birinci bəndində ondan nişanə var:

*Araz üstə, buz üstə, Tello,*
*Kabab yanar köz üstə Tello.*
*Qoy məni öldürsünlər,Tello,*
*Bir ala göz qız üstə, Tello.*
*AmanTello, Tellocan, Tello.*

Təqdim edəni:
**Abbasqulu Nəcəfzadə,**
Azərbaycan Milli Konservatoriyasının professoru,
sənətşünaslıq üzrə elmlər doktoru,

## Əhməd Bakıxanovla bağlı kiçik bir xatirə

1960-ci illərin sonunda gənc mütəxəssis kimi işıq sexində çalışırdım. Hələ videoyazı sistemi olmadığından konsertlər canlı olaraq yayımlanırdı. Bu yaradıcı kollektivdən və mühəndis-texniki heyətindən son dərəcə böyük diqqət və məsuliyyət tələb edirdi.

Əhmədxan müəllim 1-2 saat qabaqdan ansamblla məşq edib canlı yayıma hazır olardı. Məşq bitib yayıma 20-30 dəqiqə vaxt qaldığından, mən elektrik enerjisinin artıq məsrəfinə qənaət etmək, çox bahalı olan lampaların sıradan çıxmasının qarşısını almaq və istismar müddətini uzatmaq məqsədilə projektorları söndürdüm. Bu zaman Əhmədxanın yumşaq və mehrəmanə səslə mənə müraciətini eşitdim:

– Ay bala, işıqları niyə söndürdün? Axı, simli və zərb alətləri bu temperatura görə köklənmişdi. Soyusalar, mütləq kökdən düşər, ifamız da naqis alınar.

Mən ustadın təklifiylə razılaşdım və projektorların bir-ikisini yenə də qoşdum. Növbəti dəfə cıxışa əvvəlkindən ertə gələn Əhmədxanla birlikdə projektor istisinin alətlərin köklənməsinə təsirini əyani olaraq təcrübədə təkrar edib, fərqi hiss etdim və ustadın haqlı olduğunu duydum. Odur kı, daha sonralar konsertə gələn ansambllar üçün də temperatur balansını qorumaq məqsədiylə belə davranırdım.

Sonralar konsertlərin yazılış prosesində bədii ifa ilə texniki imkanların uzlaşmasına bu qədər diqqət yetirən Əhmədxan müəllimin həyəcanını qəlbən hiss edirdim. Hər dəfə canlı yayıma gələndə, onun texnika sarıdan narahatlığını özüm də yaşayırdım. Musiqiçi olmasam da, artıq bütün repertuarı, ifaçıları qəlbən sevərək tanıdığım Əhməd Bakıxanovun simasında əzbərləmişdim. Onların hansı zəhmətlər bahasına efirə çıxdıqlarının canlı şahidi idim. Atam Əbülfəz Zamanov Az.TV-nin yaranışından idarədə elektrik ölçü cihazları üzrə baş mütəxəssis vəzifəsində çalışır, bu ixtisas üzrə Bakı Rabitə Texnikumunda dərs deyirdi. Köhnə şamaxılılar kimi o da qəzəlxan idi və muğamatı az-çox özünə görə şirvanlı səviyyəsində bilirdi. Şamaxı zəlzələsindən sonra Bakıya köşmüş, Bakının musiqili, poeziyalı mühitində böyümüş, hətta məktəbdə oxuyarkən şair Abdulla Şaiqin şagirdi olmuşdu. Atamı Əhməd müəllimlə tanış etmişdim, hər ikisi konsertdən qabaq 10-15 dəqiqə də olsa, olanlardan-keçənlərdən danışar, xatirələri bölüşər, atam ona qəzəllərindən oxuyardı. Mənə bu söhbətlərdən qalan adını bilmədiyim, üzünü görmədiyim məşhur sənət adamları və XX əsrin ortalarında baş verən hadisələr haqqında maraqlı bilgilər idi.

1970-ci illərin sonları idi. Dahi Niyazi Teleteatrda ilk dəfə olaraq konsertini rəngli formatda videoya yazdırırdı. İşıq və mikrofonla keçən məşq bitdi, maestro yarımsaatlıq fasilə verdi. Videoyazılışı zamanı 20-30 nəfərlik simfonik orkestr heyətinin yerləşdiriləcəyi studiyada kritik bürkü, isti olmasın deyə, projektorların söndürülməsinə göstəriş verdi. Əhmədxan müəllimin tövsiyəsi yadıma düşdü və bunu maestro Niyaziyə bildirdim.

– Kim deyir bunu? – deyə maestro təkidlə soruşdu
– Rəhmətlik Əhməd Bakıxanovun təcrübəsi...
– Əhmədxan deyibsə, düz deyibdir, o səsin "injineridir".

**Arif Zamanov,**
Əməkdar mədəniyyət işçisi,
Az.TV. Videokinomateriallar şöbəsinin rəisi

## Bakıda solaxay tarzənin ev-muzeyi

Hələ keçən il Musiqi Mədəniyyəti Dövlət Muzeyinə telefon açıb həm muzey, həm də nəzdində olan və görkəmli tarzən Əhməd Bakıxanovun ev-muzeyi kimi qorunan Xalq Çalğı Alətləri şöbəsi haqqında reportaj hazırlamaq istədiyimizi bildirmişdik. Bu barədə muzeyin direktoruna məlumat verib, icazə aldıqdan sonra bizimlə əlaqə yaradacaqlarını bildirsələr də, heç bir soraq çıxmadı. Keçən şənbə günü Əhməd Bakıxanovun sentyabr ayında qeyd olunan doğum günü və Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 120 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncamla əlaqədar görkəmli tarzənin ev-muzeyinə yollandıq. Qapını açan muzey baxıcısı işçilərin olmadığını, yalnız günortadan sonra gələcəklərini bildirsə də, eksponatları seyr etməyimizə mane olmadı. Əslində, bir neçə il əvvəl yolüstü ziyarət etdiyim muzeydə heç nə dəyişməyib. Təkcə otaqlara çökən qaranlıq fərqli idi, bir də muzeyin bir tərəfində köçmə əhvali-ruhiyyəsi yaradan böyük karton qutu-

lara yığılan hansısa əşyalar. Sən demə, bunlar qonşuluqda yerləşən başqa bir muzeydən – Üzeyir Hacıbəylinin ev-muzeyində təmir işləri aparıldığından oradan müvəqqəti gətirilən əşyalar imiş.

## Şərq konservatoriyası

Bu muzeydəki kolleksiyaların hamısı görkəmli tarzənin şəxsi alətləridir. Eksponatların yarısı isə Musiqi Mədəniyyəti Dövlət Muzeyində qorunur. Burada Əhməd Bakıxanovun həyat və fəaliyyətinin yer aldığı broşürlər və kitablar görkəmli tarzən haqqında ziyarətçilərə bilgi verir. Muzeyin vitrinlərində qədim musiqi və simli çalğı alətləri bölməsi, görkəmli tarzənlərdən Mirzə Fərəcin, Qurban Pirimovun tarı və səhnə geyimi, eləcə də Qılman Salahov, Bəhram Mansurov, Məmmədağa Muradov, Səid Rüstəmov kimi məşhur sənətkarların adını xatırladan nəsnələr var. Əhməd Bakıxanovun sol əllə çaldığı sədəfli tar da buradadır. Divarları bəzəyən görkəmli sənətkarların şəkilləri bizi ötən əsrin əvvəllərindəki musiqi mühiti ilə tanış edir. Dahi Üzeyir bəyin şəkilləri də muzeyin divarını bəzəyir. Vaxtilə qonşuluqda yaşayan Üzeyir bəy tez-tez bu evin qonağı olub. Bu evin pəncərələrindən süzülən həzin musiqilər, muğam sədaları küçədən keçənləri yoldan edib. Evin küncündə qoyulub sükuta dalan qədim və köhnə patefondan vaxtilə ən gözəl musiqilər eşidilib. Əhmədxanın mizrabından süzülən muğamları dinləmək üçün qohum-qonşular, sənət adamları bu evə yığışıb. Bu evi Şərq konservatoriyası adlandırıblar.

Əhmədxanın babası Məmmədxan musiqinin qədir-qiymətini bilən adam idi. Əmisi və dayısı tez-tez evdə musiqi məc-

lisləri düzəldir, Cabbar Qaryağdıoğlu, Məşədi Məmməd, Şirin Axundov, Kor Əhəd, Yavər və Münəvvər Kələntərlilər, Haşım Kələntərli, Qurban Pirimov, Rübabə Muradova və bir çox başqa görkəmli sənətkarlar bu evə yığışardı. Məclislərdə xalq musiqisi ifa olunar, zil xanəndə zəngulələsini kamanın yanıqlı naləsi, tarın pərdələrindən qopan həzin səslər əvəz edərdi. Balaca Əhmədxanla qardaşı o böyük sənətkarlara uşaq marağı ilə diqqət kəsilər, sehrkar musiqi aləmi onları ovsunlayardı.

## "Yadigardı bu tar"

Əhmədxanın anası Mələk xanım hər gün səhər tezdən görürdü ki, oğlu yenə tarı qucağına alaraq yatıb. Mələk xanım nə illah eləyirdi, bu adəti oğluna tərgidə bilmirdi. Sakit, ulduzlu yay gecələrində balaca Əhməd köksünə sığmayan tarını götürüb dama qalxırdı. Vaxtilə atası Məmmədrza bəy də onun kimi həzin-həzin tar çalardı. Əhməd tarı balaca köksünə sıxıb çaldıqca o günləri xatırlayırdı. Bu tarı Əhmədə atası tutulandan sonra onlara ata əvəzi olmuş dayısı Mirzağa almışdı. Təxminən yüz ilin yadigarı olan bu qədim tarı məşhur usta Manas düzəltmişdi. Mələk xanım yuxudan duranda görərdi ki, Əhməd tarı qucağına sıxaraq yatıb. Uşaqdan tarı ehtiyatla alıb divardan asardı.Onu Əhməddən başqa çala bilən yox idi. Anası bir gün Əhmədi götürüb tar bağlayan ustanın yanına getmişdi. Usta tarı görən kimi: "Bu ki, Manasın düzəltdiyi tarlardandır. Nə qədər istəyirsiniz pul, üstündə sizə tar da verirəm - bunu verin mənə".

– Yox, qardaş, yadigardı bu tar. Oğlum solaxaydı, sən bu tarı bir az dəyiş, elə düzəlt ki, çala bilsin, – deyir Mələk xanım.

Usta simlərin, xərəklərin yerini dəyişərək tarı solaxay edir. Əslində, balaca Əhməd solaxay deyildi. Ancaq o gündən ömrünün sonunadək tarı sol əllə çaldı. Tarın həzin simləri Əhmədxanın barmaqları altında xoş, cingiltili bir səslə inlədikcə dinləyənləri heyran edərdi. Bir gün isə Əhmədxanın sədəfli tarından "Bayatı-şiraz", "Dəşti", "Əbu-əta" muğamlarının, rəng və təsniflərinin sehrli sədalarını eşidən Üzeyir bəy heyrətə gəlmiş: "Siz "Nəva-Nişabur"u da çala bilərsinizmi? Axı bu qədim və mürəkkəb muğam havasını çox az adam bilir – deyəndə, Əhmədxan gözlərini yumub tarı sinəsinə basaraq dilə gətirmişdi. Bu an uşaqlıqda onu öz çalğısı ilə heyran edən qoca tarzəni xatırlatmışdı. O, özü də bilmədən Üzeyir bəyi ovsunlamışdı və həmin gün dahi bəstəkar Əhmədxana Konservatoriyada dərs deməyi təklif etmişdi.

"Atamın 16 yaşı olanda Cənubi Azərbaycanın dünya şöhrətli musiqiçisi, İran şahının baş xanəndəsi Əbülhəsənxan İqbal Azər Soltanın yanında tar çalmağı öyrənir. Atamla əmim Məmmədxan həmin böyük sənətkarın köməyi ilə muğam sənətinin bütün sirlərinə yiyələnirlər.

Atam Konservatoriyada müəllimliyə başlayanda o vaxt tələbələrə cəmi 5 muğam - "Rast", "Çahargah", "Bayatı-Şiraz", "Segah" və "Şur" muğamları öyrədilirdi. O, yeni proqramla muğamların sayını 12-yə çatdırdı" – deyə Tofiq Bakıxanov danışır: "Atamla əmim həm Azərbaycanın sədəfli tarında, həm də İranın beşsimli tarında gözəl çalır, hətta onların İran musiqisindən ibarət ayrıca repertuarları da vardı. Həmçinin atam "solaxay tarzən" kimi çox məşhur idi. Lakin onların bu uğurları maneəsiz ötüşmədi. Atamı və əmimi İran musiqisini yaymaqda, muğamlarımızın adını "iranlaşdırmaqda" günahlandırırdılar.

1937-ci ildə Moskvada ədəbiyyat və incəsənət ongünlüyü keçirilirdi. Üzeyir bəyin təklifi ilə dekadaya gedəcək Xalq Çalğı Alətləri Ansamblına Əhmədxan rəhbərlik etməli idi. O, həm də ansamblın solisti idi. Lakin həmin vaxt qəflətən atamı və əmimi İran şahının "agenti" kimi həbs etdilər. Üç ay onları incitdilər. Evimizdə axtarış aparıldı. Guya evimizdən çoxlu silah, məktublar və İran azuqələrinin çıxması haqqında şayiələr də yayılmışdı.Üzeyir bəy bizim qonşuluqda yaşadığından bir-birimizin evinə gedib-gələrdik. O, anam Məsməxanımdan atamgilin başına gətirilənləri öyrəndi və kömək edəcəyinə söz verdi. Dekada zamanı Üzeyir bəy Mircəfər Bağırovla Moskvaya bir qatarda yol gedərkən atamgilin günahsız olaraq həbs edildiyini bildirir və onların azad olunması haqqında xahiş edir. Mircəfər Bağırov atamı tanıyaraq:

– O "solaxay" çalanı deyirsən, mən onların həyatlarını çox yaxşı bilirəm, – deyir. Sonradan Mircəfər Bağırovun köməyi ilə atamla əmim həbsdən azad olunur".

## Bas, tar, saz, ud, kanon...

1941-ci ildə Əhmədxanın radioda solo konsertini dinləyən Üzeyir bəy onu çağırır və təcili olaraq ansambl yaratmağı təklif edir. Əhmədxanın rəhbərliyi ilə 1941-ci ildə Xalq Çalğı Alətləri ansamblı yaradılır. Əhmədxan ilk dəfə olaraq ansambla bas tar, saz, ud, kanon, qaboy, qoşanağara və fortepiano daxil edir. Ansamblın ifasında 351 adda muğam, rəng və rəqs melodiyaları səslənirdi. Bu, görünməmiş möcüzə idi. O zaman Üzeyir bəy Əhməd Bakıxanovu xidmətlərinə görə Azərbaycanın ilk əməkdar müəllimi adına təqdim edir.

"1923-36-cı illərdə isə əmim Məmmədxan Əli Bayramov adına əməkçi türk qadınlarının Mədəniyyət Sarayında ilk dəfə qızlardan ibarət "Şərq orkestri"ni yaratmışdı", – deyə görkəmli tarzənin oğlu Tofiq Bakıxanov xatırlayır:

– Sonralar bu ansambl dünyanın bir sıra ölkələrini gəzərək olimpiadalarda, festivallarda birincilik qazandı, fəxri fərmanlara, pul mükafatlarına layiq görüldü. Məmmədxan Bakıxanovu tanıyanlar onun haqqında həmişə xoş sözlər danışırdılar. Bakıda heç bir toy onsuz keçməzdi. Əmimlə qastrollara getmək hamı üçün xoş idi. Heç kimdən inciməz, heç kəsin xətrinə dəyməzdi. Hətta bir qarışqanı incitməyəcək qədər ürəyiyumşaq adam idi. Maştağadakı bağ evi hamının üzünə açıq idi. Həmin evdə bir otağı Zülfü Adıgözəlovun ailəsinə vermişdi. Rayonlara qastrollara tez-tez gedərdi. Belə səfərlərin birindən qayıdarkən avtomobil qəzasına düşdü və aldığı zədələrdən bir il sonra vəfat etdi. Azərbaycan musiqisi onun simasında görkəmli bir sənətkarını itirdi.

## Muğam laylası

Qardaşı dünyasını dəyişəndən sonra Əhmədxan üçün də yaşamaq o qədər asan olmur. Bu itki ona çox təsir edir. Həyat yoldaşı rəhmətə gedəndən sonra isə görkəmli tarzən tək yaşayır, öz dünyasına qapılıb kimsənin evinə getmir. Bir müddətdən sonra isə ağır xəstələnir.

Ulu öndər Heydər Əliyev Əhməd Bakıxanovun xidmətlərinə yüksək qiymət verərək xalq artisti fəxri adı alması haqqında fərman verir. Fərman qəzetdə dərc olunan gecə bir dəmir yolu işçisi qəzeti gətirib qapını döyür. Həmin gecə televiziyadan da çəkilişə gəlirlər. Ancaq ağır xəstə olan Əhmədxan ömrünün son saatlarını yaşayırdı. Elə bu zaman haradansa həzin

musiqi səsi eşidilir. Onun ətrafına yığışanların hamısı heyrətdən donub qalmışdı: muğam səsi böyük sənətkarın ömrünün son saatında sinəsinə basdığı kiçik radioqəbuledicidən eşidilirdi. Onun son nəfəsi də həzin musiqi ilə birlikdə sönürdü. Əhmədxanı müayinəyə gələn həkim: "O, özünü muğamla dəfn elədi", – deyə pıçıldayır.

İndi Əhmədxanın yaşadığı bu mənzildə onun barmaqlarının, nəfəsinin toxunduğu alətlər də sükuta dalıb. Sahibinin yoxluğunu xəbər verirmiş kimi qəribə bir səssizlik çöküb hər yerə. Ev-muzeyin pəncərələri çöl tərəfdən tamam qapanıb. Demək olar ki, pəncərə tərəfdən içəri nə işıq düşür, nə də hava daxil olur. Havanı tənzimləmək üçün içəridə yalnız kondisoner işləyir.

Muzeyin qarşısındakı hündür binalar da mənzili az qala görünməz edib. Muzeyə çevrilən mənzil, ona bitişik Süleyman Sani Axundovun yaşadığı mənzil də yazıq-yazıq boynunu büküb. Bu nəhəng binaların bir gün dəyəri heç bir pulla ölçülə bilməyən bu köhnə mənzilləri uda biləcəyinə inanmamaq çətindir. Mənzillərin nə vaxtsa sökülüb-sökülməyəcəyi haqqında Tofiq Bakıxanov da məlumatsızdır: "Bu barədə mənə heç bir xəbər verilməyib. Ola bilər ki, binaya toxunulmasın". Muzeyin çöl tərəfdən pəncərələrinin hörülməsinə gəlincə, bəstəkar bunu muzeydə nadir alətlərin oğurlana biləcəyi ehtimalı ilə əlaqələndirir. Qəribədir ki, Əhməd Bakıxanovun kiril əlifbası ilə yazılan barelyefi də o vaxtdan dəyişməyib. Görünür, muzey işçiləri bu barelyefi də eksponat kimi qoruyurlar...

**Turan Məhərrəmzadə,**

"Kaspi" qəzeti

## Əli Səlimi yadigarı dünyasını dəyişdi

Mübaliğəsiz deyilmiş və təsdiq olunmuş bir incəsənət aksiomu vardır: “İranda Azərbaycan musiqisi qədər sevilən ikinci bir ölkə musiqisi, yolu Rəşid Behbudov kimi intizarla gözlənilən başqa bir müğənni yoxdur. 1961-ci ilin sonu, 1962-ci ilin əvvəlində SSRİ xalq artisti Rəşid Behbudovun İran səfəri yadda qalan maraqlı görüşlərlə zəngin idi. Ən başlıcası o idi ki, Rəşid bəy zəhmətkeş İran xalqının sevimli qonağı idi. O, Tehranda misilsiz uğurla keçən konsertlərin birində inşası Təbrizdə nəzərdə tutulan Azərbaycan Filarmoniyasının tikintisinin maliyyə ucbatından dayandırılması xəbərini eşidir. İrandakı soydaşlarımızla söhbət zamanı inşaat işlərinin gedişatını hədəf seçən dahi müğənni, nə qədər xərc lazım olduğunu soruşanda, sifarişçilərin ümidsiz qaldıqları cavabını alır:

– Xeyli pul lazımdır, ağaye Rəşid xan!

Milli qeyrət təcəssümü, dost ölkəyə xoş məramla təşrif gətirən geniş ürəkli “tacir Əsgər” konsertlərindən əldə etdiyi qonorarlarını inşaat işlərinə bəxş edəcəyini bildirib, bank hesabını imzalayaraq, qəbzi dostlara təqdim edəndə, onların gözləri doldu. Düzü soydaşlarımız belə bir ərməğanı, səxavəti, geniş ürəkaçıqlığını gözləmirdilər. Titrək əllərini cütləyərək, Rəşid bəyin əllərini sıxır, qanı bir, canı bir olan bu insanlar qollarını geniş açıb, onun boynuna sarılırdılar. Dahi müğənniyə təşəkkürünü bildirənlər arasında 1922-ci ildə Bakıda kasıb bir

iranlı ailəsində doğulan, Bakıda Əhməd Bakıxanovdan tar dərsi alan, ansamblında tar ifaçılığı edən, 1938-ci ildə SSRİ sərhədlərinin bağlanmasıyla əlaqədar İrana deportasiya edilən bəstəkar Əli Səlimi də vardı. Söhbət bitər-bitməz ağaye Səlimi dünyalar qədər sevdiyi Rəşid bəyi evinə qonaq çağırır. İranın ən kübar və məşhur şəcərə nümayəndələrinin dəvət təklifini qəbul etməsə də, Tehranda az-çox tanınmış, bir o qədər də imkanlı olmayan "köhnə bakılısının" xanəsini ziyarət etməyi qərara alır. Söhbət Əlinin Bakıda yaşayarkən keçirdiyi uşaqlıq və gənclik dövrünü, əvəzsiz tarzən, pedaqoq Əhməd Bakıxanovdan dərs aldığı illərdə ondan gördüyü qayğı, diqqət və təəssüblə dolu günlərini əhatə edirdi. Konserti hər gün Tehran radiosu ilə saat 12- də səslənən, İranın musiqi həyatına yeni həyat vəsiqəsi almış Azərbaycan xalq çalğı alətləri ansamblından söz düşdü. Özəyinin də, məhz, Əhmədxan müəllimin tələbəsi olmuş istedadlı musiqiçilərdən; tarzən ağaye Adil Axundzadə, xanəndə ağaye Mustafa Payan, müğənni ağaye Zeyvə Abdulla və s. təşkil olunduğunu söyləndi. Rəşid bəy Əhmədxanın Bakıda akademik səviyyədə yaratdığı ansamblın xidməti və vüsətli inkişafından, qazandığı el məhəbbətindən və şöhrətindən söz açdı. Çay süfrəsi arxasında gedən şirin söhbətlər əsnasında Əli Səlimi dahi tenora yenicə bəstələdiyi "Sizə salam gətirmişəm" mahnısını təqdim edir. Rəşid bəy mahnının musiqisini də, sözlərini də çox bəyənir və təcili olaraq öz repertuarına salacağına, İrandakı ilk konserti bu mahnıyla başlayacağına söz verdi. Bir qədər sonra Əlinin həyat yoldaşı Fatimə xanım, işarə edərək ərini yan otağa çəkdi, az keçmədi ki, qonşu otaqdan tarın solo ifası, özünün pianoda müşayiəti ilə Fatimə xanımın həzin səslə oxuduğu "Ayrılıq" mahnısının ecazkar sədaları dalğa-dalğa yayılmağa başladı. Rəşid bəy yan

otağa keçib, sankı nəğməni çoxdan bilirmiş kimi, bu bir cüt tarla bülbülünə qoşularaq zümzümə edir, elə ilk notlarından bu mahnıya vurğunluğunu bəyan edir:

– Ayrılıq, ayrılıq, aman ayrılıq!

Hər bir dərddən olur yaman ayrılıq...

Piano son akkordunu bitirən kimi, Rəşid bəy mahnının kimə məxsus olduğunu soruşdu.

– Ağaye Rəşid xan, dostum şair Rəcəb İbrahimi "Ayrılıq" adlı gözəl bir şeir yazmışdı, mən də bir neçə il əvvəl musiqisini bəstələdim.

Rəşid Behbudov Əliyə irad tutur:

– Ağa, bəs niyə "Ayrılığ"ı oxumağı mənə təklif etmirsən?

– Qorxuram ki, burada "Ayrılığ"ı oxumağa icazə verməsinlər, bir də düşündüm ki, bu ifa siz cənabıma Şurəvidə (SSRİ) də narahatlıq gətirər. Elə "Sizə salam gətirmişəm"i oxusanız, mənə dünyanı vermiş olarsınız.

Rəşid bəy səlimilərin kövrəldiyini görüb, qətiyyətlə bildirdi:

– Tezliklə hər iki mahnını mənim ifamda Bakı radiosundan eşidəcəksiniz.

R.Behbudov İrandan qonorarsız qayıtsa da, əldə etdiyi mənəvi qənimət, qazanacından milyon dəfə artıq olan bu iki mahnını əldə etməsi və sırf Azərbaycan ruhlu mahnıların yaradıcısı Əli Səlimiylə, Fatimə xanımla tanışlığı oldu. Əgər Sovet Azərbaycanında onun adına mahnılar bəstələyən Tofiq Quliyev vardısa, bundan sonra İranda da Əli Səlimi var idı.

Yaradıcılığı üçün vacib qayə olan bu iki mahnı Rəşidin ifasında yüksək sənətkarlıq nümunəsi kimi lentə alınaraq Azərbaycan Milli Radiosunun Qızıl Fonduna verildi. Bir də Rəşid bəy o dövr üçün Azərbaycanla həmsərhəd olan, lakin

mənən ən uzaq ölkə hesab olunan, şah üsuli-idarəli İranda mövqe tapıb dirçəlməkdə olan Azərbaycan orkestrinin ifa ruhunda Əhməd Bakıxanovun ürək döyüntülərini, ifaçılıq çalarlarını hiss etdi. Rəşid Behbudov haqq dünyasına qovuşan gün, bu ağır xəbər ildırım sürəti ilə islami İrana da yetdi və bütün rəşidsevərləri məyus etdi. Bu an Fatimə xanım Əli Səlimidən Rəşid bəyə ithaf olunacaq ikinci "Ayılığ"ı yazmağı təvəqqe edəndə, Əli bəy:

– Yox, əzizim, "Ayrılıq" yox, "Görüş" yazacağam, bundan sonra da hər gün görəcəyimiz, eşidəcəyimiz, daim anacağımız, səsi və duyğularıyla nəfəs alacağımız Rəşid xanla bu xatirə təranəsində görüşüb, bir olacağıq, – dedi.

Az da olsa Fatimə xanım haqqında: O, 1920-ci ildə vaxtıyla Gürcüstana köçmüş iranlı mühacir Mehdi kişinin ailəsində anadan olmuşdur. Tiflisdə şirniyyat istehsalıyla məşğul olduğuna görə ailə Qənnadi soyadını götürmüşdü. 1937-ci ildə SSRİ sərhədlərinin qapanması ilə əlaqədar İran təəbəliyində olan Qənnadilər tarixi vətənlərinə deportasiya edilir, əvvəlcə Tehranda, az sonra həmişəlık qocaman Təbrizə köçüb, köhnə məhəllələrin birində məskunlaşırlar. 1996-cı ildə həyatına, məsləkinə ürəkdən bağlandığı əri Əli Səliminin vəfatından sonra, Fatimənin yazdığı mahnılarda qəm, həyatdan küskünlük notları özünü açıq büruzə verirdi. Həyatının not vərəqinə uzun ömrün acılı-şirinli, həsrətlı-muradlı serenadasının son akkordunu 93 yaşında yazdı Fatimə Qənnadi. 2013-cü ilın fevralında Əli Səlimini yaradıcılıq hünərlərinə səsləyən ürəkparəsi, Əlinin daim çağlayan ilham çeşməsinin qaynar gözü, ərinin əbədiyaşar nəğmələrinin ilk ifaçısı Fatimə bu işıqlı, lakin fani dünyaya əlvida dedi. İran Azərbaycanının mahnılar şahı Əli Səlimi və bu təranələri könüllərə ünvanlandıran Fatimə xanım istər hə-

yatda, istərsə də yaradıcılıq prosesində biri-birinə qırılmaz tellərlə bağlı olub, qarşılıqlı məhəbbətdə Leyli və Məcnun eşqinin təkrarını tamamlayırdılar. Dildən-dilə, ürəkdən-ürəyə gəzən mahnılar idi bu eşqin, bu böyük insani məhəbbətin ecazkar məhsulu. Fatimə xanımı 2013-cü ilin fevralında Təbrizin "Vadiye-rəhmət" qəbiristanında sevgilisi Əlı Səliminin məzarının yanında torpağa tapşırdılar.

Təbrizli olub Tiflisdə doğulub, böyüyən Fatimənin, ərdəbilli olub Bakıda doğularaq böyüyən Əlinin ruhları qocaman Təbrizdə qovuşdu, məhəbbət əfsanəsi Təbrizdə dastanlaşdı. Qəhrəman Təbriz əhalisinin bir hissəsi, Naxçıvandan ziyarətə gələn qonaqlar, Şərqi Azərbaycan vilayətinin rəsmiləri Fatimə xanımı son mənzilə yola salaraq, vida mərasimində təşkil olunan tədbirdə iştirak etdilər. Çıxışçılar Əli və Fatimənin ümumiran və Azərbaycan musiqisi kontekstində fəaliyyəti və danılmaz rollarından, gələcək nəsillərə yadigar qalan nəğmələrindən danışdılar. Torpaq onu ağuşuna alarkən, dəfnin bitdiyi son məqamda, matəm iştirakçıları birsəslə, hamılıqla Fatimə xanımın şərəfinə xorla "Ayrılıq" mahnısını oxudular. Ruhun şad olsun, Allah sənə rəhmət eləsin, Fatimə xanım!

Əli Səlimi haqq dünyasına qovuşaraq, özündən sonra mindən yuxarı musiqi əsərlərini yadigar qoyub getmişdir. Səfəvilər yurdu Ərdəbil şəhərində onun parlaq xatirəsinə həsr olunmuş möhtəşəm musiqi bayramında iştirak etmək xalq artisti, " Şöhrət" ordenli bəstəkarımız Tofiq Bakıxanova və xalq artisti, tarzən Möhlət Müslümova nəsib oldu.

1957-ci ildə yazılan "Ayrılıq" mahnısı yarım əsrdən qabaq yaranmasına baxmayaraq, yeni-yeni ürəkləri fəth edir, populyarlığını itirmədən, sənətə təzəcə qədəm qoymuş müğənnilərin halal malına çevrilir, yer üzərində təravəti, sədaqəti vəsf edir,

coşqun insani hisslərlə həmişə öz sözünü deyir. Bu mahnı İranda, Azərbaycanda,Türkiyədə, Kərkük ellərində, Qrta Asiyada və beş qitəyə səpələnmiş soydaşlarımızın dillərində, ürəklərindədir. Rəşid Behbudov, Ququş xanım öndə olmaqla bütün türk dünyasının ən ünlü səs sənətçilərinin daim repertuarındadır. Unutmayaq ki, Əli Səliminin "Ayrılıq"ında onu muğam aləminə ilk qovuşduran tar müəllimi Əhməd Bakıxanovun ürəyi döyünür, tarının sarı siminin cingiltisi yaşayır. Bəlkə də, ayrı düşdüyü Azərbaycanla, Bakıyla, dostlarla, titrək əlləriylə tarı sinəsinə sıxıb, kiçik Əliyə bu müqəddəs musiqi alətinin ibtidasını öyrədən Əhmədxan müəllimlə yenidən görüşmək həsrəti ağaye Səlimiyə "Sizə salam gətirmişəm" təranəsini ərsəyə gətirməyə sövq etmişdi. Musiqinin müxtəlıf janrlarında tükənməz istedadlarını imtahana çəkən Əli və Fatimə incəsənət cütlüyü bu əsərlə aləmə dostluq, mehribanlıq, qardaşlıq, qarşılıqlı anlaşma və hörmət, bütün dünya əhalisinə sülhə çağırış hisslərini aşılayırdılar. 1977-ci ildə Tehranın ən böyük musiqi mərkəzləri və yaradıcılıq ocaqlarında, o cümlədən Rudəki adına və "Vəhdəti-talar" konsert salonlarında tamaşaçılara canlı surətdə töhfə edilən bu mahnı İran Milli Radiosu ilə dünya ölkələrinə yayımlandı. Gözəl bəstəkarlıq nümunəsi olan bu əsər də bəşəri hisslər yatağı olan insan ürəklərinə yol tapdı, xalqlar arasında ünsiyyət vasitəsi olan incəsənət və mədəniyyətin carçısı oldu.

**Məhəmmədhüseyn Herisçi**
Cərrah-ortoped,
tibb elmləri doktoru, professor

# Əhməd Bakıxanov televiziya proqramlarında

### "Sənətkarlıq məktəbi" verilişi

Azərbaycan Televiziyası və Radiosunun Əhməd Bakıxanov adına Xalq Çalğı Alətləri ansamblına həsr olunur.

**Yaqub Əliyev,** *aparıcı:*

– Klassik ədəbiyyatımızın görkəmli nümayəndələrindən biri və əsilzadələrindən olan Abbasqulu ağa Bakıxanovun xələfi Məmmədrza ağa da öz ulu babası kimi şeirə sənətə vurğun insan idi. Evində topladığı musiqi məclislərinin təsiri tezliklə övladlarında da özünü büruzə verməyə başladı. Muğamın sehrinə aludə olanlardan biri də oğlu Əhmədxan idi.

İlk musiqi təcrübəsinə qaval çalmaqdan başlayan Əhməd, sonralar kamança və tar çalmağa da həvəs göstərdi. İllər keçdi və tar sənətinin sirlərini Məşədi Zeynaldan, zamanının başqa məşhur bir tarzəni Qurban Pirimovdan müstəqil surətdə öyrənmiş, yəni sadəcə görüb, götürmüş Əhmədxan böyük Üzeyir Hacıbəyovla tanış oldu. Dahi Üzeyirin təklifi ilə konservatoriyada müəllim işləməyə başladı. O zamanın başqa bir dahisi Müslüm Maqomayevin təklifiylə isə ilk xalq çalğı alətləri ansamblını topladı. O dövrdən 80 ildən artıq vaxt keçib. Bu gün ilk ansamblımızın varislərindən yalnız bizim müasirlərimiz olan nümayəndələrini tanıyırıq. İndi Əhməd Bakıxanovun adını

daşıyan bu kollektiv haqqında veriliş hazırlayarkən onlardan bəziləri ilə görüşüb söhbət etdik, xatirələrini dinlədik.

**Tofiq Bakıxanov**, *Əhməd Bakıxanovun oğlu, xalq artisti, professor, "Şöhrət" ordenli bəstəkar:*

– Ağası Məşədibəyov, Əmrulla Məmmədbəyli, qarmonçalan kor Əhəd Əliyev, kamançaçalan Qılman Salahov və s.həmişə bizim evdə məşq edirdilər. 1936-cı ildə uşaq olsam da, yadıma gəlirdi; onlar bir yerə yığılıb son dərəcə ciddi məşğul olurdular. Məşq qurtarandan sonra da çalınan muğamlar üzərində diskussiyalar olurdu. Burada muğam hissələri, onları ayıran rənglərdən maraqlı söhbətlər gedirdi. Belə oldu ki, Əhmədxan "Azərbaycan rəngləri" adlanan repertuar toplusunu o zamandan yazmağa başladı. Bu axtarışla dolu yaradıcılıq işləri repressiya illərinə qədər davam etdi. Əzab və işkəncələrlə qeyd olunan qanlı terror və repressiya dövründə atam və qardaşı, əməkdar artist tarzən Məmmədxan Bakıxanov da müəyyən bir müddətə Azərbaycanda İran muğamları adlandırılan "Hümayun", "Bayatı Şiraz", Bayatı İsfahan" kimi dəstgahları təbliğ etmə səbəbiylə həbsə alındılar. Yenə dahi Ü.Hacıbəyovun köməyi ilə onlar həbsdən azad olunub ailələrinə qovuşdular. 1941-ci ildə Ü.Hacıbəyovun  təşəbbüsü ilə təzədən yeni tərkiblə bərpa olunub fəaliyyətə başladı: Cabbar Qaryağdıoğlunun qızı Zərəfşan xanım pianoda, Əliağa Quliyev və Həbib Bayramov tarda, Əli Bəşiroğlu zərb alətlərində, Azər Əliyev qoşa nağarada, Buzovnadan xüsusi dəvət olunan Nadir Axundov klarnetdə ifa etmək üçün kollektivdə yer aldılar. Ansamblın yaranması tək Azərbaycanda deyil, bütün Şərq ölkələrində yaranmış milli ansamblların təşəkkül tapmasına sirayət etmişdi. Bu yüksəlişdən bəhrələnərək ölkəmizin bütün bölgələrində

müxtəlif üslub və dəst-xətlərə malik ansambllar yaranmağa başladı. Əhmədxanın fəaliyyətinin əsas məqsədi Azərbaycan muğamlarının təbliği, rənglərin düzgün ifası və ümumiyyətlə dəstgahların dəqiq, təhrifsiz oxunmasına nail olmaq idi. Yüksək muğam biliciləri ilə həmrəyliyi ona bu işində bəhrə gətirirdi, belə ki, o vaxtlar konsertmeyster olmadığından xanəndə Seyid Şuşinskinin muğam ifasını Ə.Bakıxanov şəxsən özü müşayiət etmişdir. Zülfü Adıgözəlov, Əbülfət Əliyev, Əlibaba Məmmədov,Yaqub Məmmədov, İslam Rzayev, sonralar Teymur Mustafayev, Canəli Əkbərov, qadınlardan; Yavər Kələntərli, Həqiqət Rzayeva, Sara Qədimova, Şövkət Ələkbərova, Rübabə Muradova ansambldan, ən başlıcası Əhmədxanın mənəvi yardımı və ustad təcrübəsindən yetərincə faydalanmışlar.

Azərbaycan musiqisi unison səslənən musiqidir, yəni bütün müsiqiçilər eyni avazı çalırlar, ancaq Əhmədxan alətlərin ölçüsünü, imkanlarını nəzərə alaraq, onun orkestrləşdirilməsində danılmaz fəaliyyət göstərmişdir. İnstrumental tərkibə Zakir Bayramovun ifasında saz alətini, Akif Novruzovun çaldığı ud və bas tarı, Asiya Tağıyevanın ecazkar ifasında tərənnüm edilən sehrli kanonu ansamblın alətlər arsenalına daxil etmişdir. Bu musiqi əlvanlığını, tembr rəngarəngliyini, duyğular dənizini Əhməd Bakıxanov yaradıbdır. Əhməd Bakıxanovun fəaliyyəti tək bunlarla bitmir, atamın yaratmış olduğu rəngləri və dəramədləri ilk əvvəl özü Ü.Hacıbəyov üçün ifa edir, onun xeyir-duasını alandan sonra gətirib radioda canlı surətdə səsləndirirdi. 1946-cı ildə Üzeyir bəy tərəfindən bu rənglərin çap olunması təklif olundu və çox keçməmiş “Azərbaycan xalq rəngləri” adı altında kitab şəkilində nəşr olundu. Daha sonralar musiqimizdə klassik janr kimi mövcud olan zərb muğamlarının

toplanması başlandı, çox keçmədən dərs vəsaiti kimi musiqi tədris edən ocaqların istifadəsinə verildi. Heydər Əliyev Fondunun dəstəyi ilə "Azərbaycan Xalq musiqisinin antologiyası" çap olunmuşdur. Orada Əhməd Bakıxanovun yaratdığı bütün rənglər və dəramədlər, muğam parçaları yer almışdır. Ansambl yaratmaq çox da asan iş deyil, bunun öhdəsindən gəlmək üçün təcrübə ilə yanaşı bütün muğamların sirrini bilmək, alətlərin diapazonlarına bələd olmaq və ansambl tərkibində hər alətin imkanını büruzə verdirmək bacarığı lazımdır. Bütün bu təcrübə toplumu Əhmədxanda olduğu üçün o, işin öhdəsindən asanlıqla gəldi, ansambl yaradıcılığı üçün məktəb yaratdı. Bilirdi ki, tütəklə klarnetin birgə çalğısı, kanonla sazın dueti gözəl effekt verir və elə xüsusi hissələr vardır ki, ancaq tək zərb alətləri işləməlidir – bunlar da onun nəzərindən qaçmırdı.

Əsl sənətkar odur ki, dünyasını dəyişəndən sonra ad qoyub getsin, əməlləri yaşasın. Bu zümrədən olan insanlardan biri də Əhməd Bakixanovdur, bundan böyük xoşbəxtlik ola bilməz.

**Əlibaba Məmmədov,** *Xalq artisti, xanəndə:*

– Əhmədxan bizim xalq musiqisi və muğamlarımız üçün çox işlər görmüşdür. Muğam dəramədləri və rənglərinin əksəriyyəti ona məxsusdur. Belə ki, bu musiqi janrında mövcud olan əsərlərin çoxusunu o, özü bəstələmişdir. 1953-ci ildə mən 23 yaşa dolmuşdum, Asəf Zeynallı adına Musuqi məktəbində Seyid Şuşinskinin muğam sinifində oxuyurdum. Bir gün Əhməd müəllim qapını açıb, icazə alaraq, sinfə daxil oldu, Seyidlə görüşüb, sual etdi:

– Seyid, bu uşaqlardan kim "Bayatı Şirazı" yaxşı oxuyur?

Ağa fikirləşmədən fövri cavab verdi:

– Əlibaba!

Bu adı eşidən kimi sinifə üz tutub qayıtdı ki, "Əlibaba, gəl ansambla!"

İlk dəfə Əhmədxanın gözəl tərkibli, möcüzəli ansamblını onda gördüm: Nadir Axundov, Həbib Bayramov kimi sənəkarlar səliqəli bir cərgə quraraq əyləşib, ustadın göstərişlərini diqqətlə izləyirlər. "Bayatı Şiraz"ı tamam dəstgah, özü də birnəfəsə oxudum. Heç nədən xəbərim yox idi, bir gün də radionun "Muğamat konserti"nin elanını eşitdim: "Bayatı Şiraz" oxuyur Əlibaba Məmmədov"

Əhmədxan müəllim bizim üçün öz balalarına etdiyi qayğılardan daha çox iş görmüş, bunun üçün əzmlə çalışmışdır. O, daima gərgin axtarışlarda idi, istedadları tapır, müəyyənləşdirir, gətirib ansamblda oxudur, təcrübəsi ilə onu püxtələşdirir, həm bizi, həm də ansamblı yaşadırdı. Yavaş-yavaş özümü təsdiq edəndən sonra mahnılar yazmağa başladım, onun üçün oxudum, xoşuna gələni də oldu, bəzilərinin yenidən işlənməsini tövsiyə edib, məsləhətlər də verdi. Mənim, İslam Rzayevin, Zeynəb Xanlarovanın və bir çox başqalarının bu səviyyəyə yetməsində zəhməti olduğuna görə, onun bizim boynumuzda böyük haqqı vardır. Demək olar ki, bizi xalqa sevdirən, cəmiyyət içərisində, ölkədə populyar edən Əhmədxan müəllim və onun ansamblı olmuşdur. Buna görə biz ustadımıza həmişə minnətdarıq. Müxtəlif səpgili mahnılar, "Rahab", "Bayatı Şiraz" kimi ən çətin muğamları bizə oxutdurardı. Bir gün də Seyid Şuşiskiyə dedi ki:

– Seyid, sən bir "Güllü qafiyə" oxuyursan, onu öyrət Əlibabaya, ya Quluya, qoy cavanların da ifasında olsun. "Güllü qafiyə" nədir? Ən qədim dövrdə bu mahnı aşıq musiqisi oxumalarında olub, sonra muğama keçibdir. Mən Qulu Əsgərovla

dostluq edirdim. Onun da aşıq musiqisi yararadıcılığına bələdçiliyi çox idi, istedadı aşırdı, həm gözəl tar çalırdı, şirin də oxuyurdu.

Məşqlərə getdik, nəsə bu ifa Quluda alınmadı. Seyid məsləhət gördü ki:

– Ay Əlibaba, gəl sən oxu, Quluda ritm gecikir.

Fioletov küçəsində yerləşən səsyazma studiyasına Əhmədxan və Qulu ilə gəldik, anşambl yazılışa tam hazır idi. İfa başlandı, mən oxudum, 1955-ci ildə lentə alınan o mahnı xalq mahnılarının içərisində ən populyarlarından oldu. İndi onu çox xanəndələr Alim Qasımov, Mələkxanım Əyyubova oxuyur. Birdən Əhmədxan bu mahnını biz cavanların ifasında o cürə dəyişdirıb yazdırmasaydı, fondda qalmasaydı, yəqin ki, unudulub, aradan çıxan başqa xalq mahnılarının acı aqibətini yaşayacqdı.

Mənə Əhmədxandan yadigar qalan kiçik bir kino süjet qalmışdır. Kadrda mən mahnı notlarını ustada təqdim edib, onun haqqında danışıram. Ustad sənətkar muğamın geniş təşəkkülü, inkişafı, tərəqqisindən həvəslənib bizim iştirakımızla "Şur" adlı musiqili film çəkdirməklə, muğamın düşüncəmizə kütləvi surətdə həkk olması yönündə son dərəcə böyük bir iş görmüş oldu. Əhmədxanla kinorejissor Arif Qazıyevin müştərək əməyinin məhsulu olan bu filmdə "Şur" muğamının ifasının tamam dəstgah şəklində kinolentə alınması ölkənin musiqi həyatında əlamətdar hadisə idi. Yadımdadır, Əhmədxan mənə zəng edib evlərinə çağırdı. Çəkiləcək və analoqu olmayan film barədə fikrini, qərarını dedi. "Sur" filminin dörd xanəndənin ifasında kinolentə alınacağını bildirdi. Məni maraq götürdüyündən soruşdum:

– “Sur” dəstgahında Əbülfət Əliyev, Arif Babayev, İslam Rzayev və mənim ifamı necə bölmüsünüz?

– “Mayeyi Şur” və “Şur-Şahnaz”-ı Əbülfət, “Bayatı Türk” və “Şikəsteyi Fars”-ı sən – Əlibaba, “Səmayi-Şəms”-i Arif, “Sarənc” və “Hicaz”-ı İslam  oxuyacaqsınız.

Baxıb gördüm kı, muğamı hissələrə çox ustalıqla bölüb. Onun dahiliyini özüm üçün bir daha müəyyən etdim. Film böyük zəhmət bahasına başa gəldi, əvvəlcə məşqlər keçirildi, sonra fonoqramlar yazıldı, müxtəlif çəkilişlər aparıldı. Nəticə etıbarı ilə filmin böyük rezonansı, yüksək tamaşaçı rəğbəti, kütləvi informasiya vasitələrində müsbət rəylərlə dolu əks-sədası oldu. Bir neçə ölkədə nümayiş etdirilərək diplomlara layiq görüldü. Şərq aləmində muğam sənətini ekranlaşdıraraq, kinolentinə həkk etdirməklə filmləşdirmək ideyası Arif Qazıyev və Əhməd Bakıxanova məxsus olmuşdur. Biz, xalq musiqiçilərinin hamısı Əhmədxan müəllimə borcluyuq, borcluyuq, yenə də borcluyuq! Allah ona rəhmət eləsin!

**Teymur Mustafayev,** *Xalq artisti, xanəndə:*

– Əhməd Bakıxanovla 1958-ci ildə tanış olmuşam. Mən Asəf Zeynallı adına Musiqi məktəbinə daxil olmağa gəlmişdim. Amma, ixtisas üzrə qəbul imtahanı Azərbaycan Dövlət Filarmoniyasında keçirilirdi, çünki musiqi məktəbinə qəbul olunanlardan məsləhətliləri filarmoniyaya solist götürürdülər. Mən bu baxış-imtahanda birinci yeri tutdum. Əhməd müəllim məni müşayiət etdi, çıxışım uğurlu oldu, məni həm məktəbə, həm də filarmoniyaya solist kimi götürdülər. Ə.Bakıxanov filarmoniyada redaktor vəzifəsində çalışan Cahangir Məmmədova zəng vurub dedi ki, qoy Teymur bizim Qasım İsmayılov küçəsi 119-da yerləşən evimizə gəlsin. Əhməd müəllim məni qarşıladı

və bildirdi ki, "səni ansambla solist götürürəm". O gündən həm televiziyanın, həm də ansamblın solisti kimi işə qəbul olundum. Bu günə qədər onun məşqlərinin təsiri altındayam. 25 nəfərlik ansambl üzvlərindən 25 səs çıxmaz idi. Sükutu ancaq Əhmədxanın göstəriş səsi poza bilərdi. Yadıma gəlmir ki, orada kimsə bərkdən danışa və ümumiyyətlə dilinə məşqə aid olmayan nə isə söz gətirə biləydi. Müəllim bütün məşq boyu ifaçıları elə ovsunlayırdı kı, onlar musiqinin, muğamın sehrindən ayrıla bilmirdilər. Həqiqət belə idi. Televiziyanın böyük studiyasından hər şənbə günü saat 17-15-də canlı musiqili radio verilişləri gedirdi. 45 dəqiqəlik bu proqramda bir qız və bir oğlan müğənni oxuyardılar. Mirzə Əhmədxana dedim:

– Gəncədən bir qız oxuyan gəlib, icazə versəniz, onu gələn məşqə gətirərəm.

O, Nəzakət Məmmədovanı dinlədi, "Ay qız" duetini məşq elətdirdi, bəyəndi, araya gözəl bir əsər çıxardı. Müəllim bizə bildirdi:

– Moskvanın Mərkəzi Televiziyası və AzTV müştərək "Diqqət! Konsert başlanır" adlı musiqili film çəkirlər. Bizım ansamblın da nömrələrindən lentə almağı təklif ediblər. Mən də razılıq verdim. "Kimi çəkək?" sualına cavab verdim; Nəzakət Məmmədova və Teymur Mustafayev duetini.

Əhmədxan həm də bəstəkar idi, dəraməd və rənglərlə yanaşı mahnılar da yazırdı. Bütün milli musiqi alətlərinin hamısında ifa edə bilirdi. Musiqi həvəskarlarının mühakiməsinə bəxş etdiyim və müəllimin bəstəsi olan "Sevgilimsən, gözəl yar" mahnısıyla başlanan diskin üzərində Əhmədxanla olan şəkilimizi vurdurmuşam.

Xeyirxahlıq, insanlıq onun daxilindən gəlirdi. Tarzən Əliağa Quliyev Böyük Vətən müharibəsi cəbhələrindən güllə yarasıyla qayıtmış, ağrı və əzabları keçmədiyindən iztirab çəkirdi. Yüksək humanizm simvolu olan Əhmədxan onun müalicəsi, lazımı dərmanlarla təmin olunması üçün müsbət nəticələr verən müraciətlər və çalışmalar etmişdi.

Bəstəkar Fikrət Əmirov və Bülbül Əhməd müəllimlə bərk dost idilər, odur ki, müəllimlə görüşmək üçün tez-tez onun evinə gələrdi. F.Əmirov özü də yaxşı tar çalırdı, amma muğam sahəsində müəyyən dərsləri ondan alırdı. Yadımdadır Əmirovlar ailəsi üçün əziz relikviya sayılan tarını Əhmədxana bağışladı. Bu xatirələrin dilə gətirilməsinə və Əhmədxanı yad etdiklərinə görə Dövlət Televiziyasının rəhbərliyinə və əməkdaşlarına təşəkkür edirəm.

**Elşad Cabbarov,** *Əməkdar artist. Klarnet ifaçısı, ansamblın veteranı:*

– Mənim bu ansamblla mehribançılığım evimizdən başlanmışdır. Rəhmətlik atam, dostları; Ağası Məşədibəyov, Əliağa Quliyev hər üçü Əhməd müəllimin tələbəsi olmuşlar. Vətən müharibəsi dövründə atam əmək cəbhəsində çalışmaq üçün tar çalmağı atdı. Öz növbəsində Həbib Bayramov, Əhsən Dadaşov isə atamın tələbələri idilər. Yəni mən bu ansamblı uşaq yaşlarından tanımışam. Virtuoz klarnet ifaçısı Nadir Axundov bu kollektivin gözü və aparıcı ifaçılarından biriydi. Mənə muğam öyrədərkən həmişə deyərdi ki, “Mən Əhmədxanın ansamblının ilk solistlərindənəm, sən də bu ansamblı sev, qiymətləndir, ona bağlan, meylini sal”. Bir zaman Əhsən Dadaşovun rəhbərlik etdiyi ansamblda çalışırdım, Nadir müəllim dedi ki, “get otur Əhmədxanın ansamblında, dəramədlərə, rənglərə qulaq as,

ifaları seyr elə, bilikləri əxz et”. Hər ansamblın özünə məxsus repertuarı, öz təsnif və rəngləri vardır. Mən gəlib maraqlandım, oturub qulaq asdım, get-gedə musiqiləri mənimsədim və bir gün Əhməd müəllimə dedim ki, “Olarmı, mən də ansambla gəlim?”

– Hələlik yer yoxdur, amma, gəl-get! – deyə Əhmədxan məni ümidləndirdi.

Nəfəs alətləri komrlektləşdirilmişdi: Əliağa Əliyev klarnet, Bəhruz Zeynalov balaban çalır və dəmkeş Çingiz, Nizami Allahverdiyev nəfəs alətlərində ifa edirdi. 1970-71-ci illərdə Ə.Dadaşovun ansamblından çıxdığıma görə müntəzəm olaraq burada məşqlərə qatıldım. Həbib Bayramovun vəfatı gözlənilməz oldu, başsız qalan ansambla yeni bədii rəhbər lazım idi. Möhlətlə Fəxrəddinin ansambla dəvət olunması üçün çox çalışdıq. Onlar bir vaxt ansamblı tərk edib filarmoniyada Cabbar Qaryağdıoğlu adına Şərq üçlüyü yaratmışdılar. Həbib Bayramovun vəfatının 40-cı günündən sonra fikrləşirdik ki, bədii rəhbər vəzifəsinə kimi gətirək. Ansamblda iki veteran qalmışdıq və bizim məsləhətimiz oldu ki, Möhlət Müslümovu yenidən dəvət edək, onda Fəxrəddin də gələcəkdir. Bax beləcə ansamblın ruhunu bərpa etmək, yenidən komplektləşdirib, sahmana salmaq üçün çıxış yolu tapdıq.

**Zakir Bayramov,** *ansamblın veteranı, saz ifaçısı:*

– Mən bu gün çox sevinirəm, həm də bir az qəmlənirəm. Ona görə sevinirəm ki, Azərbaycan Dövlət Televiziya və Radiosuna məxsus olan yeganə, qədim, möhtəşəm ansamblın 80 illik yubileyi qeyd olunur, qəmlənirəm, çünki köhnə ansamblın üzvlərindən çox az adam sağ qalıbdır. Əhməd müəllim olduqca qeyri-adi bir insan olmuşdur. Musiqiçidə bir balaca tərəqqiyə

dogru irəliləyiş görürdüsə, həmişə çalışırdı ki, onu inkişaf etdirsin. Mən deyərdim ki, tanınmış xanəndələrin 70-80%-nin ustalıq dərəcəsi, populyarlığı Əhməd müəllimin əməyinin bəhrəsidir. Musiqimizin, muğam aləmində mövcud olan ifaçılıq sənətimizin inkişafında böyük zəhməti olub. Ansamblla ilk tanışlığım 1960-61-ci illərə təsadüf edir. Mən o vaxt Azərbaycan Dövlət Universitetinin tələbəsiydim və ADU-nun "Sevinc" ansamblında saz çalırdım. Əhməd müəllim mənim saz çalmağımı həmin ansamblın konserti zamanı görüb, öz kollektivinə dəvət etmişdir. Mən ansamblla keçirəcəyim ilk məşqə gəldim, hamının yanında mənə dedi: "Nə çala bilirsənsə, çal". Dedim: "Nə istəsəyirsinizsə, onu çalım". Ansamblın üzvləri dodaqaltı xəfif gülümsədilər. (Mən bilmirdim ki, hələ dərin və nəhayətsiz muğam ümmanının sahilində durmuşam). İnstrumental saz havaları və muğamsayağı ifamı yoxlayıb bəyəndi və dəstəyə üzv qəbul etdi. Bizim ansamblın çox gözəl, çox bacarıqlı xanəndələri və müğənniləri olmuşdur; Zeynəb Xanlarova, Əbülfət Əliyev, İslam Rzayev, Sara Qədimova, Şövkət Ələkbərova, Flora Kərimova, Elmira Rəhimova, instrumentalist ifaçılardan; Musa Həsənov (qarmon), Əliağa Əliyev (klarnet), dəmkeş Çingiz, Ələkbər Əsgərov (klarnet), Zaur Rzayev (piano), Elman Bədəlov (kamança). 1960-cı illərdə hamı çalışırdı ki, Əhməd Bakıxanovun ansamblı ilə oxusun, ancaq müəllim onları bir-bir yoxlayırdı, ya qəbul edirdi, ya da deyirdi ki, – get hazırlaş, sən hələ dəyməmisən. Ansamblın gözəlliyi ondan ibarət idi ki, bizdə həmişə birlik var idi. Bu səliqə-sahman, qanun-qayda rəhmətlik Əhmədxandan irəli gəlirdi. Bütün xalq mahnılarımızın, muğamlarımızın yayılmasında bu ansamblın böyük rolu olmuşdur. Düzdür bəstəkarlarımız da bi-

zimlə çalışırdılar, onların zəhmətimi itirmək olmaz. Fikrət Əmirov, Telman Hacıyev, Adil Bəbirov, Cahangir Cahangirov, Ələkbər Tağıyev kimi bəstəkarların əsərlərini sevə-sevə çalmışıq. Muğamın kino təcəssümü sayılan "Şur" musiqili filmi çəkiləndə müəllimə yaxınlaşıb dedim kı, "İcazə verin "Şikəsteyi Fars"-ı mən çalım"

– Niyə görə "Bayatı Türk"ü sən çalmırsan? – deyə sualla məni üstələdi.

Müəllim dediyi kimi mən elə "Bayatı Türk"-ü çaldım, film ərsəyə gələndən sonra səslənmələrdə onun ali zövqü, tapıntılarda dəqiqliyi aşkar nəzərə çarpdı. Bu günkü ifalarda nə çatışmır? Bütün ansambllarda fikir verib görürəm ki, muğam hissələrini ayrı-ayrı alətlər arasında bölən yoxdur. Bu böyük tapıntı da müəllmin ideyası, öz fikri, təfəkkürünün məhsulu idi və ona görə bütün muğam ifaları həmişə sevilirdi. Kollektivin 80 illiyi ılə əlaqədar ansambla hədiyyə olaraq saz düzəltdirmişəm, "qoy ansambl sazsız olmasın" deyə təqdim edirəm. Bir sazım da var. Bu saz isə 1948-ci ildə bağlatdırılan və uzun müddət Əhmədxanın göstərişi ilə mənim dilə gətirdiyim, televiziyada, radioda, konsetlərdə bu ansamblla 10 ildən artıq fəaliyyət göstərdiyim sazdır, bunu "Şur" filmində çalmışam. Bu saz mənə hər an Əhməd müəllimi xatırladır. İndi muğam öz inkişafının zirvəsindədir. Muğamlarımıza ürək dolusu qiymət verildiyinə və muğam elmimizi əsaslı surətdə inkişaf etdirdiklərinə görə ölkə prezidenti cənab İlham Əliyevə, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya minnətdarlığımızı bildiririk. Muğama olan bu münasibətə görə xalqımızın sevincinin həddi-hüdudu yoxdur.

**Fəxrəddin Dadaşov,** *Xalq artisti, kamança ifaçısı*

1966-cı il idi, əlımdə kamança filarmoniya bağının içərisindən keçib, dərsə gedirdim. Musiqiçilərin daimi görüş yeri olan bu bağda tarzən Həbib Bayramovla söhbət edən tanınmış xanəndə Hacıbaba Hüseynovla rastlaşdım. O, məni yanına çağırıb hal-əhval tutdu, illər uzunu dostluq etdiyi atamı soruşandan sonra Həbib müəllimə təqdim etdi:

– Bu uşağın yaxşı kamança çalmağı var, onun ifasını görmüsənmi?

– Yox! – deyə Həbib Bayramov dindi.

– Cavan istedadlı uşaqlardandır, onu ansambla götür.

– Sabah Dövlət Televiziyasında məşqimiz olacaq, tapşıracağam ki, qapıdan səni buraxsınlar, kamançanı da götür gəl, mənim adımı verib keçərsən, – deyə Həbib müəllim sözünü yekunlaşdırdı.

Səhəri gün saat 10-da televiziyadakı məşq otağına daxil oldum və gördüm ki, Əhməd müəllim hamıdan qabaq gəlib. Bir azdan hamı yığışdı, Həbib müəllim məni görüncə:

– Əhməd müəllim, dediyim oğlan budur, gəlin ona bir qulaq asaq.

Düzü gözlərimə inanmırdım, televiziyadan və dərs proseslərindən yaxşı tanıdığım tarzənlər; Əbdülağa Nəcəfov, Tofiq Məmmədov, Əliağa Əliyev (klarnet), Çingiz (balaban), Əlibeki (nağara), Akif (bas tar), Asiya Tağıyeva (kanon), Zakir Bayramov (saz), Zaur Əliyev(piano), kaman sənətinin virtuozları; Tələt Bakıxanov, Elman Bədəlov səf çəkib oturmuşdular. Əhmədxan müəllim mənim bir neçə ifamı dinləyib, bəyəndiyini bildirdi, Həbib Bayramov soruşdu:

– Bizim məşqlərimiz sənin dərslərinlə toqquşmayacaq ki?

– Ay Həbib müəllim, icazə alıb gələrəm, – deyə sevincək bildirdim.

O, gündən etıbarən mən Əhmədxan Bakıxanovun ansamblında çalışmağa başladım. Düz 7 il işlədiyim müddətdə ustadımızdan çox dərin biliklər aldım; fərdi halda solo, Şərq üçlüyü tərkibində, xanəndə müşayiəti halında ifaların incəliklərini öyrəndim. Hamı kimi mən də qeyd edirəm; o, bizə həm müəllim, həm də ata idi. Öz peşəsinin vurğunu, fanatı olan Əhməd müəllim ansamblla nəfəs alırdı, bu kollektiv onun amalı, yaradıcılıq devizi, arzularının idealı idi. Vaxtaşırı televiziya ilə çıxışlarımız olurdu, məşqə gələn kimi hamıya deyərdi ki, "Mərkəzi Komitədən zənq eləyiblər, deyiblər ki, ansamblı çox bəyəniblər, çıxışımız çox xoşlarına gəlib". Uğurlara sevinən, müvəffəqiyyətlərlə fərəhlənən, qanadlanan insan idi. Bir dəfə Hacıbaba Hüseynovun ifasında televiziyada canlı surətdə dəstgah çaldıq. Səhəri gün  Əhmədxan məşqdə bərk dilxor idi. Həbib müəllimə bildirdi ki:

– Mərkəzi Komitədən yenə zəng eləmişdilər: "o "qara"nı (Hacıbaba Hüseynovu) nə üçün efirə buraxmısınız? O, qara kişi səhnədə, televizor ekranında qara görünür, "vidi" (görünüşü) yoxdur". Mən də dedim, sizə səs, oxumaq lazımdır ya "vid"? Oxuyur, özü də gözəl oxuyur. Ona görə də çıxarmışam. Mənə onun üstündə töhmət verdilər.

**Hacıbaba Hüseynov,** *Xalq artisti, xanəndə, pedaqoq:* (çıxış xanədənin 1989-cu ildə keçirilən70 illik yubiley gecəsinin videoyazısından götürülmüşdür):

– Bir dəfə Əhmədxan rəhmətlik məni çağırıb dedi ki, "televiziya ilə oxuyacaqsan". Məni də televiziyaya qoymurdular, deyirdilər ki,"qaradır". Əhməd müəllim mənim Bəhram

Mansurovla çəkdirdiyim şəkli (Doğrudan da, çox göyçək düşmüşdüm orada) aparıb, televiziyadakı adama göstərib deyir:

– Ay yoldaş, baxın bu oğlana, "qənfet" kimi oğlandır! Flankəs (adı deyilmir) qapqara qula oxşayır, onu buraxırsınız, bunu yox?!

Nə isə, görürlər ki, Əhmədxan başqa cür başlayıb, deyirlər ki, "Gələcəyik baxmağa. Bir dənə oxusun, gələk, baxaq görək sifəti nə hala düşür". Mən bunu urus demişkən "realnı" deyirəm. Əhmədxanın ansamblı cərgəsiylə oturdu, məni çağırdılar. Tarzən Sərvər İbrahimov da konsertmeyster idi, Əhmədxan əyləşib təsbeh çevirirdi. İki nəfər televiziya işçisi gəlmiş idi, onların adını deməyəcəyəm. Mən də bərk hirslənmişdim. Doğrudan deyim, mən də hirslənəndə yaxşı oxuyuram. Çıxışa gedəndə "Zolotoy klyuç" iris konfetinin suyunu süzmüşəm şüşəyə, rəngi də lap tiryək rəngində idi. Hərdən ki, bir qurtum içirəm, bunlar fikirləşirlər ki, yəqin bu "tiryəkidir". Mən oxudum, özü də çox yaxşı oxudum, çalışdım və gözlədiyimdən də yaxşı oxudum. Dəstgah qurtarandan sonra tərimi silirdim, Əhmədxan bu iki nəfərə qayıtdı:

– Bir sual verəcəyəm sizə, atanınızın atası belə "Rast" eşitmişdi?!

Dedi: "Yox!"O, vaxtdan məni televiziyaya çağırırdılar.

Fəxrəddin Dadaşov: – Biz bu ansamblla əməlli-başlı dolanır, yaxşı da maaş alırdıq. Əhməd müəllim çalışırdı kı, ifamız üçün təyin olunan stavkamızı (maliyyə məbləği) artırsın, bu məqsədlə ansamblın inspektoru Əliağa Quliyevə dönə-dönə tapşırırdı ki, stavkaların qaldırılması üçün nazirliyə ərizə yazsın, yeri düşdükcə ifaçıları 2-ci kateqoriyadan 1-ciyə keçirsinlər ki, yaxşı pul alsınlar.

1994-cü ildə Möhlət Müslümov ansambla bədii rəhbər təyin olunandan sonra, köhnə, lakin qiymətli ənənəni bərpa etməyə başladı. O, işi, əsasən yeni gələn gənclərlə qurmağı bacardı.

**Möhlət Müslümov,** *Xalq artisti, tarzən, Az.TV-nin Ə.Bakıxanov adına Xalq Çalğı Alətləri ansamblının bədii rəhbəri:*

– 1969-cu ildə Asəf Zeynallı adına Musiqi məktəbinə tar ixtisası üzrə imtahan verirdim. Qəbul imtahanını məndən Əhmədxan götürürdü. Ansamblının ifasına televizorda saysız tamaşa  etdiyim, özünü efirdə nadir hallarda görüb seyr elədiyim bu mahir ustadla həyatda ilk dəfə rastlaşmadığıma görə onu tanımadım. Bir neçə hava çaldım, ifam xoşuna gəldi, sorğu-sual edib, hansı kənddən olduğumu, hansı musiqi məktəbini bitirdiyimi, kimdən dərs aldığımı soruşdu. Qiymət alıb eşiyə çıxanda mənə bildirdilər ki, imtahan götürən məşhur Əhməd Bakıxanov idi. Onunla yenidən görüşmək üçün içəri daxil olmaq istədim, ancaq imtahan dövlət tədbiri olduğundan icazə vermədilər. İlk görüşüm, ilk təəssüratım yadımda belə qaldı. 20 ilə yaxındır ki, bu ansamblın bədii rəhbəriyəm. Təyin olunduğum gündən bu kollektivin tarixiylə, keçmişiylə maraqlandım, kitablar tapıb oxudum. İndi deyə bilərəm ki, əgər nəzəriyyəli, professional xalq musiqisinin banisi Üzeyir bəydirsə, rəng və dəramədlər, təsniflərimizin əməldə banisı Əhməd Bakıxanovdur. Bildiyiniz kimi Azərbaycanın muğam aləmində ifa olunan “Segah”in çoxnövlüyü heç bir Şərq xalqında yoxdur: “Segah”, “Xaric segah”, ” Orta segah”, “Mirzə Hüseyn segahı”, “Yetim segah”, “Zabul segah”...  Məsələn: Əhmədxanın “Zabul

segah" üçün yazdığı dəramədı "Xaric segah"da çalmaq olmur, tətbiq etsən də, "yamaq" kimi görsənəcəkdir. Eyni törəməli muğam olsalar da, bu "Segah"ların ayrı-ayrı öz rəngləri və dəramədləri vardır. Təkcə Dövlət Televiziyasının fondunda rəhbəri olduğum ansamblın ifasında 100-dən artıq "Muğam axşamı" verilişi vardır. Elə muğam dəstgahları var ki, fərdi surətdə 10-15 xanəndə tərəfindən oxunmuşdur. Hər dəfə muğamlara müraciət edəndə mən Əhməd müəllimi böyük minnətdarlıq hissiylə yad edirəm, kövrəlirəm, öz-özümə deyirəm; nə yaxşı ki, o bu rəngləri yaradıbdır, yoxsa nə ifa edərdik. Ənənəni davam etdiririk, son 20 ildə kollektivimizin səyi nəticəsində özümüzə məxsus bir neçə rəng və dəraməd bəstələnib, dəstgahlar tərkibində ifa edilmişdir.

**Yaqub Əliyev:**

– Qrup 1929-cu ildə "Solistlər ansamblı" adıyla yaradılmışdır. Ü. Hacıbəyov və M.Maqomayevin təşəbbüsüylə yaradılan bu kollektiv 1931-ci ildən təkcə Xalq Çalğı Alətləri ansamblı yox, eyni anda elmi-tədqiqat laboratoriyası rolunu da oynamışdır. Əfsuslar olsun ki, o illərin lentləri qalmayıb, radioda isə 1940-cı illərin sonunun nümunələrinə rast gəlmək olur. Bu ansambl bizim xalqımıza nə verdi? Ən əvvəl muğamın düzgünlüyünü, şəffaflığını qorudu, xalq musiqimizin qüdrətini göstərdi, yeni mütəşəkkil ansamblların yaranmasına təkan verdi. Ən dəqiq və düzgün muğam, dəraməd və rənglərin ifasının eşitmək istəyən dinləyici xoşladığı mahnının, arzusunda olduğu muğamatın icrasını bu ansamblda tapırdı. İfalar könülləri necə oxşayırdısa, kollektivin adicə bir üzvünü küçədə görəndə tamaşaçı onu tanıyıb, deyirdi ki: "Əhməd Bakıxanovun ansamblındandır".

**Asiya Tağıyeva,** *kanon ifaçısı, ansamblın veteranı:*

– Mən ansambla 1963-cü ildə gələndə, gözəl tərkibli bir kollektivlə rastlaşdım, mühit ürəyimcə idi. Əsasən Asəf Zeynallı adına musiqi məktəbinin aparıcı müəllimlərindən ibarət olan savadlı, ziyalı, eyni anda mehrıban insanlarla qarşılaşdım. Orada Həbib Bayramov, gənc pianoçu Zaur Əliyev, Əliağa, Musa, Bəhruz və başqaları var idi. Qadın ifaçılara nadir təsadüf olunardı. Əvvəllər pianoda Ruxsara xanımı görmüşdüm. Əhməd müəllim də orada idi.

Adam elə onun oturuşuna-duruşuna hörmət edirdi. Məşqdən əvvəl də, sonra da bir dənə artıq söz olmazdı, hamı öhdəsinə düşən işlə məşğul idi. Əhməd müəllim özü çox alicənab ziyalı bir şəxs idi. Dəqiqliyi sevdiyi üçün, məşqə və ya səsyazma studiyasına hamıdan qabaq gələr, skamyada əyləşər, bütün yazılış prosesini səs rejissorunun otağıyla studiyanı ayıran şüşəbənddən seyr edib xanəndələrin ifa səviyyələrini, musiqi alətlərinin tembr keyfiyyətini diqqətlə izləyərdi. Çalğıda bir dənə artıq səs, və ya azca təhrif olsaydı, düzəliş verməmiş buraxmazdı. İfadan kənara çıxmaq yox idi, gərək alətlər bir-birini tamamlaya idilər. Əgər iki-üç musiqi alətinin çalğısı bir ifada qarışırdısa, mütləq bunlar hamar gəlməli idi.

**Musa Həsənov,** *qarmon ifaçısı, ansamblın vete*ranı:

– 1929-cu ildə təşkil olunan bu möhtəşəm ansamblın repertuarının zənginləşməsində Əhmədxanın əvəzsiz rolu olmuşdur. 1950-ci illərdə mənim qonşum Ənvər Abdullayev bu kollektivdə balaban çalırdı. Mən də təzə-təzə balaban çalmağa meyil göstərirdim. Bir gün məni apardı Əhməd müəllimin evinə, dedi ki, ustad, baxın, bu oğlan yaxşı qarmon çalır. Bildiyim musiqi parçalarından bir qədər ifa etmişdim kı, o soruşdu:

– Ay bala, bu havaları haradan öyrənmisən?

– Evdə balaca bir radiomuz var, oradan...

– Çox yaxşı çalırsan, “şkolan” yaxşıdır, amma bir az da öyrənməlisən.

Çox ciddi, intizamlı və canlı ifaya malik olmaqla yanaşı həmişə yenilik axtaran ansambl idi. Başda Hacıbaba Hüseynov və Zeynəb Xanlarova olmaq şərtiylə bütün xanəndələr bu kollektivlə çıxış etməyi arzulayırdılar. O zamanlar, yəni 1963-cü ildə ADU-da rəqqas Əlibaba Abdullayevin rəhbərliyi ilə qızlardan ibarət “Sevinc” rəqs ansamblı fəaliyyət göstərirdi. Günlərin bir günü bəstəkar Ələkbər Tağıyevlə görüşə həsr olunmuş konsert keçirilirdi. Bu gecədə oxuyan solistlər, Gülağa Məmmədov və Şövkət Ələkbərovanı Əhməd Bakıxanovun ansamblı müşayiət edirdi. Universitet istedadlarının konsert proqramına daxil edilən “Qızlar rəqsi”ndə mən də qarmon çalırdım. Bədii gecə bitəndən sonra Əhməd müəllim mənə iş təklif edib soruşdu:

– Mənim ansamblımda çalarsanmı?

– Baş üstə! Amma mən bilmirəm çalışdığım Mahnı və Rəqs ansamblının məşqinin vaxtıyla tutar, ya yox?

– Bax! Mən istəyirəm sən bizdə işləyəsən.

Elə 1963-cü ildən etibarən mən Əhmədxanın rəhbərlik etdiyi ansamblda çıxışa başladım. İstedadlı musiqiçi dostlarımdan; Əbdülağa Nəcəfovu (tar), Böyükağa Muradovu (nağara), Ələkbər Əsgərovu (klarnet), Əfqanı (tar) da müəllimin məsləhəti ilə ansambla mən gətirdim. Bu ancambl həm də muğam ifaçılığı ansamblı idi. Əhmədxan bütün üzvlərin ifa qabiliyyətinə və şəxsi mədəniyyətinə çox ciddi yanaşırdı. Mən arzu edirəm ki, ansambl Əhmədxan qoyduğu yolu davam etdir-

sin. Yeniliyin dalısınca qaçsınlar, istedadlı, yüksək musiqi qabiliyyətləri olan ifaçıları dəvət etsinlər, amma köhnə müsiqiçilərin ənənəsi və təcrübəsi unudulmasın.

Az.TV. 16.04.2010-cu il

Ssenari müəllifi – **Yaqub Əliyev**

## "Sənətin izi ilə" verilişi. Əhmədağa Bakıxanova həsr olunur

**Yaqub Əliyev,** *aparıcı:*

– Tarix boyu təfəkkürmüzə, mənəviyyatımıza işıq saçan ruhumuza doğma olan milli musiqimiz xalq zəkasının dərinliyini, estetik dəyərlərin mahiyyətini özündə yaşadıb. Azərbaycanda musiqi mədəniyyətinin parlaq dövrü XX əsrin əvvəllərinə təsadüf edir. Həmin dövrdə dahi Üzeyir bəyin professional musiqi sahəsindəki xidmətləri bunun parlaq sübutudur. Şərqdə ilk notlu xalq çalğı alətləri orkestrinin yaranmasından sonra, xalq çalğı alətlərindən ibarət ansamblın da təşəkkül tapmasına ehtiyac duyan Üzeyir bəy, dövrünün görkəmli sənətkarlarından biri, professional tarzən, istedadlı musiqiçi Əhmədxan Bakıxanova bu müşkül işi həvalə edir və öz növbəsində ansamblın təşkilində ona yaxından kömək edir. Qeyd edək ki, ansamblın yaranma səbəblərindən biri də özünü dərketmə zəruriyyətindən irəli gələn milli oyanış idi. Ə.Bakıxanov xalq çalğı alətlərinə yaxından bələd olan, milli musiqi nümunələrini mükəmməl bilən və professional ifa tərzinə malik

bir ziyalı idi. O, dövrü üçün böyük əhəmiyyət kəsb edən, musiqi mədəniyyətinin inkişafı üçün vacib olan bir işin öhdəsindən layiqincə gəlirdi. Əhməd müəllim Azərbaycan xalq çalğı alətlərinin hər birinin özünəməxsus keyfiyyətlərini, çalğı imkanlarını düzgün müəyyənləşdirir, ansamblın repertuarının genişləndirilməsinə, klassik ifaçılıq ənənələrinin ən yaxşı cəhətlərinin qorunub saxlanmasına ciddi fikir verir, həmçinin çoxsəsliliyə nail olmaq məqsədiylə ansamblın tərkibinə yeni musiqi alətləri daxil edirdi.

**Tofiq Bakıxanov,** *Xalq artisti, bəstəkar, professor Ə.Bakıxanovun oğlu:*

– Dahi bəstəkar Ü.Hacıbəyov bizim qonşuluğumuzda yaşayıb və Ə.Bakıxanovla çox yaxın dost olub, çiyin-çiyinə işləyirdi. Atam muğam dərslərini keçirdi, Üzeyir bəy tədris proqramlarını tərtib edirdi. Dahi bəstəkar bilirdi ki, Əhmədxan unudulmuş və xanəndələrin ifasından kənar qalmış muğam dəstgahlarına bələddir. O, hələ 1927-ci ildə bəstəkar Müslüm Maqomayevin təşəbbüsü ilə solistlər ansamblı yaratmışdı. Yadıma da gəlir, görmüşəm də; tarzən Əmrulla Məmmədbəyli, kamança çalan Hafiz Mirzəliyev, qarmonçu Kor Əhəd kimi ustad sənətkarlar kollektivin tərkibinə qatılmışdılar. 1938-ci ildə repressiya qurbanı olan Ə.Bakıxanova görə, ansamblın fəaliyyəti dayandırıldı, özü isə həm ifaçılıq, həm də musiqi rəhbərliyi işindən uzaqlaşdırıldı. 1940-cı ildən sonra Üzeyir bəyin mənəvi yardımı və təşəbbüsü ilə bu ansambl yenə öz fəaliyyətini bərpa etdi. Bu ansamblın yenidən yaradılması mənim çox yaxşı yadımdadır – pianoçu Ruxsara Mirzəbəyova, professor, gözəl həkim və kamança çalan Firuz Əlizadə, Buzovnada müəllimlik edən klarnet ifası virtuozu Nadir Axundov,

atamın tələbələri olmuş gənc, ümidverən tarzən Həbib Bayramov, ansamblın konsertmeysteri, tarzən Əliağa Quliyev yığışaraq, bir araya gəlmişdilər.

Müharibə illərində Dövlət Dram Teatrında konsertlər təşkil olunurdu, əldə olunan pullar cəbhəyə kömək fonduna verilirdi. Rəhbəri Ə.Bakıxanov olan bu ansamblın çıxışları böyük rəğbətlə qarşılanırdı. Əhməd müəllim ansamblın heyətini özü hazırladığı tələbələrindən təşkil edirdi. Korifey sənətkarların əksəriyyəti konsertlərdə bu ansamblla çıxış edərdilər, məsələn: Seyid, Şuşinski, Xan Şuşinski, Həqiqət Rzayeva, Zülfü Adıgözəlov. Daha sonralar atam gənclərlə işləməyə böyük önəm verirdi, ikinci nəslin nümayəndələri; Sara Qədimova, Şövkət Ələkbərova, Tükəzban İsmayılova, Fatma Mehrəliyeva, Rübabə Muradova, Yaqub Məmmədov, gənclərdən Zeynəb Xanlarova, Teymur Mustafayev, Əlibaba Məmmədov, Arif Babayev, Canəli Əkbərov, Nisə Qasımova bu ansamblla müşayiət olunub, püxtələşib, böyük uğurlara imza atırdılar.

**Əlibaba Məmmədov**, *Xalq artisti, pedaqoq-xanəndə:*

– O, zamanlarda görkəmli sənət sahibləri olan adlı-sanlı tarzənlərimiz Sadıqcan, Mirzə Mansur, Qurban Pirimov, Mirzə Fərəc dahi ifaçı idilər. Bunların arasında adı hörmətlə çəkilənlərdən biri də Əhmədxan Bakıxanov idi, ona görə ki, Əhməd müəllim muğamı yaxşı bilirdi. Çünkı, o novator və yaradıcı tarzən idi. Onun haqqında danışarkən bütün muğam dəstgahlarımızda ifa edilən rəng və dəramədlərimizin əksəriyyətinin bəstəsinin Ə.Bakıxanova mənsub olmasını qeyd etməmək olmaz. Bu çoxsaylı musiqi qoşmalarının hamısı bir-birindən gözəl və məlahətlidirlər. Elə dəramәd çalınan kimi duyub, bilirsən ki, "Rast", "Bayatı-Şiraz" və ya "Çahargah"

oxunacaq. Əhmədxan Asəf Zeynallı adına musiqi məktəbinə gələr, sinif qapısını açıb Ağadan (Seyid Şuşinskiyə hörmətlə belə müraciət edirdik) soruşardı:

– Seyid, bu uşaqlardan "Rahab"ı kim yaxşı oxuyur?

– Əlıbaba! – deyirdi

– Əlibaba, sabah gəl ansambla...

Yenə bir dəfə gəlıb sual etdi:

– Kim yaxşı "Bayatı Qacar" oxuyur?

– Qulu Əsgərov...

– A bala, Qulu, sabah gəl məşqə...

– Bəs, "Bayatı-Şiraz"ın yaxşı ifaçısı kim olar?

– Əlibaba, – deyə ağır təbiətlı Ağa qətiyyətlə bildirdi

Bu sorğular dəfələrlə təkrarlanır, axtarışlar öz bəhrəsini verir, ən yaxşı ifalar seçilir, məşq prosesində, oxumalar dinlənilir, Ağanın verdiyi biliklə, Əhmədxanın məşq təcrübəsi vəhdətləşir, araya peşəkar ifa məhsulu olan musiqi əsəri çıxırdı. Fioletov küçəsində yerləşən Radio komitəsinin səsyazma studiyasına gəlirdik, məşqlər Əhmədxanı qane edəcək səviyyəyə qədər davam edır, sonra onun xeyir-duası ilə ifamız lentə yazılırdı. Az sonra özümün də xəbəri olmadan, radiodan diktorun səsini eşitdim: "Muğamat konsertinə başlayırıq, "Bayatı-Şiraz", oxuyur Əlibaba Məmmədov, müşayiət edir Əhməd Bakıxanovun idarəsiylə xalq çalğı alətləri ansamblı.

Mənim üçün əziz və əlamətdar olan bu dəstgah Əhmədxandan yadigardır.

O, daim istedadlar axtarışında idi. 17-19 yaşlarında ifaçılara rast gələndə, bacarıqları orta ifa qabiliyyətinə malikdirsə, onu ansambla qəbul edib, gərgin məşqlər sayəsində onları püxtələşdirirdi, odur ki, onun ansamblında çalışan ifaçı yetkin olmaya bilməzdi. Yeni, ustalaşmış ifaçılarin daha yüksək

səviyyədə yetişməsindən ötrü, mühit savadlı, ansamblın məşq və konsert heyətinin tərkibi böyük idi. Burada təcrübə qazanmaq üçün münbit şərait var idi, çünki, heyətin tərkibində muğam aləmində Həbib Bayramov, Sərvər İbrahimov, Əliağa Quliyev kimi populyar və təsdiq olunmuş sənət ustaları çalışırdılar. Bir də onu qeyd edim ki, qoşanağara və şax-şax alətləri Əhmədxana qədər ansambl tərkibində mövcud deyildi, onlar da Əhməd müəllimin tapıntısı idi, qoşub düzəltdi, yeni səslənmələri ələ gətirdi. Səs yazılışına bu alətlərin ifaçıları gəlməyəndə, o lent yazdırmaq fikrindən imtina edər, alətlərin hamısının iştirakına təkid edərdi. Bu cəhəti də onun çox dəqiq olmasına bir sübutdur.

**Vasim Məmmədəliyev**, *akademik:*

– Muğamlarımızla yanaşı, poeziyaya da yaxşı bələd olması, Şərq ruhunu, Azərbaycan muğamlarını kamil bilməsi, milli musiqi alətlərimizin konstruktiv və ifa imkanlarını, tembr xüsusiyyətlərini praktiki olaraq gözəl duyması, ona belə bir əzəmətli ansamblı yaratmaqda kömək olmuşdur. Bu cür səslənməni, bu cür orijinallığı mən heç bir ansamblda görməmişəm. Əhməd müəllimə rəhmətlər oxuyuram ki, bizim o böyük sənətkarımız Üzeyir bəyin təşəbbüsü ilə ifasından doymaq bilinməyən, hər an zövq aldığımız bir ansamblı xalqımız üçün yaratmışdır. Ansamblın heyəti çox böyük idi, undi nisbətən yığcamdır. Əhməd müəllim bizim klassik muğamlarımızı yaxşı bildiyindən, bu sahədə ustad sənətkar olduğundan, çalışmalara tələbkarlıqla yanaşar və hər adamı işə götürməzdi. Onun qabiliyyətini, ifaçılıq imkanını, çalğı texnikasını dönə-dönə yoxlayar, sonra onu işə qəbul edərdi. O, zaman mən radioda

işləyirdim və yeni qəbul olunan ifaçıların danışıqlarını eşidirdim: ”Əhməd müəllim nə qədər tələbkar bir musiqiçidir!”.

**Yaqub Əliyev:**

– Repressiya illərində ansambl öz fəaliyyətini dayandırmağa məcbur olub.

Repertuarı milli musiqi qaynaqlarından təşkil olunduğundan, ona millətçilik damğası vurulur və təqiblərə məruz qalır. Lakin, 1941-ci ildə Üzeyir bəyinköməyi ilə ansamblın təmiz adı özünə qaytarılır. O zaman heyəti 14 nəfərdən ibarət olan ansambl fəaliyyətini Radio Komitəsi nəzdində daha böyük həvəslə davam etdirir. Əhməd müəllim Azərbaycan xalq çalğı alətlərinin hər birinin özünəməxsus keyfiyyətlərini, çalğı imkanlarını düzgün müəyyənləşdirir, ansamblın repertuarının genişləndirilməsinə, klassik ifaçılıq ənənələrinin ən yaxşı cəhətlərinin qorunub saxlanmasına ciddi fikir verir, həmçinin çoxsəsliliyə nail olmaq məqsədiylə ansamblın tərkibinə yeni musiqi alətləri də daxil edirdi.

**Vasim Məmmədəliyev:**

– O, instrumental ifalardakı rənglərdə, dəramədlərdə muğam şöbəsinə aid hissələr, mizanlar yaradıbdır, “Zabul”da ”Manəndi müxalif” bölməsinə keçəndə, əsrarəngiz gözəlliyə malik olan bir rəng çalınır, düşünürəm ki, onu “Manəndi müxalif”lə necə əlaqələndirə bilib?!

**T.Bakıxanov:**

– Qoboy alətini ilk dəfə olaraq ansamblın tərkibinə atam daxil etmişdir. ”Ə.Bakıxanov niyə Qərbi Avropa alətini xalq çalğı alətləri ansamblı daxilinə salıb”, deyə o zamanlar bununla bağlı çox mübahisələr oldu. Atam bildirdi ki, bu musiqi alətinin səslənmə tembrində, yanıqlılığında bizim milli musiqiyə çox

yaxınlıq var, onun üçün də mən bu alətdən istifadə edirəm. Kamil Cəlilovun ifasında qoboyun muğam və xalq musiqisinə gətirdiyi təravət, yenilik, gözəllik, sonralar Ə.Bakıxanovun haqlı olduğuna bariz bir sübut oldu.Tərəqqi prosesində səslənməsinə ehtiyac duyulan, çatışmayan alətlər; bas tar, bəm tar, müxtəlif növ sazlar onun təşəbbüsü ilə kollektivin istifadəsinə şamil edildi. Musiqi parçalarını da bu alətlər arasında özü orkestrləşdirib bölürdü. Bu alətlərin hərəsinin musiqidə öz yeri, ifa payları, səslənməsi var idi.

İndiyə kimi ansambl o tərkibdə çıxış edir və təravətini qoruyub saxlayır.

**V.Məmmədəliyev:**

– Çox gözəl dəramədlər, pişdəramədlər, valehedici çaharmizrablar, diringələr bəstələyirdi. Mən deyərdim kı, bizim Azərbaycanda rəng və dəraməd bəstəsi yönündə Əhməd müəllim kimi ikinci böyük sənətkarımız yoxdur. Təbii ki, qədim xalq dəramədlərini də kimlərsə bəstələyibdir, lakin Azərbaycan muğam dəstgahlarında istifadə olunan, musiqi nəzəriyyəsi prizması baxımından, tam püxtə, tamamlanmış və peşəkar ustad qələmindən çıxması aşkar görünən dəraməd və rənglərin çoxusu Ə.Bakıxanovun adıyla bağlıdır.

**Yaqub Əliyev:**

– Azərbaycan xalq çalğı alətləri ansamblının yaradıcısı, görkəmlı musiqiçi 1973-cü ildə dünyasını dəyişir, həmin ilin sentyabrın 26-da Azərbaycan Televiziya və Radio verilişləri Komitəsinin qərarıyla ansambla Əhməd Bakıxanovun adı verilir. Ansambla yeni rəhbər isə, respublikanın əməkdar artisti, tarzən Həbib Bayramov təyin olunur. 20 ilə yaxın bir müddətdə kollektivə rəhbərlik edən H.Bayramov, öz ustadı Ə.Bakıxano-

vun ənənəsinə sadiq qalaraq, ansamblın fəaliyyətinə ciddi fikir verir və öz işinə məsuliyyətlə yanaşıb, bir sıra uğurlara nail olur. Həbib müəllimin vəfatından sonra, 1994-cü ildən ansambla istedadlı tarzən Möhlət Müslümov rəhbərlik etməyə başladı.

**Möhlət Müslümov,** *tarzən, Xalq artisti, Ə.Bakıxanov adına Xalq Çalğı Alətləri ansamblının bədii rəhbəri:*

– Mən, o xoşbəxt sənətkarlardanam ki, Asəf Zeynallı adına Musiqi məktəbinə daxil olarkən, ilk dəfə bu müqtədir sənətkar – Əhməd Bakıxanov məndən qəbul imtahanını götürübdür. Şəxsən 1969-cu ildə onunla yaxından tanış oldum, tələbəlik illərində müəllimim kimi onunla daha yaxın ünsiyyət bağladım. İş elə gətirdi ki, onun adını daşıyan ansamblın tərkibində ifaçı kimi göründüm. Ona yaxınlaşmaq mənim üçün əlçatmaz bir zirvə idi, heç ağlıma gəlməzdi ki, bir vaxt tarzən kimi işlədiyim, çalışdığım ansamblın sonralar bədii rəhbəri olacağam. 1980-ci illərin əvvəllərində böyük sənətkarımız Həbib Bayramov məni bu ansambla dəvət etdi və mən böyük bir həvəslə ansamblda işə başladım.

**Elşad Cabbarov**, klarnet ifaçısı, Əməkdar artist, ansamblın veteranı:

– Ansamblın tərkibində sayılan-seçilən, tanınmış ifaçılar var idi; qarmonçu Teyyub Dəmirov, müğənni dahi Bülbül, tarzən Sərvər İbrahimov, kamança çalan Elman Bədəlov, nağara çalan Baba, pianoçular Ruxsara Mirzəbəyova, Zaur Əliyev, saz çalanlar; Zakir Bayramov və Firudin, bas tarçalan Akif Novruzov və sairə. Nəsil dəyişsə də, ənənələr qalırdı. Əhməd müəllim rəhmətə gedəndən sonra Həbib Bayramov bədii rəhbər oldu. Köhnələrdən indi kamanşa ifaçısı Fəxrəddin Dadaşov, balabançı Nizami və mən qalmışıq. Odur ki, rənglər və dəramədlər

olduğu kimi qorunur, onlara bir şey belə nə artırmırıq, nə də əksiltmirik, axı bunlar hamısı Əhməd müəllimin rəngləridir, özü də not yazıları çap olunubdur. Qeyd etmək yerinə düşərdi, ansamblda nəfəs alətləri ifaçıları heç olmazsa dörd nəfərdən ibarət olmalıdır. Bunların da vəzifə strukturları kollektiv daxilində dəqiq bölünmüş və təsdiq olunmuşdur; məsələn mən klarneti kənara qoyub balaban çalmamalıyam. Solo balaban ayrı, tonal dəmkeş balaban ayrı olmalıdır, daima tütək çalan da peşəsində sabit qalaraq dəyişib balabana keçmədən öz ifasını bəxş etməlidir.

**Nizami Allahverdiyev,** *Əməkdar artist, balaban ifaçısı:*

– İlk baxışdan balabanın rolu və ansamblda mövqeyi sadə görünür, əslində o, bütün ansambl üçün səs tonunu saxlayır, musiqi alətlərinin köklərini bir məcraya yönəldir. Musiqi parçasında elə yerlər var ki, balaban səsi orada əvəzsizdir. Mən dəm tutmaqla yanaşı, bəzən muğama daxil olur, bəzən də mahnıya solo ifamla qarışıram.

**Möhlət Müslümov:**

– İndi həm rəhbərlik, həm də konsertmeysterlik edirəm, tarla xanəndələrə və ifaçılara istiqamət verirəm. Böyük və geniş repertuarı mənimsəyib maraqlı proqram yaradırıq. Son illərdə eyni, standart səsləniş olmamaq şərtiylə müxtəlif xanəndələrin ifasında 30-40 dəstgahı audio-video lentlərinə yazdırmışıq. Məhsuldar çalışaraq son vaxtlar keçirilən muğam müsabiqələrinin qaliblərinin hamısının ifasını işləyərək muğam konserti formasında hazır vəziyyətə gətirmiş və qızıl fond üçün lentə yazdırmışıq. Xalq musiqisinin assimlyasiyaya məruz qalmasıyla ifaçılar bəzən yad xallara, boğazlara müraciət edirlər, mən qəti surətdə belə halların yayılmasına, inkişafına və dəb düş-

məsinə yol vermirəm. Bu Əhməd müəllimin ənənələrinə sədaqət, onun ruhuna hörmətdir. Mənə o vaxtkı rəhbərlik, bir gənc kimi inanıb, hər ifanı həvalə etdiyi kimi, mən də gənclərə inanır, onlara böyük ümidlər bəsləyirəm. Daim istedad axtarışındayam, harada istedadlı gənc varsa, onu tapıb kollektivə çağırıb, gərgin məşqlərə cəlb edirəm. Püxtələşib təcrübə toplaması üçün hamılıqla çalışırıq.

Qarşıda 85 illik yubileyimiz gəlir, bu əlamətdar ildönümünü yeni-yeni səslər, mahnılar, dəstgahlarla qarşılamaq niyyətindəyik. Uğurlu işlərimiz hər zaman davam edir, yeni istedadları ekran-efir vasitəsilə xalqımıza tanıdır, kompakt disklər yazdırıb, musiqisevərlərin istifadəsinə veririk. Dəyərli çıxışlarımızın hamısı Dövlət Radio və Televiziyasının fonduna daxil edilir.

**Asiya Tağıyeva,** *kanon ifaçısı, xça ansamblının veteranı:*

– Bu ansambl, fərqli ifaya, könül oxşayan səslənməyə malik olduğu üçün məni cəlb elədi. Bütün xanəndələr yaradıcılıqlarında nə isə bir uğur əldə etmək istəyirlərsə, xalq üçün əhəmiyyətli nə isə yadigar qoymaq fikrindədirlərsə, mütləq Əhməd Bakıxanovun ansamblına müraciət edirlər. Buraya işinin kamil ustadları, savadlı müşayiətin mütəxəsisləri toplandığından xanəndələr ifalarının aqibəti üçün narahatlıq keçirmirdilər, arxayınlıq var idı ki, tamaşaçı "əmma"sına məruz qalmayacaqlar. Radioda 1965-66- cı illərdə saat 17-15-də canlı səslənən konsertlər verirdik. Az.TV-də xırda-xırda otaqlardan ibarət idi, onunla belə bütün tərkib yerləşə bilirdi. Kollektivimiz mehrıban olduğu üçün sıxlıq gözə dəymirdi, əksinə çıxışımız ləzzət verirdi. Bir ailə idik, canlı çalırdıq, efir yayımlarına məsuliyyətlə yanaşırdıq. İndi fonoqram ilə çalanda bizə bir

təhər gəlir. Nə edəsən, bəzən lazımlı radioaparatlar olmadığından məcburiyyət qarşısında fonoqram ilə razılaşmalı oluruq. Təcrübəsi zəngin olduğundan, kadr yetişdirmə işində ikinci belə bir ansambl yoxdur.

Ə.Bakıxanov adına ansamblın üç gənc xanəndə üzvü:

**Şəmsəddin İbrahimov:**

– Ağlıma gəlməzdi ki, mən bu ansamblda çalışacağam. Kollektivin iştirak etdiyi tədbirlərdə mən də yer aldım. Bu dəvətə görə Möhlət müəllimə dərin təşəkkürümü bildirirəm. Biz gənc xanəndələrin yetişməsində onun zəhməti çoxdur.

**Rizvan Həsənov:**

– Bir ilə yaxındır mən də bu ansamblın üzvüyəm və ötən bu müddət ərzində bir çox incəlikləri öyrənmişəm; ansamblla davranış qaydalarını, repertuar seçmə bacarığını. Mənim üçün vaxtıyla dahilərin çalışdığı bu ansamlda oxumaq böyük bir şərəfdir. Bizə göstərdiyi etimada görə Möhlət müəllimə minnətdarıq. Özümüzü sənətdə təsdiq etmək üçün bu özü böyük bir şansdır. Burada solo Şərq üçlüyü ilə ifanın, ansambl müşayiəti ilə oxumanın fərqlərini və çətinliklərini duyuram. Böyük sənətkarların arasında oxumağın məsuliyyətini hiss etdiyimdən, artıq dünyagörüşümdə, muğam sənətinə yönələn baxışlarımda fərqli dəyişikliklər hiss edirəm.

**Elgiz Əliyev:**

– Yarım ildir ki, bu ansamblın tərkibində məşqlərə qatılmışıq. Təsnif və xalq mahnılarının oxunmasında Möhlət müəllimin qayğısı sayəsində nəzərə çarpan uğurlar əldə etmişik. Konservatoriyada muğam təhsili almağıma baxmayaraq, bu ansamblla çalışan adlı-sanlı müxtəlif sənətkarlardan dəstgahların düzgün ifası yollarını mənimsəyirəm.

**Mələkxanım Əyyubova,** *Xalq artisti, xanəndə:*

– Elə bilirəm ki, bu kollektivlə fəaliyyətim yaradıcılığımın başlanğıcıdır, çünki bu sənət elə dərin və gözəl sənətdir ki, ildən-ilə tərəqqi edir, zənginləşir. 5-6 il əvvəl min bir zəhmət hesabına yazdırdığım lentləri dinləyəndə duyuram ki, yeni hisslər, duyğular, xırdalıqlar yaranıb və mahnını ayrı bir formada oxuyub yazdırmaq lazımdır. Neçə ay əvvəl "Rast" və "Mahur Hindi" dəstgahlarını müvəffəqiyyətlə lentə aldırmışıq. Nə qədər keyfiyyətli, qəlbəyatar, zövqoxşayan və səliqəli ifa olunan dəstgahlar oxuyub xalqa təqdim etsək, bu mənəvi sərvət barı da öz başımızın ucalığı, xalqımızın da qürur hissi olar.

Az.TV. 03.04.2012-ci il

Ssenari müəllifi – **Kəmalə İsmayılova**

## Əhməd Bakıxanov – 120

### Əhməd Bakıxanovun Beynəlxalq Muğam Mərkəzində qeyd olunan 120 illik yubiley gecəsi

**Hafiz Quliyev,** *M.F.Axundov adına Opera və Balet Teatrının rejissoru, aparıcı:*

– Salam, axşamınız xeyir olsun! Bu gün yenə müğam həvəskarları ilə birlikdə Azərbaycan milli musiqisinin ən mötəşəm tədbirləri keçirilən Beynəlxalq Muğam Mərkəzindəyik. Azərbaycan tarının, muğamının çox görkəmli və unudulmaz nümayəndələrindən biri olan Əhməd Bakıxanovun

anım günündəyik. Bakıxanov soyadı çox məşhurdur və bu nəsil Azərbaycan xalqına çox gözəl nümayəndələr bəxş etmişdir. Bu şəcərənin hər bir üzvü barəsində ayrı-ayrı ad günü, yubileylər keçirmək olar, ancaq bu gün Əhməd Bakıxanov haqqında danışacağıq. Salonda onun ailə üzvləri əyləşib, onları hamılıqla salamlayırıq.

Ə.Bakıxanov Üzeyir Hacıbəyli məktəbini keçmiş ziyalılarımızdandır. Ü.Hacıbəyli təkcə bəstəkar olsaydı belə, bəstələriylə Azərbaycan musiqisi tarixində, dünya bəstəkarlığı tarixində bir iz qoyub getmiş olardı. Ziyalıların özəl cəhətləri bundan ibarət idi ki, ictimai xadim kimi də fəaliyyət göstərirdilər. Azərbaycan xalqına, millətinə, elinə-obasına bütün sahələrdə yardım göstərirdilər, öz xidmətlərini təklif edirdilər. Üzeyir bəy eyni zamanda bir yazıçı, ictimai xadim, jurnalist, bəstəkar, pedaqoq olmuşdur. Ə.Bakıxanov da belə bir ziyalı zümrəsindən idi, hamısı bütöv olmaqla yaradıcılığı çoxcəhətli, bir neçə sahəni əhatə etməklə geniş şaxəli idi, çünkı üzeyirçilərin hamısı belə idi. Dahi tarzən olmaqla yanaşı ona çox böyük bir müəllim olmaq qisməti də düşmüdü. Əhmədxanın müəllimlik pilləsinin hansı zirvəsində dayandığını duymaq üçün onun yetişdirdiyi tələbələrin adlarının siyahısına məşhur tarzənlər: Əlikram Hüseynov, Həbib Bayramov, Əliağa Quliyevlə yanaşı, adlı-sanlı bəstəkarlar: Arif Məlikov, Süleyman Ələsgərov, Ağabacı Rzayevanın adları yazılmışdır. Onun müşayiəti ilə Azərbaycan xalqına çox böyük xidmətlər göstərmiş Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Xan Şuşinski, Şövkət Ələkbərova, Sara Qədimova və b. ən gözəl ifalarını bizə bəxş etmişlər. Bütün bunları saydıqca görürük ki, Ə.Bakıxanov tək müəllim kimi fəaliyyət göstərsəydi, yenə də tarixdə qalacaqdı. Lakin Əhməd müəllim yüksək səviyyəli tədqiqatçı

idi. Azərbaycan musiqisinin əsasını folklor nümunələri təşkil edir və bu janrın tədqiqatçısı olmaq çətin işdir, bu, insandan savad, istedad, dözüm, fədakar əmək, qədərincə alın təri tökmək tələb edir. Belə zəhmətlərə qatlaşaraq folklor musiqisi nümunələrini fədakarlıqla arayıb-axtarıb tapır, özü bəstələdiyi mahnıları, rəng və dəramədləri hazırlayıb ərsəyə çıxarırdı. Onun tədqiqat işinin çox özəl cəhəti də bu idi ki, o, oba-oba dolaşıb tapdığı, topladığı musiqiləri eksponat və ya muzey nümunəsi kimi saxlamırdı, sadəcə olaraq xalqın istifadəsinə verirdi. Əhmədxanın səyi nəticəsində aşkarlanan mahnılar tez bir zamanda müğənnilər tərəfindən ifa edilərək xalqa çatdırılır, onu feyziyab etmək, ruhunu oxşamaq üçün yayımlanırdı. Müdrik ustadın Azərbaycan musiqisinə bəxş etdiyi töhfənin dəyəri bunda idi. Bu cəhətdən Əhmədxan bir tədqiqatçı kimi yenə də tarixə düşürdü. O, misilsiz muğam bilicisi idi və həmişə deyirdi: "Əgər siz muğamı bütöv və yaxşı bilmirsinizsə, xahiş edirəm, onu tədris etməyin. Onu yarımçıq bilirsinizsə, deməli, yarımçıq da tədris edəcəksiniz. Bununla da Azərbaycan muğamının sonu uçuruma gedə bilər".

Dəstgahları bütöv, tamam-kamil biləndən sonra muğamı tədris və təbliğ etmək olar. Hər adam muğamatı incəliklərinə qədər bilə bilməz, lazımi rəng və təsniflərin tətbiqini, yatağını dəqiq təyin edə bilməz". Bu göstəricilərinə görə Əhmədxanın muğam biliciləri arasında xüsusi yeri var idi. Ən vacibi də böyük bir ansamblın yaradıcısı olmaq, bədii rəhbər kimi onu uzun illər boyu idarə edib inkişaf etdirmək idi. Radio və televiziyadan daim eşitdiyimiz "ifa edir Əhməd Bakıxanov adına..." cümləsi onu göstərir ki, bu gün də ansambl populyarlığını itirmədən fəaliyyətdədir və ən uzunömürlü bir kollek-

tivdir. Əhməd müəllim bədii rəhbər kimi çox çətin bir işin, alətlərin düzülüşündən tutmuş hansı ifaçıların ansambla dəvət edilməsi, onları müşayiət edəcək instrumentalist sazəndələrin təyini, repertuarların seçilməsinə qədər diqqət yetirirdi. Bütün bunları bütövləşdirən dahi ustad ansamblın möcüzəli ifasını tamaşaçıya çatdırmaq kimi çox çətin bir işin öhdəsindən gəlirdi. Söz yox ki, bu zəhmətli çalışmanın kökündə Əhmədxanın yüksək tarzənlik bacarığı dururdu. O, maraqlı, istedadlı, təkrarsız bir tarzən idi və bu gecəmizdə onun virtuoz ifası haqqında danışacağıq. O, istisna olaraq solaxay çalırdı. Onun mizrab tutan əliylə pərdələr üzərində gəzən əlinin arasında bir maqnit var idi, belə ki, hər iki əl bir-birini gözəl başa düşür və çox böyük ahəngdarlıq təşkil edirdi. Beyin və ürək bu əlləri idarə etməyi bacarırdı. Ona görə Əhmədxanın tarının səsi ecazkar, ifası maraqlı və yaddaqalan idi. O, deyərdi: "Muğamı yaxşı bilən adam tarı yaxşı çala bilər, yox əgər muğamı yaxşı bilmirsə, onun tarı da fərqli səslənəcəkdir". Onun bir kredosu var idi: "Əgər tarzən hər hansı bir musiqi nömrəsini və ya muğam dəstgahını ifa edirsə, onu gərək tamam-kamil ifa eləsin, ifadəli formada tamaşaçıya çatdıra bilsin, buna görə də o, alətin bütün imkanlarından istifadə etməyi bacarmalıdır. Elə barmaqlar, elə mizrablar vursun ki, mizrablar tarın dolğun səsini bizə çatdıra bilsin". O, qeyd etdiyimiz kimi, çox tələbkar bir adam idi, Azərbaycan muğamlarının qorunmasında böyük fədakarlıq göstərmişdir. 1930-cu illərdə Azərbaycan muğamına, xalq musiqisinə, milli musiqi alətlərinə böyük bir basqılar və təzyiqlər var idi. Bu dövrdə Müşfiqin "Oxu, tar" adlı şeir yazması təsadüfi deyildi. Tarın bir oktavasında 17 pərdə vardır, onun 12-si pianonun dilləri ilə uyğun gəlir, 5-i isə sırf muğama

aid idi. Bəzi üzdəniraq "ziyalılar" çalışırdı ki, bu 5 pərdəni tardan çıxarsınlar və yalnız 12 pərdə qalsın. Ü.Hacıbəyov və daha bir neçə dəyərli ziyalımız bu çirkin işin qarşısını aldılar. Tarın bu günkü formasının saxlanılmasında başqa vətənpərvər ziyalılarımız kimi Ə.Bakıxanovun da böyük və əvəzsiz xidməti olmuşdur. Əhməd Bakıxanov hələ bədii özfəaliyyət kollektivində çalışarkən, 1931-ci ildə M.Maqomayevin təşəbbüsüylə Xalq Çalğı Alətləri ansamblının rəhbəri olmuşdur. Bir müddət müəyyən səbəblərə görə fəaliyyətini dayandırsa da, 1941-ci ildən etıbarən Ü.Hacıbəyovun mənəvi dayaqı ilə yenidən yaradılan ansamblın rəhbəri vəzifəsinə təyin olunmuş və ömrünün axırına kimi bu işi uğurla davam etdirmişdir.

Ə.Bakıxanov solo ifaya böyük önəm verirdi, müşayiət mədəniyyəti onun üçün çox vacib şərtlərdən idi. Hər tarzənin xanəndəni müşayiət edə bilməməsini duyduğu üçün bunu xüsusu istedad sahiblərinə həvalə etməyi tövsiyə edirdi.

Qara Qarayev Ə.Bakıxanovun ansamblı haqqında yazırdı: "Bu Xalq Çalğı Alətləri ansamblı əslində Azərbaycan xalq çalğı alətlərinin kamera orkestridir".

Əfrasiyab Bədəlbəyli deyirdi: "Ə.Bakıxanovun ansamblı muğamları, dəramədləri, rəngləri, təsnifləri çox mahir ifa edir".

Arif Məlikov qeyd etmişdir: "Ə.Bakıxanovun idarə etdiyi ansambl eyni zaman da Azərbaycanın musiqi məktəblərini və başqa ansamblları musiqiçilərlə təmin edir".

Bunları əsas tutaraq deyə bilərik ki, Ə.Bakıxanov çoxcəhətli fəaliyyəti ilə Azərbaycan musiqisinə, incəsənətinə böyük töhfələr vermişdir.

**Əlibaba Məmmədov,** *Xalq artisti, xanəndə-pedaqoq:*

– O, kişinin mənim boynumda böyük haqqı vardır. O, əsl Azərbaycan kişisi idi. Mən o xoşbəxt sənətkarlardanam və fəxr edirəm ki, mənim sənətdə inkişafım dövründə mövcud olan böyük sənətkarların müasiri olmuşam. Bu ünsiyyət mənə çox kömək edibdir. Bunlardan biri də Ə.Bakıxanovdur. O, Azərbaycan xalq musiqisinin XX əsrdəki intibah dövründə vüsətli inkişafı üçün ölçüyəgəlməz dərəcədə böyük işlər görmüşdür. Bizim müğamatımızın keşiyində durmaqla, yaddaşlardan, arxivlərdən, şifahi deyimlərdən unudulmuş qədim mahnıları ərsəyə gətirib, bizlərə oxutduraraq, onlara ikinci, lakin əbədi həyatı bəxş etmişdir.

O, dövrün bütün xanəndələrinin boynunda Əhmədxanın danılmaz, unudulmaz haqqı vardır. Bu adam toylara getməyib, konsert səhnələrinə çıxmayıb, bütün ömrü boyu müəllimliklə yaşayıb, gözü də, könlü də tox. Həyatda ən böyük qazancı folklorumuza, muğamatımıza etdiyi xidmətdən aldığı sevinc hissi olmuşdur. Mən onunla 1953-cü ildə Asəf Zeynallı adına Musiqi məktəbində tanış olmuşam. O, təzə səs, istedad, təkrarsız ifa axtarışında idi. Heç vaxt muğamların əndərəbadi ifasına, bayağı mahnıların oxunuşuna icazə verməzdi. Yadımdadır, bəzi xanəndələr gəlib bu ansamblın müşayiəti ilə oxumaq istəyirdilər, ustad onları dinləyib, könüllərini sındırmadan deyirdi:

– Get, hələ bir az da çalış...

– Ay müəllim, yaxşıdır!

– Yox! Haçan yaxşı olsa, mən özüm səni tapıb çağıracağam.

Onun 1950-ci illərdə yetişdirdiyi tarzənlərdən salamat olanları hələ də vardır. Sözlərimi təsdiq edə bilərlər, o dövrdə

tələbələrinə hədsiz can yandıran müəllim kimi əvəzsiz xidmətlər etmişdir.

Əhməd müəllim xalq incəsənəti bulağından su içdiyindən özü də əsrarəngiz bir bəstəkar idi. Əhmədxan olmasaydı bu dəramədlər, rənglər bizə haradan yetişəcəkdi? Özü də necə rənglər, necə dəramədlər – hər biri böyük bir yaradıcılıq məhsulu olan əsl sənət nümunəsi. O, biz xanəndələrin qayğısına qalmasaydı, heç Əlibaba da olmayacaqdı! Seyid Şuşinskiyə müraciət edib, ən yaxşı gənc xanəndələri seçərək onlara dəstgahları oxudur, sonra təmənnasız, minnətsiz Qızıl Fond üçün ifalarını lentə aldırırdı. Onun bu çalışmalarına nə bədii şura mane olurdu, nə redaksiya heyəti müdaxilə edirdi. Sözü bir dənə idi: "Mən icazə vermişəm, qulaq asmışam, çox gözəldir, buraxın efirə". Televiziya rəhbərliyindən efir vaxtımızı da alırdı, saatını da özü təyin edirdi. Rayonları gəzərdi, xoşladığı xanəndələri tapıb Bakıya dəvət edərdi. Bu mənada Füzulidən Ağabala Abdullayevi, Ağcabədidən Mütəllib Mütəllibovu, Yaqub Məmmədovu qeyd etmək yerinə düşərdi. Kim edər belə xeyirxahlığı? Ağabala Abdullayevi rayondan gətirib fövri surətdə onu hazırladı, iki dəstgah "Zabul Segah" və "Rast"ı, daha bir neçə xalq mahnısını təmənnasız, minnətsiz lentə yazdırdı. Bu lent muğam ifaçılığının bəzəyi kimi indi də səsləndirilir. Böyük muğam bilicisi idi, o deyəndə ki, üsul belədir, yol budur, qurtardı getdi, mübahisə ola bilməzdi. Onun tövsiyəsini sizlərə çatdırmaq istərdim: "Xalq musiqisinin qədrini bilin, onu qoruyun, ürəyinizdə saxlayın". Əhmədxanın pak ruhuna hörmət

edib, böyük ustadın 120 illik yubileyinə təşrif gətirdiyinizə görə hamınıza təşəkkür edirəm.

**Teymur Mustafayev**, Xalq artisti, xanəndə:

– Hər vaxtınız xeyir, Əhməd müəllimin sənətini sevənlər, onun ruhuna hörmət edənlər! Əhməd müəllimin haqqı məndə daha çoxdur və mən onun borcundan heç vaxt çıxa bilmərəm. Bir arzum var; bütün valideynlərin övladları Tofiq Bakıxanova oxşasın!

**H.Quliyev:**

– Tofiq müəllim bu tədbirin keçirilməsində çox həyəcan keçirirdi, ssenarinin hər cümləsinə, hər nöqtəsinə fikir verirdi, tez-tez zəng vururdu, narahatçılıq içində idi. Əhməd müəllim gözəl sənətkar, uğurlu şəxsiyyət olduğu üçün onun yubileyi də öz axarıyla müvəffəqiyyətlə keçir. Onun atasına ithaf etdiyi bir kompozisiya var. Bu mürəkkəb, eyni anda maraqlı musiqi əsərini qarmonda Respublikanın əməkdar artisti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Zakir Mirzəyev ifa edəcək. Əhməd Bakıxanovun stili duyulan, nəfəsi hiss olunan nadir yaradıcılıq nümunəsi sayılan bu kompozisiyada onu pianoda Bakı Musiqı Akademiyasının dosenti Kəmalə Mirbabayeva müşayiət edəcəkdir.

Ə.Bakıxanov tək Azərbaycanda deyil, bütün Şərqdə məşhur adam idi. Onun haqqında Azərbaycan, İran, Orta Asiya musiqiçiləri, alimləri çox maraqlı fikirlər deyib, yaradıcılığına yüksək qiymət vermişlər. Bizim çox sevimli alimimiz, akademik Vasim Məmmədəliyevin Əhmədxan və ümumiyyətlə, Azərbaycan musiqisi, muğamları və sənətkarları haqqında çox

gözəl xatirələri, maraqlı rəyləri, bol informasiyalı fikirləri vardır.

**Vasim Məmmədəliyev**, akademik:

– Zakir Mirzəyevin ifasından sonra danışmaq çox çətindir, maşallah, Zakir bəy və Kəmalə xanım elə gözəl ifa etdilər ki, çalğının təsirindən hələ də özümə gələ bilməmişəm. Azərbaycan musiqisi tarixində ilk dəfə olaraq milli qarmon ilə simfonik orkestr üçün ifa bəxş edən, qarmonun akademik muğam ifaçılığı sahəsində Teyyub Dəmirovun, Məmmədağa Ağayevin təsdiqini alan Zakir bizi valeh etdi. Azərbaycan qarmonu ilə Qərb orkestrini bir araya gətirən bu əsəriylə Tofiq müəllim musiqimizdə bir yeniliyə imza atmışdır. Mən bu gün hamınızı salamlayıram və sizlərlə birlikdə özümü də xoşbəxt hesab edirəm, çünkı mənə bizim muğam korifeylərindən biri Əhmədxan Bakıxanovun bu gözəl yubiley məclisində iştirak etmək nəsib olub. O, sözün əsl mənasında böyük sənətkar, humanist insan, təvazökar şəxsiyyət, əvəzssiz pedaqoq, muğam biliklərinə hərtərəfli malik musiqi rəhbəri idi. Bir vaxt mən gənc yaşlarımda radionun xarici verilişlər redaksiyasının ərəb şöbəsində işləyirdim. Ansamblın məşqlərinə gələndə tez-tez rastlaşırdıq. Onu üzdən tanısam da, salam-əleykimiz yox idi. Ağır-batman və zəhmli kişi idi. Tanışlığımız belə oldu. Bir məsələ ilə bağlı bizim böyük alimimiz rəhmətlik Əlı Fəhmi Əhmədxanla məsləhətləşmək istəyirdi. Əli Fəhmi atamın süd qardaşı olduğundan ailəmizə əmi kimi olduqca yaxın idi. Mənə bildirdi ki: “Əhməd müəllimin məsləhətinə ehtiyacım var, sabah gəl “beşmərtəbə”nin yanına, görüşüb gedək. Ancaq Allah eləsin ki, o, evdə olsun”. Səhər birlikdə yollandıq Qasım İsma-

yılov küçəsinə, Əhmədxan evdə idi. Onlar qucaqlaşıb, öpüşdülər. Əmim məni təqdim etdi, tanış olduq. Əhməd müəllim bildirdi ki, atam – doktor Məmmədəlini radionun "Sağlamlıq" verilişinin redaktoru kimi yaxşı tanıyır. İki nəhəng söhbəti qızışdıqca musiqi mövzusu bir yana qaldı, onlar Əl Fərabi, Sədi, Hafiz, Füzuli, Cəlaləddin Rumi, Arif Qəzvinidən farsca qəzəllər deməyə başladılar. Mən də fikrimi onlara yönəldib heyran-heyran dinləməyə başladım. Əli Fəhminin bilik qüdrətinə malik idim, amma gördüm ki, hər ikisi musiqi nəzəriyyəsinin, klassik Şərq poeziyasının nəhəngləridir. Əhməd müəllimin, bu böyük sənətkarın şeiriyyəti, xüsusilə əruzu yüksək səviyyədə bilməsindən xəbərim yox idi və qeyd edim ki, heyrətimi gizlədə bilmədim. Söhbət bir-iki saat çəkdi, mən bu görüşdən böyük bir zövq aldıb, unudulmaz xatirələrə yiyələndim. Rəhmətlik Məsmə xanım çay süfrəsi açdı, oturub maraqlı söhbətə daldıqca, mövzular dəyişir, dialoq qızışırdı. Əhməd müəllimi özüm üçün onda kəşf etdim və nə qədər böyük zəka sahibi, sənət dəhası, təkcə Azərbaycan muğamları yox, bütün çoxsaylı İran dəstgahlarına kamilliklə bələd olan dünyəvi virtuozla ünsiyyətdə olduğumu hiss etdim. Qardaşı Məmmədxanla birgə bir müddət İranın Rəşt, Zəncan, Tehran şəhərlərində yaşayıb, orada təhsil almaqla, Şərq ədəbiyyatı və musiqisi sahəsində zəngin biliyə malik olması, onlarda möhkəm elmi baza yaratmışdı. Ali dərəcəli ifaçı, virtuoz tarzən Məmmədxana mən daha əvvəllər rast gəlmişdim. 1950-ci illərdə Kürdəxanı kəndində keçirilən toylara Ağa (Seyid Şuşinski) ilə birlikdə iki tarla gələrdi, biri Qafqaz, digəri isə İran tarı. Yaşı 80-90 keçmiş qocalar arabir İran muğamlarını da

sifariş verirdilər. Ağa da, elə adından görünür ki, muğamatın ağasıdır, nə sifariş verilirdisə, nə çalınırdı, onu da oxuyurdu. Bakıxanovlar ailəsi zadəgan, xan nəsli olsa da, bütövlükdə musiqiyə həvəskar olmuşdur. Ataları Hacı Məmmədrza bir neçə alətdə çala bilib. Məmmədxan isə sırf simli alətlər ifaçısı idi. Hələ bu məclisimizdə iştirak edən Tofiq Bakıxanovun bəstəkarlıq fəaliyyətini demirəm, bir sözlə, bu ailə üzvlərində musiqi sahəsində xüsusi istedad olmuşdur. Qara Qarayevin təbirincə, desək Əhməd müəllim xalq çalğı alətlərindən bir növ kamera orkestri yaratmışdı. Bu, çox böyük məna kəsb edən sözdür. O, ansamblı orkestrə bənzədib. Mən çox ansambllar görmüşəm, indi də yarananlar var, amma, o tembr hələ də mənim qulağımdadır. Heç bir ansamblda Əhmədxanın kollektivinin tembri, səs palitrası, ahəng zənginliyi yoxdur. Sevinirəm ki, bu ansambl yaşayır və o ənənələri davam etdirir. Kollektiv xalq artistimiz, sənətkarımız Möhlət Müslümovun rəhbərliyi ilə çalışır. Yeni tərkibli bu ansambl birinci taktından, birinci cümləsindən bildirir ki, Əhmədxanın ansamblıdır.

Allah Əhmədxana bütün sahələrdə əlçatmaz istedad qüdrəti vermişdir. Tarzən qismində onun çalğısını eşidəndə heyrətdən "gözlərim kəlləmə çıxdı", özü də o ifalarını yaşlı vaxtında, ömrünün sonuna yaxın bir dövrdə yazdırmışdır. İndi görün ki, 30-35 yaşlarında nə cür şövqlü ifaçı olub və nələr calıb. "Şur"u necə çalıb, "Mayə"də nələr edib, ümumiyyətlə "Şur" muğamında necə ecazkar dünya varmış? Sovet dövründə ifaçıya az vaxt verilirdi, odur ki, dəstgahlar yığcam şəkildə ifa olunur, improvizə və xırdalıqlar məhdudlanırdı. Nə cür "Molla Nazi", necə "Dərvişi", bənzərsiz "Səlmək"– ifalarının hansı

çalarından söz açım. Elə ecazkar avazlar; "Bayatı Qacar", "Nəva Nişaburi", "Hümayun"u bənzərsiz və gözəl çalıb. Gərək gözəl ifaçı olasan ki, gözəl musiqiçiləri də seçib ətrafına toplaya biləsən. Mədrəsə təhsilinin təsirindəndir ki, Hafizi, Camini, Sədini əzbər bilirdi, onun qoşduğu dəramədlər, rənglər çox-çox qədimlərdə yazılıb dövrümüzə yetən dəramədlərdən fərqlənmirdi. Deyə bilməzsən ki, bunu bizim müasirimiz bəstələyib və ya xalqımızın istedad bulağından süzülərək yüzillikləri keçib bizə çatandır. Çünki o qədər xəlqilik, o qədər milli köklərə dərin bağlılıq var ki, qədim nümunələrdən fərqləndirə bilmirsən, köhnələrdən ayıra bilmirsən. Muğamatımızı yaşadıb inkişaf etdirən, mübarizə meydanında qalan üç-dörd nəfərdən biri tarzən Mirzə Fərəc (bəstəkar Ağabacı Rzayevanın babası), tarzən Mirzə Mansur, tarzən Əhmədxan Bakıxanov, xanəndə Seyid Şuşinski kimi nəhənglər idi. Bunlar omasaydı, muğam sənəti tamam itib-batıb gedəcək, büsbütün məhv olacaqdı. "Oxuma, tar! Oxuma, tar! Səni sevmir proletar!" deyənlər tarı mütləq aradan götürəcəkdilər. Dahi Üzeyir bəylə çiyin-çiyinə dayanan bu dahilər Azərbaycan muğamını saflaşdırıb, yaşatdılar. O dövrdə xırda hissələr atılsa da, indi yenidən ibtidaya qayıdış var, gənc müğənnilər daim axtarışdadırlar, unudulmuş və aradan çıxmış şöbələr, guşələr yenidən tapılır, bərpa edilir. Üzeyir bəy xırda şeyləri qurban verməklə böyük Azərbaycan muğamını hifz edib saxladı. O vaxt "Hacı Dərviş"in ifasına icazə yox idi, deyərdilər ki, " muğamda bir dənə hacımız çatmır". "Molla Nazi", "Hacı Yunis"i yaxın qoymazdılar. Bu dörd sənət korifeyi və Üzeyir bəy tərəfindən tərtib olunmuş proqramın, Əhməd müəllimin rəhbərlik etdiyi

ansamblın bizim musiqimizin təbliğı üçün çox əhəmiyyəti olmuşdur. Onların səyi nəticəsində tərtib olunan muğam nəzəriyyəmiz Azərbaycan musiqisini artıq-əskik söhbətlərdən, təhqirlərdən, tənqidlərdən, hücumlardan xilas edib bu günkü səviyyəyə catdırdı. Bu gün Azərbaycana muğamın beşiyi, vətəni deyirlər. Əlbəttə ki, bu adın qazanılmasında Azərbaycanın birinci xanımı, millət vəkili, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın çox böyük xidməti vardır. İndi Azərbaycan muğamı UNESKO-nun möhtəşəm səhnəsindən ən mötəbər tətbirlərdən səslənir, hər yerdə özünə layiq hörmət və ehtiramını qazanır. Ölkə prezidenti cənab İlham Əliyevin və Mehriban xanımın səyləri nəticəsində Şərq musiqisinin incisi olan Azərbaycan muğamı bütün dünyaya meydan oxuyur. Eşq olsun bizim muğamımıza!

Xalqımız Əhməd Bakıxanovu muğam sənətinin əlçatmaz korifeyi, bütün aparıcı tarzənlərimizin hamısının ustadı hesab edərək ona layiq olduğu qiyməti vermişdir. Onun yetişdirmələri bunu böyük şərəflə elan edirlər: “Mən Əhməd Bakıxanovun yetişdirməsiyəm!” Dövlətimiz ona Əməkdar müəllim, Xalq artisti kimi fəxri adlar vermişdir. Bir də Əhmədxan ona görə xoşbəxt insan olmuşdur ki, xalqımıza Tofiq Bakıxanov kimi bəstəkarı bəxş etmişdir.

**Hafiz Qulıyev:**

– Üzeyir bəyin rəhbərliyi və təkidiylə Şərq musiqisi gecələrı təşkil olunurdu. Burada müxtəlif muğamlar haqqında söhbət olurdu, fərqli ifalar bəxş olunur, diskussiyalar aparılırdı. Mirzə Mansurun da iştirak etdiyi bu məclisdə Əhmədxan

"Bayatı Şiraz" çalır. Üzeyir bəy ona yaxınlaşıb bildirir ki, "Musiqi kitablarının birində "Nəva Nişabur" muğamının adı keçir, onu heç vaxt dinləməmişəm, eşitmişəm ki, onu ancaq sən ifa edirsən". Əhmədxanın çalğısından vəcdə gələn Üzeyir bəy: "Axır ki, axtardığım muğamı tapdım", – deyir. Sonra Mirzə Mansur və Əhmədxanı yeni təsis edilmiş konservatoriyaya muğam dərslərini keçməyə dəvət edir, nəticədə çox böyük, istedadlı, ümidverən musiqiçilər; tarzənlər, xanəndələr, instrumentalist ifaçılar dəstəsi yetişir. Əhmədxan öz xatirələrində yazırdı: "Bizim otaqlarımız yaxın idi, odur ki, vaxtaşırı Üzeyir bəy məni yanına çağırıb xahiş edərdi ki, "Şur" muğamını onun üçün ifa edim. Bir gün soruşdum: "Niyə görə "Şur"a belə çox qulaq asırsınız?". Dedi:" Mənim muğamlar içərisində ən çox xoşum gələni "Şur"dur". Sonralar bəlli oldu ki, Üzeyirbəy "Koroğlu" operasını məhz Ə.Bakıxanovun çaldığı "Şur" muğamının əsaslarında yazmışdır. Əhmədxan 1929-cu ildən ömrünün sonunadək pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Muğamın daxili strukturunu yaxşı bildiyi üçün tədris etdiyi fənn keyfiyyətlə mənimsənilirdi. Dəramədin, təsnifin, ayrı-ayrı şöbələrin ardıcıllıqla düzülüş qaydasını, improvizə etmənin yararlılıq dərəcəsini düzğün təyin etdiyinə görə öyrətdiyi tələbələr də Əhməd xan səviyyəsində bilirdilər. Hər il Əhməd Bakıxanov adına tar ifaçıları müsabiqəsi keçirilir, laureatlar ortaya çıxır. Bu müsabiqələrin təşkilatçılarından biri, birincilik uğrunda yarışan tələbələrinin əksəriyyətini hazırlayan Azərbaycan Musiqi kollecinin rəhbəri, əməkdar incəsənət xadimi professor Nazim Kazımovu dinləyək:

**Nazim Kazımov,** *pedaqogika üzrə fəsəfə doktoru, professor:*

– Çox hörmətli yubiley iştirakçıları, hörmətli Vasim müəllim qeyd etdi ki, muğam proqramının modernizə edilib işlənməsində dahi Üzeyirbəyin dəvəti ilə Əhmədxan, Mirzə Mansur iştirak edib və hər ikisi konservatoriyada dərs demək hüququ qazanmışlar. Bu adlarla yanaşı Qurban Pirimov, Bəhram Mansurov, Kamil Əhmədov, xanəndələrdən Zülfü Adıgözəlov, Seyid Şuşinski, Xan Şuşinski, Nəriman Əliyev, Hacıbaba Hüseynov da bu təhsil ocağında muğamı qoruyub saxlayıblar. Ona görə muğamatımız daim yaşayır və zirvələri fəth edir. Mənə dərs deməyib, ancaq Əhmədxan ömrünün 44 ilini bizim kollecimızdə muğamı tədris edib. 1960-cı illərdə qayğıkeş müəllim kimi evində də dərs keçir, tələbəyə nəvaziş göstərərək çay süfrəsinə dəvət edib, necə yaşadığıyla maraqlanaraq, hər kiçik xırdalığa diqqət yetirirdi. Tələbələr dərsdən ayrılandan sonra Əhmədxanın insanpərvərliyi, ali dərəcəli müəllimlik səviyyəsindən ürəkdolusu söhbətlər edirdilər. Belə gözəl şəxsiyyət bizim müasir müəllimlərimizə örnək olmalıdır. Əhmədxanın yetişdirdiyi tələbələr arasında xalq artistləri Arif Məlikov, Süleyman Ələsgərov kimi şan-şöhrətli, adları bir siyahıya yeləşməyən populyar, adlı-sanlı, məhşurlar ürək istəyən qədərdir. Süleyman Ələsgərov deyirdi ki, "Mən "Bayatı Şiraz" simfonik muğamını Əhməd müəllimim çalğısının təsiriylə yazmışam". Bu gün bu məclisdə onun sevimli tələbələrindən muğamlarımızı nota salan hörmətli bəstəkarımız, xalq artistı Nəriman Məmmədov, əməkdar incəsənət xadimi Oqtay Quliyev, İncəsənət Universitetinin dekanı, əməkdar artist tarzən

Vamiq Məmmədəliyev, kollecin şöbə müdiri Arif Hadi İsrafil də iştirak edirlər. Bu görüşün intizarını çəkən, yaxından-uzaqdan gələn həmkarlarımızı; 6 №-li musiqi məktəbinin direktoru Validə xanımı, Hacı Zeynalabdin Tağıyev qəsəbəsindəki İncəsənət məktəbinin direktoru Vaqif Süleymanovu salamlayırıq. Kollecimizdə ustadın120 illik yubileyinə həsr olunmuş möhtəşəm müsabiqə keçirilmişdir. 100-dən çox tarzənin qatıldığı bu müsabiqənin II turuna 21 nəfər vəsiqə almış 6 nəfər isə münsiflər heyətinin qərarı ilə müxtəlif dərəcəli diplomlara layiq görülərək laureat adını qazanmışlar. 1-ci yerin sahibi VI kurs tələbəsi Səxavət Məmmədovu siz tələbkar tamaşaçıların və böyük sənətkarların qarşısında səhnəyə çıxarıb təbrik edək və alqışlarınızla qalib diplomunu ona təqdim edək. Qeyd etmək yerinə düşərdi, Tofiq Bakıxanov da 1953-cü ildə konservatoriyanı bitirəndən sonra əmək fəaliyyətinə bizim kollecdə tələbələr yetişdirməklə başlamışdır. Dahi Qara Qarayevdən tutmuş indiyə qədər kollecimizdə fəaliyyət göstərən 300-ə yaxın müxtəlif ranqlı; SSRİ xalq artisti, Respublikanın xalq və əməkdar artistləri, əməkdar incəsənət xadimləri, müəllim və məhşur məzunların şəkili və tərcümeyi halı yazılmış nəfis bir kitab da bu yubiley ərəfəsində işıq üzü ğörmüşdür. Qocaman təhsil ocağının kollektivi adından bir daha sizə təşəkkürümüzü bildirirəm.

**H.Quliyev:**

– Bu müsabiqənin keçirilməsinin təqdirə layiq cəhəti odur ki, yeni-yeni ifaçılar meydana gəlir, Azərbaycan muğamının dünyada təbliği, təşviqi sahəsində keçirilən beynəlxalq muğam müsabiqələri kimi, Əhməd Bakıxanov adına bu müsabiqə də

incəsənətimizdə irəliləyişdir. İlk müsabiqənin qalibi Ələkbər Ələkbərovu səhnədə dinləmək xoş olardı. Belə istedadların yetişməsi Əhməd Bakıxanov ənənələrinin davamı, o dövrün ziyalılarının istəyinin reallaşmasıdır. Son zamanların bütün tədbirlərində uğurla çıxış edən, dinləyicilərimizi daim Arif vurğunluğuna qaytaran xanəndə Arif Babayevi səhnəyə dəvət edirəm.

**Arif Babayev,** *xalq artisti, professor, pedaqoq-xanəndə:*

– Mən də xoşbəxt bir xanəndəyəm ki, Əhmədxanın ansamblı ilə oxumuşam, onun göstərişiylə bir neçə muğam və təsnifləri lentə yazdırmışam. Çox ciddi, tələbkar, məsuliyyətli adam idi. Mən "Zabul" dəstgahını yazdırmaq istəyirdim, bəlkə, on dəfə məşq etdim, büsbütün oxudum, dedi:

–Yox! Hələ hazır deyil".

– Müəllim, axı məşq eləmişəm...

– Yox! Hələ hazır deyilsən...

Ə.Bakıxanov müəllim və bədii rəhbər kimi mənim həyatım üçün əhəmiyyəti olan böyük bir tarixə imza atmışdı. Onun dəvəti ilə "Şur" musiqili filmində "Hicaz" şöbəsini mən oxudum. Məşqlərdə, çəkilişə hazırlıq işlərində onun tələbkarlığının, muğamatımızı hifz etmək qeyrətinin şahidi oldum. Muğamlarımızı yaşadanlardan, həyat verənlərdən biri Əhməd Bakıxanov idi. Onun ansamblını dinləyəndə ləzzət alıb hər şeyi unudursan. Ruhu şad olsun!

**H.Quliyev:**

– Əhmədxan yazırdı ki, mənim müəllimim olmayıbdır. Ümumiyyətlə, tar müəllimləri öyrətməyə qısqanclıq edirdilər. Arada bir müəllim yanına gedirdim, istedadımı, az-çox tar çal-

maqda bacarığımı hiss edib, nədənsə, dedi: “Onda sənə tar çalmağın sirrlərini öyrədə bilməyəcəyəm, çünki məndən qazandığın bilikləri gedib başqalarına da sən öyrədəcəksən, buna da yol vermək olmaz!”. Mirzə Mansurun da başına belə bir iş gəlmişdi, sanki xoşagəlməz bir ənənə var idi, tarzənlər ürəklə öyrətmirdilər. Hətta bir tələbə çətinliyə düşəndə ona düzgün istiqamət vermirdilər. Yəqin ki, toyların konservatoriya olması fikri də o vaxtlar meydana gəlmişdir. Tarzənlərə yalnız toyxanalarda gəlib qulaq asırdılar, öyrənirdilər. Hər hansı mahir bir tarzən məclisdə iştirak edərkən, müəyyən bir muğamı tamam dəstgah çalıb başa vururdusa, ona qəsdən deyirdilər ki, “pis çalırsan, bir də bunu təkrarən çal”. Muğam ifasını dübarə dinləyib yaddaşlarına həkk edirdilər. Bu minvalla ancaq iti hafizəyə malik yüksək istedad sahibləri öyrənə bilərdilər, bəllidir ki, istedadsız adam qulaq asmaqla çox şey əxz edə bilməzdi. Əhmədxan məhz belə istedadlı insanlar kateqori-yasından idi ki, qulaq asa-asa mahir tar ustasına çevirilə bildi. Lakin, Əhmədxan və onun tarzənlər nəsli tələbələrinə tarın sir-rini böyük əzmkarlıqla öyrədib, bu günə çatdırdılar. Onun həmfikirləri tarın qurulmasına, konstruktiv formalaşmasına, emalatxanada düzəldilməsinə belə nəzarət edirdilər.

Yubiley ərəfəsində gözəl bir kitab ərsəyə gətirildi. Əh-mədxan haqqında danışılan xatirələr, yazılan şeirlər, məqalələr bu kitabda yer almışdır. Mən bu kitabın müəllifini mikrofona dəvət edirəm.

**İttifaq Mirzəbəyli,** *əməkdar jurnalist:*

– Bu gün Əhməd Bakıxanovun 120 illik yubiley gecəsinə yığışmışıq. Əhməd müəllim çox xoşbəxt sənətkar olmuşdur. Bax bu əzəmətli baxışın, bu məsuliyyətli simanın sahibi Əhməd

Bakıxanov bir də ona görə xoşbəxtdir ki, onun oğlu, sevimli bəstəkarımız Tofiq müəllimin bu gün ad günüdür. Mən güman etmirəm ki, onun üçün bundan da xoş gün ola bilər. Ata üçün də xoşbəxtlikdir ki, onun 120 illik yubileyi dövlət tərəfindən təntənə ilə qeyd olunsun və bu müqəddəs tarixi gün, oğulun ad gününə təsadüf etsin. Görüb və şahidi olmuşam ki,onu tanıyan insanlarda Əhməd müəllimə qarşı nə qədər böyük hörmət və məhəbbət varmış.

Onun sənətkarlığı, insanlığı, dahiliyi haqda deyilənlərdən sitatlar:

Əlibaba Məmmədov: "Əhmədxan tara, xalq yaradıcılığına, muğam musiqisinə, deməli, Azərbaycan xalqına xidmət edirdi".

Arif Babayev: "Başqa tarzənlər məndən inciməsinlər Əhməd Bakıxanovun tarı üçün adamın burnunun ucu göynəyir".

Teymur Mustafayev: "Əhməd müəllim bir dənə idi – gəldi və getdi".

Amma getmədi, Teymur müəllim, o, həmişə bizimlədir, onun Tofiq Bakıxanov kimi canlı bir abidəsi vardır aramızda. Tofiq kimi bəstəkar, yaradıcı oğlu vardır. Onun işini, musiqi irsini davam etdirən Möhlət kimi oğlu olduğuna görə xoşbəxtdir Əhməd müəllim. Möhlət Müslümov bu yadigar ansamblı yaşadır. Halal olsun ona! Bu bir həqiqətdir ki, musiqisevərlər, xiridarlar olmasa, sənətkar sənəti yarada bilməz. Eşq olsun bu xiridarlara, Azərbaycan muğamına eşq olsun! Həmişə belə gözəl və mötəbər, dəyərli, məclislərdə iştirak edək.

**Canəli Əkbərov,** *Xalq artisti, professor, xanəndə:*

– Bu ülvi gecənin mötəbər qonaqları, həmkarlarımız, söz-sənət sərrafları, hər vaxtınız xeyir! Biz sizin üçün həmişə darı-

xırıq, amma sizi bir yerdə görüb çox sevinirik, bunun da səbəbkarı bu möhtərəm kişi – Əhməd Bakıxanovdur. Allah Seyid Əzim Şirvanini rəhmət eləsin ki, bu şeiri qələmə alıb:

*Guş qıl ey ki, bilirsən özünü, vaqifi-kar,*
*Agah ol, gör ki, nədir naleyi-ney, nəğmeyi-tar.*
*Nədir ol xüşk olan çubidə bu naleyi-zar,*
*Ki, sədasından onun qarət olur səbrü-qərar.*
*Açma sən pərdəni, hər pərdədə var yüz əsrar,*

Hər pərdənin yüz əsrarlığı Əhməd Bakıxanovun ideyalarına çox uyarlıdır. Müsəlmanda haqq-say borcluğu məsələsi vardır. Taleyimin bəxtinə elə bir məqam düşdü ki, mən də Əhmədxanın tumarının, sığalının dadını gördüm. 1963-cü ildə Asəf Zeynallı adına Musiqi Məktəbinə qəbul imtahanı verəndə, muğam tədrisinin banisi Seyid Şuşinski, tar ifaçılığı tədrisinin banisi Əhməd Bakıxanov məndən imtahan götürürdülər. "Heyratı" zərb muğamını oxuyub müvəffəq qiymət aldım. İmtahanın keçirildiyli 19№-li auditoriyanı tərk edib koridora çıxdım. Mənə bir xanım yaxınlaşıb bildirdi: "Əhməd müəllim dedi ki, indicə "Heyratı" oxuyb, imtahandan çıxan oğlan məni gözləsin". İmtahan vahiməsinin, dahiylə görüşmə həyəcanının təsirindən narahat olub, düşünürdüm: "İlahi-pərvərdigar, görəsən, nə olacaq?" Qəbul imtahanı tam bitəndən sonra Əhmədxan gəldi və aramla:

– Oğul, yaxın gəl, bizim evimizə gedirik! – dedi.

Birlikdə evə döndük. Otaqlarında iki tar mənim diqqətimi cəlb elədi.

Tarın birinin çanaqlarının hər ikisində pərdəsi vardı, o birisinin bir çanağı yox idi. Həyat yoldaşı rəhmətlik Məsmə xanıma bildirdi ki, "uşağa bir cay ver". Deyirlər ki, solaxay adamlar fövqəladə istedada malik insanlar olurlar. Əsas tarını köklədi, solaxay ifasıyla mənim üçün "Rast" çaldı. Bir az oxumuşdum ki, saxladı və "aydındır" dedi. Sonra masaya çay verildi, süfrədə metaldan hazırlanmış dairəvi, rəngli bir qutu vardı. Ona işarə edib mənə bildirdi:

– Buna "mampası" deyirlər, şirnidir, qoy dilinin altına səs tellərinə yaxşı təsir edir. Gedərsən filarmoniyaya, orada Əliağa Quliyevi taparsan, həm mənim tələbəm, həm də ansamblımın konsertmeysteri olub. De ki, məni Əhməd müəllim göndərib. Onun adına nə qədər böyük hörmət və ehtiram olduğunu görəndə, harada olduğumu, özümü də unutdum. Müsabiqədən keçdim, o gündən canki mənim sənət yoluma bir işıq saçıldı. Tale elə gətirdi ki, mən onun ansamblının müşayiəti ilə "Heyratı" və "Mənsuriyyə" zərb muğamlarını lentə aldırdım. Fioletov küçəsində yerləşən Radio evində "Çahargah" dəstgahını yazdırarkən Əhmədxan özü də səs rejissorunun yanında əyləşib ifamı diqqətlə izləyirdi. Bu dəstgah Milli Radiomuzun Qızıl Fonduna daxil edilmişdir. Azərbaycan Radiosunu həmişə alqışlayırıq ki, bütün sənət adamlarının yadigarlarını, xalqın milli musiqi sərvətini hifz edir. Teleradio komitəsində Əhmədxanın sözünün qarşısına söz çıxaran olmazdı. Mənə, gənc müğənniyə fond üçün lent yazdırmaq prosesində bir neçə etapı keçmək lazım idi. Əhmədxanın mənim haqqımda verdiyi rəy nəticəsində böyük kollegiyalara, bədii şuraya ehtiyac olmadan ifa layihələrim irəlilədi. Muğam dünyasının dərinliklərinə

varandan sonra Əhmədxanın öz zəkasının, qəlbinin məhsulu olan rənglər, dəramədlər, diringələr, incə zövqlə düzülən musiqi bər-bəzəkləri, bədii quruluşlar məni valeh edirdi. "Nəva" muğamı, ümumiyyətlə, Azərbaycan xanəndələri və tarzənləri tərəfindən ifa edilmirdi. Əhmədxanın çalğısından sonra bu muğam geniş ifa üçün pasport aldı. Onun çalğı üslubunda fəlsəfi traktovka, məntiq, şərqilik daha güclü və əzəmətli idi. "Xaric Segah"ın xalları sanki dil açıb adamla danışırdı. Onun tərtibatındakı dəraməd və rənglər Əhmədxanın yüksək daxili mədəniyyətinin, xəlqilik və milliliyinin, nurla dolu zəkasının inikasıdır. Qonaqpərvər Əhmədxanın evində Məsmə xanımın çörəyini, xörəyini yeyəndən sonra, Ata bizə dərs keçərdi. Mən bu evin süfrəsinə əl uzatdığım üçün elə bilirəm ki, Tofiq müəllim mənim böyük qardaşımdır. Zivər xanım Əhmədxan qızının həyat yoldaşı rəhmətlik Paşanın lənkəranlı olması bizi bir az da doğmalaşdırırdı. Sevinirəm ki, 120 yaşlı Əhmədxanın ən böyük əsəri məhz Tofiq Bakıxanovdur. El xanəndəsi, rəhmətik atam Xanəli kişi deyərdi ki, Əhmədxanın qardaşı Məmmədxan Lənkərana dəvət olunar və mənimlə bahəm bizim yurdun ən şöhrətli toylarında iştirak edərdi. Sonralar Məmmədxanın oğlu, dəyərli sənətkarımız Akif Bakıxanovun simfonik orkestrlə çıxışlarını görüncə, atamla bağlı xatirələr fikrimdə çözülürdü.

**H.Quliyev:**

– Bu gün çıxış edən alımlər, xanəndələr, musiqişünaslar Əhməd müəllimin çoxşaxəli yaradıcılığının bir hissəsini əhatə edə bildilər, bütövlükdə onun gördüyü işlər və xidmətlərindən danışsaq, gərək gecəmizi səhərə qədər davam etdirək. Bu irsi

həmişə araşdırmaq lazımdır. Söz yox ki, yeni-yeni tədqiqatçılar tapılacaq, alımlər meydana çıxacaq, musiqiçilər əmələ gələcək və Əhməd müəllimin qoyduğu külliyyatı yenidən vərəqləmək onun bizim üçün qoyduğu kodları açmaqdan ötrü, muzeylərə, arxivlərə gedənlər tapılacaq. 1920-30-cu illərdə yaşayan ədəbiyyat və incəsənət xadimlərimizin yaratdıqlarını, yazdıqlarını izlədikcə görürük ki, onların sətiraltı mənasında çoxlu kodlar qalıbdır. Cəfər Cabbarlı, Hüseyn Cavidə məxsus dövrün öz tələbləri var idi ki, onlar çalışıb bu basqılara, təzyiqlərə baxmayaraq, nəyi isə, hansı formadasa bu nəslə ötürsünlər. Ə.Bakıxanov barəsində dediklərimiz, bəlkə də, üst qatdır. Onun bazisinin kökündə daha gizlin, daha maraqlı sirlər dayanır. Bununla əlaqədar Ə.Bakıxanov bizim üçün böyük bir axtarış meydanı qoyub gedibdir. O kodları axtarış edib açmaq, Azərbaycan muğamının, folklorunun nəyi varsa kodların köməyi ilə bərpa etməkdən ötrü tədqiqat meydanına çoxlu alımlər çıxmalıdır. Onun haqqında kitablar yazılacaq, məqalələr dərc olunacaq, elmi tədqiqatlar aparılacaq, tədbirlər keçiriləcəkdir. Amma bu kifayət deyil, tamamlamaq üçün mütləq zəhmətkeş ziyalıların bir araya gəlməsi vacibdir.

**Tofiq Bakıxanov,** *yubilyarın oğlu, xalq artisti, "Şöhrət" ordenli bəstəkar, professor:*

– Hörmətli xanımlar, cənablar, əziz tədbir iştirakçıları! Atalar deyib ki, əsl sənətkar odur ki, özündən sonra iz qoyub getsin. Həmən sənətkarlardan biri də mənim mərhum atam Əhməd Bakıxanovdur. Bu gün də onun tələbəsi olmuş görkəmlı musiqiçilərin simasında gözəl davamçıları vardır. Dövlət tərəfindən onun şərəfli əməyi, bəhrəli fəaliyyəti layiqincə

qiymətləndirilmişdir. İlk dəfə 1941-ci ildə “Əməkdar müəllim”, “Əməkdar incəsənət xadimi”, daha sonra “Xalq artisti” kimi fəxri adlara layiq görülmüşdür. O, Xalq artisti adını alanda, mən o zaman ümummilli liderimiz mərhum Heydər Əliyevlə görüşüb soruşdum: “Mənə xəbər gəlib çatdı ki, Mərkəzi Komitənin bürosunda demisiniz ki, Əhməd Bakıxanov onsuz da xalq artisti idi, sadəcə, biz rəsmiləşdiririk. Ona yüksək qiymət verməyiniz mənim üçün böyük səadətdir”. Yeni Azərbaycanın qurucusu Heydər Əliyev Bakıxanovlar şəcərəsinin fəaliyyətinə, o cümlədən atamın xidmətlərinə daim yüksək qiymət vermişdir. Onun böyük işini ürəklə davam etdirən yetişdirmələri olduğu üçün deyirəm – Əhməd Bakıxanov sağdır, onu yaşadanlar var! Tarzənlər: Əliağa Quliyev, Sərvər Quliyev, Həbib Bayramov, Əlikram Hüseynov, Vamiq Məmmədəliyev və c. Bəstəkarlar: Arif Məlikov, Əşrəf Abasov, Süleyman Ələsgərov, Hacı Xanməmmədov, Ağabacı Rzayeva, Adil Bəbirov və Əhməd xanın ifasında olan bütün muğamları nota köçürən Nəriman Məmmədov. Ensiklopedik bir kitab dünyanı gəzir, bir oğul kimi atamın parlaq xatirəsinə həsr edib bəstələdiyim “Nəva”, “Hümayun”, “Şahnaz”, simfonik muğamlarının partituraları çox yüksək səviyyədə, beynəlxalq standartlara uyğun şəkildə, nəfis çap olunmuşdur. Bu kitabın ərsəyə gəlməsinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya dərin minnətdarlığımı bildirirəm. Bu möhtəşəm musiqi ocağının foyesində Əhməd Bakıxanova həsr olunmuş fotostend var. Şəkillərə baxdıqca olub-keçənlər bir kinolenti kimi gözlərim önündə yenidən canlanır. Vaxt vardı, Azərbaycan xalq musiqisinin incisi olan muğamı sözün əsl

mənasında ləğv etmək istəyiblər. O yer qalmadı ki, həqiqəti təsdiq etmək üçün atam getməsin. Çünki, Əhməd xan bilirdi – muğam Azərbaycan xalqının dilidir, dərdini ifadə, sevincini tərənnüm etmə vasitəsidir, onu məhv etmək olmaz. Çətinliklə də olsa, tərtib etdiyi muğam proqramını saxlaya bildi. Muğam dəstgahlarımızı əzmlə, canfəşanlıqla təbliğ və tədris etdiyinə görə bədxahların göstərişi ilə həbs edilmişdi. İran köklü muğamlardan: "Bayatı Şiraz", Bayatı İsfahan", "Bayatı Qacar" "Şikəsteyi-fars"ın ifalarını əsas tutaraq "musiqimizi Şərqə sürükləyir" – deyə dəfələrlə NKVD ağentlərinin nəzarətinə götürülmüşdü. Dahi Üzeyir bəyin xeyirxah köməyi ilə Əhmədxan və Məmmədxan 1937-ci ilin dəhşətli repressiyalarından qurtulub, nicat tapmışlar. Əhmədxan tələbələri ilə ünsiyyətində müəllim kimi yox, bir ata kimi qayğıkeş olmuşdur. İndi çəkəcəyim misalları təvazökarlıqdan kənar hesab etməyin, bunları ona ğörə dilımə gətirirəm ki, taleyüklü problemlərinin həllində atamın yardımçı kimi iştirak etdiyi insanlar ailəmizin bir üzvü, mənə qardaş kimi yaxın, 60-65 il dostluq etdiyim insanlardır. Nəriman Məmmədov Naxçıvandan Bakıya oxumağa gələndə gözəl tar çalırdı. Musiqi texnikumuna daxil olandan sonra, atam onun istedadını görüb, tələbə ikən ona bu texnikumun konsertmeystri vəzifəsində çalışmaq kimi iş düzəltmişdi. Tələbə üçün əlavə qazancın nə qədər vacib olduğunu bilirsiniz. Həbib Bayramov fəhlə idi, əlləri qabar-qabar olmuşdu. Atamın xahişiylə onu bu ağır işlərdən azad etdilər və Həbib ansamblın konsertmeysteri oldu. Əliağa Quliyev cəbhəyə ayağından ağıq ğüllə yarası almışdı. Həkimlərin ümumi qərarı ilə hospitalda ayağını kəsmək istəyirdilər. Əhmədxan

təşvişə düşüb cərrah dostlarına müraciət etdi: “Bu mənim üçün oğuldan da artıqdır, belə sənətkarlar az olur, məbada qıçını kəsəsiniz, o, buradan salamat çıxmalıdır”. Elə də oldu, cağalıb çıxan Əliağanı yenidən müharibə cəbhələrinə göndərmək qərarına gəldilər. Atam respublıkanın hərbi komissarlığında çalışan sabunçulu polkovnik Xavər Vəliyevin qəbuluna düşüb dedi: “Hər adamı cəbhəyə göndərmək olmaz, bir-iki nəfər sənət incisi var ki, onları qorumaq xalqımızın incəsənətini hifz etmək kimi vacibdir. Başqa bir sənət sahibi olsaydı, mən gəlməzdim. Onun gələcəkdə xalqımıza böyük xeyri dəyəcəkdir. Düzdür, Əliağa Quliyevin hərbi rütbəsi mayordur, Vətənə qulluq etməyə borcludur, xidmətinin davamının Bakıda keçməsi üçün sərəncam verməyinizi xahiş edirəm”. Onu ansambla qaytardı və Əliağa ömrünün axırına qədər musiqimizə canla-başla xidmət göstərdi. Elə olub ki, xanəndə səhnədə çıxış edərkən Az.KP MK nümayəndəsi deyib ki, bu kişi səhnəlik deyil, onu efir və səhnədən məhrum etmək lazımdır. Atam MK-da mədəniyyət şöbəsinin müdiri rəhmətlik Şıxəli Qurbanova müraciət edib, problemin müsbət həllini tapmışdı. Ş.Qurbanov onu görüb yüksək səviyyədə qarşıladı. Atam ona misal çəkərək vəziyyəti şərh edir:

– Bir bağban zəhmət çəkərək ağac əkir, ona qulluq edib böyüdəndən sonra birisi balta ilə gəlib...

– Əhməd müəllim, mən sizi başa düşdüm! O adama televiziyada və radioda çıxış imkanı veriləcək.

Bu misalı ondan ötrü çəkdim ki, atam heç bir vaxt öz təmənnasına və mənafeyinə görə kimə isə ağız açmayıbdır. Bir daha dəyərli vaxtınızı atamın yubiley gecəsində iştirak etmək

üçün sərf edib, bu məclisi nurlandıran sənət korifeylərinə, musiqi həvəskarlarına, əhmədsevərlərə Bakıxanovlar ailəsi adından təşəkkür edirəm. Mədəniyyət Nazirliyinin, Heydər Əliyev Fondunun, Beynəlxalq Muğam Mərkəzinin, AZ.TV-nin rəhbərliyinə, aparıcımız, Opera və Balet Teatrının rejissoru Hafiz Quliyevə, Ə. Bakıxanov adına Xalq Çalğı Alətləri ansamblının bədii rəhbəri Möhlət Müslümova və dərin məzmunlu çıxışlariyla hamıya mənəvi qida, coşqun ruh verən bütün konsert iştirakçılarına minnətdarlığımı bildirirəm.

Az.TV. 07.12.2012-ci il

Ssenari müəllifi – **Çingiz Abbasov**



# Tofiq
# Bakıxanov

## Tofiq Bakıxanov

Azərbaycan bəstəkarı, Azərbaycan Respublikasının Xalq artisti, professor Tofiq Əhməd ağa oğlu Bakıxanov 1930-cu ildə Bakı şəhərində anadan olub. 1953-cü ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını skripka üzrə professoru Simberovun, 1957-ci ildə isə bəstəkarlıq üzrə professor Qara Qarayevin sinfini bitirib.

**Baletləri:**

"Xəzər balladası" (1969)

"Şərq poeması" (1976)

"Xeyir və Şər"(1990)

**Bəstəkar Nəriman Məmmədovla birlikdə yazdığı musiqili komediyalar:**

"Altı qızın biri Pəri"

"Məmmədəli kurorta gedir"

"Qız görüşə tələsir"

**Simfonik əsərləri:**

Böyük Simfonik Orkestr (BSO) üçün 5 simfoniya

Türk simfoniyası (6-cı simfoniya)

**Şərq sonatalar silsiləsi:**

"Türk sonatası", "İran sonatası", "Ərəb sonatası", "Azərbaycan sonatası"

Skripka və fortepiano üçün 5 konsert

Tar və simfonik orkestr üçün 4 konsert

Violonçel və simfonik orkestr üçün 2 konsert

Klarnet və simfonik orkestr üçün konsert

Qarmon ilə simfonik orkestr üçün konsert

Böyük Simfonik Orkestr üçün "Hümayun", "Rahab", "Şahnaz", "Dügah" simfonik muğamları

Çoxlu sayda kamera-instrumental əsərlər, kamera-vokal əsərlər, mahnılar və romanslar.

Dünyanın 19 ölkəsində çıxış edən T.Bakıxanov son illərdə Quzey Kıbrıs Türk Cumhuriyyətində II, IV, V beynəlxalq "Bellapais" musiqi festivallarında, Moskva, Tbilisi, İstanbul, İzmir, Tehran, Bolqarıstanda müəllif konsertləri ilə çıxış etmişdir.

**Tofiq Əhməd ağa oğlu Bakıxanovun fəxri adları, mükafatları və titulları:**

1. Ü.Hacıbəyov adına təqaüdə layiq görülmüşdür (1948).
2. İkinci Respublika gənclər festivalının laureatı (1957).
3. Azərbaycan Respublikasının yaradılmasının 40 illiyinə həsr olunmuş müsabiqədə 1saylı simfoniyasına görə mükafata layiq görülmüşdür (II dərəcəli diplom, 1960).
4. Yeni musiqili səhnə əsərlərinin yaradıcısı kimi Ümumittifaq müsabiqəsinin laureatı (Moskva, 1968).
5. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi (1973).
6. Dosent.
7. Azərbaycan Respublikasının yaradılmasının 60 illiyinə həsr olunmuş müsabiqədə "Viola və fortepiano üçün 1 saylı sonata"sına görə I yerə və mükafata layiq görülmüşdür (1980).

8. Professor (1983).

9. “SSRİ Əmək Veteranı” medalı (1988).

10. Azərbaycan Respublikasının Xalq artisti (1990).

11. Azərbaycan Milli Yaradıcılıq Akademiyasının incəsənət doktoru (1996).

12. Abbasqulu ağa Bakıxanov adına mükafatın laureatı (1996).

13. Azərbaycan Respublikasının Əmək veteranı (1997).

14. Nizami Gəncəvinin anadan olmasının 850 illiyinə həsr olunmuş “Xeyir və Şər” baleti mükafata layiq görülmüşdür. (1997).

15. “Şöhrət” ordeni (2000).

16. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü (2001).

17. Abbasqulu ağa Bakıxanov adına mükafatın laureatı (2001).

18. “Humay” mükafatı laureatı (2005).

19. “Uğur” mükafatı laureatı (2005).

20. “Min bir mahnı” Milli Musiqi və Mahnı mükafatı laureatı (2008).

21. İran İslam Respublikasında ilk muğam festivalının Fəxri diplomu və mükafatçısı (Ərdəbil, 2008).

22. İran İslam Respublikasının Tehran – “Surə” Universitetinin Fəxri Diplomu və mükafatçısı (2010).

23. Abbasqulu ağa Bakıxanov adına mükafatın laureatı (2010).

24. ABŞ-ın “Fulbrayt-Heys” təqaüdü laureatı (2010).

25. Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu mükafatçısı (2010).

26. Naxçıvan Muxtar Respublikasının 85 illiyinə təsis olunmuş Qızıl medal mükafatçısı (2010).

27. “Əsrin Ziyalıları” mükafatı laureatı (2014).

28. Dünya Söz Akademiyası, Hacı Fərhad Mirzə adına Beynəlxalq “Kəlam” mükafatı laureatı (2014, Ankara, Türkiyə)

29. Dünya Söz Akademiyasının Elmi Şurasının üzvü adına layiq görülmüşdür (2015, Ankara, Türkiyə).

30. Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi (2015)

31. İran İslam Respublikası, Tehran Musiqi və Memarlıq “Azad” Universitetinin Fəxri Doktoru diplomu (2016).

32. AMEA-nın Ü. Hacıbəyli adına mükafatı (2017)

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ SƏDRİNİN
S Ə R Ə N CA M I**

**“Əməkdar incəsənət xadimi”
fəxri adının verilməsi haqqında**

Naxçıvan Muxtar Respublikası Konstitutsiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq qərara alıram:

Musiqi mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Tofiq Əhməd Ağa oğlu Bakıxanova “Əməkdar incəsənət xadimi” fəxri adı verilsin.

**Vasif Talıbov,**
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri.
Naxçıvan şəhəri,
08 dekabr 2015-ci il

## Tofiq Bakıxanovun 85 illik yubileyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun təbrik məktubu

*Hörmətli Tofiq müəllim!*

*Sizi – müasir Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsini 85 illik yubileyiniz münasibəti ilə səmimi-qəlbdən təbrik edirəm.*

*Siz yarım əsrdən artıq bir dövrü əhatə edən məhsuldar və səmərəli yaradıcılığınızla Azərbaycan mədəniyyətinə əvəzsiz töhfələr vermiş, ölkəmizin musiqi salnaməsinə parlaq səhifələr yazmısınız. Təkrarsız yaradıcılığınızın məhsulu olan musiqili komediyalar, baletlər, simfoniya və simfonik poemalar, simfonik muğamlar, mahnı və romanslar musiqi xəzinəmizin qiymətli inciləri sırasına daxil olmuşdur. Sizin bəstəkar və ziyalı kimi fəaliyyətiniz xalqa sədaqətlə xidmətin və musiqi sənətinə sonsuz bağlılığın nümunəsidir. Azərbaycan musiqisinin inkişafında bundan sonra da yorulmaz fəaliyyətinizdə uğurlar arzulayır, bir daha yubileyinizi təbrik edirəm.*

*Hörmətlə,*

**Vasif Talıbov,**
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri.
Naxçıvan şəhəri,
08 dekabr 2015-ci il

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri
cənab Vasif Talıbova**

*Hörmətli Vasif müəllim!*

*Sizin Azərbaycan mədəniyyətinin inkişafına və milli-mənəvi dəyərlərimizin daha geniş şəkildə təbliğinə göstərdiyiniz qayğı və ayırdığınız diqqət biz incəsənət adamlarını həmişə məmnun etmişdir. Mən bu qayğı və diqqəti öz həyatımda görməkdən çox məmnunam.*

*Siz adi bir bəstəkar və müəllim Tofiq Bakıxanovun 75 və 80 illik yubileylərinin keçirilməsi barədə Sərəncam verməklə və həmin tədbirlərdə şəxsən iştirak etməklə təkcə mənə deyil, bütövlükdə Azərbaycan musiqisinə və mədəniyyətinə məhəbbətinizi bildirmiş, mənsub olduğum Bakıxanovlar şəcərəsinə ehtiram nümayiş etdirmisiniz. Yeri gəlmişkən, Siz ötən il bizim nəslimizin ən görkəmli nümayəndəsi olan Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin Naxçıvanda da keçirilməsi məqsədilə Sərəncam imzalamış və həmin tədbirdə şəxsən iştirak etmişdiniz.*

*Hörmətli Sədr, 85 illik yubileyim münasibətilə imzaladığınız başqa bir Sərəncama əsasən məni Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi adına layiq gördüyünüzə görə də Sizə dərin minnətdarlığımı, eyni zamanda çoxmilyonlu mədəniyyət təəssübkeşləri adından sonsuz təşəkkürlərimi bildirirəm!*

*Hörmətlə:*

**Tofiq Bakıxanov.**

08.12.2015-ci il

## Naxçıvanda görkəmli bəstəkar Tofiq Bakıxanovun 75 illik yubileyinin zirvə tədbiri keçirilmişdir

Mayın 19-da Naxçıvan şəhərinin "Gənclik mərkəzi"ndə görkəmli bəstəkar, Azərbaycan Respublikasının Xalq artisti, professor Tofiq Bakıxanovun 75 illik yubileyinin zirvə tədbiri keçirilmişdir.

Yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xalqımızın sevimli bəstəkarı, Xalq artisti, professor Tofiq Bakıxanovu 75 illik yubileyi münasibəti ilə təbrik etmiş, ona uzun ömür və möhkəm cansağlığı arzulayaraq demişdir: "Azərbaycan böyük mədəniyyət və sivilizasiyaların qovuşduğu bir məkan, əsrlər boyu dünya mədəniyyətini zənginləşdirən istedadların yetişdiyi bir torpaqdır. Belə sənətkarlarımızdan biri də sevimli bəstəkarımız, virtuoz ifaçı və bacarıqlı pedaqoq Tofiq Bakıxanovdur.

Tofiq Bakıxanov Azərbaycan tarixində özünəməxsus yeri və rolu olan böyük bir nəslin davamçısıdır. Onun ulu babası Abbasqulu ağa Bakıxanov Azərbaycanın görkəmli simalarından biri, tarix, fəlsəfə, ilahiyyat və etikaya dair qiymətli əsərlərin müəllifi, dövrünün qabaqcıl maarifçisi olmuşdur. Onu da qeyd etmək lazımdır ki, Bakıxanovlar sülaləsinin bir qismini hərbçilər, digər bir qismini isə musiqiçilər təmsil etmişdir.

Təkcə XIX əsrdə Bakıxanovlardan 17 nəfəri hərbçi olmuşdur ki, onlardan 4-ü general rütbəsinə qədər yüksəlmişdir. Bakıxanovlar nəslinin musiqiçilərindən Məmməd xan Bakıxanovun, Əhməd Bakıxanovun, Məmmədza, Tələt və Akif Bakıxanovların, Tofiq Bakıxanovun milli və professional musiqimizin inkişafında xüsusi xidmətləri vardır.

Mərhum sənətkar, Xalq artisti, tarzən, ilk Azərbaycan xalq çalğı alətləri Ansamblının yaradıcısı Əhməd Bakıxanovun ailəsində dünyaya göz açması, böyüyüb formalaşması Tofiq Bakıxanovun görkəmli musiqiçi kimi yetişməsinə öz təsirini göstərmişdir. Sələflərinin yolunu davam etdirən Tofiq müəllim 15 yaşından müxtəlif konsert salonlarında, təntənəli gecələrdə solist kimi çıxış etməyə gənc skripkaçının çıxışları Üzeyir Hacıbəyovun diqqətini cəlb etmiş, onun ifalarını yüksək qiymətləndirmişdir. Skripkada gözəl ifa tərzi Tofiq Bakıxanovun bütün sonrakı yaradıcılığına əhəmiyyətli təsir göstərmişdir. Təsadüfi deyil ki, Tofiq Bakıxanovun ilk əsərləri də məhz skripka üçün yazılmışdır. Qara Qarayevin tövsiyəsi ilə konservatoriyanı ikinci ixtisas üzrə əla qiymətlərlə bitirən Tofiq Bakıxanov məhsuldar yaradıcılıq yolu keçmiş, kamera instrumental, simfonik və səhnə əsərləri sahəsində böyük ruh yüksəkliyi ilə çalışmış, bir-birinin ardınca gözəl əsərlər yaratmışdır”.

Ali Məclisin Sədri demişdir: “Elə bəstəkarlar var ki, mahnı janrından yuxarı qalxa, eləlзru də var ki, klassik janrdan aşağıya, yəni nahnı yaradıcılığına enə bilmirlər. Tofiq Bakıxanov üçün belə problem yoxdur. O, musiqinin bütün janrlarında yazıb-yaratmışdır. Üç balet, üç musiqili komediya, tar ilə simfonik orkestr üçün 5 konsert, müxtəlif Avropa alətləri və

simfonik orkestr üçün 23 konsert, 20 sonata, 5 simfonik muğam, 7 simfoniya, 5 simfonik poema. Kamera musiqisi sahəsində 26 sonata, 100-dən artıq mahnı və romans deyilənlərə sübutdur.

Tofiq Bakıxanovun musiqi xadimi və bəstəkar kimi ən böyük üstünlüyü zəngin Azərbaycan xalq musiqisindən bəhrələnməsi, muğamlarımıza sənətkarlıqla yanaşması, bəstəkarlıq texnikasına dərindən bələd olmasıdır. Onun yaradıcılığında Şərq təfəkkür tərzi ilə Qərb musiqi mədəniyyəti özünəməxsus şəkildə vəhdət təşkil edir. Bu əsərlərin mövzusu Şərq və ya Azərbaycan mühitindən götürülsə də, musiqi dili, bəstəkarlıq üslubu Avropa musiqi mədəniyyətinə xas olan yüksək pofessional səviyyədə təcəssüm etdirilir. Bu mənada Tofiq Bakıxanov yaradıcılığı beynəlxalq musiqi standartları səviyyəsinə qalxaraq özünə əbədi  yaşamaq haqqı qazanmışdır".

Ali Məclisin Sədri Tofiq Bakıxanovun pedaqoji fəaliyyətindən də bəhs etmişdir. Qeyd olunmuşdur ki, Tofiq Bakıxanov yarım əsrdən çoxdur ki, müəllim, pedaqoq kimi də fəaliyyət göstərir, yaradıcı gənclərin formalaşmasında öz əməyini əsirgəmir. Bakı Musiqi Akademiyasında və Bakı Musiqi Kollecində kamera ansamblı kafedrasının professoru olan

Tofiq Bakıxanovun əsərləri məşhur ifaçıların repertuarını zənginləşdirməklə yanaşı, ali və orta ixtisas musiqi məktəblərinin tədris proqramlarında da özünə layiqli yer tutur.

Ali Məclisin Sədri Tofiq Bakıxanovun sözün həqiqi mənasında musiqi fədaisi olduğunu qeyd etmişdir. O, Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin üzvü və musiqi bölməsinin sədri kimi fəal ictimai iş aparır, xarici ölkələrdə müəllif konsertləri, gecələri keçirərək milli musiqimizi geniş şəkildə

təbliğ edir. Bu mənada demək mümkündür ki, Tofiq Bakıxanov yaradıcılığı indiki qloballaşan dünyamızda xalqlar arasında mənəvi körpü missiyasını da uğurla həyata keçirir.

Tofiq Bakıxanov mənsub olduğu xalqa şərəf, başucalığı gətirən sənətkardır. Eyni zamanda, o, xoşbəxt sənətkardır. Ona görə ki, sənətin, sənətkarın qiymətləndirildiyi, himayə olunduğu bir dövrdə yaşayır. Onun məhsuldar fəaliyyəti layiqincə qiymətləndirilib, 1973-cü ildə, ümummilli liderimizin Azərbaycana rəhbərliyinin birinci dövründə Əməkdar İncəsənət xadimi, sonrakı dövrlərdə isə xalq artisti fəxri adlarına layiq görülüb, "Şöhrət" ordeni ilə təltif olunub.

Ali Məclisin Sədri Tofiq Bakıxanovun mənəvi borc anlayışını həmişə yüksək tutduğunu qeyd etmişdir. O, siyasi və dövlətçilik fəaliyyəti ilə xalqımızın qəlbində özünə əbədi abidə ucaldan böyük öndər Heydər Əliyev haqqında məqalələrin birində belə yazır: "Mən inanıram ki, Azərbaycanın bütün sənət sahələrində Heydər Əliyevin əbədi abidəsi yaradılacaq. Elə biz musiqi xadimlərinin də belə bir abidənin yaradılmasına mənəvi borcumuz var".

Görkəmli bəstəkarın özü bu sahədə şəxsi nümunə göstərmişdir. Onun simfonik orkestr üçün "Həmişə bizimləsən" əsəri ümummilli liderimizin unudulmaz xatirəsinə tükənməz məhəbbətin ifadəsidir.

Ali Məclisin Sədri demişdir: "Belə bir hikmətli kəlam var: modalar dəyişir, əsl musiqi isə əbədi yaşayır. Öz yaradıcılığı ilə musiqi sevənlərin və tamaşaçıların əbədi məhəbbətini qazanan Tofiq müəllimi yubileyi münasibəti ilə bir daha təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayırıq".

Ali Məclisin Sədri görkəmli bəstəkar, Azərbaycan Respublikasının Xalq artisti, professor Tofiq Bakıxanova ünvanlandırdığı təbrik məktubunu yubilyara təqdim etmişdir.

Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi Ramiz Zöhrabov, Azərbaycan Bəstəkarlar İttifaqının məsul katibi, sənətşünaslıq namizədi Lalə Hüseynova çıxış edərək Tofiq Bakıxanovun çoxşaxəli fəaliyyəti və yaradıcılığının ayrı-ayrı məziyyətləri barədə danışmışlar.

Sonra görkəmli bəstəkarın 75 illik yubileyi münasibətilə konsert olmuşdur. Konsert proqramında bəstəkarın ümummilli liderimiz Heydər Əliyevə həsr olunmuş "Həmişə bizimləsən" simfonik poemasının lent yazısı səsləndirilmişdir. Tarda Zeynalabdin Babayev, fortepianoda Fatma Əliyeva Yaşar Xəlilovun Tofiq Bakıxanova həsr etdiyi sözsüz mahnını ifa etmişlər. Konsertdə görkəmli bəstəkar Tofiq Bakıxanovun mahnıları səslənmişdir. Sonra Zakir Mirzəyev və Arzu Səfərova bəstəkarın "Xəzər balladası" baletindən qarmon və fortepiano üçün "Neft fəvvarəsi rəqsi"ni ifa etmişlər.

Qədim xalq çalğı alətləri ansamblının solisti Nuriyyə Hüseynovanın da çıxışları alqışlarla qarşılanmışdır. İnstrumental ansamblın üzvlərindən Sahib Paşazadə, Toğrul Əsədullayev, solist Cavid Hüseyn görkəmli bəstəkarın əsərlərini uğurla ifa etmişlər. Konsert proqramında Azərbaycan Respublikasının Xalq artisti, tarzən Ramiz Quliyev Tofiq Bakıxanovun "Yadıma düşdü", "Şərqdən gələn sədalar", tar və fortepiano üçün "Azərbaycan simfoniyası"nı səsləndirmişdir. Çıxışlar alqışlarla qarşılanmış, yubilyara və ifaçılara gül-çiçək dəstələri təqdim olunmuşdur.

Yubilyar – görkəmli bəstəkar Tofiq Bakıxanov onun yaradıcılığına göstərilən böyük diqqət və marağa görə naxçıvanlı sənətsevərlərə öz minnətdarlığını bildirmişdir.

Foyedə Ali Məclisin Sədri görkəmli bəstəkar Tofiq Bakıxanova xoş arzularını bildirmiş, ifaçıları uğurlu çıxışlarına görə təbrik etmiş, onlarla xatirə şəkili çəkdirmişdir.

"Şərq qapısı", 20 may 2006-cı il

## Görkəmli bəstəkar Tofiq Bakıxanovun 80 illik yubileyi Naxçıvanda da qeyd olundu

Yanvarın 15-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Azərbaycan Respublikasının xalq artisti, professor, "Şöhrət" ordenli bəstəkar Tofiq Bakıxanovun 80 illik yubiley tədbiri keçirilmişdir.

Yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək musiqi mədəniyyətimizin inkişafında xüsusi xidmətləri olan görkəmli bəstəkar Tofiq Bakıxanovu 80 illik yubileyi münasibətilə təbrik edərək demişdir: "Tofiq Bakıxanov milli tariximizə onlarla ali rütbəli hərbçi, ictimai və mədəniyyət xadimləri bəxş etmiş. Nəslin ənənələrini ləyaqətlə davam etdirərək Azərbaycan mədəniyyətinə əvəzsiz töhfələr vermişdir. Onun 60 illik yaradıcılıq yolu bəstəkar, yaradıcı ziyalı kimi xalqa sədaqət, ifaçı kimi sənətə fədakarcasına bağlılıq nümunəsidir. Bəstəkarın təkrarsız yaradıcılığının məhsulu olan musiqili kome-

diyalar, baletlər, simfoniya və simfonik poemalar, simfonik muğamlar, mahnı və romanslar Azərbaycan musiqi xəzinəsini zənginləşdirən dəyərli sənət nümunələridir.

Tofiq Bakıxanov təkcə ifaçı və bəstəkar kimi yox, pedaqoq kimi də hörmətə malikdir. Skripka və kamera ansamblı ixtisası üzrə musiqiçilər məhz "Bakıxanov məktəbinin" davamçıları kimi nüfuz qazanmışlar. O, mənalı ömür yaşamış gözəl insan, mənsub olduğu xalqa şərəf və başucalığı gətirmiş böyük sənətkardır".

Ali Məclisin Sədri Tofiq Bakıxanova professional musiqimizin inkişafında bundan sonra da məhsuldar fəaliyyətində uğurlar arzulamış, ona Naxçıvan Muxtar Respublikasının 85 illiyinə buraxılmış xatirə qızıl medalını təqdim etmişdir. Xalq artisti Tofiq Bakıxanov yaradıcılığına muxtar respublikada yüksək qiymət verildiyini, 75 illik yubileyinin də Naxçıvanda qeyd olunduğunu vurğulamış, ona göstərilən diqqət və qayğıya görə dərin minnətdarlığını bildirmişdir. Sonra görkəmli bəstəkarın 80 illik yubileyi münasibəti ilə konsert olmuşdur. Konsert proqramında bəstəkarın ümummilli lider Heydər Əliyevə həsr olunmuş "Həmişə bizimləsən" simfonik poemasının videoyazısı nümayiş etdirilmişdir.

Azərbaycan Respublikasının əməkdar artisti Zakir Mirzəyev qarmonda bəstəkarın "Sevgilim", "Segahsayağı" musiqilərini, "Xəzər balladası" baletindən "Neft fəvvarəsi rəqsi"ni ifa etmişdir. Beynəlxalq müsabiqə laureatı Sahib Paşazadə Tofiq Bakıxanovun tar üçün yazdığı "Görüş yerimiz", Əhməd Bakıxanova həsr olunmuş "Xatirə konsert" əsərlərini, "Xeyir və Şər" baletindən rəqsi böyük ustalıqla ifa etmişdir. Azər-Alətləri ansamblının müşayiəti ilə Azərbaycan Respublikasının

əməkdar artisti Nuriyyə Hüseynovanın, müğənnilərdən Ruzə İbişovanın, Cavid Hüseynin ifa etdikləri “Azərbaycan gölləri”, “Yadıma düşdü”, “Gözəlliklər məskəni”, “Sevməyir qoy sevməsin”, “Sevən könül”, “Min bir kəlam”, “Abşeron bağlarında“, “Naxçıvanım”, mahnıları tamaşaçılara xoş əhval-ruhyyə bəxş etmiş, alqışlarla qarşılanmışdır. Konsert proqramından sonra səhnə arxaına keçən Ali Məclisin Sədri ifaçıları və ansamblın kollektivini uğurlu konsertə görə təbrik edərək demişdir: “Tofiq Bakıxanovun yaradıcılığı o qədər geniş, mənalıdır ki, onun əsərlərinin - simfoniyalarının, lirik və tərənnüm mahnılarının hər birinin öz yeri, öz gözəlliyi vardır. Rəssam insanı nə qədər dərindən tanısa, onun xarakterini bilsə həmin əsər o qədər gözəl alınar. Bəstəkarın Vətənə bağlılığı, Azərbaycana dərindən bələd olması mahnılarından görünür. Azərbaycanı tanımayanlar Tofiq Bakıxanovun Vətənimizi tərənnüm edən mahnılarını dinləyib ölkəmizi tanıya, sevə bilərlər. Onun simfonik orkestr üçün “Həmişə bizimləsən” əsəri ümummilli liderimizin unudulmaz xatirəsinə tükənməz məhəbbətin ifadəsidir”.

Ansamblın kollektivinin və ifaçıların bəstəkarın əsərlərini, mahnılarını çox gözəl ifa etdiklərini bildirən Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin “Bizim hamımızın bir Vətəni var – bu Azərbaycandır” kəlamını xatırladaraq demişdir: “Azərbaycanın hər qarışı bizim üçün müqəddəs yer, bütün sənətkarlar, mədəniyyət xadimləri bizim üçün əzizdir. Ona görə də Tofiq Bakıxanovun yubileyi Naxçıvanda qeyd olunmalı idi. Ali Məclisin Sədri yaradıcılığında Naxçıvan mövzusuna yer verdiyi üçün bəstəkara təşəkkürünü bildirmiş, onu bir daha 80 illik yubiley münasibətilə təbrik etmişdir.

Tofiq Bakıxanov muxtar respublikada həyata keçirilən tədbirlərin, mədəniyyətin inkişafına göstərilən diqqət və qayğının burada ulu öndər Heydər Əliyevin yolunun uğurla davam etdirilməsinin nəticəsi olduğunu vurğulamış, 80 illik yubileyinin Naxçıvanda yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirmiş, dörd diskdən ibarət mahnı və əsərlərini, "Bakıxanovların ekran təcəssümü", "Bakıxanovlarla nurlanan ekran " kitablarını Ali Məclisin Sədrinə təqdim etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**
"Şərq qapısı", 18 yanvar 2011-ci il.

## Naxçıvanlılar xoşbəxtdirlər ki, belə diyarda yaşayırlar

### Şəhərimizin qonaqları: Tofiq Bakıxanov

Azərbaycan musiqisində öz dəst-xətti ilə seçilən bəstəkar Tofiq Bakıxanov geniş və hərtərəfli yaradıcılığı ilə musiqisevərlərin böyük məhəbbətini qazanmışdır. Ölkəmizdə tanınmış bir nəslin – Bakıxanovların davamçısı olan Tofiq Bakıxanovun 80 illik yubileyi muxtar respublikamızda da geniş qeyd olundu. Biz də fürsətdən istifadə edib görkəmli bəstəkarla təəssüratlarını bölüşdük. Ona ilk sualımız isə belə oldu.

– Tofiq müəllim, 60 il məhsuldar yaradıcılıq yolu keçmisiniz. Bu dövrü necə xarakterizə edərdiniz?

– 1930-cu ildə Bakıda görkəmli tarzən Əhmədağa Bakıxanovun ailəsində anadan olmuşam. Sənətə gəlməyimdə ata-

mın böyük təsiri olub. Azərbaycanın görkəmli bəstəkarı Qara Qarayevin sinifində təhsil almışam. 15 yaşımdan müxtəlif konsert salonlarında, təntənəli gecələrdə solist kimi skripkada çıxış etmişəm. Elə ilk əsərlərim də məhz skripka üçün yazılmışdır. Müəllimim Qara Qarayevin tövsiyəsi ilə konservatoriyanı ikinci ixtisas – bəstəkarlıq üzrə əla qiymətlərlə bitirdim. Bundan sonra böyük ruh yüksəkliyi ilə yaradıcılığa başladım. Kamera-instrumental, simfonik və səhnə əsərləri sahəsində əsərlər yaratdım. Bəstələdiyim musiqi nömrələri Azərbaycanda, həmçinin, ölkəmizin hüdudlarından da kənarda ifa edilib. Xarici ölkələrin görkəmli sənət ustaları tərəfindən səsləndirilib. Mən xoşbəxt bir sənətkaram. Çünki əməyim dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Belə ki, Azərbaycanın Xalq artisti adına layiq görülmüşəm, "Şöhrət" ordeni ilə təltif olunmuşam. Yubileylərim geniş şəkildə qeyd olunub.

– Azərbaycanda, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikada mədəniyyət və incəsənətin vəziyyəti barədə bir sənət adamı kimi nə deyə bilərsiniz?

– Əvvəlcə onu deyim ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev mədəniyyətimizin böyük himayədarı olmuşdur. Ulu öndər ölkəmizə rəhbərliyinin hər iki dövründə təkcə iqtisadiyyatın yox, mədəniyyətin də qayğısına qalmış, onun inkişafı və gələcək nəsillərə çatdırılması üçün əlindən gələni etmişdir. 1993-cü ildə ulu öndərin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə bütün sahələrdə olduğu kimi, mədəni həyatımızda da bir coşqunluq yarandı. Tarix və mədəniyyət abidələrinin qorunması, muzeylər, kitabxanalar, turizm, kinomatoqrafiya, arxitektura fəaliyyəti haqqında qanunlar, qərarlar, sərəncamlar və digər sənədlər məhz ulu öndərin qayğısı

nəticəsində qəbul edilmiş, mədəniyyətin bütün sahələri onun daim diqqətində olmuşdur. Azərbaycan xalqı ümummilli lider tərəfindən əsası qoyulan və bu gün ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən dünyəvi dövlət quruculiuğu sayəsində öz zəngin mədəniyyəti, milli siması, mənəvi-əxlaqi meyarları ilə dünya xalqları arasında özünə layiq yer tutan yetkin xalqdır. Mədəniyyətə göstərilən qayğını muxtar respublikanın timsalında da bütün çalarları ilə görmək olar. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri mədəniyətin inkişafı üçün mühüm tədbirlər həyata keçirir. Regionda klublar, mədəniyyət evləri, kitabxanalar, musiqi məktəbləri üçün yeni binalar tikilir. Ölkədən bu qədim diyara sənətkarlar dəvət edilir, onların konsertləri təşkil olunur. Blokada şəraitində olan bir diyarda mədəniyyətə, onun inkişafına belə böyük qayğının göstərilməsi bizləri, Bakıda yaşayan sənətkarları da ürəkdən sevindirir. Bununla ikinci dəfədir ki, muxtar respublikada yubileyimin geniş şəkildə qeyd olunması təsadüfi xarakter daşımır. Bu, onu göstərir ki, mədəniyyətə, mədəniyyət adamlarına qayğı yüksək səviyyədədir. Baxın bu möhtəşəm saraya. Avropanın ən böyük zallarından geri qalmır. Sarayın müasir görkəmi hamını heyrətə gətirdi. Sevinirəm ki, mənim yubiley tədbirim də bu möhtəşəm sarayda təşkil olunub. Bütün bunlar muxtar respublikada görülən işlərin, mədəniyyətin inkişafına göstərilən diqqət və qayğının, burada ulu öndər Heydər Əliyev yolunun uğurla davam etdirilməsinin nəticəsidir.

– Tofiq müəllim, muxtar respublikamıza üçüncü gəlişinizdir. Bu gün qədim diyarımız sizdə hansı təəssüratları yaratdı?

– Bilirsiniz, Naxçıvan mənim üçün çox ulu bir şəhərdir. Həm də çox müqəddəsdir. Ona görə ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu torpaqda dünyaya göz açıb. Hava limanında təyyarədən enərkən elə ordaca qeyri-adi hisslərə bürünürəm. Mən dünyanın bir çox gözəl şəhərlərində olmuşam. Bu gözəl şəhərlər arasında Naxçıvan yaddaşımda möhkəm yer tutub. Sonuncu dəfə 2006-cı ildə olmuşdum. O zaman da gözəl idi. İndi isə daha da gözəlləşib. Buranın təkcə suyu yox, havası yox, siması da gözəldir. Müasir binalar, səliqəli yollar, təmizlik insana xoş təsir bağışlayır. Burada hər şey çox ürəkaçandır. İnsanları da  xoşbəxtdirlər ki, belə bir qədim və eyni zamanda gözəl bir diyarda yaşayırlar.

Müsahibəni apardı: **Sara Əzimova**
"Şərq qapısı", 18 yanvar 2011-ci il.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri görkəmli bəstəkar Tofiq Bakıxanov ilə görüşüb

Oktyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikada səfərdə olan "Şöhrət" ordenli, Azərbaycan Respublikasının Xalq artisti, professor, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Tofiq Bakıxanov ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən bildirilib ki, Ali Məclisin Sədri qonağı salamlayıb, Tofiq Bakıxanovun Azərbaycan musiqi sənətinin inkişafındakı

xidmətlərindən danışıb. Bəstəkarın əsərlərinin yüksək qiymətə layiq olduğunu bildirən Ali Məclisin Sədri ona yeni yaradıcılıq uğurları arzulayıb.

Xalq artisti Tofiq Bakıxanov muxtar respublikada musiqi sənətinin inkişafı və gənc musiqiçi kadrların hazırlanması sahəsində həyata keçirilən tədbirlərin onda böyük məmnunluq doğurduğunu vurğulayıb. Naxçıvan Muxtar Respublikasında yaradıcılığına yüksək qiymət verildiyini bildirən Tofiq Bakıxanov göstərilən diqqətə görə minnətdarlıq edib.

"Şərq qapısı", 28.10.2016-cı il

## Naxçıvan Dövlət Musiqili Dram Teatrında Tofiq Bakıxanovun yaradıcılıq gecəsi keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə görüşdən sonra Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında görkəmli bəstəkar Tofiq Bakıxanovun yaradıcılıq gecəsi keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək deyib ki, Azərbaycan tarixində elə nəsillər var ki, onlar xalqımıza böyük simalar – hərbçilər, siyasətçilər, elm və sənət adamları, ədəbiyyatçılar, musiqiçilər, aktyorlar, rəssamlar bəxş ediblər. Şahtaxtinskilər, Kəngərlilər, Bakıxanovlar, Hacıbəyovlar, Şuşinskilər, Təhmasiblər, Şıxlinskilər, Topçubaşovlar, Qarayevlər və başqa onlarla nəsillərin nümayəndələri mədəniyyətimizin, elmimizin, təhsilimizin, hərb sənətimizin, səhiyyəmizin tərəqqisində müstəsna rol oynayan dünya şöhrətli

insanlar olublar. Bu görkəmli nəsillər içərisində Bakıxanovlar nəslinin də şərəfli yeri vardır. Bu gün tədbirimizdə iştirak edən "Şöhrət" ordenli, Azərbaycan Respublikasının Xalq artisti, professor Tofiq Bakıxanov da Abbasqulu ağa Bakıxanov nəslinin layiqli davamçısıdır. Qeyd olunub ki, Tofiq Bakıxanov qədim diyarımızda dəfələrlə olub. Görkəmli bəstəkarın 75 və 80 illik yubileyləri onun iştirakı ilə Naxçıvanda qeyd olunub. Ötən il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Tofiq Bakıxanova "Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adının verilməsi sənətkarın musiqi mədəniyyətimizin inkişafındakı xidmətlərinə verilən yüksək qiymətin ifadəsidir. Qeyd olunub ki, məhz Üzeyir Hacıbəyovun musiqi məktəbində Tofiq Bakıxanov skripka təhsili alıb. Tofiq müəllim kiçik yaşlarında bu musiqi alətində ifa etdiyi əsərlərlə böyük bəstəkarımızın diqqətini cəlb edib və onun rəğbətini qazanıb. Xalq musiqisinə, muğamlarımıza, eyni zamanda Avropa musiqi alətlərinə bələd olması, Qərb musiqisini mənimsəməsi gələcək sənətkarın formalaşmasında mühüm rol oynayıb. Ötən əsrin qırxıncı illərinin sonunda Tofiq Bakıxanov Azərbaycan Dövlət Konservatoriyasına daxil olub. Bu illərdə konservatoriyanın rektoru olan Qara Qarayevin sinfində təhsil alması da onun dünyagörüşünün formalaşmasına əhəmiyyətli təsir göstərib. Opera janrı istisna olmaqla, bütün musiqi janrlarında əsərlər yazan Tofiq Bakıxanovun istedad və peşəkarlıq, zəhmət və iradə, yorulmaq bilmədən çalışmasının əsas yaradıcılıq meyarı olduğunu vurğulayan Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm naziri bildirib ki, görkəmli bəstəkarın "Altı qızın biri Pəri", "Məmmədəli kurorta gedir", "Qız görüşə tələsir" musiqili komediyaları, "Xəzər

balladası", "Şərq poeması", "Xeyir və Şər" baletləri, çoxsaylı simfonik əsərləri, simfonik muğamları, mahnıları, violonçel, tar, fortepiano üçün bəstələdiyi konsertlər, mahnı və romansları, kamera-instrumental əsərləri, kamera-vokal əsərləri, kino musiqisi zəhmət və istedadın vəhdətini göstərən və sevilən sənət nümunələridir. Vurğulanıb ki, Tofiq Bakıxanov 100-dən çox mahnının müəllifidir. Bəstəkarın "Sevən könül", "Görüş yerimiz", "Qurban olduğum", "Günah özündədir", "Könlüm səni arzular", "Azərbaycan gölləri", "Yaylaqların mahnısı" və digər onlarla nəğmələri bu gün sevilə-sevilə dinlənilir. Onun ulu babası görkəmli şair, alim və hərbçi Abbasqulu ağa Bakıxanovun 20-dən çox şeirinə yazdığı mahnı və romanslar bu gün də sevilərək ifa olunur. Görkəmli sənətkarın əsərləri Fransa, Rusiya, İran, Türkiyə, Şimali Kipr, Lüksemburq, Rumıniya, Bolqarıstan, Şotlandiya, ABŞ və başqa ölkələrdə səslənib, ona böyük şöhrət qazandırıb. Buna görədir ki, bəstəkar bir sıra dövlətlərin mükafatlarına layiq görülüb, musiqi ocaqlarının fəxri doktoru seçilibdir. Tofiq Bakıxanova yaradıcılıq uğurları arzulayan Natəvan Qədimova çıxışını Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin görkəmli sənətkarımız haqqında dediyi fikirlərlə bitirib: "Tofiq Bakıxanov xalqımızın tarixi keçmişində, elm və mədəniyyətində öz yeri olan böyük bir nəslin ənənələrini ləyaqətlə davam etdirərək Azərbaycan musiqi mədəniyyətinə gözəl töhfələr vermişdir".

Tofiq Bakıxanov haqqında qısametrajlı film göstərildikdən sonra bəstəkarın əsərlərindən ibarət konsert olub.

Konsertdə bəstəkarın müxtəlif janrlı əsərləri Naxçıvan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri orkestri tərəfindən ifa olunub. "Naxçıvan" simfoniyettası səsləndirilib. Daha sonra

Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Azər Cəfərlinin ifasında "Naxçıvanım", Şəhriyar Cəbiyevin ifasında "Bəslər", Nərmin Cəfərovanın ifasında "Səbr elə", Qəribə Həsənovanın ifasında "Səninlə bağlıdır bəxtiyarlığım" mahnıları səsləndirilib. Nadir Məmmədov isə Tofiq Bakıxanovun naxçıvanlılar tərəfindən çox sevilən tar və fortepiano üçün "Görüş yerimiz" adlı əsərini səsləndirib. Orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Əməkdar artisti Zeynalabdin Babayevin ifa etdiyi bəstəkarın tar və orkestr üçün 1 nömrəli konserti ilə konsertə yekun vurulub. Tədbirin sonunda Tofiq Bakıxanov çıxış edərək təşkil edilən konsertə görə minnətdarlığını bildirib. Qeyd edib ki, bu gün ulu öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun diqqət və qayğısı sayəsində ölkəmizdə, o cümlədən muxtar respublikamızda mədəniyyət, incəsənət böyük inkişaf yolu keçib. Sevindirici haldır ki, bu gün Naxçıvan Muxtar Respublikasında mədəniyyət və incəsənət böyük qayğı və diqqətlə əhatə olunub. Muxtar respublikada görkəmli mədəniyyət xadimlərinin yubileyləri böyük təntənə ilə qeyd olunur, musiqi tədris ocaqları uğurla fəaliyyət göstərir, yaradıcı insanların fəaliyyəti üçün hər cür şərait yaradılır.

"Şərq qapısı", 28.10.2016-cı il

## Görkəmli bəstəkar Tofiq Bakıxanovun Naxçıvanda bəstəkarlar, musiqişünaslar və tələbələrlə görüşü olub.

Oktyabrın 24-də görkəmli bəstəkar, Xalq artisti, Prezident təqaüdçüsü, Bakı Musiqi Akademiyasının professoru, “Şöhrət” ordenli, Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət – xadimi Tofiq Bakıxanov Naxçıvana səfərə gəlib. Bəstəkar həmin gün Naxçıvan şəhərində ulu öndər Heydər Əliyevin abidəsini və Heydər Əliyev Muzeyini ziyarət edib.

Oktyabrın 25-də Tofiq Bakıxanovun Naxçıvan Dövlət Universitetində musiqi ixtisası üzrə təhsil alan tələbələrlə görüşü keçirilib.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qonağı salamlayaraq Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsinin zəngin yaradıcılığından, sənətinə göstərilən yüksək dövlət qayğısından danışıb. Sonra İncəsənət fakültəsinin müəllim və tələbələrinin ifasında bəstəkarın əsərləri səsləndirilib. İfalardan və səmimi qəbuldan razılığını bildirən bəstəkar gənc musiqiçilərə yaradıcılıq uğurları arzulayıb.

Həmin gün Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatında keçirilən görüşdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Yaşar Xəlilov çıxış edərək Tofiq Bakıxanovun həyat və yaradıcılığına nəzər

salıb, onun Azərbaycan bəstəkarlıq məktəbində böyük xidmətləri olduğunu qeyd edib. Bildirilib ki, 1930-cu ildə Xalq artisti Əhməd Bakıxanovun ailəsində dünyaya göz açmış Tofiq Bakıxanov mükəmməl musiqi təhsili alıb, Azərbaycan və dünya klassik musiqi ənənələrini mənimsəyib. Hələ gənclik illərində skripka ifaçısı kimi də tanınan böyük sənətkar bir çox səhnə əsərlərinə musiqi yazıb, baletlər, simfonik əsərlər, simfonik muğamlar, çoxlu sayda kamera-instrumental və kamera-vokal əsərləri, mahnılar, romanslar bəstələyib.Yaşar Xəlilov qeyd edib ki, Tofiq Bakıxanovun ictimai musiqi xadimi kimi fəaliyyəti də çox önəmlidir. O, 1958-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının, həmçinin bu təşkilatın İdarə Heyətinin üzvüdür. Musiqi sahəsindəki əməyinə görə Tofiq Bakıxanov dövlətimizin yüksək mükafatlarına layiq görülüb.

Görüşdə Tofiq Bakıxanov çıxış edərək Naxçıvanda musiqinin inkişafına göstərilən böyük qayğıdan danışıb. Vurğulayıb ki, son illərdə o, yaradıcılığının bir hissəsini bu yurda həsr edib.

"Gələcəkdə yaradıcılığımı yenə də bu istiqamətdə davam etdirəcək, muxtar respublikanın dilbər guşələrindən biri olan Batabata həsr olunmuş mahnı bəstələyəcəyəm", – deyən Tofiq Bakıxanov bildirib ki, Naxçıvanın inkişafı onu buna sövq edir. Bu gün Naxçıvan hər bir yaradıcı sənət adamı üçün əsl ilham mənbəyidir.

Tofiq Bakıxanov naxçıvanlı bəstəkarlara və gənc musiqiçilərə yaradıcılıq tövsiyələrini verib.

**Hafizə Əliyeva,**
"Şərq qapısı", 26.10.2016-cı il

## Görkəmli bəstəkar Tofiq Bakıxanov Naxçıvanın bir neçə musiqi məktəbinin kollektivi ilə görüş keçirib

Xəbər verdiyimiz kimi, oktyabr ayının 24-də görkəmli bəstəkar, Xalq artisti, Prezident təqaüdçüsü, Bakı Musiqi Akademiyasının professoru, "Şöhrət" ordenli, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Tofiq Bakıxanov Naxçıvana səfərə gəlib.

Oktyabrın 26-da bəstəkar Naxçıvan Musiqi Kollecinin müəllim və tələbə kollektivi ilə görüş keçirib.

Bəstəkar burada tədris olunan ixtisaslarla maraqlanıb, tələbələrin ifalarına qulaq asıb, onların ifaçılıq imkanları ilə tanış olub. İlk olaraq xanəndəlik sinfinə baş çəkən qonaq üçün burada bir neçə xalq mahnısı səsləndirilib. Tar sinfində isə Tofiq Bakıxanovun öz əsərləri olan "Görüş yerimiz" və "Xəzər balladası" baletindən "Neft fəvvarəsinin rəqsi" nömrələri ifa olunub. Kamança sinfində Qəmbər Hüseynlinin "Ay işığında" əsərinin ifasını dinləyən bəstəkar tələbələrə daha irihəcmli əsərlər, məsələn, konsertlər öyrətməyi müəllimlərə tövsiyə edib, özünün "Kamança və simfonik orkestr üçün konsert"ini kollecə hədiyyə edəcəyini bildirib.

Daha sonra kollecin 40-a yaxın tələbəsindən ibarət təşkil edilmiş Xalq Çalğı Alətləri orkestrinin bir neçə ifasına qulaq asan bəstəkar orkestrdə bəzi alətlərin çatışmazlığını, lakin buna baxmayaraq, ifanın qənaətbəxş olduğunu bildirib, gələcəkdə ifa etmək istədikləri, lakin tapa bilmədikləri əsərlərin not nümunələrini onlara göndərəcəyinə söz verib. Görkəmli bəstəkar Tofiq Bakıxanovun Naxçıvan Musiqi Kollecinin müəllim və tələbə heyəti ilə görüşünü kollecin direktoru Həsən Seyidov açıb.

Kollecin müəllimi Samirə Hüseynova çıxışında bildirib ki, yaradıcılığı maraqlı nüanslarla zəngin olan və əsərləri əbədiyaşarlıq qazanan bir çox sənətkarlar var. Tofiq Bakıxanov da onlardan biridir. O, Azərbaycan musiqi mədəniyyətinin inkişafında əvəzsiz xidmətləri olan Üzeyir Hacıbəyov tərəfindən əsası qoyulmuş milli bəstəkarlıq məktəbinin nümayəndəsidir. Görkəmli sənətkarın əsərləri milli musiqi mədəniyyəti xəzinəmizə dəyərli töhfə olmaqla yanaşı, gələcəkdə də Azərbaycanda musiqi mədəniyyətinin inkişafında mühüm rol oynayacaq təqdirəlayiq sənət nümunələridir. Vurğulanıb ki, istedadlı bəstəkar Tofiq Bakıxanovun əsərləri, ilk növbədə, özünəməxsus musiqi dili ilə diqqəti cəlb edir. Müxtəlif insan xarakterləri, onların dünyaya fərqli baxışları, fərdi düşüncə tərzləri Tofiq Bakıxanov tərəfindən o qədər emosional canlandırılır ki, dinləyici bu əsərlərə valeh olmaya bilmir.

Tədbirin sonunda çıxış edən Tofiq Bakıxanov kollecin müəllim və tələbə heyətinə tövsiyələrini verib və Naxçıvanın ilk professional bəstəkarı olan Məmməd Nəsirbəylinin yara-

dıcılığı haqqında bəzi məlumatları onlara çatdırıb. Günün ikinci yarısında Tofiq Bakıxanov Naxçıvan Şəhər Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbində olub. Məktəbin müəllim və şagirdləri konsert proqramı ilə çıxış edib. Konsertin rəsmi hissəsində aparıcı tərəfindən bəstəkarın həyat və yaradıcılığı haqqında məlumat verilib. Məktəbin müəllim və şagirdlərinin ifasında yerli və xarici bəstəkarların əsərləri ilə yanaşı, Tofiq Bakıxanovun müəllifi olduğu "Elegiya", "Görüş yerimiz" əsərləri də ifa olunub. Konsert məktəbin xor kollektivinin ifası ilə başa çatıb.

Görüşün sonunda bəstəkar bu məktəblə, eləcə də Naxçıvanla bağlı təəssüratlarını kollektivlə bölüşüb:

– Mən çox sevincliyəm ki, 10 ildən sonra növbəti dəfə burada, Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbindəyəm. Bəli, mən burada düz 10 il əvvəl olmuşam. O zamanla indini müqayisə etdikdə, bu 10 il ərzində məktəbin xeyli inkişaf etdiyini gördüm. Çox sevindirici haldır ki, Naxçıvanda belə musiqi tədris ocaqları,ixtisaslı pedaqoji kadrlar və ən əsası da musiqiyə həvəsli gənclər var. Sonda T.Bakıxanov kollektivlə xatirə şəkli çəkdirilib.

**Fatma Babayeva,**

"Şərq qapısı", 27.10.2016-cı il.

## Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio verilişləri Komitəsi

### Xəbərlər:

### "Şöhrət" ordenli bəstəkar, Xalq artisti Tofiq Bakıxanov Naxçıvanda səfərdədir.

Naxçıvan televiziyası xəbər verir ki, görkəmli bəstəkar Tofiq Bakıxanov əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsi önünə gələrək ulu öndərin xatirəsini ehtiramla yad edib. Heydər Əliyev muzeyi ilə tanış olan qonaq öz kitablarını muzeyə hədiyyə edib, muzeyin xatirə kitabına ürək sözlərini yazıb. Səfər müddətində görkəmli bəstəkarın Naxçıvanın yaradıcılıq təşkilatlarında görüşləri keçirəcək, Naxçıvan Dövlət Musiqili Dram Teatrında isə bəstəkarın əsərlərindən ibarət konsert proqramı təqdim ediləcək. Xatırladaq ki, 2011-ci ildə Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında görkəmli bəstəkar Tofiq Bakıxanovun 80 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Həmin tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Tofiq Bakıxanovu yubiley münasibəti ilə təbrik edərək ona Naxçıvan Muxtar Respublikasının 85 illiyi münasibətilə buraxılmış xatirə qızıl medalını təqdim edib.

**Turab Hacızadə,**
NTV xəbər. Naxçıvan televiziyası

## Tofiq Bakıxanov musiqisi və klassik Azərbaycan şeiri

Tofiq Əhməd xan oğlu Bakıxanov – əsilzadələr nəslinə mənsub olan bu tarixi soyad doğma vətəni Azərbaycanda olduğu kimi, Şərq və Avropa ölkələrində də öz dəst-xətti ilə, musiqi əsərləri ilə geniş dinləyici auditoriyası tərəfindən böyük maraqla qarşılanır. Həqiqətən musiqi intəhasız ümmandır. Sərhəd tanımır. Şərqin əvəzsiz bəstəkarı Üzeyir Hacıbəyov bu haqda yazır: "Əsil bəstəkar odur ki, öz yolu olsun, əsəri ifa edildikdə desinlər – bu, filan bəstəkara məxsusdur..." Azərbaycan musiqi sənətinin ilk korifeyi Ü.Hacıbəyov bu müdrik kəlamı sanki T.Bakıxanovun yaradıcılığına ünvanlanmışdır.

T.Bakıxanov musiqinin əksər janrlarında qələmini uğurla sınamış, milli musiqinin inkişafı naminə yaratdığı təkrarsız əsərləri xəlqilik və millilik zəminində köklənmişdi. Hələ beşikdə ikən Azərbaycan muğamları ona, ana laylası tək əziz və məhrəm olmuşdur. T.Bakıxanov xatirələrinin birində yazır: "Xoşbəxtliyim onda olub ki, xalq musiqisi ilə qidalanmışam, ...skripkaçı kimi Avropa musiqisini mənimsəmişəm. Yəni Şərq musiqisi ilə Qərb musiqisinin vəhdəti fərdi yaradıcılığıma böyük təsir göstərib"

Bəstəkar özünün çoxşaxəli musiqi əsərlərində tarixi-mədəni dəyərlərimizin əbədiyaşarlığını, musiqimizin sirli-sehrli cazibəsini, təravətini tərənnüm etmişdir. Zənnimcə, T.Bakıxanovun klassik Azərbaycan poeziyasına bağlılığı bir örnək olaraq ulu babası A.Bakıxanov şeiriyyətinə vurğunluğundan

irəli gəlir. Bəstəkarın Azərbaycan klassik şeirləri əsasında mahnı janrına müraciəti məhz fikrimizin sübutudur. Qeyd etməliyik ki, “mahnı ən kütləvi, ən geniş yayılan musiqi janrıdır”. Əsas mühüm cəhət odur ki, mahnı janrı hər bir bəstəkarın fərdi yaradıcılıq üslubunu müəyyənləşdirən əsas amildir. A.Bakıxanovvun qələmə aldığı lirik şeirləri bəstəkar tərəfindən elə bir musiqi duyumu ilə yoğrulub ki, hər hansı yeni mahnısını eşitdiyimiz zaman dərhal hiss edirik ki, bu, T.Bakıxanovun dəst-xəttidir.

Bəstəkarın bütün mahnılarında ritm, intonasiya, klassik ənənəyə bağlılıq, zövq və məsuliyyətlə seçilən şeirlərdə, fikir və ideya, məntiqi ardıcıllıqla müşayiət edilir. Bu da onun klassik və müasir musiqi sənətinin bütün incəliklərinə bələdliyindən irəli gəlir. T.Bakıxanov “Azərbaycan tarixinin atası” sayılan A.Bakıxanovun şeiriyyətinə yüksək qiymət vermişdir. Bu barədə bəstəkar yazır: “Mən hələ məktəbdə oxuyarkən A.Bakıxanovun şeirləri ilə maraqlanır, atam Ə.Bakıxanovun müşayiəti ilə, evimizdə keçirilən musiqi gecələrində, onun qəzəllərini, görkəmli xanəndələrin ifasında dəfələrlə eşitmişəm. A.Bakıxanovun “Fatma tar çalır” şeiri əsasında yazdığım “Səninlə bağlıdır bəxtiyarlığım” mahnısı bu xoş və unudulmaz xatirələrimin yadigarıdır”. T.Bakıxanov onun şeirləri əsasında bir sıra sonata və romanslar yazmışdır. Məsələn:

*Çəməndə sərv də qalıbdır heyran,*
*Nazlana bilmir o, utandığından.*

*Nazənin qamətlər gələndə rəqsə,*
*Könül göz olarmı rahət bir zanan.*

*Qüdsi, bu güllərə əl vurmaq olmaz,*
*Baxmaqçın yaratmış onları dövran .*

A.Bakıxanovun şeiriyyəti ilə tam həmahəng səslənən romans və sonatalarda, lad, harmoniya, mövzuya uyğun ritm maestro T.Bakıxanov tərəfindən sənətkaranə qələmə alınmışdır. Məlumdur ki, A.Bakıxanov şeir və qəzəllərində musiqi əsərlərinin, klassik muğamların, muğam şöbələrinin adları çəkilmişdir. Məhz bu səbəbdən də bəstəkar T.Bakıxanov ulu babasının xatirəsini əbədiləşdirmək məqsədiylə "Rahab" simfonik muğamını ona həsr etmişdir.

Azərbaycan xalq musiqisindən ustalıqla bəhrələnən T.Bakıxanovun mahnıları ilk ifadan sevilir və yayılır. Bu mahnılar dinləyicini düşündürür, insanların qəlbində həyata inam, saf duyğular oyadır, dinləyicini mənəvi təmizliyə səsləyir. Bu illər ərzində Tofiq Bakıxanov – Məhəmməd Füzulinin, Aşıq Şəmşirin, Səməd Vurğunun, Süleyman Rüstəmin, Nəbi Xəzrinin, Baba Pünhanın, İttifaq Mirzəbəylinin, Səyavuş Məmmədzadənin, Mikayıl Müşfiq və Dilbər Axundzadənin, Tofiq Mütəllibovun və bu kimi görkəmli şairlərimizin nəzm əsərlərini diqqətlə araşdırmış, fikrində tutduğu musiqiyə uyarlı şeir nümunələri seçmiş və ürəyə yatımlı mahnılar bəstələmişdir. Həmin mahnıları respublikamızın sayılıb-seçilən müğənniləri böyük zövq və ürəklə ifa etmişlər. Öz təravətini itirməyən bu mahnılar respublika səviyyəli tədbirlərdə, konsert salonlarında radio televiziyanın ədəbi-musiqili verilişlərində tez-tez səslənir və Tofiq Bakıxanov musiqisinin vurğunları tərəfindən böyük anşlaq və hərarətlə qarşılanır.

**Gülzar İbrahim qızı,**
A.Bakıxanov mükafatı laureatı,
filologiya üzrə fəlsəfə doktoru

## Musiqinin xan sülaləsi

Bakıxanovlar sülaləsinin Azərbaycan Respublikasının ictimai həyatının və mədəniyyətinin inkişafında rolu misilsizdir. Onların hər birinin göstərdiyi xidmətdən böyük əhəmiyyət kəsb edərək, torpağa bağlılıqla, vətəni dərindən sevməklə səciyyələnir. Klassik Azərbaycan poeziyasının incilərinə dərindən bələd olan maarifçi-şair, nüaim sərf-nəhm, tarix, ilahiyyat, etika və fəlsəfə elmlərinə dair möhtəşəm əsərlərin müəllifi, ensiklopedik biliyə malik olan alim və general, hərbçi xadim Abbasqulu ağa Bakıxanov xalqımızın mütəfəkkir simalarından biridir. Aparılan tədqiqat işlərinə əsasən məlum olmuşdur ki, Azərbaycan muğam və xalq musiqisinin mükəmməl bilicisi olmuş Abbasqulu ağa Bakı xanı II Mirzə Məhəmmədin oğludur. Ömrünün çox hissəsini rus ordusunda rəsmi qulluqda xidmət etmişdir.

Ümumiyyətlə, qeyd etmək istəyirəm ki, Bakıxanovlar sülaləsini hərbçilər və musiqiçilər təmsil edir. XIX əsrdə bu sülaləni 17 nəfər hərbçi təmsil edib. Abbasqulu ağa Bakıxanovla yanaşı, Cəfərqulu ağa Bakıxanov, Həsən ağa Bakıxanov və Abdulla ağa Bakıxanov da general rütbəsinə layiq görülüblər. Cəfərqulu ağa hətta general-leytenant rütbəsinə qədər yüksələrək qiymətləndirilib. Aparılan araşdırmalar nəticəsində bəlli olub ki, ilk azərbaycanlı general-leytenant rütbəsi məhz Cəfərqulu ağa Bakıxanovun adı ilə bağlıdır. Azərbaycan musiqi mədəniyyətinin inkişaf edərək zəngin-

ləşməsində Əhməd xan, Məmməd xan, Tələt, Məmmədrza, Akif və Tofiq Bakıxanovların xidmətləri müstəsnadır. Əhmədxan və Məmmədxan Bakıxanov qardaşları Azərbaycan klassik musiqisinin banisi Üzeyir bəy Hacıbəyli ilə həm qonşu, həm də dost idilər. Onlar milli xalq musiqimizin inkişafı və təbliğində çox önəmli rol oynayaraq Üzeyir bəylə çiyin-çiyinə çalışırdılar. Bakıxanov qardaşları Azərbaycan klassik musiqi irsimizdən olan, bir vaxt populyar olub yaddan çıxan melodiyaları araşdıraraq ifa edir və yeni nəslə çatdırırdılar. Onların ifa tərzləri individual xarakteri ilə, alətə dərindən yiyələnmələri ilə, xalq mahnıları və muğamların inprovizasiyasının özünə xas cizgiləri ilə səciyyələnir. Eyni zamanda onlar ilk xalq çalğı alətləri ansambllarının yaradıcılarından hesab olunmuşlar. Məsələn, Azərbaycanda bəzi muğamlar ifa olunmurdu. Əhməd xan Bakıxanov onların sayını artırmışdır.

Mərhum Tələt Bakıxanov ömrünün 50 illindən çoxunu milli musiqi irsimizin təbliğinə və pedaqoji fəaliyyətinə həsr etmişdir. Mahir kamança ustadı Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi keçmiş Sovet İttifaqının bütün respublikalarında, eyni zamanda İranda, Tunisdə, Mərakeşdə, Türkiyədə, Maltada, İndoneziyada, Bolqarıstanda, Almaniyada, Küveytdə, Suriyada, İraqda,Yəməndə, Hindistanda qastrol səfərlərində olmuş, korifey sənətkarlarımız Rəşid Behbudovu, Zeynəb Xanlarovanı, Sara Qədimovanı, Şövkət Ələkbərovanı, Canəli Əkbərovu və bir çox peşəkar musiqiçiləri müşayiət etmişdir. Tələt Bakıxanovun ifa tərzi radio və televiziyanın fonotekasında lentə və videoya yazılıb. “O olmasın, bu olsun” televiziya filminin toy məclisi epizodunda xanəndə Xan Şu-

şinski, tarzən Bəhram Mənsurov və kamança ustadı Tələt Bakıxanov çəkilmişdir.

Məmmədrza və Akif Bakıxanovlar da ömürlərinin 50 ildən çoxunu ifaçı və müəllim kimi fəaliyyət göstərmişlər. Məmmədrza Bakıxanov violonçel, Akif Bakıxanov isə viola ustadıdır. Akif Bakıxanov 1951-ci ildən bu günə kimi Azərbaycan klassik musiqi mədəniyyətinin inkişaf mərhələsində çox önəmli xidmətləri olan korifey sənətkar Niyazinin təşəbbüsü ilə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət simfonik orkestrində viola qruppasının konsertmeysteri vəzifəsində çalışır. Bakı musiqi kollecinin qocaman müəllimi Məmmədrza Bakıxanov isə hazırda Türkiyədə yaşayır. Məmmədrza Əhməd xan Bakıxanovun, Akif isə Məmməd xan Bakıxanovun övladıdır.

Bakıxanovlar sülaləsinin musiqi aləmində sonuncu nümayəndəsi Azərbaycan Respublikasının Xalq artisti, Əməkdar incəsənət xadimi, Şöhrət ordenli, iki dəfə Abbasqulu ağa Bakıxanov adına mükafatın laureatı, "Uğur", "Humay", "Min bir mahnı", "İlin bəstəkarı" mükafatı, İranda keçirilən Azərbaycan musiqi festivalının diplomu və "Bahar-Azadi qızıl siqqə" mükafatının laureatı, Azərbaycan Milli Yaradıcılıq Akademiyisanın incəsənət doktoru, Bakı Musiqi Akademiyasının professoru Tofiq Əhməd xan oğlu Bakıxanov milli klassik musiqi irsimizin zənginləşməsində xüsusi rolu olan sənətkarlarımızdandır.

T.Bakıxanov hələ uşaq olarkən onların evində daim musiqi məclisləri keçirilir və bu məclislərdə Azərbaycanın görkəmli incəsənət xadimləri iştirak edərdi. Məsələn, Qurban Pirimov, Cabbar Qaryağdıoğlu, Hüseynqulu Sarabski, Seyid

Şuşinski və s. görkəmli sənətkarlar bu evin daimi qonaqları olmuşdur. Elə o vaxtdan xalq mahnıları və muğamlarımız Tofiq Bakıxanovun qəlbinə yol tapır. Sələflərinin yolunu davam etdirən Tofiqin bir musiqiçi kimi formalaşmasında bu mühitin əvəzedilməz böyük rolu olmuşdur. Tofiq Bakıxanov yaradıcılığının ilk dövründə sənətsevərlər arasında ifaçı-skripkaçı kimi tanınmışdır. O, yaradıcılığının sonrakı dövrünü bəstəkar kimi fəaliyyət göstərmişdir. T.Bakıxanov 1953-cü ildə ADK-nın bəstəkarlıq şöbəsinə, Qara Qarayevin sinfinə daxil olur və 1957-ci ildə bu sinfi bitirir. Bəstəkar müdrik müəllimi haqda belə deyir: "Mənim xoşbəxtliyim onda oldu ki, müəllimim görkəmli sovet bəstəkarı Qara Qarayev idi. Mən ondan musiqinin incəliklərini öyrəndim, bəstəkarlığın necə çətin, lakin şərəfli bir sənət olduğunu dərindən duydum".

T.Bakıxanov opera janrından başqa bütün janrlara müraciət edib. 3 balet, N.Məmmədovla müştərək 3 musiqili komediyanın, 5 simfonik muğamın, 6 simfonik poemanın, 8 simfoniyanın, 26 müxtəlif alətlər üçün yazılmış konsertlərin, 24 iri həcmli kamera-instrumental əsərlərin, xor, 100-ə yaxın mahnı və romansın, müxtəlif alətlər üçün rəngarəng xarakterli kiçik pyeslərin və bir çox əsərlərin müəllifidir.

Tofiq Bakıxanovun skripka və fortepiano üçün pyesləri Azad Əliyevin ifasında Azərbaycan teleradiosunun qızıl fondunda lentə yazılıb. Not məcmuəsindəki pyeslər mərhum ustadın yazdığı redaktə ilə nəşr olunub və məcmuə Azad Əliyevin 80 illik yubileyi ilə əlaqədar olaraq nəşr edilib. Yaradıcılığının I dövrünü skripkaçı-ifaçı kimi fəaliyyət göstərən professor Tofiq Bakıxanovun pyesləri rəngarəng məzmunu və forma xüsusiyyətləri ilə diqqəti cəlb edir. Müəllif müxtəlif

xarakterli bu pyeslərdə alətin spesifik xüsusiyyətlərindən, texniki imkanlarından peşəkarcasına istifadə etmişdir. Eyni zamanda lad-intonasiya, ritm dəyişkənliyi, ştrix, passajlar, ikili notlar və səsin keyfiyyətinin yüksək səviyyədə olması üçün ifaçıdan xüsusi bacarıq və peşəkarlıq tələb olunur. Sevindirici haldır ki, pyeslər tədris proqramına salınaraq bu gün də konsert salonlarında uğurlasəsləndirilir.

Məlumdur ki, bəstəkar sonatalarını "Türk sonatası", "İran sonatası", "Ərəb sonatası" və "Azərbaycan sonatası" şəklində yazmış və bu səbəbdən silsiləni "Şərq sonataları" adlandırmışdır. Silsilə üzərində T.Bakıxanov 1987-ciilədək işləmişdir. Silsiləyə daxil olan sonatalar hər iki alətin spesifik xüsusiyyətləri baxımından, məzmun dərinliyi və xalq musiqi nümunələrinə və keyfiyyətinə görə T.Bakıxanov yaradıcılığında əhəmiyyətli əsərlər sırasına aid edilə bilər. "Tofiq Bakıxanovun kamera–instrumental əsərlərində ifaçılıq xüsusiyyətləri" adlı monoqrafiyasında belə bir fikir irəli sürülüb: "T.Bakıxanovun bəstəkarlıq istedadının əsas xüsusiyyətlərindən biri – milli musiqinin, Şərq musiqisinin incəliklərini böyük həssaslıqla duyması – bu dörd sonatada öz əksini tapmışdır. Lakin qeyd olunan xüsusiyyət bu əsərlərin yeganə müsbət cəhəti deyil. Bəstəkar müxtəlif xalqların musiqi folklorunu, xalq musiqisi nümunələrini çox maraqlı priyomlarla vermiş, bununla da həmin nümunələrə öz bəstəkarlıq prizmasından baxışını, öz fərdi münasibətini nümayiş etdirmişdir".

**Oqtay,**

"Xalq cəbhəsi" qəzeti

13 aprel 2012-ci il,

## Tofiq Bakıxanov:
## "Mircəfər Bağırov mənə dedi ki..."

Bu dəfə Azərbaycanın Xalq artisti, "Şöhrət" ordenli bəstəkar Tofiq Bakıxanovun "Xatirə dəftəri"ni vərəqləmək, bu yaxınlarda 85 yaşını qeyd edəcək görkəmli bəstəkarımızla əlaqə saxlamaq istədik. Köməyimizə yazıçı-publisist Nurəddin Ədiloğlu çatdı:

– Tofiq müəllim Bilgəh kardioloji sanatoriyasında müalicə alır. Müxbirimiz Nihad Cəbrayılla Bilgəhə yola düşdük. Növbətçi xanımdan bəstəkarın otağını soruşuruq. Göstərir. Tofiq müəllimin qapısını döyürəm. Səs gəlmədiyini görüncə, ehmalca qapını açıram. Eyvanda oturub. Bu dəfə açıq qapının içəri üzünü taqqıldadıram. Eşitmir. Yaxın gəlirik. Məşhur bəstəkar istirahət etdiyi məkanda da yaradıcılıqla məşğuldur. Qarşısında not kitabı, jurnallar və qələm-dəftər var. Salam veririk. Başını qaldırır. Salamımızı alır. Bizi gözləyirmiş:

– Nurəddin demişdi, gələcəksiz...

Yer göstərir. Əyləşirik. Səhhəti ilə maraqlanırıq:

– Necəsiniz, Tofiq müəllim?

– Sağ olun. Yaxşıyam. Uşaqlıqdan xəstəlik nədir, bilməmişəm. 3 il bundan qabaq həyat yoldaşımı itirdim. Lap əvvəl 34 yaşında cavan qızım rəhmətə getdi. Bax, bunlar mənim səhhətimə təsir elədi. Həm də bu illər ərzində çox yoruldum, indi burada müalicə alıram...

İllərin bacarmadığını iki əzizinin dünyasını itirməsi etmişdi. Qocaman sənətkarın səsində titrəyiş var. Hafizəsinə isə söz ola bilməz... Kövrək notlarla başlanan söhbətimizi elə onun "Xatirə dəftəri"nin – yaddaşının kövrək notlarını vərəqləməyə başlayırıq:

– Tofiq müəllim, həyat yoldaşınızla neçə il bir yerdə yaşadınız? Heç inciklik oldumu, qısqandımı sizi? Axı siz gənclik illərindən şöhrət qazanmışdınız, diqqət mərkəzində idiniz...

– Yoldaşımla 50 il birgə ömür sürdük. Mehriban olmuşuq. Bir-birimizi başa düşmüşük. Amma mən öncə istəyirəm ki, sizə bir az tərcümeyi-halımdan danışam.

– Sizin tərcümeyi-halınız nəinki Azərbaycan oxucusuna, kənar ölkə musiqisevərlərinə belə məlumdur...

– Olsun. Amma yenə də deyim. Bildiyiniz kimi, mən musiqiçi ailəsində dünyaya göz açmışam, Əhməd Bakıxanovun oğluyam. Gözümü açıb evimizdə musiqi görmüşəm. Bilirsiniz ki, biz Abbasqulu ağa Bakıxanovun nəslinin davamçılarıyıq. Bakıxanov Azərbaycanın ilk maarifçisi olub, onun yaradıcılığı çoxşaxəli olub. Coğrafiya, astronomiya, riyaziyyat və musiqi... Onun bir şeiri var, "Fatma tar çalır". Ermənilər deyir, tar bizimdir, amma 200 il bundan qabaq bu adam şeirində tardan bəhs edib...

Tofiq müəllimin "Xatirə dəftəri" rahatlıqla vərəqlənir. Musiqiyə gəlişindən, atasının, əmisinin Azərbaycan musiqisindəki yerindən bəhs edir. Korifeylərimizin adını çəkir, onları uşaq vaxtından tanıdığını deyir.

– Tofiq müəllim, Üzeyir bəyi necə xatırlayırsız?

– Üzeyir bəyi yaxşı xatırlayıram. O, bizim qonşuluqda yaşayırdı. Atamla dost olub. Bu dostluğun maraqlı tarixçəsi var. 1927-28-ci illərin söhbətidir. Üzeyir bəy bir seirdə "Nəva

Nüşabur" sözünə rast gəlir. Bunun mənasını heç kəs bilmir. "Nəva"nın avaz demək olduğunu bilir, amma "Nəva Nüşabur"un nə olduğunu kimdən soruşursa da, heç kəs bilmir. Hamı deyir ki, bunu bilsə-bilsə Əhməd Bakıxanov biləcək, çünki o, vaxtı ilə İranda yaşayıb. Tehranda, Rəştdə Əbülhəsən Xan İqbal Azər Soltan adında görkəmli xanəndə olub. Gözəl muğam bilicisi imiş. Atam da, əmim Məmmədxan da bütün muğamları ondan öyrəniblər. Bu muğam 14-cü əsrin ən məşhur muğamı olub. Deməli, Üzeyir bəy atama zəng vurub, evinə dəvət edib. Atamdan soruşub ki, "Bu muğamı bilirsən?" Atam da deyib ki, "Hə" və tarda onun üçün ifa edib. Üzeyir bəy muğamı dinlədikdən sonra atamı Konservatoriyaya dəvət edib ki, gəl burada işlə. Atam ölənəcən orda işlədi.

– Üzeyir bəylə bağlı hansı özəl xatirələriniz var?

– Xatirələrim çoxdur. Elə mən, qardaşım və bacımın musiqiçi olmamız onun istəyi ilə olub. Üzeyir bəyin təşəbbüsüylə atam bizi musiqi məktəbinə qoydu. Bacımı fortepiano, qardaşımı simli alətlər, məni isə skripka sinfinə. Daha sonra isə Üzeyir bəyin təşəbbüsüylə indiki Bülbül adına məktəbdə oxuduq. Bura ancaq istedadlı uşaqları götürürdülər. Daha sonra mən Azərbaycan radiosunda uşaq ansamblı yaratdım. Müharibə vaxtı gedib hospitallarda konsert verirdik. Üzeyir bəyin 60 illiyində filarmoniyada ilk dəfə orkestrdə mən skripkayla onun "Arşın mal alan" musiqili komediyasinda fantaziya çaldım, bax bu yadımdadır.

– O dövr Mircəfər Bağırovun hakimiyyətdə olduğu zamanlar idi, heç onunla görüşmüşdünüzmü?

– Olub. 1947-ci il sentyabrın 27-də, Opera Teatrında Nizami Gəncəvinin 800 illiyi keçirildi. Mircəfər Bağırov da orada idi. Qabaqda oturmuşdu. Ətrafında da partiya və hökumət nümayəndələri, Moskvadan gələn qonaqlar. Mən Üzeyir bəyin

təşəbbüsü ilə həmin tədbirdə konsert verdim. Xalq artistləri hamısı orada idi. Niyazi bəy, Xan Şuşinski, Həqiqət Rzayeva və başqaları. Bu, çox əlamətdar hadisə oldu. Bir əlamətdar hadisə isə Bəstəkarlar İttifaqının 49-cu ildə keçirilən dekadası zamanı oldu. Filarmoniyada konkurs keçirildi. 3 turdan keçənlər dekadada çıxış edəcəkdilər. Konkursun sədri Bülbül idi. Komissiya üzvü kimi isə Qara Qarayev, Fikrət Əmirov, Səid Rüstəmov idi. 3-cü turdan keçəndən sonra məni buraxdılar dekadaya. Cahangir Cahangirovun üç hissəli böyük bir əsərini çaldım. 1947-ci ildə Üzeyir bəy Konservatoriyanın rektoru idi. Məni konservatoriyaya imtahansız qəbul elədilər. Həmin ilin noyabr ayında Üzeyir bəy rəhmətə getdi. Onun adına təqaüd təsis olundu. Əlaçı tələbə kimi "Üzeyir Hacıbəyov" təqaüdü verildi. Mən oranı bu təqaüdlə bitirdim.

– Bəs siz özünüz Mircəfər Bağırovla ünsiyyətdə olmusuz? Onu yaxından görmüşdünüz?

– Bəli, görmüşdüm. Mən 1947-48 illərdə onun oğlu Cahangirlə musiqi məktəbində bir yerdə oxumuşam. Bir dəfə bizə Fikrət Əmirovun ikili konsertini – fortepiano və skripka üçün əsərini verdilər ki, ifa edək. Onun Vladimir adlı bir oğlu da vardı. Müharibədə ölmüşdü. Cahangir isə bizimlə 10 illik musiqi məktəbində oxuyurdu. Anası da yəhudi qızı idi. O, fortepianoda çalırdı, mən skripkada. İki dəfə də getmişəm evlərinə. Filarmoniyayla üzbəüz, indiki İncəsənət muzeyində olurdular. Bağırov mənə deyirdi ki, mən bakıxanovlar haqqında saatlarla danışaram. Çünki hər ikisinin nəsli Qubada yaşamışdı. Hətta onun stolunun üstündə Bakıxanovun "Nəsihətnamə"si vardı. O, atamı da tanıyırdı və ona deyirmiş ki, mən A.Bakıxanovları beş barmağım kimi tanıyıram. Bir də biz siyasətlə yox, musiqi ilə məşğul idik.

–Tofiq müəllim, siz elə bir dövrdə yaşamısız ki, o zamanlar Azərbaycan ziyalısına qarşı həm də görünməmiş basqılar olub. Həbs, sürgün, anonim yazılar və sair. Sizin nəslinizdə kifayət qədər millətsevər şəxs olub. Nə əcəb bu bəla yağışından sizlərin üstünə çilənməyib?

– Niyə ki, bizim ailə də o repressiyanı yaşayıb. 1938-ci ildə NKVD atamla əmimi də həbs etdi. Adını da qoydular ki, guya atamla əmim İran muğamlarını təbliğ edirlər. "Hümayun", "Bayatı-Şiraz", "Bayatı-kürd" muğamlarını tədris etdiklərinə görə. Biz də Üzeyir bəylə qonşuyduq axı, anam getdi Üzeyir bəyin evinə. Dedi ki, ay, Üzeyir əmi, axı bunlar musiqiçidirlər, onları niyə tutublar?. Evimizdə axtarış da aparmışdılar, heç nə tapmamışdılar. Bunu da Üzeyir bəyə dedik. O da Bağırovla Moskvaya bir tədbirə eyni qatarda, eyni vaqonda gedəndə, söz açıb. Ona deyib ki, axı bunlar musiqiçidir, bunların heç bir günahı yoxdur, bunları niyə həbs ediblər? Onlar bizim musiqi tariximizdə öz yerləri olan insanlardır. Bağırov Moskvadan qayıdanda atamla əmimi buraxdırıb. Üzeyir bəylə Bağırov çox yaxın idilər. Üzeyir bəyin sözünü eşidirdi.

– Bəs bundan başqa hansı şirin xatirələriniz var?

– Deməli, əmim Məmmədxan Şərqdə ilk dəfə "Türk qızları ansamblı"nı yaratmışdı. Konservatoryanın inspektoru işləyirmiş. Cəfər Cabbarlı və başqa tanınmışların da diqqəti vardı bu ansamblda. "Türk qızları xalq çalğı alətləri ansamblı"nın Moskvada, Tiflisdə çox uğurlu konsertləri olub, mükafatlar alıblar.

–Amma siz ifaçılığınızdan danışdız. Bəs bəstəkalıq fəaliyyətiniz?

– Üzeyir bəydən sonra konservatoriyanın rektoru Qara Qarayev idi. Gəldim onun yanına. Dedim ki, Qara müəllim, bir

neçə əsər yazmışam, sizə göstərmək istəyirəm. O, həmin əsərləri aldı baxdı və çox bəyəndi. Mənə dedi ki, sənədlərini hazırla, sən bəstəkarlığı oxumalısan və məni 1951-ci ildə öz sinfinə götürdü.

–Tofiq müəllim, bu qədər şöhrətiniz vardı, nə əcəb qısqanan olmadı?

Tofiq müəllim bir qədər fikrə gedir. Hiss olunur ki, yaşının bu vədəsində qanqaraldıcı məqamları yadına salmaq istəmir. Amma onun "Xatirə dəftəri"nin asan oxunduğunu yuxarıda qeyd etmişik. Xatirələrinin bu səhifəsini də yada salır:

– Paxıllığımı çəkənlər olub. Bizim sənətdə paxıllıq həmişə olub. 1951-ci ildə Berlində gənclərin festivalı keçırılırdi. Məni gənc bir ifaçı kimi ora getmək üçün təqdim elədilər. Bunun üçün də 3 turdan ibarət konkurs vardı. Birinci, ikinci turdan keçdim. Amma adını çəkmək istəmirəm, 3-cü turda bir adam atamla xoş münasibətdə olmadığına görə məni buraxdırmadı. O da jürinin üzvü idi, bəstəkardı. Mənim Berlinə bir gənc ifaçı kimi getməyimə mane oldu. Həmin adam məsul vəzifədə çalışırdı.

Bir dəfə də Nizami Xudiyev televiziyada sədr olanda əmr vermişdi ki, mənim 70 illiyimlə bağlı Şəhriyar adına klubda keçirilən tədbir bütünlüklə çəkilsin. Onda da bir bəstəkar qısqanclıq etdi, buna əngəl oldu və televiziya çəkiliş edə bilmədi. Heydər Əliyevin mənə verdiyi "Şöhrət" ordeninin fərmanını və təbrik məktubunu Fatma Abdullazadə təqdim etdi. Televiziyada ancaq xəbər kimi çəkiliş getmişdi.

– Bəs Heydər Əliyevlə şəxsi görüşləriniz olubmu?

– Heydər Əliyevlə çox görüşümüz olub. O, bizimlə həmişə yaxşı davranıb. Bizi özüylə getdiyi bütün rayonlara aparırdı. Bir dəfə İsmayıllıdan qayıdanda dedi ki, indi

Bakıxanovlar haqqında sizlərə danışım və bir neçə saat Bakıxanovlar haqqında danışdı. Əsərlərindən, onların ictimai, siyasi fəaliyyətindən bəhs etdi. Mənə "Şöhrət" ordenini də, bütün fəxri adları da Heydər Əliyev verib. Ordeni təqdim edərkən mən ona dedim ki, "Siz bu ordeni mənə yox, bütün Azərbaycan xalqına vermisiz". O da başını təsdiqlə tərpədərək sözlərimi təbəssümlə, razılıqla qarşıladı... Heydər Əliyevdən çox razıyam. O, musiqimizi, dilimizi, ədəbiyyatımızı sevirdi, bizlərə dəyər verirdi...

Tofiq Bakıxanovun xatirələrini dinləməkdən yorulmadıq. Amma qocaman sənətkara müalicə üçün ayrılan vaxtın çatdığını bildirən şəfqət bacısının səsinə diktofonu söndürüb, sənətkarla sağollaşırıq.

**Nihad Cəbrayıl, Fuad Balabəyli,**
"Axar.az". operativ xəbərlər portalı
18.08.14

## Tofiq Bakıxanov: "Naxçıvan auditoriyası mənim üçün doğma ünvanlardan birinə çevrilib".

*Görkəmli bəstəkar, Xalq artisti, professor Tofiq Bakıxanovun Naxçıvan Muxtar Respublikasına hər səfəri həm ustad sənətkarın özü, həm də qonağı olduğu auditoriya üçün maraqlı olur. Bu günlərdə yenə də Naxçıvan səfərindən qayıdan bəstəkar təəssüratlarını bizimlə bölüşdü:*

-- Bəli,  Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü, professor Saleh Məhərrəmov bizi – Bakı Musiqi Akademiyasının professoru, Əməkdar müəllim, məşhur skripka ifaçısı Hökumə xanım Əliyeva ilə məni muxtar respublikaya dəvət etmişdi. Məqsəd ustad dərslərinin təşkil edilməsi idi. Tələbələrdən ibarət  kamera orkestri, xalq çalğı alətləri orkestri, bəstəkarlıq sinfi və simli alətlər şöbəsinin  tələbə və müəllimləri ilə tanışlıqdan sonra onlarla xeyli söhbət  etdik və gənclərə bəzi  tövsiyələrimizi  verdik.

Ən böyük təəssüratım  bəstəkarlıq sinfinin birinci kurs tələbəsi Hakim Məmmədovun müəllif konsertini dinləyəndə yarandı. Müəllim Yaşar Xəlilovun sinfində oxuyan bu gənc olduqca istedadlıdır. Tələbə - bəstəkarın müəllif konsertində xalq çalğı alətləri ansamblının  müşayiəti ilə mahnılar, instrumental əsərlər ifa edildi. Fortepiano üçün, fleyta ilə fortepiano üçün, tar ilə fortepiano üçün qələmə alınmış əsərləri xüsusilə diqqəti çəkirdi. Konsertin sonunda isə tələbə kamera orkestrinin müşayiəti ilə səs üçün yazılmış əsərlər ifa edildi. Çox məmnun oldum və həmin konsert mənim üçün əlamətdar hadisəyə çevrildi. Daha sonra həmin istedadlı tələbə ilə ayrılıqda görüşərək, onun simfonik orkestr üçün oranjimanı ilə tanış oldum. Bu məsələdə də ona bəzi məsləhətlərimi verdim. Tam məsuliyyətlə deyə bilərəm ki, Hakimin çox parlaq gələcəyi vardır.

Geniş təəssürat yaradan ikinci bir hadisəni də qeyd edim. Xalq çalğı alətləri şöbəsindən tar sinfi üzrə ikinci kurs tələbəsi Abdulla Rəhimlinin  ( müəllimi Vahid Məmmədov, konsertmeysteri isə Nərminə Qədimovadır ) solo konsertində iştirak etdim. Çox maraqlı repertuarı var idi. Tələbə tarzən Fikrət Əmirov,  Cahangir Cahangirov və Səid Rüstəmovla yanaşı,  mənim

də bir əsərimi ifa etdi və hər bir ifanın öhdəsindən bacarıqla gəldi. Texniki cəhətdən özünü hətta virtuoz ifaçı kimi göstərə bildi. Lirik əsərləri də gözəl ifa etməsi daha təqdirəlayiq idi. Yəni ixtisas müəllimi bu tələbənin istedadından məharətlə istifadə edə bilir.

– Görünür, universitetdəki ümumi ab-hava həm tələbələrin, həm də müəllimlərin yaradıcılığına öz təsirini göstərir.

– Tamamilə doğrudur. Universitetin rəhbərliyi, xüsusən incəsənət fakültəsinin dekanlığı, dekan – sənətşünaslıq namizədi Günay Məmmədova, kafedra müdirləri, müəllimlər, sözün həqiqi mənasında, milli mədəniyyətimizə, musiqi incəsənətimizə özünəməxsus töhfələr verə biləcək gənclərə xüsusi qayğı ilə yanaşırlar. Səfər yoldaşım, professor Hökumə Əliyeva da skripka ixtisası üzrə dərslərdə iştirak edəndən sonra təxminən mənim mülahizələrimi söyləyirdi. Eyni zamanda, onun da tələbələrə bir sıra tövsiyələri olurdu.

Onu da qeyd edim ki, bu ilin sentyabrında Naxçıvan Dövlət Universitetinin 50 illiyi qeyd olunacaq. Muxtar Respublika Ali Məclisinin sədri Vasif Talıbovun bu barədə xüsusi sərəncamı da var. İndi universitet rəhbərliyi və kollektiv həmin yubileyə hazırlıq işlərini daha da sürətləndirib.

– Maraqlıdır, Naxçıvanda yaradıcı ziyalıların, xüsusən görkəmli mədəniyyət xadimlərinin yubileylərinin keçirilməsi barədə xəbərləri tez-tez eşidirik. Elə sizin özünüzün 70, 75, 80 illik yubileyləriniz də orada yüksək səviyyədə qeyd edilmişdir.

– Bəli, muxtar respublikanın rəhbərliyi təkcə sosial-iqtisadi sahəni deyil, elm, təhsil və mədəniyyəti də daim diqqət mərkəzində saxlayır. Sizin dediyiniz yubileylərdən başqa görkəmli bəstəkarlarımız Qəmbər Hüseynlinin və Tofiq Quliyevin 100 illik yubileyi də Naxçıvanda yüksək səviyyədə

qeyd edilib. Tofiq Quliyevin bu il aprelin 21-də keçirilən 100 illik yubileyində mən də iştirak edirdim. Naxçıvan Dövlət Filarmoniyasının direktoru, Əməkdar artist Elman Əliyevin Tofiq Quliyev barədə söylədiyi giriş sözünü heç zaman unutmayacağam. Həmin çıxışda mənim bəstəkar həmkarım və adaşım haqqında çox dəyərli fikirlər səsləndirildi. Sonra Xalq artisti Çingiz Axundovun rəhbərlik və baş dirijorluq etdiyi Naxçıvan Dövlət Filarmoniyasının kamera orkestrinin ifasında Tofiq Quliyevin əsərlərinin yüksək səviyyəli ifasının şahidi olduq. Gələn ayın birinci ongünlüyündə isə Naxçıvanın ilk professional bəstəkarı Məmməd Nəsirbəyovun 120 illik yubileyi qeyd ediləcək.

– Yeri gəlmişkən, siz o bəstəkar haqqında yazılmış monoqrafiyanın müəlliflərindənsiniz.

– Respublikanın Əməkdar incəsənət xadimi Nazim Quliyevlə mənim yazdığım həmin kitabın "Ön sözü"nü Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə yazıb. Kitabın redaktoru isə Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarovadır. Firəngiz xanımın qələmə aldığı "Ön söz"də deyilir: "Bu monoqrafiyada Məmməd Nəsirbəyovun həyat və yaradıcılığı, onun Moskva və Bakı konservatoriyalarında keçən təhsil illəri… dahi Üzeyir Hacıbəylidən dərs alması barədə geniş məlumat vardır. Həmin məlumatlar Məmməd Nəsirbəyovun yaradıcılığı barədə yüksək təsəvvür yaradır".

– Elektron mətbuatdan öyrəndik ki, Naxçıvan Televiziyasında da sizin muxtar respublikaya səfəriniz geniş işıqlandırılmışdır.

– Təkcə televiziyada deyil, radio və qəzetlərdə də bu barədə məlumatlar verilirdi. "Şərq qapısı" qəzetinin aprelin 21-

də çıxan nömrəsində isə “Tofiq Bakıxanov Naxçıvan Dövlət Universitetində” adlı yazı dərc olunmuşdu. Hamıya, həm Ali Məclis rəhbərliyinə, həm universitetin və filarmoniyanın rəhbərliyinə həm də kütləvi informasiya vasitələrinə səmimi təşəkkürlərimi bildirirəm.

– Naxçıvan səfəriniz başa çatan kimi, daha doğrusu, aprelin 28-də AMEA-nın illik hesabat tədbirində sizin akademik Üzeyir Hacıbəyli adına mükafata layiq görüldüyünüz barədə məlumat verildi.

– Bu faktın xatırladılması yerinə düşdü. Çünki mən həmin yüksək qiymətləndirməyə görə AMEA rəhbərliyinə, həmin mükafatların təşkilat komitəsinin üzvü olan akademiklərə öz minnətdarlığımı, təşəkkürlərimi bildirmək istəyirəm. Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmova isə ayrılıqda minnətdarlıq etmək istəyirəm. Belə ki, hörmətli Abel müəllim mənə məktub yazaraq Üzeyir Hacıbəyli adına mükafata layiq görülməyim münasibətilə təbrik etmişdi. Məktubun ilk cümləsində deyilirdi: “Sizi – görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin musiqi irsinin tədqiqi və təbliği sahəsində xidmətlərinə görə” AMEA-nın akademik Üzeyir Hacıbəyli adına mükafatı ilə təltif olunmağınız münasibətilə öz adımdan və Bakı Dövlət Universitetinin çoxminli professor-müəllim, tələbə heyəti adından təbrik edirəm!”

**İttifaq Mirzəbəyli,**
“Xalq qəzeti”

## Tofiq Bakıxanov televiziya proqramlarında

### "Ustadım". Tofiq Bakıxanova həsr olunur.

Aparıcı Fidan Hacıyeva:

– Hər dəfə musiqimizin keşiyində dayanan, bütün həyatını bu sənətə və müəllimliyə həsr edən belə istedadlı insanlarla görüşəndə, qürur hissi keçiririk. Onlarla söhbət etmək, dərslərində iştirak edib bilmədiyimiz çox mətləblərdən agah olmaq bizə müyəssər olanda, özümüzü xoşbəxt hiss edirik. Bu dəfə "Ustadım" 80 yaşlı bəstəkarımızı, "Şöhrət" ordenli musiqiçimiz, uzun illərin pedaqoqu, böyük bəstəkar Qara Qarayevin yetirməsi, ən əsası Azərbaycanda məşhur olan Bakıxanovlar nəslinin nümayəndəsi hörmətli Tofiq Bakıxanovla görüşəndə, elə bizim söhbətimizin mövzusu yalnız dahi musiqiçilər barəsində oldu. Tofiq müəllim bizi sinifində təhsil alan tələbələrlə tanış edib, sözə başladı:

– Bakı Musiqi Akademiyası mənim üçün müqəddəs bir yerdir, ona görə ki, mən gözümü açıb burada böyümüşəm. İstər uşaqlıq, istər gənclik, istərsə də ahıllıq dövrüm bu Akademiya ilə əlaqədardır. Mənim xoşbəxtliyim ondan ibarət olub ki, Azərbaycan Dövlət Konservatoriyası nəzdində istedadlı şagirdlər üçün təşkil edilmiş onillik məktəbə mən böyük bəstəkarımız Ü.Hacıbəyovun təşəbbüsü ilə daxil olmuşdum. O dövrdə Üzeyir bəy məktəbin şagirdlərinə xüsusi diqqət yetirər, bizim konsert tədbirlərimizdə iştirak etmək üçün, zala daxil olub, ilk sıralardan birində oturar, sonra isə öz tövsiyələrini verərdi. 1948-ci ildə onillik məktəbi bitirib, xoşbəxtlikdən, rektoru

Ü.Hacıbəyov olan Konservatoriyanın ifaçılıq fakültəsinə daxil oldum.

– Ötən günləri xatırlamaqdan bütün günü zövq alan bu insan, 50-60 il bundan qabağın xatirələrindən elə şövq ilə söhbət açır ki, deyirsən bu hadisə dünən baş verıb. İti hafizəyə malik olan sevimli bəstəkarımız dahi Üzeyirbəyi də yaxşı xatırlayır. Atası məşhur tarzən Əhməd Bakıxanov Üzeyir bəylə yaxın dost olduğundan, dahı bəstəkarı həm konservatoriyada, həm də evlərində tez-tez görürdü. Hətta, söyləyir ki, atasının dostları arasında bəstəkar Qara Qarayevin atası professor, həkim Əbülfəz Qarayev də vardı. Uşaq ikən o ağır xəstələndiyi vaxt, balaca Tofiqin sağalmasında çox əziyyət çəkib. Gözünü açıb atasının dostlarının, kamil insanların arasında olması, həm klassik, həm də xalq musiqiçilərinin, bilicilərinin söhbət və tövsiyələrini eşitməsi, nəhayət, dünya şöhrətli bəstəkar Qara Qarayevin sinifindəki dərsləri Tofiq Bakıxanova seçdiyi sənətin bütün incəliklərini öyrənməkdə kömək oldu. Bu ad təkcə sənətdə deyil, elə həyatda da ona yaşıl işıq yandırıbdır. Nəslın adı, soyun kimliyi həmişə sənə dayaq olur və danılmaz məsuliyyət verir. Ulu babası Azərbaycanın tanınmış alimlərindən, dövlət xadimlərindən olan Abbasqulu ağa Bakıxanovun, təkcə soyadını daşımaq, elə özü böyük məsuliyyət deyilmi?!

– Konservatoriyada çox güclü professorlar var idi, onlar Moskvadan, Leninqraddan Ü.Hacıbəyovun dəvətiylə burada dərs keçmək üçün təşrif gətirən adlı-sanlı sənətçilər idi. Mənim ifaçılıq bacarığıma da diqqət yetirilirdi, belə ki, Ü.Hacıbəyovun Filarmoniyada qeyd olunan 60 illik yubiley gecəsində, dahi bəstəkarın yaratdığı “Arşın mal alan” musiqili komediyası mövzusunda “Skripka ilə orkestr üçün fantaziya”sını ilk dəfə mən ifa etdim. Qeyd edim kı,təntənəli gecədə dirijorluq etmək üçün Moskvadan xüsusi olaraq dəvət olunan maestro Qinzburqun idarə etdiyi Azərbaycan Dövlət simfonik orkestri

məni müşayiət edirdı. Əlbəttə ki, konsert böyük uğurla keçdi, mənim üçün ən yadda qalan, tariximə düşən maraqlı hadisə, Üzeyir bəyin yubileyində onun qarşısında çıxış etməyim oldu. Bu dövrdə Konservatoriyada Rauf Hacıyev, Hacı Xanməmmədov, Arif Məlikov, Vasif Adıgözəlov oxuyublar. Elə bil kı, tələbəlik illəri dünən idi, Konservatoriyanı 1953-cü ildə ifaçılıq, 1957-ci ildə isə təkrarən bəstəkarlıq ixtisası üzrə bitirmişəm, nə qədər vaxt keçmiş olsa da, o illər mənim üçün əzizdir, həmişə mənə yaxın gəlir. 60 ildən çoxdur ki, həm ifaçılıq, həm də müəllimlik fəaliyyətimi davam etdirirəm. Mənim bəstəkar kimi yetişməyimdə böyük əməyi olan müəllimim Qara Qarayev olmuşdur. Onun sinifini qurtarmışam, indi də biz onun verdiyi tükənməz bilikdən bəhrələnirik, bəxş etdiyi dərin musiqi elmini təkmilləşdiririk. 60 ildə mənim çox tələbələrim yetişibdir, sayı-hesabı yoxdur. Onların arasında bu gün də fəaliyyətini müvəffəqiyyətlə davam etdirən professorlar, xalq və əməkdar artistlər, sadə müəllimlik peşəsiylə məşğul olanlar, bir sözlə vətənimizdə, xarici ölkələrdə; Türkiyə, İran, ərəb cümhuriyyətləri, Avropa dövlətlərində çalışanlar vardır.

Son 60 illik həyatımla bağlı xatirələrim çoxdur. O, vaxtlar televiziya mövcud olmadığından, biz, musiqi həvəskarları Radio komitəsinə gəlib canlı konsertlərdə bacarığımızı göstərirdik. İş elə gətirib ki, Azərbacan bəstəkarlarının bir çox əsərlərinin ilk ifaçısı mən olmuşam. Bu siyahıya Qara Qarayev, Fikrət Əmirov, Əşrəf Abbasov, Cahangir Cahangirov, Rauf Hacıyev, Nəriman Məmmədov, Ramiz Mustafayev, İbrahim Məmmədov və s.kimi müqtədir sənətkarlar daxil edilmişdir. Hətta, R.Hacıyev gənclik illərimizdə əsərlərinin premyerasına məni solo skripkaçı kimi daim dəvət edirdi. Hal-hazırda Azərbaycan Radio və Televiziyasının "Qızıl Fond"unda mənim çox ifalarım qorunub saxlanılır.

– Tofiq müəllimim məşhur baleti olan “Xəzər balladası” haqqında söz açanda ürəkdolusu şirin xatirələr dil açdı.

– Mənim yadıma 1969-cu il düşdü. Parisdə VII Beynəlxalq Rəqs Festivalı keçirilirdi. Ora yola düşən Azərbaycan balet ustalarıyla birlikdə, Q.Qarayevin rəhbərlik etdiyi bir qrup mədəniyyət işçisi arasında mən də var idim. Paris teatrında göstrilən 3 baletin müəllifləri; Rauf Hacıyev, Fərəc Qarayev və mən müxtəlif zamanlarda Q.Qarayevin tələbələri olmuşuq. Mənim “Xəzər balladası” baletim Parisdə 5 dəfə nümayiş etdirildi. Fransadakı müvəffəqiyyət göstərdi kı, Qarayev məktəbi düzgün yoldadır, dünya musiqisinin böyük sənət nümunələri ilə yarışa bilər, yüksək zövqü və tələbkarlığı olan Qərb tamaşaçısını heyrətləndirər, onların sürəkli alqışlarını qazana bilər.

– Tofiq müəllimin dərsində olduq, sadə cümlələrlə, lakonik, anlaşıqlı bir tərzdə nəzəriyyəni keçir, istifadə olunan xarici terminlərin ana dilımızdəki anlamını şərh edir, bəndləri təkrar etdirıb, tələbəsinə ifanın püxtələşmiş səviyyəsini aşılayırdı. Aram-aram danışır, arabir skripkanı götürüb, özü ifa edir, bəzən məşhur mahnını zümzümə edirdi.

– “8 saylı Azərbaycan sonatası” mənim yazdığım Şərq sonataları silsiləsindən biridir. Dünya şöhrətli, görkəmli bəstəkarımız Tofiq Quliyevin sağlığında ilk dəfə onun üçün ifa etdim və o dinləyib çox kövrəldi, bildirdi ki, “çox dəyərli əsərdir, musiqimizə töfhədir”. Vaxtıyla T.Quliyev Azərbaycanada milli caz sənətini yaradanda, əsasən xalq mahnıları və muğamlardan istifadə edirdi. O zaman bəstəkarlar da çox deyildi; Q.Qarayev, T.Quliyev, Niyazi – elə o dövr üçün bu xalq mahnıları dəfələrlə mükəmməl işlənmişdir. Amma, mən bu tanınmış xalq mahnılarını kamera ansamblı üçün tədris dərslıyi kimi yazmış, eyni zamanda konsert salonlarında ifa üçün işləmişəm. Əsas odur kı, muğamla başlayırıq və onun sərbəstlıyini itirmirik, “Arazbarı” ritmik muğamdır, tempi saxlamaq vacibdir.

– Tofiq müəllim, deyirlər kı, yaradıcılıqla müəllimlik birbirinə mane olur...

– Əksinə, onun mənə çox köməyi dəyir. Mənə çox yüksəkvəzifələr təklif olundu, lakin mən imtina etdim, çünki, müəllimliklə bəstəkarlıq yaradıcılığı, hər ikisi birlikdə məni daha çox ruhlandırır. Tələbələrimin uğurlarından ilhamlanıram. Q.Qarayev, F.Əmirov, S.Hacıbəyov kimi dahilərimizdən sonra, biz onların davamçısı olaraq, heç vaxt qələm əlimizdən düşmürdü. Biz həmişə yazmışıq, yaratmışıq, ömrümüzün axırına qədər də yazacağıq.

– Bəs yorulan vaxtınız olurmu?

– Olur! Səhər tələbəlrimlə dərs keçirəm, sonra yaradıcılıqla məşğul oluram, eyni zamanda ictimai işlərdə də aktiv iştirak edirəm, yəni müxtəlif yönlü tədbirlərdə, qəzet və jurnal redaksiyalarında çıxış edirəm, odur kı, vaxt qalmır.

– İstirahətə necə,vaxt ayımırsınız?

– Yaradıcılıq mənim üçün ən gözəl istirahətdir. Q.Qarayev deyirdi: “Yaradıcı adamın heç vaxt qələm əlindən düşməməlidir. Düşəndə, o, hiss olunacaq, vaxt tapmasan, gündə bir səhifə də yazsan, o, qənimətdir”. Odur ki, çalışıram görkəmli müəllimimin sözlərinə həmişə əməl edim.

– 6№-li Musiqi məktəbində gözəl səsləri, könül açan ifaları, əsrarəngiz qədim xalq mahnılarına kamera ansamblı üçün intrepretasiyasını dinlədik. İstər Azərbaycan, istərsə də Avropa bəstəkarlarının əsərləri çox yüksək səviyyədə ifa olunurdu.

– Bu yaxınlarda mənim tələbəm Nərgiz Həsənova Beynəlxalq müsabiqədə fəxri II yerə çıxaraq Vətənə diplomla qayıtmışdır.

Sənətindən yorulmaq bilməyən hörmətli bəstəkarımızla elə sevimlı tələbələri arasında görüşmək bizim üçün də xoş oldu. Birinci ona görə ki, dahilərdən dərs almış bu bəstəkarın hər bir dərsi sonsuz bilgi və savad almaq istəyən tələbələr üçün

əsl məktəbdir. Biliyini xalqının övladlarına yorulmadan, usanmadan, səylə öyrədən müəllim, pedaqoq görəndə ürəyimiz fərəhlə dolur. Yalnız belə olan təqdirdə təməli dahi musiqiçilər tərəfindən qoyulan bəstəkarlıq və ifaçılıq məktəbimiz inkişaf edər, məktəbi gələcək nəsillərə ərməğan edən peşəkar, ustad müəllimlər sayəsində isə sənət məbədimiz – Üzeyir bəyin yadigarı olan Musiqi Akademiyamız gənclərə akademik şəkildə təhsil bəxş edər.

**Az.TV**
19.11.2011-ci il

## Əbədi dostluq nümunəsi – Tofiq Bakıxanov

Tofiq müəllimin 50-60-70 il dostluq etdiyi, uşaqlıq, gənclik, ahıllıq illərində sonsuz məhəbbət və ünsiyyətlə bağlandığı, pedaqoji fəaliyyəti, yaradıcılıq və sənətiylə əlaqədar dərin ürək telləriylə münasibətdə olduğu insanların siyahısını tərtib etmək mümkün deyil. Hamıya qarşı təmənnasız, qayğıkeş olan, parlaq ürək sahibi Tofiq müəllimin dostları haqqında düşüncələrini təqdim edirik:

**“Musiqi xəzinəsi”. Xalq artisti Telman Hacıyev haqqında:**

– Respublikanın əməkdar incəsənət xadimi, Bakı Müsiqi Akademiyasının  professoru, fəlsəfə elmləri doktoru, bütün həyatını milli musiqimizin tərəqqisinə həsr edən Telman Hacıyev haqqında danışmaq mənim üçün çox asandır. Bu ondan irəli gəlir ki, bir gözəl ifaçı kimi onun uğurlarının  mərhələ-mərhələ şahidi olmuşam. İstər tələbəlik illərində, istərsə də

məhsuldar bir alim kimi musiqi ocağında çalışdığı zamanlarda bütün çıxışlarının əksəriyyətində iştirak etmişəm.

Onun haqqında kütləvi informasiya vasitələri mütəmadi olaraq çox yazıb, radio və televiziya çox danışıbdır. Dünya musiqi mədəniyyətinin ən parlaq, sevilən, yadda qalıb, tarixə düşən simalarını öz səhifələrində işıqlandıran məşhur "Sovetskaya kultura" qəzeti səhifələrinin birində Telman Hacıyev yaradıcılığına yer ayırmışdır.

Azərbaycanda fleyta sənəti üzrə mütəxəssıs tək-tükdür. Onlardan birincisi də Telman Hacıyevdir, bunu bir dostu kimi yox, bəstəkar kimi deyirəm.

Onun peşəkar səhnədə qazandığı müvəffəqiyyətlər məni ruhlandırdıraraq, Azərbaycanda ilk dəfə olaraq fleyta üçün konsert yazmağa sövq etdi. Əlbəttə ki, əsər konkret olaraq ifaçının adına, şöhrətinə, texniki imkanlarına, bədii üslubuna uyğun olmalıdır. Bütün bunlara yaxşı bələd olduğumdan, konserti yazdım və ilk dəfə olaraq fleyta ifası üçün səslənən bu əsər bəstəkarlar arasında böyük marağa səbəb olduğu kimi, ifaçı və bəstəçi uğuruna görə də onlar tərəfindən yüksək qiymətləndirildi. Qeyd edim ki, vaxtıyla bu konserti Telman müəllim musiqiçilərin ali məclisində – Azərbaycan Bəstəkarlar İttifaqının qurultayında misli görünməmiş məharətlə ifa etdi. Həmin musiqi gecəsində milli klassik musiqimizin baniləri Qara Qarayev, Soltan Hacıbəyov, Cövdət Hacıyev kimi korifeyləimiz və bir çox tanınmış sənətçilərimiz iştirak edirdilər. Telman Hacıyevin qazandığı sənətçi alqışları və yüksək bilicilər qiyməti, məni ikinci konserti yazmağa ruhlandırdı. Bu konsertin də taleyi sevindirici oldu; ilk ifası Moskvada Ümumittifaq Radiosunun Böyük Simfonik Orkestrinin müşayiəti ilə səslənərək, Azərbaycan klassik musiqisinə layiq olduğu uğuru gətirdi. Onun mənəvi qazancı

olan bu müvəffəqiyyətlərinə sevinərək bildirirəm ki, Telman müəllimin pedaqoji fəaliyyəti də büsbütün mənim gözlərim qarşısındadır. 50 ildən artıqdır ki, bir yerdə çiyin-çiyinə işləyib xalqımızin musiqi mədəniyyətinin tərəqqisi keşiyində dayanmışıq. Onun nənalı ömrünün böyük anları; simfonik orkestrin solisti olması, əməkdar incəsənət xadimi fəxri adı alması, profesor zirvəsinə yüksəlməsi və ən nəhayət, yüksək bilikli alım, ali mənəviyyat sahibi olan pedaqoq kimi fəaliyyəti bir kino lenti kimi gözlərim önündən keçib gedir. Əziz qardaşım Telman müəllimi anadan olmasının 75 illik yubileyi münasibətilə təbrik edirəm, ona yeni sənət uğurları, 100 yaşa çatmağını arzu edirəm.

**“Musiqi xəzinəsi”. Xalq artisti, bəstəkar Nəriman Məmmədov haqqında:**

Həriman Məmmədov haqqında da danışmaq mənim üçün öz həyatımı şərh etmək kimi çox asandır. 60 il bundan qabaq hələ Asəf Zeynallı adına musiqi texnikumunda mən şöbə müdiri işləyərkən, Nəriman müəllim də bu prestijli musiqi ocağında dərs deyirdi. Bu günə qədər davam edən yaradıcılıq və sarsılmaz dostluğumuzun ünsiyyət telləri onda bağlanmışdı. Onun gənclik illərindəki yaradıcılıq tərcümeyi-halına yaxın bir adam kimi yaxşı bələdəm. Naxçıvan Muxtar Sovet Respublikasında yaşayarkən bir ifaçı və bədii musiqi rəhbəri kimi çox maraqlı yaradıcılıq işləri görmüşdür; orada xalq çalğı ansamblları təşkil edib, dram əsərlərinə musiqilər, xalq çalğı alətləri orkestri üçün süitalar, müğənnilər oxusun deyə, mahnılar bəstələyibdir. Bu onun erkən gəncliyinin çalışmalarına aiddir. Taleyində unudulmaz izlər qoyub gedən tələbəlik illəri ərzində Asəf Zeynallı adına Musiqi texnikumunda iki fakültəni; musiqi tarixi nəzəriyyəsi və xalq çalğı alətləri şöbələrini əla qiymətlərlə bitirmişdir. Həmişə razılıq

etdiyi, adlarını dönə-dönə ehtiramla çəkdiyi və heç vaxt unutmadığı qüdrətli müəllimlərdən dərs aldı. Məsələn, musiqi nəzəriyyəsi sahəsində elmın qapılarını onun üzünə taybatay açan, qüvvəsini tələbələrindən əsirgəməyən, professor Çumakov sözün əsl mənasında dahi bir pedaqoq olmuşdur. Bu dahi müəllimi tək Azərbaycanda deyil, Moskva, Leninqrad və Sovet İttifaqının hər yerində yaxşı tanıyıb, hörmət edirdilər. Moskva konservatoriyasına daxil olmaq üçün qəbul imtahanları verən gənc Nəriman, sual edilən imtahan materiallarına xoşagələn səviyyədə cavab verəndən sonra, komissiya üzvləri ondan kimin sinifində oxuduğunu soruşurlar. Nəriman təkcə bir ad çəkir – "Çumakov".

– Bilsəydik, Çumakovun tələbəsisən səndən heç imtahan götürməzdik,– deyə hamı bir ağızdan dinir.

Bu, xoşbəxtlikdir kı, Nəriman klassik musiqini Çumakovdan, muğamatın sirlərini mərhum atam Əhməd xan Bakıxanovdan öyrənmişdir. İstər Moskvada yaşayıb-yaratdığı illərdə yazdığı və nəşr etdirdiyi instrumental-vokal əsərlərində, istərsə də nota salınaraq Azərbaycanda çap olunmuş muğamlarında o, Əhməd xan Bakıxanovun ifasından geniş surətdə bəhrələnmişdir. Bizim üçün də böyük səadətdir ki, Bakıda nəşr olunmuş Azərbaycan musiqisi antologiyasında Nəriman müəllimin titanik zəhmətinin bəhrəsi olan notlu muğamlar bu dahiyanə kitablarda yer almışdır. Müəlliminin xatirəsini əziz tutaraq qeyd etmişdir ki, bu muğamları Əhməd Bakıxanovdan əxz etmişdir. Mənim Nərımanla müştərək musiqili komediyalar yazmaq fikrim 1960-cı illərin əvvəlində yaranmışdır. Musiqi texnikumunda direktorumuz olmuş, daha sonra Azərbaycan Dövlət Musiqili Komediya Teatrında direktor işləyən bəstəkar, xalq artistı Süleyman Ələsgərov evimizə zəng edib mənə dedi:

– Mən bilirəm ki, Nəriman Məmmədovla möhkəm dostsan, gəlin ikinizə ”Altı qızın biri Pəri” musiqili komediyasının librettosunu verim, onu işləyib hazırlayın. O zamanlar incəsənətimizə dəyərli əsərlər töhfə edən məşhur yaradıcılıq cütləri mövcud idi; Qara Qarayev-Cövdət Hacıyev, Fikrət Əmirov-Elmira Nəzirova, Vasif Adıgözəlov-Ramiz Mustafayev və s. Biz çox sevindik, librettosuna 22 musiqi nömrəsi daxil olan komediya əsərini qəbul etdik, hərəmizin öz ruhuna yaxın olan obrazları öz aramızda bölüşdürüb işə başladıq. Buraya ariyalar, duetlər, mahnılar, ayrıca olaraq orkestr materialları daxil etdik. Klavirləri hazır edən kimi bir-birimizə göstərirdik ki, fikir ayrılığı olmasın. 1963-cü ildə əsəri orkestrləşdirmək üçün yazıçıların Şüvəlandakı Yaradıcılıq evinə getdik, həm istirahət etdik, həm də əsəri tamamladıb, teatra təhvil verdik. Bizim xoşbəxtliyimizdən tamaşanın taleyi xalqımızın ən müqtədir sənətkarlarına, gülüş ustaları; Nəsibə Zeynalovaya, Lütfəli Abdullayevə, Bəşir Səfəroğluya, Mobil Əhmədova, Şəfiqə Qasımovaya tapşırıldı. Teatrımızın ağsaqqalı Şəmsi Bədəlbəyli öz köməyini əsigəmədən, məşqlərə gələr, hər cür mənəvi yardımla dəstək verərdi.

Tamaşanın premyerası böyük uğurla keçdi, belə ki, teatra düşmək üçün bilet adlı bir şey yox idi. Qəzetlər biletlərin əldə satılmasından yazırdılar. Odur ki, bəzən tamaşa səhər və axşam seansları olmaqla hər həftə oynanılırdı. Bu müvəffəqiyətdən ilhamlanaraq bir vaxt Elmlər Akademiyasında Nəriman Məmmədovla çalışmış şair-dramaturq Atif Zeynallının “Məmmədəli kurorta gedir” əsəri üzərində operetta musiqisini yazdıq. Məmmədəli obrazının Lütfəli Abdullayev tərəfindən əsrarəngiz canlandırılan ifası, salondakı tamaşaçıları onu ayaq üstə alqışlamağa vadar edirdi. Biz gənclər öz uğurlarımızdan həvəslənərək daha yüksək zirvə-

lərin fəthinə can atırdıq.  Odur ki, yazıb tamaşaya qoyduğumuz komediyaların alqış səsləri qulağımızdan getməmiş, teatr həvəskarları üçüncü birgə yaradıcılıq bəhrəmiz olan, şair-dramaturq Adil Babayevin yazdığı "Qız görüşə tələsir" əsərini musiqiləşdirməyə başladıq. Tələbələrin həyatından bəhs edən və o dövrdəki ictimai çatışmamazlıqları tənqid edən bu əsər ümummilli liderimiz Heydər Əliyevin pespublika rəhbərliyinə gəlişinin ilk anlarına və onun təhsil sistemində, xüsusilə alı məktəblərə qəbul imtahanlarındakı qeyri-qanuni hərəkətlərin ifşasına yönələn çıxışıyla bir vaxta düşdüyündən, bu komediya daha böyük aktuallıq qazandı. Təbii ki, günün nəbzini düzgün tutduğuna görə əsər tamaşaçı rəğbətini qazanıb, teatral mühütdə populyarlığını əldə edə bildi. Təəssüf ki, o zamanlar televiziyanin texniki imkanları, yəni videoyazı xidməti mövcud deyildi, odur ki, televiziya seyredicilərinə  "Altı qızın biri Pəri" tamaşasından operatorun çəkdiyi 10 dəqiqəlik kinolent təqdim olunur. "Qız görüşə tələsir" operettasının ancaq musiqisi Milli Radiomuzun "Qızıl Fond"unda saxlanılır. Hər üç tamaşa bizim üçün doğmadır, çünki onların yaranmasına ürək sevinc hislərimizi sərf etmişik.

Leytmotivlər, xor, mahnılarının  xalqın ruhuna yaxın, obrazların isə hamıya bəlli olanlarını seçirdik. Nəsibə xanımın oynadığı Cəhrə xala obrazı həyatda bütün xüsusiyyətləri ilə tez-tez rastlaşdığımız tiplərinin ümumiləşdirilmiş təcəssümü olduğundan, bu qarı tez məşhur oldu və təsadüfi deyil ki, "Altı qızın biri Pəri" elə Cəhrə xalanın adıyla çağırılırdı. Nəriman və mən xeyli məmnunuq ki, böyük dramaturqlarla, dahi aktyorlarla çalışmışıq. Bir də ürək sadəliyinə, yüksək insanlığa malık olan Nəriman müəllimin zəhmətini mən çox qiymətləmdirirəm. O, professional musiqiçi, yüksək zövqlü bəstəkardır. Yaradıcılığında Azərbaycan klassik musiqisiylə,

ayrıca olaraq muğamlarımızı təhrifsiz, notlu şəkildə uğurla bir araya gətirib çıxaran sənətkardır. Onun "Humay" baletindəki "Qızlar" variasiyası "Çahagah" muğamı üzərində qurulmuşdur. Bu əsərində klassik üslubla muğamın sintezini sitat kimi yox, "Çahagah"ın həzinlıyini, gözəllıyini incəliklə, zərif çalarlarla vermişdir. Onun yazdığı simfoniyaların partituralarının çoxusuyla mən tanışam, deyə bilərəm ki, onun özünə məxsus harmoniyası, dəst-xətti və orkestrləşdirmə üslubu vardır. Dahi Üzeyir Hacıbəyov demişdir ki, "Əsl sənətkar bəstəkar, yazıçı, rəssam, kim olursa olsun, əgər öz dəst-xətti varsa, o yaşayacaqdır". Bəzən müəllifinin adını çəkməsələr də, dinlədiyimiz musiqinin Q.Qarayevə, Fikrət Əmirova, Süleyman Ələsgərova məxsus olduğunu deyirik. Bu mənada Nəriman Məmmədovun da onların bir davamçısı kimi öz yaradıcılıq üslubu vardır. Gənclik illərindən başlayaraq bütün dünya klassik musiqisiylə maraqlanıb öyrənən Nəriman, dərya qədər böyük olan bu mənbədən layiqincə bəhrələnmişdir, bu da özünü onun yaradıcılığında cövlan edən Qərb və Şərq musiqilərinin sintezində büruzə verir. "Kamera orkestri ilə orqan üçün simfoniya"sında bu üzvi sintez açıq-aydın nəzərə çarpır. Belə birləşməni ərsəyə gətirmək üçün Qərb musiqisi sahəsində yüksək bilik və savad, intellekt lazımdır, bunları da Allah ondan əsirgəməyibdir. Konservatoriyada təhsil aldığı illərdə musiqi tarixi nəzəiyəsini bütün dəqiqliyi ilə əxz etməsi, gələcəkdə musiqi əsərlərinə tənqidçılərin sərt və kəskin mühakiməsi anı və mütəxəssislərin ciddi araşdırmaları qarşısında aciz qalmamasında ona yaxından kömək etmişdir. Onun bir neçə simfoniyasını dinləyərkən hiss etdim ki, o, muğam şöbələrindən istifadə edərək əsəri zənginləşdimış, inkişaf etdirmişdir, "Hümayun", "Rahab" muğamlarından ustalıqla istifadəsi, Nərimanın muğam dəstgahlarımızı kamil bilməsinə aşkar bir nümunədir.

Çoxşaxəli yaradıcılq diapazonunu bəzəyən simfonik musiqi, kamera instrumental musiqi, sonatalar, triolar, oratoriyalar, kantataları uğurla səslənərək bəstəkara layiq olan halal şöhrəti gətirmişdir. Bəstəkar üçün ən böyük səadət öz sağlığında əsərlərinin müvəffəqiyyətini görməkdir. Hər bir bəstəkar öz qüvvəsinə bələd olaraq əsərə yanaşır, aləti bilmədən onun üçün konsert yazmaq təsadüfi haldır. Cavanlıq dövrünü fortepiano ilə keçirən Nəriman müəllim, faktura etibarı ilə çox çətin və mürəkkəb olan Şopenin etüdlərini, Raxmaninovun prelüdlərini piano qarşısına əyləşdiyi ilk günlərdən mükəmməl hazırladığından, bu gənclik laboratoriyası ona gələcəkdə böyük üstünlüklər vermişdir. Hətta Yeseninin nəvəsi, Bakıda ən məşhur pianoçu sayılan konservatoriyanın professoru Şaroyev onu öz sinfinə qəbul etmişdi. Həm musiqi tarixi nəzəriyyəsi, həm xalq çalğı alətləri şöbələrində təhsil alan və eyni zamanda vaxt tapıb ustadı Şaroyevdən dərs alan Nəriman müəllim də öz növbəsində aldığı biliklərə biganə qalmamış, fortepiano üçün harmoniyası mürəkkəb olan beş böyük konsert yazmışdır. Onun əsərlərində bəsitlik və ifaya asan yatan sadəlik yoxdur, bu da professionallıqdan irəli gələn mühüm bir cəhətdir. Fakturadan peşəkarlıqla istifadə edən bəstəkar Qərb musiqisi yaradıcılığı ilə yanaşı müasir dünyəvi musiqiyə də müraciət edir. Polifonik üslubdan çox istifadə edən bəstəkarın musiqi dili melodik və harmonik cəhətdən aydındır. Onun “Birinci konsert”ini Bəstəkarlar İttifaqının qurultayında Zivər Əliyeva, daha sonralar Roza Şifrin kimi yüksək sənətkarlar ifa etmişdir. Hər bir əsər müəllifin öz övladı kimi sayıldığından, bəstəkarın bu əsərin gələcək aqibəti ardında dayanması da gərəkdir. Nəriman xoşbəxt sənətkardır ki, onun yazdıqları gözəl ifaçıların repertuarına daxil edilmişdir. Bir daha qeyd etmək istərdim ki, 1960-cı illərdən başlayaraq onun yaradıcılığında qırmızı xətt kimi nəzərə

çarpan muğam dəstgahlarının və instrumental muğamların nota salınması  olmuşdur. O, bu işi böyük diqqət və həssaslıqla, peşəkarcasına yerinə yetirmiş, istər vokal və istərsə instrumental muğam ifalarını tutuşdurmuş, muğam biliciləri ilə bir araya gələrək, əsrlərdən bizə miras qalan və heç bir əlyazması olmayan muğamlarımızı not yazısı şəkilində xalqımıza və onun gələcəyinə bəxş edərək musiqimizdə tarixi bir missiyaya imza atmışdır. 55 ildən artıqdır ki, Nəriman müəllım Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda Azərbaycan xalq musiqisi sahəsində daim axtarışda olan bir alım kimi aktiv fəaliyyətdədir. Alim Əhməd İsazadə ilə birlikdə topladığı xalq mahnılarını, el havalarını  sistemləşdirib, musiqi xəzinəmizə təhvil verir.  Bu tapıntılar da onun bədii yaradıcılığında öz əksini tapır; hansı mahnısını götürsən, orada milli kolorit, xalq musiqisinə xas olan elementlər, milli ruh vardır. Ü.Hacıbəyovun tövsiyəsi də belədir; "Əsərinizi kütlələrə çatdırmaq istəyirsinizsə, mütləq xalq musiqisindən istifadə edin". Onun folklor musiqisindən, muğamdan qidalanması, janrından asılı olmayaraq, yaratdığı istənilən əsərdə; xor, oratoriya, mahnıda özünü büruzə verir.

**"Səhər" informasiya və musiqi proqramı: Zakir Mirzəyev haqqında:**

Dahi Niyazinin "qarmonun Paqaninisi" adlandırdığı virtuoz qarmon çalan Əməkdar artist Zakir Mirzəyevi onilliklər boyu tanıyıb, dinləyib sevmişəm. Ə.Bakıxanovun idarəsi ilə Xalq Çalğı Alətləri ansamblında fəaliyyəti dövründə onun təkrarolunmaz sənətinə vurğunluğum ailəvi dostluğa və sənətdə müştərəkliyə gətirib çıxardı. Zakirin əsrarəngiz və əlçatmaz, zirvə ifasına həsr olunan və musiqi mütəxəssislərinin yüksək qiymətinə layiq olan "Qarmon ilə simfonik orkestr üçün 3 hissəli konsert"in ifasından sonra, onu pedaqoji fəaliyyətində tərəqqi etməyə sövq edə bildim. Muğam sahə-

sində yüksək bilik, praktiki olaraq bütün muğam dəstgahlarının ifasına ustalıqla sahib olması, onu qarmon nəzəriyyəsinin elmi surətdə tədqiq olunması məsələsi ilə bir araya gətirdi. Onlarla oyun havasının, muğamla rəqsin sintezi janrının yaradıcısı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar artist Zakir Mirzəyev tək qarmon ifaçısı deyil, artıq bir neçə elmi-nəzəri kitabların da müəllifidir.

**Həsən Cəbrayılov,**
Az.TV verilişləri əsasında

## "Sərbəst söhbət" verilişindən

*Teatrşünas, professor İlham Rəhimli ilə Xalq artisti, bəstəkar Tofiq Bakıxanovun dialoqu Bakıxanovlar şəcərəsinin ayrı-ayrı üzvlərinin tarixcəsi ilə başlandı. Bu barədə kitabda kifayət qədər məlumat verildiyini nəzərə alaraq, ədəbiyyat və incəsənət tariximizə ali dərəcədə bələd olan, bu sahənin nadir bilicisi İlham Rəhimlinin Tofiq müəllimə ünvanlandırdığı suallara keçirik.*

**İ.Rəhimli:**

– Əhməd Bakıxanov məşhur tarzən,Üzeyir bəy kimi qüdrətli düha tərəfindən qəbul olunan musiqiçi, Bakı Musiqi Məktəbində (çağdaş Asəf Zeynallı ad. Musiqi Kolleci) məhz muğam və tar sənətindən dərs deyən pedaqoq olmuşdur. Necə oldu ki, xalq musiqisi ənənələrini yaşadan bir sənətkarın oğlu T.Bakıxanov Qərb musiqisi janrını, skripka ixtisasını seçdi?

**T.Bakıxanov:**

– Dahi Üzeyir bizimlə qonşuluqda, keçmiş Ketsxoveli küçəsində yaşayırdı, atamın evi isə Zərgərpalanda idi. Bir gün Üzeyir bəy telefonla zəng edib deyir ki, Əhmədxan, tarınla bizə gələ bilərsənmi?. Atam dərhal razılıq verib, dəvət olunan yerə gəlir və görür ki, söhbət üçün hətta çay süfrəsi də hazırdır. Bəy bildirir ki, klassik ədəbiyyatda "Nəva" muğamının adını oxumuşdur, lakin bu müğam haqqında mütəxəssislərin heç birinin; Cabbar Qaryağdıoğlunun, Qurban Pirimovun məlumatlarının olmadığını nəzərə çatdırır. Elə, tanınmış sənətkarların çoxusu təkidlə bildirirlər ki, "bilsə bunu ancaq Əhmədxan bilər". "Nəva" muğamını çalıb bitirəndən sonra Üzeyir bəy sevinclə bildirir: "Mən axtardığımı tapdım". Ruhuna görə "Şur" muğamına yaxın olan "Nəva" XIV əsrdə çox ifa edilən, populyar muğam olmuşdur. Anlamına görə avaz mənasını verən bu muğam orta əsrlərdə Azərbaycan, İran və Türküstanda sevilərək oxunan və dinlənilən olmuşdur. Əlişir Nəvai və onlarla bir çox mütəfəkkir bu adı özlərinə təxəllüs kimi qəbul etmişdilər. Zaman ötdükcə, xüsusi ilə çarizmin milli mədəniyyətimizə etdiyi təzyiqlər nəticəsində ölkəmizdə unudulan bu müğam, XX əsrdə heç kəs tərəfindən istifadə edilməyibdir. Babam Məmmədrza bəyin İrana köçməsi və bir neşə il Tehranda yaşaması ilə əlaqədar atam və əmim Məmməd xan, Qacar şahlarının saray xanəndəsi, milliyyətcə azərbaycanlı olan Üzeyir bəy atamı konservatoriyaya muğam sənətindən dərs deməyə dəvət etmişdi. Xalq musiqisi və muğam sənəti sahəsində atam onun sağ əli idi. Üzeyir bəy bütün tədbirlərində Əhməd xana önəm verirdi. Hətta iclasların sədri olurdusa, atamı mütləq katib təyin edirdi. Konservatoriyada istər xanəndə, istərsə də instrumentalist ifaçılar üçün muğamın tədrisi proqramlarını da atam

hazırlamışdı. Bu proqramlar bu gün də istifadə olunub, qüdrətini saxlamaqdadır. Şərq ədəbiyyatını, milli musiqini hər ikisi yaxşı bildiklərindən atamın Üzeyir bəylə söhbətləri yaxşı tuturdu. Qeyd edim ki, 1938-ci ilə qədər dahi bəstəkar konservatoriyada Azərbaycan xalq çalğı alətləri şöbəsinin müdiri idi. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyündə "Koroğlu" operasının ona gətirdiyi uğurdan sonra, Üzeyir bəy konservatoriyaya rektor təyin olundu. Elə, o zaman musiqi sahəsindəki yeniliklərə, konservatoriyanın təhsil-tədris işlərində əlvanlığa çalışan Ü.Hacıbəyov atamla söhbət edərkən bildirdi ki, "Bakıda və respublikanın bölgələrində milli musiqi alətlərində; tar, kaman, balaban, nağara çalan çoxdur. Amma, Avropa musiqi alətlərində milli ifaçılarımız yox dərəcəsindədir. Sənin üç övladın var". Üzeyir bəy bacım Zivər xanımı fortepianoya, qardaşım Məmmədrzanı violonçelə, məni isə skripka ifaçılığına yazdırmağı təklif etdi. Muğam sənətkarının əks ruhlu belə təkliflərə razı olması çox çətin idi, ancaq atam o saat razılıq verdi. Məşhur xanəndə Zülfü Adıgözəlov da oğlanları Vasifi fortepiano, daha sonralar Raufu skripka sinfinə yolladı. Səməd Vurğun məsələnin nə qədər əhəmiyyətli olduğunu duyaraq oğlanlarından Vaqifi fortepiano, Yusifi isə skripka sənətinə istiqamətləndirdi. Rəsul Rza da Üzeyir bəyin arzusuna uyğun olaraq Anarı fortepiano sinfinə yazdırdı. Avropa alətlərinə kütləvi müraciət musiqimiz üçün böyük tərəqqi idi. Böyük Vətən müharibəsi başlananda konservatoriya indiki Fəvvarələr meydanında birmərtəbəli binada yerləşirdi. Mən musiqi məktəbinin 3-cü sinfində böyük musiqi mütəxəssisi Simberovdan skripka ixtisasını öyrənməyə başladım. O, Üzeyir bəyin dəvəti ilə 1916-cı ildə

Xarkovdan Bakıya köçmüş Simberovdan skripka dərsi almış və bir çox operalarda skripka partiyalarını özü ifa etmişdir. Bu barədə Ü.Hacıbəyovun ev-muzeyinin sabiq direktoru Ramazan Xəlilov öz məqalələrində bildirmişdir. Ü.Hacıbəyov tez-tez bizim konsertlərə gələr, birinci sırada əyləşib bütün ifaçıların hamısını fərdi surətdə, bir-bir dinləyərdi. Üçüncü sinifdə oxuyarkən ilk dəfə mən də onun qarşısında "Leyli və Məcnun" operasından "Axşam oldu" mahnısını və Rubinşteynin melodiyasını çaldım. Xoşuna gəldi və məni çağırıb müəllimimin yanında tövsiyə etdi ki, bundan sonra daha çox texniki əsərləri ifa edim. Üzeyir bəy hər il gəlib ifaçıları nəzarətə götürər, tələbkarlıqla, diqqətlə dinləyərdi. Bir dəfə müsabiqə oldu, mən Üzeyir bəyin qarşısında dünya skripka ədəbiyyatına daxil edilmiş ən mürəkkəb əsərlərdən ifa etdim və 1945-ci ildə dahi bəstəkarın 60 illik yubileyinə dəvət aldım. Bu məsuliyyətli və mənim həyatıma ən əlamətdar tarix kimi daxil olan təntənəli gecədə Moskvadan dəvət olunmuş məşhur dirijor Ginzburqun idarəsi ilə "Arşın mal alan" musiqili komediyası əsasında Fikrət Əmirov və Boris Zeldman tərəfindən işlənmiş və orkestrləşdirilmiş fantaziyanı çaldım. Ginzburq Üzeyir bəyin təşəbbüsü ilə Bakıya dəvət olunmuşdu, filarmoniyada simfonik orkestrin həm bədii rəhbəri, həm də baş dirijoru vəzifəsində çalışırdı. Fantaziyanı filarmoniyada ifa edərkən Üzeyir bəylə yanaşı iştirak edən Az.KP MK-nın nümayəndələri də ifamı bəyəndilər. Nəticə etibarı ilə mənim adım dahi Nizaminin Opera və Balet Teatrında keçiriləcək 800 illik möhtəşəm yubiley şənliklərində iştirak etmək üçün tərtib edilən siyahıya düşdü. Təntənəli gecənin bədii hissəsində Qərbi Avropa bəstəkarı Levitanın 4-cü konsertini çaldım. Azərbaycan hökumətinin

üzvləri, yubileydə iştirak edən aparıcı dünya ölkələrinin musiqi ictimaiyyətinin nümayəndələri və ən başlıcası dahi Üzeyir bəyin qarçısında çıxışım uğurlu oldu. Burada qəribə bir hadisə də baş verdi, yubileydən sonra konservatoriyaya daxil olmaq üçün imtahana gəldim, lakin mənə bildirdilər ki, Üzeyir bəyin göstərişi ilə mən qəbul imtahanlarından azad edilərək, bu ali musiqi məktəbinə qəbul olunmuşam. Belə təsadüfi hadisələr çox az olur, mən qəbul imtahanlarına davamiyyətli və çox ciddi hazırlaşmışdım, imtahan auditoriyasına daxil olanda mənə bildirdilər ki, Üzeyir bəy deyib: "Tofiq Bakıxanov qəbul edilmişdir". 1948-ci ildə dahi bəstəkarın vəfatından sonra təsis edilən "Üzeyir Hacıbəyov adına təqaüd"ü ilk olaraq mənə təqdim etdilər. Tələbəlik dövrü üçün aldığım 400 manat pul mənim üçün əhəmiyyətli dərəcədə böyük maddi yardım idi. Konservatoriyada 5 il müddətində skripka fənni üzrə təhsil aldığım dövrdə filarmoniyada solist işləyir, Azərbaycan radiosunda çıxışlar edirdim. Demək olar ki, bütün Azərbaycan bəstəkarlarının skripka üçün yazdıqları əsərlərin: Ü.Hacıbəyovun "Fantaziya"sı, Rauf Hacıyevin "Konsert"i, Süleyman Ələsgərovun "Sonata"sı, Fikrət Əmirovun "İkili konsert"i, Cahangir Cahangirovun "Sonata"sının ilk ifaçısı mən olmuşam.

– Dünyanın bütün ölkələrində birmənalı şəkildə qəbul olunmuş skripka alətində bir ifaçı kimi bu cür məşhurlaşmışdınız; orkestrlərdə birinci skripka olmaq çətin və məsuliyyətlidir, bu rolu da sizə həvalə edirdilər. Bəs necə oldu ki, dünyanın və ölkə bəstəkarlarının əsərlərini ilk ifa edən skripkaçı ola-ola, sizin üçün açılmış perspektivlərdən aralandınız, sizdə bəstəkarlığa maraq haradan doğuldu? Siz yenidən kon-

servatoriyaya gəlib Qara Qarayevin sinifini bəstəkarlıq fənni üzrə bitirmisiniz.

– 1951-ci ildə Berlində Tələbə və Gənclərin Ümumdünya festivalı keçirilirdi. Bakıda 3 turdan ibarət keçirilən müsabiqədə mən də iştirak etdim. 2 turu müvəffəqiyyətlə başa vurdum, 3-cü turda bəstəkarlarımızdan birinin "məsləhət deyil" deməsindən sonra məni festival iştirakçılarının siyahisindən çıxartdılar. Festivala atamın tələbəsi tarzən Həbib Bayramov, kamançaçı Mütəllib Novruzov getdilər. Mənə qarşı olan bu münasibət ilk əvvəl özümə çox pis təsir bağışladı, əvvəlcə ona görə ki, mən filarmoniyada solist işləyəndə Bolqarıstandan gələn nümayəndə heyəti üçün ifası çox çətin və mürəkkəb əsər olan "Bolqar rapsodiyası"nı çalaraq özümü xarici dinləyici qarşısında dəfələrlə doğrultmuşdum. 1953-cü ildə İ.V.Stalinin vəfatı ilə əlaqədar olaraq filarmoniyadan təklif etdilər ki, rəhbərin vəfatına həsr olunan gecədə klassik əsərlərdən ibarət konsert çalmalıyam. Mən gündə 12–14 saat məşq edərək dahi rus bəstəkarı Qlazunovun konsertini hazırlayıb müvəffəqiyyətlə ifa etdim. Düşündüm ki, belə məsul ifalarım qiymətləndirilmədi, yəni "ifaçılıq havada qalır", ancaq bəstəkarlıq məhsulu daimidir. Bu fikirlə də bəstəkarlıq yolunu seçdim.

– Ona qədər bir musiqi əsəri bəstələmişdiniz?

– Bəli, belə bir təcrübəm var idi, atamın yanına Ü.Hacıbəyovun bütün bəstəçi tələbələri, mahnılarının ansambl ifası üçün işlənilməsini istəyənlər gəlirdilər: Ağabacı Rzayeva, Hacı Xanməmmədov, Süleyman Ələsgərov, Əşrəf Abasov, Arif Məlikov, Nəriman Məmmədov. Onların atamla etdiyi söhbətlərə mən qulaq asırdım, əsərin formalarına diqqət yetirirdim, onu ansambl ifası şəkilinə gətirilməsi üçün mütləq

savad lazım idi. Bu minvalla özüm üçün bir neçə musiqi əsəri yazmışdım, konservatoriyanı bitirəndə Musiqi texnikumunun direktoru Süleyman Ələsgərov məni təyinatıma görə şöbə müdiri-müəllim vəzifəsinə qəbul etdi. Hətta iş elə gətirdi ki, texnikumda işləyə-işləyə bəstəkarlar Qənbər Hüseynli və Telman Hacıyevin dövlət imtahanında komissiyanın sədri mən oldum. Yazdığım instrumental əsərləri imtahanlarda tələbələrimə çaldırırdım. Bir dəfə dövlət imtahan komissiyasının sədri bəstəkar Cövdət Hacıyev əsərlərimin ifa olunduğu imtahana gəldi və ifaları dinləyib məndən soruşdu:

– Tofiq, sən bəstəkarlıq şöbəsində oxumusan?

– Yox! – dedim

– Nə əcəb?

Sonra yazı nümunələrimi götürüb konservatoriyanın rektoru Qara Qarayevin qəbuluna getdim və yazdığım musiqi parçalarının not yazılarını ona təqdim edib dedim: ”Qara müəllim, burada mənim musiqi yaradıcılığımla bağlı yazılar var. İstərdim ki, ona nəzər yetirib fikrinizi deyəsiniz”. Qara müəllim əsərləri nəzərdən keçirəndən sonra dedi: “Tofiq, mütləq bəstəkarlıq şöbəsində oxumalısan”. Konservatoriyaya yenidən daxil olub, 5 illik kursu 4 ilə bitirib, diplom işini müdafiə etdim.

– Diplom işinizin mövzusu nə idi, sonata, kantata?

– Qara müəllim tapşırmışdı ki, nə yazırsansa yaz, ancaq iri həcmli musiqi əsəri olsun. Mən də “Uzaq sahillərdə” filmindən ruhlanaraq Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin xatirəsinə həsr olunan simfonik poemanı yazdım. Əsər orkestrin müşayiəti ilə musiqi plenumlarında, baxışlarda da ifa olundu, mütəxəssis və tamaşaçı qiymətini aldı. İkinci

əsər kimi "Skripka üçün konsert"i yazıb, müşayiətçi Kozlov adlı pianoçu ilə məşq edərək, diplom müdafiəsində özüm çaldım və beş qiyməti aldım. Bu əsəri görkəmli dirijor Əhəd İsrafilzadənin rəhbərliyi ilə simfonik orkestrin müşayiəti ilə böyük konsertdə də ifa etdim. Moskvaya dəvət olundum və orada müəllifi olduğum "1-ci simfonya"nı çalıb böyük uğur qazandım. Bakıya qayıdandan sonra "1-ci simfoniya"nı Qara müəllimə təqdim etdim. O, musiqimlə tanış olub mənə bildirdi ki, bu əsəri Sovet Azərbaycanının 40 illik yubileyinə həsr edilmiş müsabiqəyə təqdim edim. Müsabiqədə iki fortepianonun müşayiəti ilə ifa etdiyim bu simfoniya mükafata layiq görüldü. Bu uğurdan ruhlanaraq "2-ci simfoniya"nı yazdım. Əsər yenə də Moskvada Beynəlxalq müsabiqələr laureatlarının iştirakı ilə çalındı. Moskvada olduğu kimi Bakıda da bu simfoniyanı şəhərimizə dəvət edilən, Leninqrad Dövlət Opera və Balet Teatrının baş dirijoru, məşhur Kamal Dolqat idarə elədi. Həmişə olduğu kimi, "2-ci simfoniya"nı da Qara müəllimə təqdim etdim və "sənin əsərində balet musiqisi hiss olunur, mütləq balet yazmalısan" təklifini aldım. Müəllimim Q.Qarayevin rəyindən sonra fikirləşdim və qəhrəman neftçilərimizin əməyinə həsr olunan, premyerası böyük uğur qazanan "Xəzər balladası" baletini yazdım.

– Baletin quruluşu kimin idi?

– Rəfiqə Axundova ilə Maqsud Məmmədovun.

– Daha sonra siz dahi Nizami Gəncəviyə müraciət edib "Xeyir və Şər", vaxtı ilə Bakıda olmuş rus şairi Sergey Yeseninin "Şərq poeması"nın balet musiqisini yazdınız.

– Nizami Gəncəvinin 850 illik yubileyinə həsr olunmuş müsabiqə keçirilirdi. Mən də bu dünya dahisinin ad gününə

biganə qalmadım və onun “Xəmsə”si əsasında “Xeyir və Şər” baletini yazıb, müsabiqənin mükafatını aldım.

– Müşahidələrimdən bilirəm ki, “Xəzər balladası”, Paris başda olmaqla dünyanın bir çox aparıcı ölkələrində də nümayiş etdirilmişdir.

– Parisdə, Strasburqda, Marseldə, ümumiyyətlə Fransanın 11 şəhərində və  Lüksemburqda, Monte-Karloda bu baletin 30 tamaşası oynanılmışdır.

– Bəstəkar Nəriman Məmmədovla birgə, 3 operetta yazmısınız; Məhərrəm Əlizadənin librettosu əsasında “Altı qızın biri Pəri”, Adil Babayevin librettosu əsasında “Qız görüşə tələsir”, Atif Zeynallının librettosu əsasında “Məmmədəli kurorta gedir”. İki müştərək bəstəkar bir operettanı necə yazır? Bu məndə qəribə maraq doğurur.

– Müştərək yaradıcılığa böyük bəstəkarlarımızın təcrübəsində də rast gəlirik; Q.Qarayev-C.Hacıyev, S.Ələsgərov-C.Cahangirov, F.Əmirov-E.Nəzirova.

– Konsert janrında müəyyən prinsipləri bölüşdürmək olur, bəs operettada necə? Çünki, burada ariya, ariozo, xor, balet nömrəsi, instrumental ifalar var.

– Süleyman Ələsgərov Musiqili Komediya Teatrının direktoru olmaqla bərabər, həm də eyni zamanda mən və N.Məmmədovla birlikdə musiqi texnikumunda dərs deyirdi. Daima qeyd edərdi: “Həmişə sizi bir yerdə görürəm, möhkəm dostsunuz, onda gəlin sizi aparım Musiqili Komediya Teatrına, sizə libretto verim birlikdə işləyin”. Biz də gəldik, “gözümüz üstə, mütləq edərik, çox sağ olun”, deyib librettonu aldıq və yazıçıların Şüvəlandakı yaradıcılıq evinə yollanıb, əsəri öz aramızda bölüşdürdük. Razılığa gələndən sonra onları klavir halında hazırladıq və elə yaradıcılıq evində də orkestr-

ləşdirdik, çalğı alətləri partiyalarını müəyyənləşdirdik. Məşqlərə Şəmsi Bədəlbəyli gəlib nəzarət edirdi.

– Əliheydər Ələkbərov bir müddət o teatrda baş rejissor işlədi, sonralar Akademik Dram Teatrına keçdi.

– Əliheydər müəllimin vaxtında “Altı qızın bir Pəri” operettasının gedişatını aylıq “Sovet Azərbaycanı” kinojurnalına və “Aktrisanın təbəssümü” musiqili filminə çəkdilər. Baş rollarda Nəsibə Zeynalova, Bəşir Səfər oğlu kimi korifey sənətkarlarımız iştirak edirdilər. “Məmmədəli kurorta gedir” tamaşasında Lütfəli Abdullayev, Səyavuş Aslan unudulmaz rollar yaratdılar.

– Musiqili Teatrın elə bir xarakteri var ki, mərhələ-mərhələ bir rolun bəzən 3,4,5 ifaçısı olub, ancaq bu aktyorlar bu rollar üçün əvəzedilməz idi.

– Operettalarımızın bəxti onda gətirdi ki, o dövrdə populyar, xalq tərəfindən çox sevilən, əla aktyorlar ansamblı var idi.

– Bir aktlı baletlər, operettalar, simfoniyalar yazdınız, uğur qazandınız, bəs nə əcəb opera yazmadınız?

– Opera yazmaq mənim üçün elə çətin bir iş deyil, böyük vokal musiqi əsərləri, Abbasqulu ağa Bakıxanovun sözlərinə yazılmış mahnılar və romanslar yazıb çap elətdirmişəm. Operanı da da əsasən vokal ifalar təşkil edir. Bir dəfə Hüseyn Ərəblinski haqqında opera yazmaq istədim, göndərdilər Az.KP MK katibi Cəfər Cəfərova, o da?...

– Tofiq Bakıxanovun kifayət qədər mahnıları var və bunları adlı-sanlı müğənnilər; Zeynəb Xanlarova, Gülağa Məmmədov, Flora Kərimova, Rauf Adıgözəlov, İlhamə, Mobil Əhmədov, Firudin Mehdiyev, Aqşin Səfərov və s. ifa etmişlər. Bu mahnıları yazanda fikirləşirsinizmi ki, bu

mahnının ilk ifaçısı kim olacaq, ya sadəcə olaraq özünüz təklif edirsiniz? Bəs necə olur ki, bəzi mahnılarınızı sırf vokal ifaçıları oxuyur, bəzilərini xalq mahnıları ifaçıları?

– Mən bilirəm, mahnını kimə verməliyəm, məsələn romansı hər müğənni oxuya bilmir axı. Kartotekada Süleyman Rüstəmin sözlərinə yazılmış təkcə “Sevməyir, qoy sevməsin” mahnısının 17 ifaçısı var. Türk müğənni xanım “Sevən könül” mahnısını oxuyub, diskə yazdıraraq Zeynəb Xanlarova ilə mənə, mahnının müəllifinə göndərmişdi.

– Elə olurdumu, sizə şeir gətirirdilər və o mahnını tutmurdu, sizi qane etmirdi?

– Süleyman Rüstəm, Səməd Vurğun, Tofiq Mütəllibov, Adil Babayev, İslam Səfərli kimi təsdiq olunmuş mahnı şairlərinin sözlərinə yazmışam, bunlar da bəyənilən, sevilənlərdir. İran səfərlərimdə Tehranda, Şirazda, İsfahanda keçirilən festival və konsertlərdə bu mahnılar oxunub, alqışlanıbdır. Mahnılarla yanaşı atam Əhməd Bakıxanovun xatirəsinə həsr etdiyim tar konsertimi Xalq artisti Ağaverdi Paşayevin rəhbərlik etdiyi Xalq çalğı alətləri orkestrinin müşayiəti ilə Xalq artisti, tarzən Ramiz Quliyev ifa etmişdir. Hətta konsertdən sonra İrandakı səfirimiz məndən soruşdu ki: “Bu “Gözəlliklər məskəni” mahnısı kimindir?”. Dedim: “Mənim”. “Biz uşaqlıqda bu mahnının sədaları ilə böyümüşük”– deyə bildirdi. Bir neçə dəfə böyük tədbirlərdə iştirak etdiyim Naxçıvanda da dedilər: “Biz bilmirdik ki, bu mahnı sizindir!”

– Tofiq müəllim, musiqinin operadan başqa bütün janrlarında əsərlər yazmısınız; simfoniya, kantata, kamera musiqisi, müxtəlif alətlər üçün konsertlər, sonatalar, simfoniettalar, triolar, kvartetlər, kvintetlər, xalq çalğı alətləri orkestri, sim-

fonik və kamera orkestrləri üçün müxtəlif səpgili əsərlər yaratmısınız. Janr əlvanlığına meyl nədən doğur? Siz tar, fleyta, qarmon, fortepiano, arfa üçün də konsert yazırsınız, çalğı alətləri müxtəlif olarkən melodiya ahənginin əsasında nə durur?

– Əsəri yazarkən alətin xüsusiyyətini mənimsəyib sonra yazmaq lazımdır. Diapazonunu, parametrik göstəricilərini bilmədən hər adam yaza bilməz. Avropa musiqi tarixini və ədəbiyyatını mükəmməl bildiyim üçün bütün bu janr müxtəlifliyinə müraciət edirəm. Tar, qoboy, fleyta, skripka, fortepiano üçün çoxsaylı konsertlərim var.

– Bu müxtəlifliyi necə ümumi bir ritmə salırsınız?

– Orkestrləşdirmə dərs kitabı mürəkkəb, elmi-nəzəri və praktiki vəsaitdir. Bunu yaxşı biləndən sonra orkestrləşdirmə prosesinin öhdəsindən gəlmək olur. Bu fənn elədir ki, məsələn F.Əmirovun, Q.Qarayevin əsəri çalınarkən, adını çəkməsələr də, musiqinin orkestrləşdirilməsi dəst-xəttindən hiss edirsən, əsər kimə məxsusdur. Hərəsinin öz ifa ünvanı, tonallığı olmaqla 32 alət üçün yazılarım var.

– Niyə görə bəstəkarların əksəriyyəti fortepiano və ya kamera orkestri, simfonik orkestr üçün əsər yazır? Bu seçim nədən irəli gəlir?

– Rast gəldiyim kollektivdən asılıdır, yığcamdırsa, kamera orkestri üçün yazıram, çünki orada bütün alətlər iştirak etmir, əsasən simli alətlər, nəfəs alətlərindən fleyta, qoboy iştirak edir. İndi bizim Q.Qarayev adına Kamera orkestrimiz dünyanın hər yerində çıxış edir. Onlara verilən əsər kollektivin tərkibi üçün hesablanır. Simfonik əsərdirsə, yenidən işlənilib, kamera orkestri üçün köçürülür.

– Əsərin mahiyyəti onda itmir ki?

– Əlbəttə ki, simfonik orkestrin səslənməsində ifa daha dolğun, canlı və güclü alınır.

– Şərq üslubunda; İran, ərəb, türk mövzularında əsərləriniz var, bu istiqamətdə yaradıcılığınızı davam etdirmək fikriniz varmı? Axı Şərq ancaq bunlarla bitmir.

– Mən 19 xarici ölkədə olmuşam. Şərq ölkələrinə səfərlərimdə həmişə yerli folklorla maraqlanmışam, mövcud əsərləri işləyərək onlara yenilik gətirmişəm. Bəstəkarlar İttifaqının 80 illik yubileyi ilə əlaqədar olaraq konsertdə simfonik orkestrlə ifa olunacaq əsərimlə yanaşı "Şərq sonataları"ndan ibarət konsertim səslənəcəkdir. Bu silsilədir – əvvəlcə Azərbaycan, daha sonra ərəb, İran, türk sonataları ardıcıllaşır. Sonatalar İranda, Türkiyədə, Kiprdə ifa edilərək böyük uğur qazanmışdır.

– Mən bu əsərləri dinləmişəm, siz koloriti çox maraqlı vermisiniz.

– Təbii ki, əsas kimi bu xalqların gözəl musiqisini seçib, götürmüşəm, həvəslə işləyib, böyük zəhmət hesabına onları ərsəyə gətirmişəm.

– Neçə ildir pedaqoji fəaliyyətlə məşğulsunuz və ilk əvvəl hansı fənndən başlamısınız?

– 60 ildir, əvvəlcə skripka sənəti üzrə başlamışam.

– Skripka fənnində nəyi tədris edirdiniz?

– Skripkaya aid olan hər bir şeyi; həm texniki, həm də bədii imkanları, incəliklər və nüansları, ixtisas, kamera ansamblı ilə ifa, pedaqoji praktika.

– Əvvəllər harada işləmisiniz?

– Əvvəlcə Asəf Zeynallı adına Musiqi texnikumunda şöbə müdiri işlədim, sonra isə məni dəvət etdilər Azərbaycan nəşriyyatına və orada iki şöbənin: not-musiqi ədəbiyyatı və incəsənət şöbələrinin müdiri oldum.

– Not məsələsində bizdə o zaman bir az axsama var idi. Hər bir bəstəkar əsəri nota səliqə ilə köçürə bilmirdi, peşəkarlar az idi. Bu gün vəziyyət necədir?

– İndi ancaq kompüter vasitəsi ilə işləyirlər.

– Kompüterdədə yanılışlıqar, atmalar, təhriflər ola bilər, yəqin ki, yoxlanılır.

– Mənim bir arzum vardır. Vaxtı ilə kitabxanalarda bəstəkar əsərlərinin çoxsaylı notları olub. Əvvələr əsər yazılıb qurtarandan və nazirlik tərəfindən təsdiq ediləndən sonra not yazıları filarmoniyanın kitabxanasına təhvil verilirdi. Oradan bizə verilən arayış əsasında qonorar verilirdi. 1960-cı illərin əvvəlində mən filarmoniyaya gəldim, müəyyən əsərin notlarını istədim, dedilər “yoxdur”. Məlum oldu ki, bəstəkarlar İttifaqı ilə konflikt yarandığından, acığa düşüb bütün not ədəbiyyatını yandırıblar.

– Vay-vay! Görün nə qədər böyük bir xəzinə məhv edilmişdir. Axı, tamaşalar üçün nə qədər musiqilər yazılıb?! Bir teatrşünas kimi bildirirəm; S.Rüstəmov, Q.Qarayev, F.Əmirov, C.Cahangirov bunlar hamısı tamaşalara musiqilər bəstələyiblər, təəssüf olsun ki, onların da 90% əldə yoxdur.

– Azərbaycanda bir dənə not-musiqi kitabxanası olmalı, əsərlər kataloqlaşdırılmalı və mühafizə edilməlidir.

– Ola bilərmi ki, bu kitabxana Bəstəkarlar İttifaqının nəzdində olsun?

– Çətin! Bu müstəqil bir qurum olmalıdır. Mənim Heydər Əliyevə həsr etdiyim ”Həmişə bizimləsən” poemam

vardır, əlamətdar günlərdə ifa olunması üçün dirijor əsərin not yazılarını istəyir və məəttəl qalır. Bəstəkarlar İttifaqının kitabxanasında yoxdur, axtarıb televiziyanın kitabxanasından tapırlar. Bir zaman Tofiq Quliyevin, Arif Məlikovun, Hacı Xanməmmədovun, Süleyman Ələsgərovun və mənim not yazılarım itmişdi. Yaxşı ki, mən not yazılarımın bir üzünü hədiyyə olaraq M.F.Axundov adına Milli Kitabxanaya təqdim etmişdim. Təklif var ki, nəzəriyyəçilər və musiqi ifaçıları üçün not yazıları kitabxanası açılsın.

– Maraqlı fikirdir, bu təklifi Bəstəkarlar İttifaqının rəhbərliyinə də bildirin, bu, çox lazımlıdır, onu reallaşdırmaq mümkündürmü?

– Mən hazırlaşmışam, bu barədə açıq bir məktub yazım və dövlət qəzetində nəşr etdirim, əlaqədar təşkilatları maraqlandırım.

– Sabiq Lenin adına kitabxanada belə bir şöbə var idi, ancaq orada çap olunmuş, hazır not yazıları saxlanırdı.

– Əgər durub axtarsanız, T.Quliyevin “Sənə də qalmaz, Q.Hüseynlinin “Cücələrim” mahnılarının 65 il qabaq çap olunmuş not yazılarını tapa bilməzsiniz.

– Musiqi Akademiyasında hansı fənndən dərs deyirsiniz?

– Kamera ansamblı ifaçılığından, tələbələrimlə Norveç İran, türk musiqisi mövzusunda proqram hazırlamışdım, konsert təşkil olundu, bu ölkələrin səfirləri gəlib böyük bir məmnunluqla tamaşa etdilər. Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli heyrətini gizlədə bilməyib: “kaş bizim bütün konsertlərimizə bu qədər tamaşaçı gələydi”, – dedi.

– Bu gün elə sənətlər var ki, bu sahədə mütəxəssis az-az yetişir, bunlardan biri də bəstəkarlıqdır. İldə neçə nəfər qəbul olunur akademiyaya?

– Az, 5 -6 nəfər...

– Təqribən 5 kursda bu 20 – 25 nəfər təşkil edir, bunların arasında ümid verənləri, yaradıcılığı diqqəti cəlb edən, sabaha inamla baxan gənclər varmı?

– Kafedra müdiri, hörmətli bəstəkarımız Arif Məlikovun çalışqanlığı, uzaqgörənliyi imkan verir ki, Azərbaycan üçün gələcəkdə onları əvəz edə biləcək kadrlar yetirsin. Vaxtilə bu missiyanı Ü.Hacıbəyov yerinə yetirib, sonra onun tələbələri, bu gün də müqəddəs amal uğurla davam edir.

– Tələbə-bəstəkarların müstəqil işləri neçənci kursdan sonra konsert və imtahanlarınızda səslənir?

– Gənc bəstəkarlar üçün də konsert, müsabiqələr təşkil olunur, ən yaxşıları seçilir, bəstəkarların gələcək plenum və qurultaylarda iştirakına şərait yaradılır. 1956-cı ildə bəstəkarların qurultayı oldu, dahi Şostakoviç başda olmaqla SSRİ bəstəkarlıq məktəbinin ən güclü nümayəndələri də iştirak edirdilər. O zaman 5-6 nəfərdən ibarət olub, Q.Qarayevin tələbələri qrupunu təmsil edirdik. Kamera musiqisi janrında çıxış etmək üçün bizi də konsert üçün hazırladılar. Gənclərdən mənim, A.Məlikovun, A.Bəbirovun əsərləri çalındı, bəyənildi, çap olundu, radioda səsləndirildi və bu, bizi ruhlandırdı. Mənim bütün skripka əsərlərim virtuoz sənətçilər Azad Əliyev, Sərvər Qəniyevin ifasında yazıldı. Təbii ki, not kitabxanası olsa idi, bütün yazılarımı oraya təhvil verərdim. Mən səliqə ilə işləyirəm, hər hansı kitabım çıxırsa, onun bir neçə nüsxəsini kitabxanalara təqdim edirəm ki, itməsin. Şərq ölkələrinin səfirlikləri əsərlərimin çoxunu öz imkanları hesabına çap elətdiriblər. ABŞ-da mənim Gerşvinə həsr etdiyim “Cazsayağı 6 saylı konsert”imi eşidib onun not yazılarını istədilər. Notları göndərdim, Vaşinqtonda əsərimi

dinləyəndən sonra mənə beynəlxalq Gerşvin mükafatı verdilər. Bu əsərin ABŞ-da çıxan 500 nüsxəsinin bir qismini kitabxanalarımıza da təqdim etmişəm. İrana həsr etdiyim "Şərqdən gələn sədalar", "İran" sonatası əsərlərimin kitab şəkilində not yazılarını Hünəristan adlanan incəsənət texnikumlarına, Gözəl sənətlər universitetinə dərs vəsaiti kimi veriblər. London, Paris kimi dünyəvi musiqi şəhərlərinin kitabxanalarında əsərlərimin not yazıları saxlanılır, mənə oradan təşəkkür məktubları gəlir, mən də bununla ilhamlanıram.

– 85 yaşı yola vermisiniz, maşallah, ilhamınız bu yaşda da sönməyibdir. Tofiq müəllim bu yaşında, hal-hazırda nə üzərində işləyir?

– 80 illiyimdə mənə həsr olunan festival keçirildi, bir neçə böyük həcmli konsertlərim oldu. Amerika və İrandan gələn musiqiçilər əsərlərimi ifa etdilər. 85 illik yubileyim ərəfəsində indiyə qədə ifa olunmayan əsərlərimi lentə yazdırmaq, bir çoxunu çap elətdirmək istəyirəm. Yaşım və səhhətimlə əlaqədar bu həcmdə işi yerinə yetirmək çətindir, çünki nəşrlərin redaktoru, korrektoru də özüməm. 170 səhifədən ibarət "Abbasqulu ağa Bakıxanovun sözlərinə yazılmış mahnılar" kitabını nəzərdən keçirmək, düzəliş vermək mürəkkəb bir işdir. Arzum yeni mahnılar, əsərlər yazıb, xalqıma bəxş etməkdir.

– Uğurlar arzulayırıq!

**Az.TV.**
**Tədris redaksiyası,**
21.04.2014-cü il.

# Fotoxatirələr



Abbasqulu ağa Bakıxanov



General-mayor
Həsən ağa Bakıxanov
(A.Bakıxanovun qardaşı oğlu)



Polkovnik Əhməd ağa Bakıxanov
(A.Bakıxanovun qardaşı oğlu)



General-leytenant
Cəfərqulu ağa Bakıxanov



General İ.F.Paskeviç və general Cəfərqulu ağa Bakıxanovun
İran şahzadəsi Abbas Mirzə və A.Qriboyedovla görüşü.
A.Bakıxanov burada tərcüməçi olmuşdur.



1828-ci il Türkmənçay müqaviləsinin bağlanması



A.Bakıxanov Rusiya çarı I Nikolay Romanovun
məclisinə dəvət olunmuşdur



A.Bakıxanov A.S.Puşkinin evində






Akademik Ziya Bünyadovun redaktəsi ilə Bakıda nəşr edilmiş
"Gülüstani-İrəm" kitabından fraqmentlər




Vaşinqtonda nəşr olunmuş A. Bakıxanovun
"Gülüstani-İrəm" kitabının üz qabığı, 2014 -cü il




A. Bakıxanovun Bakıxanov qəsəbəsindəki büstü




Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri
Vasif Talıbovun sərəncamı ilə keçirilən A. Bakıxanovun
220 illik yubileyi, 2014-cü il



Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyi ilə əlaqədar NMR-nin Ali Məclisinin Sədri Vasif Talıbov Bakıxanovlar nəslinin davamçıları ilə



Abbasqulu ağa Bakıxanovun dəfn olunduğu yer – Vadiyi-Fatimə.



Əhmədxan Bakıxanovun atası
Məmmədrza bəy



Məmmədrza bəyin oğlu –
Respublikanın əməkdar artisti
tarzən Məmmədxan Bakıxanov



Məmmədrza bəyin oğlu–
Respublikanın Xalq artisti, Əməkdar
incəsənət xadimi, Əməkdar müəllim
Əhməd Bakıxanov



Məmmədrza bəyin oğlu – görkəmli
geoloq Haşımxan Bakıxanov



Görkəmli tarzən Əhmədxan Bakıxanov, 1938-ci il



Respublikanın Xalq artistləri soldan Ə. Bakıxanov,
H.Bayramov və X. Şuşinski



Ə. Bakıxanovun  ailə üzvləri: soldan həyat yoldaşı Məsumə xanım,
oğlu Məmmədrza, qızı Zivər xanım və oğlu Tofiq, 1960-cı il



Ə. Bakıxanov övladları və nəvələri ilə, 1965-ci il



Dahi bəstəkar Üzeyir Hacıbəyov Ə. Bakıxanovun ifasını dinləyərkən
(Rəssam Altay Məmmədov).



Azərbaycan Radio və Televiziyasının Ə.Bakıxanov adına
ilk Xalq Çalğı Alətləri ansamblı. (Bədii rəhbər Xalq artisti H.Bayramov)



Ümummilli lider Heydər Əliyev bəstəkar, Xalq artisti
Tofiq Bakixanova “Şöhrət” ordeni təqdim edərkən, 2001-ci il



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bəstəkar,
Xalq artisti Tofiq Bakıxanova NMR-nin Əməkdar incəsənət xadimi fəxri adı
verərkən. 2016-ci il

## Tofiq Bakıxanov Naxçıvan Dövlət Universitetində



*Ali təhsil ocağında Xalq artisti, "Şöhrət" ordenli bəstəkar, professor Tofiq Bakıxanovun rəhbərliyi ilə növbəti ustad dərsi təşkil olunub. Ustad dərsini aparan Bakı Musiqi Akademiyasının müəllimi, professor Hökümə Əliyeva universitetin Musiqi müəllimliyi və Simli alətlər ixtisaslarının tələbələrinə skripka alətinin sirri, ifa texnikası və düzgün istifadə qaydaları haqqında əyani şəkildə məlumat verib.*

Professor Tofiq Bakıxanov dərsin gedişini izləyib. Gənc ifaçılara məsləhət və tövsiyələrini verib, onları musiqinin sirlərinə dərindən yiyələnməyə səsləyib.

Ustad dərsləri bir neçə gün davam edəcək.

Tofiq Bakıxanov Naxçıvan Dövlət Universitetində İncəsənət fakültəsinin birinci kurs tələbələrinin hesabat konsertinə də baxıb. Konsert Bəstəkarlıq ixtisasının I kurs tələbəsi Hakim Məmmədovun Xalq şairi Məmməd Arazın sözlərinə bəstələdiyi "Naxçıvan" mahnısının Solo oxuma ixtisasının I kurs tələbəsi Rüstəm İbrahimov tərəfindən ifası ilə başlayıb. Tələbələrdən Sevindik Rzayev və Fuad Kazımlı tarda, Namizət Oruclu qarmonda, Çilər Məmmədova, Səxavət Rəhimov, Aysel Rzayeva və digərləri fortepianoda rəngarəng musiqi nömrələri təqdim ediblər. İncəsənət fakültəsinin müxtəlif ixtisaslarına bu il qəbul olan tələbələrin nağara, fleyta, skripka, saksafon, kontrabas musiqi alətlərindəki solo ifaları alqışlarla qarşılanıb.

Proqramda Fikrət Əmirov, Tofiq Quliyev, Arif Məlikov, Rauf Hacıyev və digər görkəmli Azərbaycan bəstəkarlarının, habelə dünya klassiklərinin repertuarından seçmələr səsləndirilib. Konsert proqramı "Sarı gəlin" Azərbaycan xalq mahnısının ifası ilə başa çatıb.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov yekunda çıxış edərək hesabat konsertinin istedadların seçimi, tələbələrdə ilkin səhnə mədəniyyəti, sənət vərdişləri aşılanması baxımından əhəmiyyətini diqqətə çatdırıb. Rektor uğurlu konsert proqramını fakültə rəhbərinin, sənət müəllimlərinin birgə zəhmətinin bəhrəsi kimi yüksək qiymətləndirib, gənc sənətkara uğurlar arzulayıb.

**Taleh HAXVERDİYEV**



Tofiq Bakıxanov müəllimi Qara Qarayevlə birlikdə



Dahi bəstəkar Uzeyir Hacıbəyov gənc skripkaçı Tofiq Bakıxanovun ifasında "Arşın mal alan" musiqili komediyası əsasında yazılmış fantaziyanı dinləyərkən, 1946-cı il (Rəssam Hüseyn Hacıyev)

BAKI DÖVLƏT UNİVERSİTETİ
BAKU STATE UNIVERSITY

№ 01-6/405 «01» 05 2014 il

**Azərbaycan Respublikasının Xalq artisti,**
**Əməkdar incəsənət xadimi, professor,**
**«Şöhrət» ordenli bəstəkar**
**Tofiq BAKIXANOVA**

**Hörmətli Tofiq müəllim!**

Sizi, tanınmış ictimai xadim, professor, Xalq artisti olan böyük ziyalını "görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin musiqi irsinin tədqiqi və təbliği sahəsində xidmətlərinə görə" AMEA-nın akademik Üzeyir Hacıbəyli adına mükafatı ilə təltif olunmağınız münasibətilə öz adımdan və Bakı Dövlət Universitetinin çoxminli professor-müəllim, tələbə heyəti adından ürəkdən təbrik edirəm!

**Hörmətli Tofiq müəllim!**

Siz Azərbaycanda məşhur olan bir ailənin tanınmış nümayəndələrindənsiniz. Azərbaycanın dövlət kimi formalaşmasında, dünya dövlətləri arasında söz sahibi olmasında əvəzsiz xidmətlər göstərmiş ulu babanız, fəlsəfə, tarix və başqa elm sahələrində mükəmməl biliyə malik Abbasqulu Ağa Bakıxanovdan başlayan böyük şəcərənin ləyaqətli davamçısı olan atanız Əhməd Bakıxanov dəyərli əsərlər yaratmış, milli musiqi və mədəniyyətimizə xüsusi töhfələr vermişdir. Həmin ənənələri şərəflə davam etdirərək Siz Azərbaycan bəstəkarlıq məktəbinin şöhrətini daha da artırmış, bu sənət xəzinəsinə öz töhfələrinizi vermisiniz. Müxtəlif janrlarda yazdığınız əsərlər istər doğma Azərbaycanda, istərsə də xarici ölkələrdə yüksək qiymətini almışdır. Siz mövzunu Azərbaycan mühitindən götürmüş, Avropa musiqi mədəniyyətinə uyğun şəkildə təcəssüm etdirmişsiniz. Odur ki, Sizin əsərləriniz hər zaman sənətsevərlər tərəfindən heyranlıqla qarşılanmışdır.

**Hörmətli Tofiq müəllim!**

Sizi bir daha təbrik edir dövlətin, dövlətçiliyin, mədəniyyətimizin, musiqimizin, bəstəkarlıq məktəbinin inkişafı, daha da tərəqqisi naminə gələcək işlərinizdə uğurlar, can sağlığı, ailə xoşbəxtliyi arzulayıram.

**Hörmətlə,**

**Rektor** **akademik Abel MƏHƏRRƏMOV**

Bakı AZ-1148, Z.Xəlilov küçəsi 23
Tel.: +994 12 430 32 45, 539 05 17
Faks: +994 12 598 33 76

Baku AZ-1148, Z.Khalilov str., 23
Tel.: +994 12 430 32 45, 539 05 17
Fax: +994 12 598 33 76

e-mail: info@bsu.az
http://www.bsu.edu.az




Milli Kitabxanada keçirilən beynəlxalq sərgidə
Tofiq Bakıxanovun not musiqi ədəbiyyatının nümayişi



Tofiq Bakıxanovun qızı – filologiya elmləri namizədi və AMEA-nın Şərqşünaslıq İnstitutunun baş elmi işçisi
Nigar Bakıxanova



Tofiq Bakıxanov ailə üzvləri ilə: həyat yoldaşı
Ofelya xanım, qızı Nigar və oğlu Vahidlə birlikdə, 1978-ci il




Tofiq Bakıxanov və nəvələri: soldan Nadim və Rifat.
İsveç, 2009-cu il



Tofiq Bakıxanov oğlu Vahid, gəlini Tünzalə,
nəvələri Fail və Fatimə ilə. 2016-cı il


Professor
Tofiq Əhmədxan oğlu Bakıxanov

Azərbaycan professional musiqi tarixi və nəzəriyyəsinin, dahi Azərbaycan bəstəkarı və musiqişünası Üzeyir Hacıbəyli irsinin tədqiqi sahəsində əldə etdiyi mühüm nailiyyətlərə görə

Professor
Tofiq Əhmədxan oğlu Bakıxanov

Azərbaycan
Milli Elmlər Akademiyasının
akademik Üzeyir Hacıbəyli
adına mükafatı ilə təltif edilir

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

19 aprel 2017-ci il

Bəstəkar, Respublikanın Xalq artisti, professor
Tofiq Bakixanov



“Abbasqulu ağa Bakıxanov” gəmisi



Qılman İlkin, Rafael Hüseynov, Fuad Qasımzadə, Ziya Bünyadov
“Abbasqulu ağa Bakıxanov” gəmisinin işə başlaması münasibətilə
həmin gəmidə keçirilən görüşdə



Tofiq Bakıxanov, Rafael Hüseynov, Naxçıvandan çıxmış ilk peşəkar bəstəkar
Məmməd Nəsirbəyovun qardaşı qızı Rəfiqə Nəsirzadə və
naxçıvanlı bəstəkar Nazim Quliyev



Tofiq Bakıxanov və Rafael Hüseynov

## Kitabın tərtibçisi:
# Həsən Cəbrayılov



Həsən Cəbrayılov 1949-cu ildə anadan olub.

1964-cü ildə Nərimanov rayonundakı 39 saylı otrta məktəbi, 1968-ci ildə Bakı Rabitə Elektrotexnikumunda "Televiziya və radiorele rabitəsi" ixtisası üzrə təhsil almış, 1980-ci ildə Azərbaycan Dövlət Politexnik İnstitutunun "Çoxkanallı elektrik rabitəsi" fakultəsini bitirmişdir. Bütün əmək fəaliyyəti boyu texniki sahədə çalışsa da, estrada sənətinə böyük maraq göstərmişdir. 1965-ci ildən Azərbaycanda ilk dəfə olaraq milli parodiya nümunələri yaratmış, daha sonralar peşəkar parodiyamızın ilk ifaçı aktyoru olmuşdur.

1987-ci ildə Bolqarıstanın Qabrovo şəhərində Ümumdünya Satira və Yumor Muzeyində xarici artistlərin iştirakı ilə böyük konsertdə çıxış etmişdir. 2003-cü ildə Tehranda keçirilən I Ümumdünya Yumor Festivalında birinci yeri tutmuşdur.

MDB respublikalarında, Türkiyə, İran, Orta Asiya və Bolqarıstanda konsert proqramları ilə çıxış etmişdir. 1968-ci ildən bu günə qədər radio və televiziya sahəsində çalışır. 1994-cü ildən Milli Teleiziyanın "Video və kino materialları" şöbəsində ("Qızıl Fond") rəis müavini vəzifəsini daşıyır. Televiziyanın hazırladığı sənədli filmlərin və proqramların hazırlanmasında fəal iştirak edir.

Sənət korifeylərimizin həyatına həsr olunmuş bir çox kitabların müəllifidir. "1001 mahnı", "Məcra", "Molla Nəsrəddin XXI əsrdə" jurnallarında, "Mühacir", "Əsrin ziyalıları", "Haqqın sədası-Press", "Bütöv Azərbaycan" qəzetlərinin redaksiya heyətinin üzvüdür. Nəşr olunan kitablarına görə 2008-ci ildə "1001 mahnı" Milli Musiqi və Mahnı mükafatına layiq görülüb.

Abbasqulu ağa Bakıxanov adına ədəbi mükafat laureatıdır. Televiziya sahəsində xidmətlərinə görə Azərbaycan Pespublikası Prezidentinin 07.11.2016-cı il tarixli sərəncamı əsasında "Tərəqqi" medalı ilə təltif edilmişdir.

## MÜNDƏRİCAT

**Ön söz: Bakıxanov soyadı daşımağın şərəfi və məsuliyyəti (Akademik Rafael Hüseynov) ............................**

**Abbasqulu ağa Bakıxanov....................................................**
Abbaqulu ağa Bakıxanovqun 220 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ...........................................................................
Tanınmış şəxslər
Abbasqulu ağa Bakıxanov haqqında........................................
Abbasqulu ağa Bakıxanovun həyatı ........................................
Abbasqulu ağa Bakıxanov haqqında məqalələr ........................
Tarixşünaslıqda Bakıxanov səhifəsi........................................
Abbasqulu ağa Bakıxanov yaradıcılığı Azərbaycan musiqisində ........................................................
Abbasqulu ağa Bakıxanovun fəaliyyəti və yaradıcılığında Naxçıvan mövzusu.......................
Yeni nəşrlərdə Bakıxanov.....................................................
Böyük mütəfəkkirə həsr olunmuş sərgi...................................

**Əhmədxan Bakıxanov ..........................................................**
Əhmədxan Bakıxanov .........................................................
Müasirləri Əhməd Bakıxanov haqqında .................................
Muğamatla bağlı böyük sənətkar ...........................................
Əlihüseyn Dağlının "Ozan Qaravəlli" adlı əlyazmasında tarzən Bakıxanov qardaşları ilə bağlı məqamlar ..............................................................
Əhməd Bakıxanovla bağlı kiçik bir xatirə ...............................
Bakıda solaxay tarzənin ev-muzeyi.........................................
Əli Səlimi yadigarı dünyasını dəyişdi......................................
Əhməd Bakıxanov televiziya proqramlarında ..........................
"Sənətin izi ilə" verilişi.

Əhmədağa Bakıxanova həsr olunur .....................................
Əhməd Bakıxanov – 120 ..................................................

**Tofiq Bakıxanov**...............................................................
Tofiq Bakıxanov..................................................................
Tofiq Bakıxanov və Naxçıvan ...............................................
Tofiq Bakıxanovun 85 illik yubileyi ilə əlaqədar
Naxçıvan Muxtar Respublikası Ali Məslisinin
Sədri Vasif Talıbovun təbrik məktubu ...................................
Naxçıvanda görkəmli bəstəkar Tofiq Bakıxanovun
75 illik yubileyinin zirvə tədbiri keçirilmişdir..........................
Görkəmli bəstəkar Tofiq Bakıxanovun
80 illik yubileyi Naxçıvanda da qeyd olundu ...........................
Naxçıvanlılar xoşbəxtdirlər ki, belə diyarda yaşayırlar.............
Naxçıvan Muxtar Respublikası Ali Məslisinin
Sədri görkəmli bəstəkar Tofiq Bakıxanov ilə görüşüb .............
Naxçıvan Dövlət Musiqili Dram Teatrında
Tofiq Bakıxanovun yaradıcılıq gecəsi keçirilib ........................
Görkəmli bəstəkar Tofiq Bakıxanovun
Naxçıvanda bəstəkarlar, musiqişünaslar
və tələbələrlə görüşü olub...................................................
Görkəmli bəstəkar Tofiq Bakıxanov Naxçıvanın
bir neçə musiqi məktəbinin kollektivi
ilə görüş keçirib.................................................................
Naxçıvan Muxtar Respublikası Dövlət
Televiziya və Radio verilişləri Komitəsi ................................
Tofiq Bakıxanov musiqisi və klassik Azərbaycan şeiri ...........
Musiqinin xan sülaləsi.........................................................
Tofiq Bakıxanov: “Mircəfər Bağırov mənə dedi ki...” .............
Tofiq Bakıxanov: “Naxçıvan auditoriyası mənim üçün
doğma ünvanlardan birinə çevrilib”. ...................................
Tofiq Bakıxanov televiziya proqramlarında .............................
Əbədi dostluq nümunəsi – Tofiq Bakıxanov ...........................
“Sərbəst söhbət” verilişindən................................................
Foto-xatirələr .....................................................................

# Bakıxanovlar şöhrət zirvəsində

Tərtibçi:

**Həsən Cəbrayılov**

Nəşriyyat redaktoru:
**Səkinə Səmədova**

Texniki redaktor:
**Ellada Səfərəliyeva**

Çapa imzalanıb: 20.07.2017
Formatı 60x84 1/16.
Sifariş 02. Həcmi: 17 ç.v.
Tirajı: 500 nüsxə.

Kitab "Renessans-A" Nəşriyyat Evində hazırlanmış və
hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.